AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

Ş.A.HÜSEYNOVA

İQTİSADİ FİKRİN İNKİŞAFININ MÜASİR MƏRHƏLƏSİ

(İqtisadi fikir tarixi)

Dərs vəsaiti

Azərbaycan Dövlət İqtisad Universitetinin Ellmi-Metodiki Şurasının 27.10.2017-ci il tarixli 01saylı protokoluna əsasən çapa tövsiyə olunmuşdur.

BAKI - 2018

Rəyçilər: i.e.d., prof. **Ü.Q.Əliyev**

i.e.d., prof. **V.H.Abbasov**

Hüseynova Ş.A. İqtisadi fikrin inkişafının müasir mərhələsi (İqtisadi fikir tarixi). Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. – 2018. – 302 səh.

© Hüseynova Ş.A. - 2018
© İqtisad Universiteti - 2018

GİRİŞ

İqtisadi təfəkkürün tarixi kursu daxili məntiqi, iqtisadi nəzəriyyələrin mahiyyətini, əsas postulatların, konsepsiyaların, kateqoriyaların, baxışların təşəkkültapma və inkişafını daha dərindən dərk etmək istəyənlər üçün nəzərdə tutulub.Əlbəttə, heç bir nəzəriyyədə hazır reseptlər tapmaq mümkün deyil, nəzəri modellər və məntiqi sxemlər mürəkkəb, ziddiyyətli, qeyri-adi vəziyyətlərdən çıxış yollarını göstərmək iqtidarında deyil. Lakin nəzəriyyəyə, əvvəlki dövrlərdə əldə olunmuş biliklərə söykənərək qeyri-standart məsələləri həll etmək, qəbul olunan qərarların gedişatını və nəticələrini öncədən görmək olduqca vacibdir.

Müəlliflərin rəhbər tutduğu başlıca metodoloji prinsip sistemli-ümumdünya prinsipidir, yəni iqtisadi təəfəkkürün tarixinə yanaşma ümumi ziddiyyətli dünya prosesinə olan yanaşma kimi dəyərləndirilməlidir ki, bunun çərçivəsində ümumi tarixi inkişaf baş verdikcə alimlər bir-birilə fəal surətdə qarşılıqlı bağlılıqda fəaliyyət göstərirlər. Qərbin iqtisadi təfəkkürün tarixi ilə tanışlıq ümumi iqtisadi nəzəriyyənin öyrənilməsini və dərk edilməsini asanlaşdırır. Əgər ümumi nəzəri fənlər (məsələn, mikro- və makroiqtisadiyyat, institusional nəzəriyyə) elmi biliklərin hazır reseptlərini vermək iddiasını ortaya qoyurlarsa, təklif olunan bu dərs vəsaitinin materialı bütün diqqəti mahiyyət etibarilə sonsuz bir prosesi ifadə edən elmi nəzəriyyənin işlənib hazırlanması üzərində cəmləşdirir. Qərb nəzəriyyəsi isə burada daim hərəkətdə olmuş kimi dəyərləndirilir.

Hazırkı dövrdə diqqət predmeti qismində təkcə hamı tərəfindən qəbul edilmiş nəticələr deyil, həm də diskussiyalar, polemika, elmi mübahisələr və s. çıxış edir, yəni burada söhbət yalnız Qərb iqtisadçılarını birləşdirən məsələlərdən deyil, onları eyni zamanda qarşı-qarşıya gətirən, toqquşduran və nəticə etibarilə, elmi irəliyə aparan məsələlərdən gedir. Əsas vurğu, sistemli universallıq üzərində edilir. Keynsçiliyin və neoklassi-

kanın təkamülü ilə yanaşı olaraq, onlar öz aralarında baş vermiş kompromis və qarşıdurmalarla Qərb iqtisadi təfəkkürünün "mainstream" (əsas axın) adlandırılan bir məfhumun formalaşmasına gətirib çıxarmışlar (həm də bir sıra alternativ cərəyanların və məktəblərin təhlili də təqdim olunur).

İqtisadi təfəkkürün tarixi göstərir ki, hansı şəraitin təsiri nəticəsində iqtisadi gerçəkliyə olan baxışlarda hansı dəyişikliklər və necə baş verir, baza (əsas) kateqoriyaların şərhi necə təkamül edir, həyata keçirilən iqtisadi tədqiqatların üsulları hansı qaydada təkmilləşir.

İqtisadi konsepsiyaların təkamül prosesini araşdırarkən iqtisadiyyat haqqında olan biliklərimizin formalaşdırılması və zənginləşdirilməsi prosesinin necə baş verməsini, keçmişimizə və çağdaş dövrümüzə aid bir çox ideyaların hansı qanunauyğunluqlar əsasında və nə üçün öz aktuallığını qoruyub saxladıqlarını, onların bizim müasir təsəvvürümüzə və dünyagörüşümüzə necə təsir göstərdiklərini əsaslandırmaq olar.

İqtisadi təfəkkürün tarixi iqtisad elminin təkamülünün ümumi meyillərini və yönümünü, əsas və ümumi cərəyanların transformasiyasını, iqtisadi siyasətlə qarşılıqlı bağlılığını, strateji və operativ qərarların qəbul olunmasını başa düşməyə kömək edir.

Müharibədən sonrakı dövrün əsas hissəsi ərzində, hətta ötən əsrin 80-ci illərinədək, bir qədər qeyri-müəyyənliklə diqqət çəkən "Qərb iqtisadi nəzəriyyəsi" məfhumu coğrafi deyil, daha çox sosial məna kəsb edirdi. Müəyyən konsepsiyaların məcmusunun məhz belə adlandırılması qərara alındı, onların müəllifləri isə bazarın və xüsusi mülkiyyətin üsünlük təşkil etməsinə əsaslanan, lakin dövlət tənzimlənməsinə söykənən qarışıq iqtisadi sistemin lehinə çıxış edirdilər.

Bu, belə demək mümkündürsə, bütün Qərb iqtisadçılarını vahid bir araya gətirən, onları birləşdirən ümumi bir təməl idi. Lakin onların arasında ciddi, dərin fikir ayrılıqların mövcudluğu da müşahidə edilirdi. Belə ki, iqtisadçıların bir qismi

tamamilə bazar prinsiplərinə etibar edir, dövlət tərəfindən bu və ya digər şəkildə tənzimlənmənin kəskin surətdə azaldılmasının tərəfdarı idilər, digərləri isə, əksinə, dövlət müdaxiləsinin daha da gücləndirilməsi labüdlüyünə diqqət yetirirdilər.

Müasir Qərb iqtisadi nəzəriyyəsinin tərkibində bir neçə əsas istiqamət seçilir ki, onlardan hər biri metodologiyanın, sosial konsepsiyanın və nəzəri aparatın xüsusiyyətləri ilə xarakterizə olunur. Məsələn, öz başlanğıcını XIX əsrin sonuncu üçdə bir hissəsinin marjinalist inqilabı nəzəriyyəçilərindən (yəni L.Valrasdan, A.Marşalldan və başqalarından) götürən neoklassik cərəyan metodoloji sferada individualizm və atomizm mövqelərində dayanır.

Neoklassiklərin metodologiyasına uyğun olaraq, istehlakçının, yaxud istehsalçının məhz fərdi təsərrüfatında bu və ya digər nemətin, yaxud resursun faydalılığının qiymətləndirilmələr, müxtəlif növ üstün tutulmalar və s. əmələ gəlməyə başlayır.

Azad rəqabət həmin bu əsas ünsürləri real bazar qiymətlərinə və gəlirlərə transformasiya edir ki, onlara səmtləşən iqtisadi subyektlər düzgün təsərrüfat qərarları qəbul etmək imkanını əldə etmiş olurlar. Ümumilikdə, məhz neoklassiklər "sahibkarlığın azadlığı" doktrinasının daha ardıcıl tərəfdarlarıdır. Monetaristlər (şübhəsiz liderləri M.Fridmenin timsalında), təklif iqtisadi nəzəriyyəsinin nümayəndələri (M.Feldstayn, A.Laffer), səmərəli gözləntilər məktəbinin təmsilçiləri (R.Lukas, C.Mut), habelə bu cərəyana yönəlik digər iqtisadçılar da hesab edilər ki, bazar iqtisadiyyatı dayanıqlı dinamik inkişafının daxili mexanizminə malikdir və onun dövlət tərəfindən hər hansı ciddi köməyə ehtiyacı yoxdur. Neoklassiklərin mülahizələrinə əsasən, əgər hökumət pul-kredit və büdcə sferalarında möhkəm antiinflyasiya kursunu həyata keçirirsə, o zaman digər problemləri bazar avtomatik surətdə həll edir.

Neoklassiklər tərəfindən işlənib hazırlanmış bir sıra konsepsiyalar (xüsusilə inflyasiya ilə mübarizə tədbirləri konsepsiyası) Qərbdə və onun hüdudlarından çox-çox kənarlarda

tanınmışdır. Sosial tələbatlara, təsərrüfatın dövlət sektorunun dəstəklənməsinə büdcədən pul ayırmalarının maksimum dərəcədə azaldılmasına tərəfdar çıxmaqla, iqtisadçı-neoklassiklər bir çox hallarda hökumətlərin sağçı, konservativ məsləhətçilərinə çevrilirlər.

Neoklassik cərəyanın bir sıra prinsipial müddəaları ilə neoliberalizmin təmsilçiləri – Qərbi Almaniyada iqtisadi təfəkkürün geniş yayılmış cərəyanı ilə həmrəydirlər. Neoklassiklər kimi, neoliberallar da hesab edirlər ki, azad, dövlət tərəfindən həyata keçirilən müdaxilələrlə "bulanmamış" bazar müasir iqtisadiyyatın ən yaxşı təməlidir. Lakin neoliberal yonümlü nəzəriyyəçilər (V.Oyken, A.Mller-Armak, L.Erhard və başqaları) bu qaydadan əhəmiyyətli istisnalar edirlər. İlk növbədə, neoklassiklərdən fərqli olaraq, bazar təsərrüfatının yaranma dövründə daxili səbəblərdən törənən proseslərə və avtomatizmə güvənməyi mümkün hesab etmirlər. Neoliberalların mülahizələrinə görə, bazar öz-özünə yaranmayacaq, bazar sisteminin institusional strukturunu məqsədyönlü surətdə, o cümlədən dövlətə arxalanmaqla formalaşdırmaq lazımdır. Neoliberallar hesab edirlər ki, bazar bölgüsü yalnız mükəmməl, iqtisadi nöqteyi-nəzərdən aktiv fərdlərə dair ədalətli və effektivdir, amma "sosial cəhətdən zəif qruplar"ın nümayəndələri (təqaüdçülər, tələbə və şagirdlər, əlillər və başqaları) dövlətdən müvafiq yardım almalıdırlar. Neoklassiklərin elmi əsərlərində dövlətin iqtisadi fəaliyyətinin bu aspekti hər zaman kölgədə qalırdı.

Müharibədən sonrakı dövrdə keynsçilik iri qeyri-bərabər qruplaşmaya bölünmüşdür.Ortodoksal, xrestomatik adlandırılan keynsçilərin əsas qrupu (E.Hansen, C.Hiks, P.Samuelson və başqaları) bütün güclərini C.Keynsin müəllif olduğu makroiqtisadiyyatın və neoklassiklərin mikronəzəriyyəsinin birləşməsinə yönəlmişdilər. Yekun nəticədə formalaşmış "neoklassik sintezin" konsepsiyası makroproporsiyaların tənzimlənməsi üzrə fəal dövlət siyasəti ilə mikrosəviyyədə maksimal fərdi təşəbbüsün inkişafının birləşdirilməsini nzərdəə tuturdu.

Ötən əsrin 50-60-cı illərində ortodoksal keynsçilik Qərb iqtisadi nəzəriyyəsində üstün mövqedə qərarlaşmışdır.

Ortodoksal keynsçilərin əsas qrupundan bir qədər kənarda kəmiyyət baxımından daha kiçik "solçu" keynsçilik, yaxud postkeynsçilik dayanır (C.Robinson, P.Sraffa və başqaları). Bu cərəyanın soy əlaməti qismində onun antimarjinalizmi, yəni müasir Qərb mikroiqtisadiyyatının əsasını təşkil edən son hədd faydalılıq və son hədd məhsuldarlıq nəzəriyyəsinin birbaşa tənqidi çıxış edir. Bunun müqabilində, P.Sraffanın və onun ardıcıllarının timsalında postkeynsçilər birbaşa maddi məxariclərin bazasında qiymət və dəyərin neorikardoçu nəzəriyyəsini işləyib hazırlamağa səy göstərirdilər. Makronəzəriyyə sferasında postkeynsçilər, ilk növbədə, istehlak xərcləri hesabına məcmu effektiv tələbin stimullaşdırılması üzərində israrla dayanırlar.

Qərbin iqtisadi nəzəriyyəsinin sol cinahında, həmçinin institusional-sosioloji cərəyan da yer alıb (C.K.Helbreyt, F.Perru və başqaları). O, XIX əsrin sonlarına XX əsrin əvvəllərinə aid ingilis-amerikan institusionalizmin bir sıra periferiya məktəblərinin, Almaniyanın tarixi və sosial məktəblərinin və s. bazasında yaradılmışdır. Müasir institusionalistlər – T.Veblenin və C.Kommonsun ardıcılları qismən milliləşdirilmənin, iqtisadiyyatın dövlət tənzimlənməsinin maksimum həcmdə həyata keçirilməsinin lehinə çıxış edirlər.

Həmin cərəyanın liderləri dövlətin fəal sosial siyasətinin tərəfdarıdırlar. Misal kimi C.K.Helbreytin "həyat səviyyəsinin yüksəldilməsi" proqramı qeyd edilə bilər.

İqtisadi təfəkkürün tarixinin öyrənilməsi sadəcə olaraq görüş dairəsinin genişləndirilməsi üçün deyil, həm də sırf idrak məqsədləri nöqteyi-nəzərdən də çox vacibdir.Elmi müddəaların, ideyaların ardıcıllığını duymaq, onların təkamül prosesinin məntiqini başa düşmək, həyatda baş verən dəyişikliklərlə bağlılıqlarını aydınlaşdırmaq olduqca əhəmiyyətlidir.

Konsepsiyalara, müddəalara və nəticələrə müraciət etməklə biz hazırkı dövrə aid problemləri daha dərindən anlaya bilərik, əvvəlki vaxtlardan qalan faydalı olanların hamısını qoruyaraq və istifadə edərək, köhnəlmişlərdən azad edilmək imkanını qazanmış oluruq.

Dərs vəsaitində ən mühüm nəzəriyyələrin və məktəblərin analitik icmalları yer alıb. Onlar tarixi planda, iqtisad elminin inkişafının ümumi tendensiyalarının, onun ayrı-ayrı məktəblərinin, konsepsiyalarının qarşılıqlı bağlılığının və varisliyinin, metodoloji yanaşmaların və üsullarının formalaşdırılmasının və qarşılıqlı təsirinin nəzərə alınması şərtilə ifadə olunur, daha xarakterik və görünən fiqurlar və konsepsiyalar nəzərdən keçirilir.

Fəsillər qısa xülasə, özünüyoxlama üçün suallar və tövsiyə edilən ədəbiyyatın siyahısı ilə bitir.

I FƏSİL. NEOKEYNSÇİLİK

1.1. R.Harrodun iqtisadi artım nəzəriyyəsinin metodologiyası
1.2. Harrodun modeli və dünya iqtisadi təfəkkürü
1.3. E.Hansen.Tsiklin neokeynsçi nəzəriyyəsi
1.4. Dövlətin antitsikl siyasəti

Məlum olduğu kimi**, C.M.Keynsin** "Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi" (1936-cı il) [1] kitabının işıq üzü görməsi müharibələrarası illərdə, Qərbin iqtisadi təfəkkür tarixində olduqca mühüm və əhəmiyyətli bir hadisə olmuşdur. **Keynsin *"Ümumi nəzəriyyəsi"*** geniş ədəbiyyatın yaranmasına səbəb olmuşdur; onun özü və çoxsaylı tərəfdarları yeni bir cərəyanın yaradıcıları kimi tanınırdılar. Qeyd etmək lazımdır ki, bu cərəyan kapitalist iqtisadiyyatının nisbi qeyri-sabitliyi, habelə onun dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi ideyası ətrafında birləşdirilmişdir. Bununla yanaşı, dövlət müdaxiləsinin hər bir konsepsiyası Keynsin konsepsiyası hesab edilə bilməz. Məsələ burasındadır ki, sonuncu bu və ya digər şəkildə investisiyalar və əmanətlər nisbətinin təhlili, eləcə də səmərəli tələb (keynsçiliyin mərkəzi kateqoriyası) kimi makroiqtisadi kateqoriyanın tədqiq edilməsi ilə mütləq şəkildə bağlıdır.

Artıq müharibədən sonrakı ilk onilliklərdə keynsçilik cərəyanı böyük dəyişikliklərə məruz qalmışdır. O, neokeynsçiliyə çevrilmişdir. Neokeynsçilik haqqında danışanda, bir çoxları C.M.Keynsin özünün *irsi* ilə müqayisədə bu cərəyanın nümayəndələri tərəfindən hansı yeniliklərin gətirildiyini qeyd etməyə çalışırlar. Qeyd edilən novasiyalara, (yeniliklərə) ilk

növbədə, ***iqtisadi artım nəzəriyyəsi***, eləcə də ***tsiklik inkişaf nəzəriyyəsi aiddir.***

Keynsin əsas modeli statik olmuşdur; *o, bütün iqtisadi prosesləri qısamüddətli dövrün müstəvisi nöqteyi-nəzərindən keçirirdi, onun modeli çərçivəsində əsas parametrlər (ilk növbədə istehsal miqyası) zaman kəsiyində dəyişməz olaraq qalırdı*. Belə yanaşma tərzi, əsas mahiyyəti etibarilə, ötən əsrin **30-cu** illərində mövcud olmuş tənəzzül iqtisadiyyatının xüsusiyyətləri ilə şərtləndirilmişdir. O zaman uzunmüddətli iqtisadi inkişafın və iqtisadi dinamikanın problemləri birinci yerdə dayanmırdı. Keyns üçün daha mühüm və zəruri olan aşağıdakı suala cavab tapmaq daha əhəmiyyətli idi: natamam məşğulluqdan tam məşğulluğa necə keçməli, kütləvi işsizliyə, istehsal güclərinin yüklənməməsinə və əmtəələrin təkrar istehsalına necə son qoyulmalıdır.

Müharibədən sonrakı illərdə vəziyyət köklü surətdə dəyişdi. Müharibə bumu ilə hərəkətə gətirilən aparıcı Qərb dövlətlərin iqtisadiyyatı (xüsusilə də Amerika Birləşmiş Ştatlarının) inkişafın bu vaxtadək görünməmiş templərinin reallaşdırılmasına nail oldu. Müharibənin çətinliklərindən sonra əhali müharibədən əvvəlki illərdə hökm sürmüş kütləvi işsizliyə və tam təmin olunmamış həyata qayıtmaq istəmirdi. Davamlı və uzunmüddətli planda dayanıqlığın bərqərar olunmasını, həmçinin işgüzar dairələr də tələb edirdi. Qeyd etmək lazımdır ki, iqtisadi dinamika problemi həm də dövlət sosializminin bərqərar olmuş ölkələri ilə aparılan yarışmanın nəticəsində də ön plana keçdi. XX əsrin 40-50-ci illərində dünya sisteminə çevrilən dövlət sosializmi o vaxtlar da kifayət qədər yüksək dinamizmə malik idi və Qərb üçün yalnız hərbi və siyasi deyil, həm də iqtisadi rəqib kimi dəyərləndirilirdi (Qərbin bəzi iqtisadçıları bunu açıq şəkildə birbaşa qeyd edirdilər).

İqtisadi dinamika məsələlərin həll edilməsi artıq zamanın çağırışına çevrildi və **neokeynsçilik nəzəriyyəsi** bu çağırışı qəbul etdi. Artım modellərini işləyib-hazırlamış keynsçilər

arasında ingilis iqtisadçısı ***R.Harrod*** və rus mənşəli amerikalı alim ***E.Domar*** xüsusilə seçilirdi (onların baxışlarının və əqidələrinin bir-birinə yaxın olduqlarına görə bəzən Harrod-Domarın vahid artım modeli haqqında deyirlər). Bir halda ki, əsas ideyaların yaranmasında və formalaşdırılmasında birincilik, şərtsiz olaraq, R.Harroda məxsusdur, neokeynsçiliyin həmin bu hissəsini biz məhz adı çəkilən müəllifin elmi baxışları əsasında izah edəcəyik.

Dinamikanın neokeynsçilik nəzəriyyəsi təkcə iqtisadi artım modellərinin qurulması ilə məhdudlaşmır. Geniş mənada təsvir edilən bu nəzəriyyə mütləq şəkildə tsiklik (dövri) tərəddüdlərin nəzəri izahını ehtiva edir.

Artıq Keyns, kapitalizm inkişafının dayanıqsızlığının qaçılmaz olduğunu göstərərək, eləcə də tələb və təklifin tarazlaşdırılmasının avtomatik mexanizmin sarsıdılması haqqında tezisi irəli sürərək öz ardıcıllarını və tərəfdarlarını tsikllərin səbəblərinin interpretasiyasının təsvir edilməsi zəruriliyinə yaxınlaşdırırdı. Lakin **Keynsin özünün tsikllər (dövrü) haqqında nəzəriyyəsi mövcud deyil idi**: ötən əsrin **30-cu** illərində onun yaradılmasının aktuallığı və əhəmiyyəti yox idi, çünki tsiklik inkişafın, praktiki olaraq, yalnız iki fazası göz qabağında idi – **böhran** və **tənəzzül.**

Müharibədən sonrakı illərdə, baş verən sürətli, lakin qeyri-bərabər inkişaf şəraitində Qərb iqtisadçıları **böhran** və **tənəzzül** üzərində deyil, ümumilikdə tsiklin özündə, onun dörd fazasının, o cümlədən **canlanma** və **yüksəlişin** vəhdətində bütün fikirlərini cəmləşdirməli idi. Burada aydın oldu ki, iqtisadiyyat üçün inflyasiya bumu, uzunmüddətli tənəzzül qədər arzu edilməzdir, məhz buna görə də tsiklin bütün mərhələlərində onun tənzimlənməsinə ehtiyac var, lakin tsikli tənzimləmək üçün onun səbəblərini, fəaliyyət göstərməsinin daxili mexanizmini bilmək zəruridir. Beləlikə, həyatın özü və təcrübə neokeynsçilik nəzəriyyəsini tsiklik tərəddüdlərin xüsusi nəzə-

riyyəsinin işlənib hazırlanmasının zəruriliyinə doğru yaxınlaşdırmışdır.

Hətta təkcə keynsçilik çərçivəsində tsikllərin problemləri üzərində bir neçə görkəmli alim çalışırdı. Artıq deyildiyi kimi, bu mövzu ilə əlaqədar bir sıra fundamental ideyaların müəllifi olduğu **"Ticarət tsikli"** monoqrafiyasında (1936-cı il) xüsusi olaraq R.Harrod özü söyləmişdir. Qeyd etdiyimiz müəlliflə yanaşı **multiplikator** və **akselerator** mexanizmlərinin birləşdirilməsi haqqında əsas və mərkəzi neokeynsçilik ideyasını (bu ideya barədə biz bir qədər sonra ətraflı və müfəssəl şəkildə danışacağıq**)** P.Samuelson və C.Hiks kimi məşhur və görkəmli iqtisadçılar işləyib hazırlayırdı. Lakin tsikllərin əsas neokeynsçilik nəzəriyyəçisi qismində ən böyük məhşurluğu amerikalı iqtisadçı alim **Elvin Hansen (1887-1975**) qazanmışdır. O, həmin mövzu ilə əlaqədar daha geniş və ümumiləşdirici elmi işlərin müəllifidir.

1.1. R.Harrodun iqtisadi artım nəzəriyyəsinin metodologiyası



Yaradıcı təkamül. ***Roy Harrod*** (1900-1978) əslən britaniyalı ziyalılar ailəsində anadan olmuşdur. Onun babası və atası tarixçi-arxeoloq idilər, atası bundan əlavə, kommersiya ilə də məşğul olmuşdur, lakin onun bu fəaliyyəti uğurlu alınmamışdır. Harrodun anası görkəmli yazıçı, viktorian epoxasının qabaqcıl yazıçılar dərnəyinin üzvü idi. Bioqraflar gələcək iqtisadçının müxtəlif mövzulara dair əsərlərin yaradılmasına erkən maragını qeyd edirlər. O, uşaqlıq illərindən intelektual ünsiyyətin yüksək səviyyəsinə alışdığı üçün bu, sonralar onun yaradıcılığına böyük təsir göstərmişdir.

R.Harrod olduqca gözəl təhsil almışdır, o, Vestmister kollecini, daha sonra isə Oksford universitetini bitirmişdir. Tarix elmləri üzrə ixtisaslaşırdı. Artıq bu dövr ərzində onun mütaliə dairəsinə C.S.Millin, K.Marksın, P.Kropotkinin əsərləri daxil olur. 1922-ci ildə Harrod Oksford universitetində müasir tarix və iqtisadi nəzəriyyə kursu üzrə müəllimlik fəaliyyətinə başlayır. İqtisad elminə dair öz biliklərini təkmilləşdirmək məqsədilə o, Kembric universitetində semestr aparır və məhz burada onun C.M.Keynslə ilk görüşü baş tutur. Hesab olunur ki, məhz Keynsin və qismən də olsa, Oksfordda mühazirələrində iştirak etmiş F.Ecuortun təsiri altında Harrod peşəkar iqtisadçı olmaq qərarına gəlmişdir. Keyns ilə tanışlıq tez bir zamanda əsl dostluğa çevrilmişdir.İki böyük ingilis iqtisadçıları arasında çoxillik fəal yazışma aparılırdı, Harrod C.M.Keynsin əsas elmi əsərlərinin birinci oxucusu olmuşdur (o, həmin əsərləri qrankalarda (səhifə bağlanmamış dəstinin ottiskində) oxuyurdu) [3]. Onun təsiri altında Keyns **"Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi"**nin mətninə investisiyaların və əmanətlərin nisbətini konkretləşdirən xüsusi daiqramını daxil etmişdir.

1928-1940-cı illərdə Harrodun dərc etdirdiyi çoxsaylı məqalələr və kitablar pulun, bankların, beynəlxalq ticarətin, qeyri-təkmil rəqabətin, xərclərin tərəddüdlərinin, ticarət tsiklinin (dövrünün) və iqtisadi inkişafın problemlərinə aid idi. Bioqrafların qeyd etdikləri kimi, Harrodun bu işləri iqtisad elmini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir [2]. Belə ki**, "Təklif haqında qeydlər" (1930-cu il)** [2] məqaləsində Harrod o zaman yeni məfhumu - **son hədd gəliri** anlayışını tətbiq edir. Sözügedən həmin məfhum məqalənin mətnində **"məcmu tələbin artması"** kimi qoyulur. **"Azalan xərclər qanunu"** (1930-cu il) məqaləsində uzunmüddətli dövr üçün xərcləri əks etdirən əyri xəttin tədqiq edilməsi nəticəsində o, potensial cəhətdən mümkün ola biləcək yükləmələrdən əhəmiyyətli dərəcədə fərqlənən faktiki yükləmələrin mövcud ol-

ması barədə nəticəyə gəlir ki, bu da o zaman hökmranlıq etmiş neoklassik ortodoksiya ilə müqayisədə, nəzəriyyədə irəliyə doğru atılmış addım kimi qəbul olunurdu. **Harrodun birinci kitabı – "Beynəlxalq iqtisadiyyatın nəzəriyyəsi" (1933-cü il)** [2] böyük uğur əldə etmişdir, bu kitabın bir-birinin ardınca dörd nəşri işıq üzü görmüşdür. Burada Harrod beynəlxalq əmək bölügüsünün əsas prinsiplərini – müqayisəli xərclər prinsipində son hədd (və məsrəf) xərcləri prinsipi anlayışından ilk istifadə edənlərdən biri olmuşdur. Hesab edilir ki, artıq bu əsərində Harrod, faktiki olaraq, xarici ticarət multiplikatorunun mövcud olduğunu güman edir.

Harrodun müharibədən əvvəlki dövrə aid olan yaradıcılığının əsas və mərkəzi elmi işi **"Ticarət tsikli " (1936-cı il)** monoqrafiyasıdır. Burada gələcək tsiklik tərəddüdlərin neokeynsçi nəzəriyyənin əsas və başlıca məqamları mövcuddur. Harrod, investisiyaların, istehlakın və əsas kapital nemətlərin buraxılışının tərəddüdlərinin onların bir-birinə qarşılıqlı şəkildə təsir göstərməsi nöqteyi-nəzərdən təhlil edilməsinə əsaslanaraq tsiklin mexanizmini təsfir etməyə çalışır. Müvafiq modelin qurulması prosesində o belə bir nəticəyə gəlir ki, "… multiplikator və kapital əmsal arasında qarşılıqlı əlaqə və münasibətlərin təhlilində ticarət dövrünün sirri aşkar oluna bilər" [2]. Mahiyyət etibarı ilə artıq burada ən ümumi şəkildə əlavə multiplikatorun **(multuplikator və akselerator effektlərinin vahid bir prosesə birləşdirilməsi)** ideyası ifadə edilmişdir. Həmin bu ideya daha sonra tsiklin keynsçi nəzəriyyəçilərinin – **C.Hiksin, P.Samuelsonun, E.Hansenin** elmi əsərlərində öz inkişafını tapmışdır.

"Ticarət tsikli" monoqrafiyası həm də keynsçi dinamik nəzəriyyənin erkən əlamətlərinin tərkibinə daxildir. Birincisi, *Harrod burada neoklassik məktəbin statik təhlilinin məhdudluğunu birbaşa qeyd edir, çünki tsikl problemi özünün mahiyyətinə görə dinamik bir problemdir.* İkincisi, *iqtisadi dinamika probleminin özünü alim investisiyaların və əma-*

nətlərin uzunmüddətli dəyişikliklərin təhlili ilə əlaqələndirir. Sonuncu müddəada Harrodun düşüncələrinə hələ "Pullar haqqında traktat" (1930-cu il) əsərində ifadə olunmuş Keynsin bəzi ideyaların təsir göstərməsi aydın şəkildə hiss olunur. Lakin ümumilikdə **Harrodun iqtisadi dinamika nəzəriyyəsi** tamamilə müstəqil olaraq formalaşırdı. Bundan əlavə, ötən əsrin 30-cu illərində ərsəyə gəlmiş Harrodun elmi əsərlərinin təhlili belə bir nəticəyə gətirib çıxarır ki, ona Keynsin nəzəri modelinin müəyyən məhdudluğu artıq o vaxtlarda qismən də olsa aydın idi: modelin statik xarakteri, əmanətlərə birmənalı şəkildə mənfi münasibət, dünya təsərrüfat əlaqələrindən uzaqlaşma.

1939-cu ildə **Harrod "Dinamik nəzəriyyənin xülasəsi"** [2] məqaləsini dərc etdirir. Bu məqalə onun müharibədən əvvəlki ideya təkamülünü tamamlayır. Burada, ilk növbədə, dinamik nəzəriyyənin məqsədi qısaca və dürüst şəkildə ifadə olunur – "hərəkətsizlik vəziyyəti üçün statik nəzəriyyə tərəfindən təklif edilmiş əsaslara uyğun olaraq dəyişikliklərin öyrənilməsi üçün yararlı olan bazis əsaslarını təklif etmək" [2]. *Bu elmi əsərdə dinamik nəzəriyyənin əsas məfhumları tətbiq edilir: artımın faktiki, zəmanətli və təbii templəri; kapital əmsalı; müvafiq tənliklərin təhlili yolu ilə kapitalist iqtisadiyyatı inkişafının daxili qeyri-sabitliyi haqqında nəticəyə gəlinib.* Beləliklə, artımın keynsçi nəzəriyyəsi artıq faktiki olaraq tam hazır idi, lakin müharibədən əvvəlki illərdə həmin nəzəriyyə heç kimin diqqətini cəlb etməmişdir: durğunluq prosesləri ilə müşayiət olunan 1930-cu illərin qurtarmaq bilməyən depressiyası, iqtisadi dinamika sahəsində həyata keçirilən araşdırmaları sanki qeyri-aktual edirdi. Keynsin özü Harrodun konsepsiyasına soyuq yanaşmışdı. Harroda görə, arası kəsilməyən və fasiləsiz inkişafın tarazlı xətti ətrafında faktiki artım tempinin tərəddüdləri baş verir, lakin Keyns belə xəttin mövcud olmasına şübhə ilə yanaşırdı.

Tezliklə başlanmış müharibə Harrodun nəzəri fəaliyyətini altı ildən artıq bir müddətə dayandırdı.Alim Böyük Britaniyanın Baş naziri U.Çörçellin yanında statistik idarəyə işə keçir və Britaniya hökumətinin iqtisadi müşaviri funksiyasını yerinə yetirir.

Müharibənin bitməsindən sonra müəllimlik fəaliyyətinə qayıdan Harrod **1946-cı** ilin payızında nəzəri dinamika üzrə mühazirələrin yenilənmiş kursunu işləyib hazırlayır. Bu mühazirələr 1947-ci ilin fevralında London universitetində oxunur, daha sonra isə ayrıca monoqrafiya şəklində dərc etdirilir – **"İqtisadi dinamikanin nəzəriyyəsi" (1948-ci il).** Analoji ideyaları özündə cəmləşdirən **1939-cu** ildəki məqalə ilə müqayisədə, bu kitabı tamamilə fərqli bir aqibət gözləyirdi – müharibədən sonraki illərdə mövcud olan süni canlanma dövrü qeyri-dayanıqlı və qeyri-müntəzəm xarakterə malik idi, belə şəraitdə dinamik inkişaf mövzusu gözlənilmədən hamını maraqlandırmağa başladı. Harrod artıq yenilikçi və sükutu pozan alim kimi tanınırdı, onun nəzəri modeli isə **(Harrod-Domar modeli)** Qərbin akademik dairələrində iki onilliklər ərzində davam etmiş qızğın müzakirələrin və mübahisələrin aparılmasına səbəb olmuşdur.

Dinamikanın əsas teoremləri. Məhz 1948-ci ilin monoqrafiyası Harrodu dünya şöhrətli alim etmişdir, ona müharibədən sonrakı keynsçiliyin lideri, dinamikanın neokeynsçi nəzəriyyəsinin yaradıcılarından biri kimi şöhrət qazandırmışdır və bütün bunlar orada yer almış bəzi ideyaları daha dərindən və əsaslı şəkildə ifadə etməyə məcbur edir.

Harrodun metodologiyası Keynsin metodologiyasına olduqca yaxındır: hər iki alim aqreqə (birləşmiş) olunmuş makroiqtisadi göstəriciləri tədqiq edir – məcmu tələb və gəlir, məcmu yığım, investisiyalar və sair. Belə təhlil, ilk növbədə, kapitalizmin təkrar istehsal proseslərinin kəmiyyət tərəfini əks etdirməyə kömək edir və bununla bərabər, onların keyfiyyət müəyyənliyini və sosial nəticələrini kənarda sax-

layır. Fərqlər, artıq qeyd edildiyi kimi, bundan ibarətdir ki, Keyns təkrar istehsal *proseslərini statik* vəziyyətdə, *qısamüddətli dövr çərçivəsində tədqiq edir*, Harrodun isə bütün səyləri *proseslərin dinamik*, o cümlədən *uzunmüddətli planda təhlil edilməsi* üzərində cəmləşir.

Qeyd olunan fərqlər R.Harrod modelinin ilkin tənliyi **(faktiki artım tempinin tənliyi**) misalında daha yaxşı və aydın şəkildə gözə çarpır:

$$g \times c = s,$$

Burada ***g* (growt – artım) istənilən hər hansı dövr ərzində ümumi buraxılışın real artımını ifadə edir**, məsələn, bir il ərzində; yaxud da:

$$g = \frac{\Delta y}{y},$$

yəni faktiki artım tempi – gəlirin çoxalmasının baza dövrünün gəlirinin miqdarına nisbəti**; *c* – kapital əmsalı (capital – kapital), yaxud kapitaltutumu əmsalı; bu əmsal gəlirin, yaxud məhsulun bir ədəd vahidinin artımının "investisiya qiymətini" göstərir,** başqa sözlə:

$$c = \frac{I}{\Delta Y};$$

nəhayət**, *s* – milli gəlirdə əmanətlərin payı, yaxud əmanətlərə meyilliyi:**

$$s = \frac{S}{Y}.$$

Harrodun özünün qeyd etdiyi kimi, əgər ümumi hədləri ixtisar etsək, bu tənlik aşağıdakı bərabərliyə çevrilir: **investisiyalar əmanətlərə bərabərdir**. Əslində, əgər

$$g = \frac{\Delta Y}{Y}, \quad c = \frac{I}{\Delta Y}, \quad s = \frac{S}{Y},$$

onda əvəzetmə nəticəsində alırıq:

$$g \text{x } c = \frac{\Delta Y}{Y} \quad \text{x} = \frac{I}{\Delta Y}, \frac{I}{Y}$$

yəni $\frac{I}{Y} = \frac{S}{Y}$, yaxud $I = S$.

Keynsin məşhur bərabərliyi gözlərimizin önündədir: investisiyalar əmanətlərə bərabərdir, lakin **Keynsdə bu bərabərlik statik formada ifadə olunub, Harrodda isə həmin bərabərlik dinamik formada verilir:** tənliyin sol tərəfi **(g x c)** istehsal məqsədlərinə sərf olunan məhsul artımının yığım hissəsini ifadə edir, bu hissə isə əmanətlərin müəyyən payı **(s)** ilə təmin edilməlidir. Bir halda ki, **faktiki artım tempinin tənliyinin** hər iki hissəsi keçmiş dövrə aiddir, həmin bu bərabərliyin özünün reallaşdırılması üçün hər hansı bir xüsusi şərtlərə ehtiyacı yoxdur.

Zəmanətli artım tempinin tənliyi Harrod modelinin növbəti tənliyi qismində çıxış edir:

$$g_w \text{x } c_r = s.$$

Artımın zəmanətli (warrented) tempi g_w– bu, Harrod tərəfindən elmi leksikona daxil edilmiş prinsipial cəhətdən yeni kateqoriyadır. Zəmanətli tempin bir neçə mənası vardır. Harroda görə, bu temp proqnozlaşdırılan inkişaf xəttini ifadə edir. Həmin xəttə sahibkarlar köklənir və bununla yanaşı, bu belə bir tempdir ki, “bu zaman istehsalçılar etdiklərindən məmnun qalırlar” [3]. *Başqa sözlə desək, zəmanətli temp – bu, ümumiləşdirilmiş, makroiqtisadi, proqnoz kəmiyyə-*

tidir və bununla yanaşı "bu irəliləməyin elə tempidir ki, o, sahibkarları məmnun etmək və özünü əbədiləşdirmək xüsusiyyətinə malikdir" [3]. Harrod buna görə iddia edir ki, zəmanətli artım tempinin tənliyi **(g_w x c_r = s)**"fasiləsiz olaraq hərəkətə daxil olan tarazlığı" [3] ifadə edir, zəmanətli tempin özü isə dinamik tarazlıq xətti ilə təsvir olunur.

Bu bərabərlikdə yalnız bir kəmiyyət **(s)** keçmiş dövrə aid olunur, sol tərəfə daxil edilmiş kəmiyyətlər isə gələcək dövrə aiddir. Harrod iddia etdiyi kimi**, c_r** həm də dinamik tarazlıq kateqoriyasıdır: o, məhsul buraxılışın artımına bölünmüş yeni kapitala olan ehtiyacı ifadə edir. Qeyd edək ki, sözügedən məhsul buraxılışının təmin edilməsi üçün həmin yeni kapitalın mövcud olmasına tələbat vardır. Beləliklə, $c_r$kapitalın tələb edilən əmsalıdır.

g_w və c_r – bunlar, belə təxminlər və sahibkarların iqtisadi davranışına təsir göstərən kəmiyyətlərdir ki, hansılar ki, artıq mövcud olan faktiki əmanətlərə bərabər olan yığımın nəzərdə tutulan miqyasını yaradırlar. **Zəmanətli artım tempinin tənliyində *ex-ante* investisiyalar və *ex-post* əmanətlər bərabərləşdirilir.**

Daha sonra Harrod zəmanətli artım tempinin sabit və daimi səviyyəsi barədə nəticəyə gəlir. Onun mülahizələri belədir: milli gəlirdə əmanətlərin payı sabit neytral kəmiyyətdir, çünki insanları əmanətləri toplamağa vadar edən səbəblər nisbətən daimi və sabitdir. Kapitaltutumluğunun tələb olunan əmsalı da həmçinin sabit və daimidir. Bunun izah edilməsi zamanı Harrod elmi-texniki tərəqqinin neytral xarakteri adlandırılan məfhuma əsaslanır ki, bu halda zamanın uzunmüddətli aralıqlar ərzində əməyə qənaət etməyə imkan verən ixtiralar kapitalı qənaət edən ixtiralarla tarazlaşdırılır. Lakin, əgər **g_w x c_r = s** *üçhədli tənlikdə iki hədd* **c_r** *və* **s** *sabitdirsə, onda üçüncü hədd olan* **g_w** *də sabit olacaqdır. Əgər faktiki artım tempi (g) proqnozlaşdırılan və zəmanətli ilə (g_w) kapitalist bazar iqtisadiyyatı çərçivəsində üst-üstə düşsəydi, onda*

dayanıqlı və arasıkəsilməz inkişafın mövcud olması barədə əminliklə danışmaq mümkün olardı.

Lakin kapitalist iqtisadiyyatı çərçivəsində təkcə statik (qısamüddətli) deyil, həm də dinamik planda da dayanıqlıq mövcud deyil. Bu faktın izah edilməsi üçün **Harrod** özünün "fundamental tənliyinin" hər iki formasını müqayisə edir:

$$g x c = s$$

$$g_w x c_r = s.$$

Alim tərəfindən təqdir edilir ki, faktiki artım tempinin kəmiyyəti zəmanətli tempin proqnozlaşdırılan xətti ilə müstəsna hallarda üst-üstə düşür. Təcrübədə isə faktiki temp zəmanətli tempdən həmişə yuxarı, yaxud aşağı olur. Əgər faktiki artım tempi yüksəlməyə başlasa və g_w-**ni** üstələsə, onda özünün sabitliyinə görə s tezliklə eyni dərəcədə artmayacaq və belə olan halda kapitaltutumluğunun faktiki əmsalı olan c mütləq şəkildə aşağı düşəcək və sahibkarların kökləndiyi tələb olunan (proqnozlaşdırılan) kapitaltutumluluq əmsalından az olacaq. Başqa sözlə ifadə etsək, əgər $g > g_w$ **,** (s-in sabitliyinə görə) $c > c_r$ olacaq. Ancaq əgər c_r-lə müqayisədə c daha aşağıdırsa, Harrodun yazdığına görə bu o deməkdir ki, ümumi nəticədə sahibkarlar və ticarətçilər birgə faktiki kapitaltutumluğu hədsiz dərəcədə aşağı kimi dəyərləndirəcəklər, tədavülün dəstəklənməsinə kifayət etməyən özlərinə məxsus əmtəələrin kütləsini, yaxud avadanlıqların miqdarını tədavül kanallarında tapacaqlar. Sahibkarlar öz əmtəə-maddi ehtiyatlarını artırmağa, yeni avadanlıqları əldə etməyə çalışacaqlar, beləliklə, artımın faktiki xəttinin zəmanətli (tarazlı) xəttin üzərində ötməsinə daha çox kömək etməyə çalışacaqlar.

Əksinə, əgər faktiki artım tempi zəmanətli tempindən aşağı olsa **($g < g_w$),** belə olan halda yuxarıda qeyd etdiyimiz mülahizələrə əsasən kapitalın tələb olunan (proqnozlaşdırılan) əmsalı faktiki əmsaldan mütləq ºəkildə aşağı

olacaqdır **($c > c_r$),** yəni sahibkarlar xammal, avadanlıqların, materialların ehtiyatların həddindən artıq yüksək olduğunu zənn edəcəklər, tədarükləri azaldacaqlar və bununla da, faktiki artım tempini zəmanətli artım tempi ilə müqayisədə daha da çox azaltmış olacaqlar.

Bütün mülahizələrin yekununda Harrod iki nəticəyə gəlir. İlk növbədə o, hesab edir ki, prinsipcə inkişafın belə bir xətti (zəmanətli artım tempi ilə ifadə olunmuş dinamik inkişafın xətti) mövcuddur ki, onu tutmaqla istehsalçılar öz fəaliyyətinin nəticələrindən məmnun qalacaqlar. Lakin "əgər çoxmilyonlu istehsalçıların sınaq və səhvlərin məcmu nəticəsi g üçün g_w-dən fərqli bir qiymət verirsə, onda nəinki istehsal miqyasını g_w-yə uyğunlaşdırmağa ehtiyac yaranmır, hətta əksinə, istehsalın bu kəmiyyətdən yüksəlməsi, yaxud da get-gedə azalması istiqamətinə doğru daha çox uzaqlaşdırılmasına əks tendensiya yaranmağa başlayır"[3].

Qeyd etdiyimiz nəticə dinamik nəzəriyyə sferasında keynsçiliyin kvintessensiyasıdır. Harrod iddia edir ki, kapitalist iqtisadiyyatı "iynənin ucu üzərində müvazinətini saxlamağa çalışır", dinamik qeyri-stabilliyi ona daxilən xas olan cəhətdir ("faktiki artım tempinin zəmanətli artım tempindən uzaqlaşması"), eləcə də onun daxilində "**mərkəzdənqaçan** qüvvələr fəaliyyət göstərərək sistemi inkişafın tələb olunan xəttindən get-gedə daha irəliyə və daha inadla kənara çıxmağa məcbur edir"[3]. Bütün bunlar tarixi-iqtisadi ədəbiyyatda daha sonra **"Harrod paradoksu"** adını almış məfhumun müxtəlif ifadələridir.

İlk baxışdan paradoks, yaxud həqiqətə uyğun olmayan doğruluq, ilk növbədə, əvvəlki keynsçiliyə , neoklassik məktəb üçün bu cür hesab oluna bilər ki, həmin bu məktəb kapitalist bazar iqtisadiyyatının inkişafının tarazlılıq xarakterinə hər zaman əsaslanırdı. Bu istiqaməti olduqca ciddi şəkildə şübhə altına alan Qərbin akademik dairələrin ilk nümayəndələrindən məhz Harrod olmuşdur. O, xüsusən, qeyd edirdi ki, neoklassik

cərəyanın (A.Marşall, L.Valras, A.Piqu, L.Robbins) əsaslandığı marjinalizm mexanizmi əsasən statika sferasında tətbiq oluna bilər, bir halda ki dinamik sferanın yeni, qeyri-ənənəvi yanaşmalara ehtiyacı vardır.

Faktiki artım tempinin zəmanətli artım tempindən uzaqlaşmaları, Harroda görə, əsasən tsiklik tərəddüdləri izah edir. İqtisadi konyunkturanın daha uzunmüddətli tərəddüdlərinin təsfir edilməsi üçün Harrod üçüncü tənliyi tətbiq edir – təbii artım tempinin tənliyini:

$$\boldsymbol{g_n \text{x } c_r = \text{yaxud} \neq s,}$$

Burada $\boldsymbol{g_n}$ ("n" indeksi – "natural", yəni təbii sözündən götürülüb) əhalinin mövcud olan artımı və texniki imkanlar zamanı iqtisadiyyatın mümkün qədər maksimal artım tempini təqdim edir. Zəmanətli temp – $\boldsymbol{g_w}$ nağd kapitaldan və texniki təkmilləşdirmələrdən tam məşğulluq zamanı istifadə edilməsi sahibkarlıq tarazlığının xəttini ifadə edirdi. Lakin g_w, ümumiyyətlə desək, „məcburi işsizliyin" mövcud olmasını ehtimal edirdi. Təbii temp – $\boldsymbol{g_n}$ onun yaranmasına imkan vermir və mövcud olan resurslar şəraitində uzunmüddətli planda maksimal tempi ifadə edir. Bu cür tempin təmin edilməsi üçün əmanətlər kifayət etməyə də bilər, buna görə təbii artım tənliyində sağ və sol tərəflər arasında məcburi bərabərliyin olmaması nəzərdə tutulur.

Harrodun bütöv modelində üç kəmiyyət arasında mövcud olan nisbətlər nəzərdən keçirilir: artımın təbii (g_n), zəmanətli (g_w) və faktiki (g) templəri.

Fərz edək ki, $\boldsymbol{g_w g_n}$**-ni** üstələyir (çünki zəmanətli artım proqnozlaşdırılan, proqramlaşdırılan kəmiyyətdir, bu cür uyğunlaşma prinsip etibarilə mümkündür).

Ancaq əgər $\boldsymbol{g_w > g_n}$, onda $\boldsymbol{g_w > g}$ (çünki təbii artım mövcud olan resurslar şəraitində maksimal temp olacaq, faktiki temp isə təbii artım tempindən aşağı olacaq, deməli, $\boldsymbol{g_w > g_n}$ zaman faktiki artım tempi zəmanətli tempdən aşağı olacaq).

Beləliklə, $g_w > g_n$ qeyri-bərabərlikdən mütləq şəkildə $g_w > g$ alırıq. Belə olan halda yuxarıda qeyd etdiyimiz mülahizələri nəzərə alaraq, aşağıdakı qeyri-bərabərliyi alırıq: $c_r < c$, yəni inkişafın həddindən artıq şişirdilmiş proqnozları zamanı normativ (tələb olunan) kapitaltutumluluq mütləq faktikidən aşağı olacaq bu isə, əvvəl göstərildiyi kimi, uzunmüddətli tənəzzülün şərtidir. Həmin paradoksal iddia (qüvvələrin həddindən artıq gərginləşdirilməsi uzunmüddətli tənəzzül doğurur) çox güman ki, təkcə bazar iqtisadiyyatı üçün doğru deyil. O, xüsusən, Çinin Mao dövründəki acı təcrübəsi ilə təsdiqlənir, o zaman əvvəlcədən planlaşdırılmış inkişafın süni şişirdilmiş və hədsiz dərəcədə yüksək inkişaf templəri ilə müşayiət olunan "böyük sıçrayış" dövrü (1950-ci illərin sonları) daha sonra uzun illər davam etmiş istehsalın azaldılması ilə əvəz olunmuşdur ("tənzimlənmə dövrü").

Lakin əgər $g_w < g_n$, onda ən azı iki variantın mövcud olması mümkündür. Bunlardan birinci olan variantı $(g_w > g)$ biz artıq nəzərdən keçirmişik: o, uzunmüddətli depressiyaya doğru aparır. Lakin verilmiş şərtlər çərçivəsində ikinci variant da mümkündür: $g_w < g$, belə olan halda $c_r > c$, bu isə, gördüyümüz kimi, uzunmüddətli süni canlanmanın şərtidir. Beləliklə, Harrod, qeyd edir "g_w **və** g_n nisbəti təsərrüfat həyatında uzun illər ərzində canlanma, yaxud tənəzzülün üstünlük təşkil edilməsinin müəyyənləşdirilməsi üçün həlledici əhəmiyyət kəsb edir" [3].

Bununla əlaqədar Harrod neoklassik və keynsçi mövqelər arasında əmanətlərə dair əhəmiyyətli fərqi təsbit edir. Lakin bu məsələ ilə əlaqədar onun nəzər nöqtəsi Keynsin özünün mövqelərindən fərqlənir. Sonuncu, məlum olduğu kimi, əmanətlərin toplanılmasına əsasən mənfi yanaşırdı (neoklassiklər əksinə - birmənalı şəkildə müsbət yanaşırdılar) və burada tənəzzülə doğru aparan stimulları görürdülər. Harrod bu məsələdə daha ölçülüb-biçilmiş mövqe sərgiləyir. O, xüsusən yazır: "nə zaman g_w hələ ki g_n-dən aşağıdır, əmanətlərin toplanılması faydalıdır. Ancaq əgər g_w–nin g üzərində üstünlük

təşkil etməsi dağıdıcı xarakter alırsa, onda g_w g_n-lə müqayisədə hədsiz dərəcədə kiçik olduğu üçün vəziyyəti də yaxşı hesab etmək olmaz. Baxmayaraq ki, bu cür vəziyyətdə biz süni canlanma artıqlığına və tam məşğulluğa nail olmasına doğru təkrarlanan tendensiyaya malik oluruq, bu yüksəksəviyyəli məşğulluq inflyasiya səciyyəvi olacaqdır və bu səbəbdən onu sağlam məşğulluq hesab etmək mümkün deyil. Belə şəraitdə əmanətlərin yığılması səxavətli iş olacaq, çünki g_w-nin yüksəlməsi bizə inflyasiya olmadan yaxşı məşğulluğu əldə etmək imkanını verir"[10].

Harrodun mövqeyi keynsin nəzər nöqtəsindən, həmçinin onunla fərqlənir ki, Harrod inflyasiya bumunun təhlükəli olduğuna diqqəti yönəldir, Keyns isə tənəzzül iqtisadiyyatı şəraitində məsələnin bu tərəfinə praktiki olaraq əhəmiyyət vermirdi. Lakin uzunmüddətli artım problemləri arasında Harrod üçün birinci yerdə tənəzzül və işsizlik problemi dayanırdı. Harrod aydın bir şəkildə nəzəri təhlilin və iqtisadi siyasətin problemlərinin iki cürünü qeyd edir: "1) g_w və g_n arasında parçalanma və 2) g-nin g_w–dən uzaqlaşmaq tendensiyası", daha sonra o qeyd edir ki, "birinci problem xroniki işsizlik problemidir, ikinci problem isə - sənaye tsiklinin problemidir"[10].

Harrodun praktiki proqramına bu səbəbdən iki qrup tədbir daxildir: *qısamüddətli planda antitsikl siyasəti (bu proqram "zəmanətli artım tempindən faktiki artım tempinin uzaqlaşdırılmasına" qarşı istiqamətləndirilib) və iqtisadi artım templərinin uzunmüddətli stimullaşdırılması siyasəti – onun əsas məqsədi zəmanətli artım tempinin təbii artım templərinə yaxınlaşdırılmasından, eləcə də kütləvi işsizliyə qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsindən ibarətdir.*

Harroda görə qısamüddətli tsiklik tənəzzüllərlə mübarizə, ənənəvi keynsçilik üsulları (ictimai işlər, faiz dərəcələri) vasitəsilə aparılır. Ancaq dünya böhranı ilə mübarizədə, Harrodun fikrincə, "ən güclü silah" onun özünün müəllifi olduğu – xarab olmayan materiallardan, xammaldan və ərzaq

məhsullarından ibarət "bufer ehtiyatlarının" yaradılması planıdır. Dövlət orqanları bu əmtəələrə olan qiymətləri nisbətən sabit səviyyədə saxlamağa çalışmalıdırlar, bunun üçün tənəzzül dövrlərində əmtəə-maddi dəyərlərin alışı və süni canlanma vaxtlarında onların kütləvi satışı təmin edilməlidir.

Xroniki işsizliyə və uzunmüddətli depressiyaya qarşı Harrod hədsiz dərəcədə radikal vasitələrdən istifadə olunmasını təklif edir: **faiz dərəcəsinin azaldılması – hətta sıfıra bərabər olan nöqtəyə qədər**. Harroda görə, təbii və zəmanətli artım templərinin yaxınlaşdırılmasına nail olmaq dövlətin müdaxiləsi həyata keçirilmədən sadəcə olaraq mümkün deyil; lakin faiz normasının azaldılması kapitaltutumluğun artırılmasına, əmanətlərə olan tələbin genişləndirilməsinə (***d*** miqdarına) və daha sonra – milli gəlirdə əmanətlərin payının müəyyən dərəcədə ixtisar edilməsinə və c_r normativ kapitaltutumluğunun artmasına gətirib çıxarmalıdır. Harrod yazırdı: "Bizim məqsədimiz faiz dərəcəsinin belə bir proqressiv azaldılmasına nail olmaqdan ibarət olmalıdır ki, bu zaman $g_w \times c_r = s - d = g_n \times c_r$" [10]**. Sonuncu ifadə, Harroda görə, "tam məşğulluq şəraitində dayanıqlı inkişafın" düsturudur.**

Simptomatikdir ki, müəllifin nöqteyi-nəzərinə görə faizin aradan qalxması həm də daha da ədalətli cəmiyyətin qurulması yolunda həlledici tədbir rolunu oynaya bilər. Faiz olmasa rantye sinfinin yox olub getməsi baş verəcək (Harrod burada Keynsin "rantyenin evantaziyası" ideyalarına istinad edir). Faizlə birgə tədricən torpaq rentası, deməli, torpaq mülkiyyətçilərin sinfi də aradan qalxacaq. Harrodun fikrincə, bu cür tədbirlər "kollektivizm (yəni sosializm – *müəllif*) mövqelərindən kapitalizmə edilən hücumlara son qoyulmasına" kömək edəcək, çünki kollektivizmin alternativi "faizdən azad olunmuş cəmiyyət" [10] olacaqdır. Lakin ümumilikdə Harrod xüsusi mülkiyyətin saxlanılmasının, şübhəsiz, tərəfdarıdır, çünki "mülkiyyət təfəkkürün müstəqil surətinin təməli qismində çıxış edir", incəsənətin və elmin inkişaf etdirilməsində böyük əhə-

miyyətə malikdir, təşəbbüskarlığın və işgüzarlığın stimuludur və sair. Çox guman ki, Harrodun sosial idealı keynsin uzunmüddətli niyyətlərinə çox yaxın idi: onların ikisi də mülki qeyri-bərabərliyin əhəmiyyətli dərəcədə saxlanılmasını zəruri hesab edirdilər, lakin bu qeyri-bərabərlik onların vaxtında mövcud olmuş miqyaslarında olmamalı idi. Bununla əlaqədar Harrod yazırdı: "Bizim ideal ondan ibarətdir ki, hamı mülkiyyətə sahib olmalıdır və onunla razılaşmaq lazımdır ki, bir çox nəsillər boyunca biz əslində bu idealdan çox-çox uzaq olmuşduq. Doğrudur, belə bir fakt mövcuddur ki, bu cür imtiyazlı və üstün vəziyyətdə bu vaxta qədər heç də hamı ola bilmirdi, lakin bu fakta görə xüsusi mülkiyyətin ümumilikdə cəmiyyətdə təfəkkürün müstəqil obrazın dayağı kimi əhəmiyyətinin qiymətləndirilməməsinə yol vermək olmaz" [10].

1.2. Harrodun modeli və dünya iqtisadi təfəkkürü

Başqalarından fərqlənən və qeyri-adiliklə seçilən hər bir tədqiqat kimi, Harrodun kitabı da Qərbin akademik dairələrində birmənalı reaksiyaya səbəb olmadı. Keynsçilər iqtisadi dinamika sferasında Harrodun elmi əsərlərini artımın daha mürəkkəb modellərinin (C.Robinson, N.Kaldorun və başqaları) bütöv bir sinfinin əmələ gəlməsinə səbəb olmuş pioner tədqiqatları kimi qəbul edir. A.Eyxner iddia edir ki, Harrod tərəfindən həyata keçirilmiş tədqiqatlar C.M.Keynsin "Məşğulluğun ümumi nəzəriyyəsi" konsepsiyasının inkişaf etdirilməsində "irəliyə atılmış ilk addım" olmuşdur [3].

Bununla birgə Harrodun fikirlərinə qarşı əks mövqedə olanlar da az deyildi, özü də onlar həm sağ, həm də sol tərəfdə mövcud idi. Solçuların arasında əsas opponentlər marksizm nümayəndələri olmuşdur. Onların tənqidi, xüsusən, buna yönəlirdi ki, Harrod öz diqqətini "ümumiyyətlə" geniş təkrar istehsalın kəmiyyətinin qarşılıqlı əlaqələrinin üzərində onun sosial formasına baxmayaraq cəmləşdirir, buna görə onun mo-

noqrafiyasında kapitalın yığılması prosesi ilə törədilən ictimai münaqişələrin təhlili, demək olar ki, tamamilə yoxdur. Həmçinin israr edilirdi ki, Harrodun modeli həddindən artıq abstraktdır və məcmu ictimai məhsulun natural forması üzrə bölgüsünü kənarda qoyur. (Bu mülahizə daha sonra postkeynsçiliyi, xüsusən də C.Robinsonu, artımın daha mürəkkəb modelini qısaca və dürüst formada ifadə etməyə vadar etmişdir. Burada investisiya və istehlak əmtəələrinin sektorları iştirak edirdi, yəni faktiki olaraq, marksist interpretasiyasında ictimai istehsalın birinci və ikinci hissələri). Ən nəhayət, bir sıra marksist nəzəriyyəçilərin fikirlərinə görə (P.Baran, P.Suizi və başqaları), R.Harrodun iqtisadi dinamika modeli kapitalist sisteminin daxili qeyri-sabitliyi haqqında məsələni ortaya qoymasına baxmayaraq, yenə də qeyd edilmiş qeyri-sabitliyin dövlət tərəfindən həyata keçirilən tənzimlənmə vasitəsilə aradan qaldırılmasına əsaslanır, yəni söhbət bundan gedir ki, əslində mövcud olmayan nəzarətin kapitalın yığımı üzərində səmərəli və şüurlu şəkildə həyata keçirilməsi imkanlarının mühakiməsi əsas götürülür. Xüsusən, marksist yönümlü amerikalı solçu radikal P.Baran artımın neokeynsçi modelləri haqqında yazırdı: "Əsas və hakim parametrlərin davranış tərzi üzərində əslində mövcud olmayan birbaşa, yaxud dolayı adekvat nəzarətin mövcudluğunu mühakimə üçün əsas götürməklə, əslində təsir göstərməyin daimi və hərtərəfə nüfuz edən xarakterə malik olan inhisarların olmamasını ehtimal etməklə, tam məşğulluğun daha çox istisna bir hal olduğuna baxmayaraq onu uzunmüddətli planda nəzərdə tutmaqla hazırkı modelləri izah etmək, çalışdıqları prosesin ikincidərəcəli əlamətlərindən deyil, onun mahiyyətindən təcrid olunur… Onlar (modellər) kapitalist iqtisadiyyatını təsəvvür edilən səmərəli (rasional) sistemlə əvəz edir və həmin sistemin adından başqa, kapitalizmlə ümumi heç nəyi yoxdur. Görəsən söyləməyə dəyərmi ki, nəticəsi – müəllifin subyektiv niyyətlərindən asılı olmayaraq status-kvo apologetikası (tərifi, müdafiəsi) olacaqdır".

Buna baxmayaraq, P.Baranın nəşrində bu cür qiymətləndirmənin nəticələri bir qədər fərqli planda verilmişdir: "İnkar etmək olmaz ki, onlar (artımın neokeynsçi modelləri) əmək bölgüsünə əsaslanan və texniki dəyişiklikləri nəzərdə tutan"[4], istənilən iqtisadiyyatda düzgün proporsiyaların və balanslaşdırılmış artımın qorunub saxlanılması və dəstəklənməsi üçün zəruri olan qarşılıqlı əlaqələrin dərk edilməsinə müəyyən töhfə verir.

Harrodun konsepsiyasına sərt və amansız hücumlar, həmçinin neoklassik cərəyanın nümayəndələri tərəfindən də edilmişdir. Onların "sağçı tənqidi" üç istiqamət üzrə inkişaf edirdi.

Birincisi, neoklassiklər iddia edirdilər ki, ictimai məhsulun artımı Harrodun modellərindən irəli gələn təkcə investisiyaların dinamikasından deyil, istehsalın bütün amillərinin dəyişikliyindən asılıdır - əməyin, kapitalın və təbii resursların. Artım prosesində, həmçinin elmi-texniki tərəqqi də əsas rol oynayır. Harrodun modelinin tənqid edilməsi iqtisadi dinamikanın alternativ neoklassik modellərinin yaradılmasına stimul vermişdir (C.Mid, R.Solou). Həmin bu modellər ***Kobb-Duqlas*** funksiyasının modernləşdirilmiş variantına əsaslanırdı və çoxfaktorlu xarakterlə seçilirdi (Harrodun birfaktorli investisiya modelindən fərqli olaraq).

İkincisi, həm də Harrodun elmi-texniki tərəqqinin neytral xarakteri və kapitaltutumluğunun normativ əmsalının sabitliyi **(c_r)** haqqında müddəa da tənqidə məruz qalırdı. Xüsusi tədqiqatlar göstərdi ki, 1920-ci illərə qədər istehsalın kapitaltutumluğunda əsasən yüksəlməyə doğru tendensiya aşkar edilirdi, daha sonra isə onun ümumi azalması müşahidə olunurdu. Eyni ilə müəyyən edilmişdir ki, elmi-texniki tərəqqinin neytral xarakteri, nə zaman əməyə qənaət edən ixtiralar , kapitala qənaət edən ixtiraların effektinə görə eyni bərabərdirsə, daha çox istisna kimi qəbul edilməlidir, təyin edilmiş qayda kimi yox. Elmi-texniki tərəqqinin neytral növünə daha tez-tez rast gəlinir,

o, öz növbəsində, əməyə qənaət edən tərəqqiyə və kapitala qənaət edən tərəqqiyə bölünür.

Ancaq neoklassiklərin əsas etirazları ictimai məhsulun artımı prosesində aşkar olunan kapitalist sisteminin daxili qeyri-sabitliyi haqqında Harrod tərəfindən irəli sürülmüş tezisə qarşı yönəldilmişdir. Harrod buna əsaslanırdı ki, əmanətin (yığımın) miqdarı psixoloji səciyyəvi səbəblərlə, kapitaltutumluğunun əmsalı isə elmi-texniki tərəqqinin neytral növü ilə müəyyən edilir. Harroda görə, bu səbəblərin müxtəlifliyi onların arasında uyğunluğa yalnız bazar vasitələrinin köməyi ilə nail olunmasını istisna edir. Kapitalist iqtisadiyyatının dövlət tərəfindən tənzimlənməsinin həyata keçirilməsi zərurətə çevrilir.

Əksinə, neoklassiklər hesab edirdilər ki, kapitaltutumluğunun kəmiyyəti və yığım norması arasında dərin daxili qarşılıqlı bağlılıq mövcuddur ki, onun sayəsində bu iki məfhum arasında müəyyən uyğunluq saxlanılır və beləliklə, dayanıqlı fasiləsiz artımın avtomatik olaraq saxlanılması üçün tendensiya təmin edilir [4].

Yuxarıda gətirilmiş arqumentlərin əksəriyyəti ədalətli kimi görünür. Ancaq yenə də Harrodun nəzəriyyəsi Qərbin iqtisadi təfəkküründə nəticəsiz qalmamışdır. İlk əvvəl, Harrodun kitabından dinamik modellərin yeni sinfinin tədqiqatı başlayır və həmin tədqiqat iqtisadi artımın get-gedə daha da incə kəmiyyət qanunauyğunluqlarını aşkara çıxarır. *Hətta keynsin nəzəriyyəsinin əleyhdarları (məsələn, C.Mid) öz axtarışlarında Harrod tərəfindən üzə çıxarılmış dinamikanın kateqoriyalarından istifadə edirdilər* (sahibkarların nöqteyi-nəzərdən fasiləsiz inkişafın xəttini müəyyən edən proqnozlu kəmmiyyət kimi zəmanətli artım tempi; verilmiş resurs təminatı şəraitində uzunmüddətli planda artım xəttinin maksimum mümkün ola biləcək artım xətti kimi artımın təbii tempi). Bu kateqoriyalar bir sıra ölkələrdə iqtisadi artımın proqnozlaşdırılması zamanı 60-cı illərdə istifadə olunurdu və xüsusən, Yaponiyada olduqca

gözəl nəticə vermişdir. Onlara Qərb iqtisadçılarının ən yeni nəşrlərində də rast gəlmək mümkündür.

Postkeynsçi məktəb üçün (müasir keynsçiliyin sol qanadı) kapitalizm şəraitində iqtisadi artımın daxili qeyri-sabitliyi və "təbii" dayanıqsızlığı haqqında Harrodun mərkəzi tezisi xüsusi əhəmiyyətə malikdir. Bu tezisə Harrod ömür boyu sadiq qalmışdır. O, həmin tezisi **"İqtisadi dinamika"** [5] adlı sonuncu monoqrafiyasında da müdafiə edirdi. Harrod yalnız nəzəriyyəçi kmi deyil, həm də tarixçi-iqtisadçı kimi də bizim üçün maraqlıdır. Onun qələmi ilə C.M.Keynsin həyatı və əsas elmi əsrləri haqqında olduqca əsaslı və müfəssəl tədqiqat yazılmışdır [5].

1.3. E.Hansen.Tsiklin neokeynsçi nəzəriyyəsi

Bioqrafik məlumatlar. E.Hansen Amerikanın ucqar yerində, Vıborq şəhərində (Cənubi Dakota ştatı) Danimarkadan köçmüş emiqrantların fermer ailəsində anadan olmuşdur. Sonralar Hansen özünü "fermadan sadə oğlan" kimi xatırlayırdı. Onun təhsil aldığı ibtidai məktəb bir otaqdan ibarət olmuşdur. Məzunlardan yalnız biri – E.Hansen kollec bitirmişdir (1910-cu ildə Yannktonda). Pul vəsaitlərinin çatışmazlığı təhsili davam etdirməyə imkan verməmişdir. İki ildən bir qədər artıq dövrdə o, orta məktəbdə dərs deyirdi, daha sonra isə 1914-cü ildə Viskonsin ştatının universitetinə daxil olmuşdur, burada onun müəllimləri sonralar məşhur iqtisadçılar – institusional cərəyanın nümayəndələri – Con Kommons və Riçard Eli olmuşlar. Bioqraflar iddia edirlər ki, məhz bu professorlar gənc alimi iqtisadi təhqiqatların aparılması istiqamətinə kökləmişlər. Tez bir müddətdə Hansen Amerika Birləşmiş Ştatlarında,

Böyük Britaniyada və Almaniyada tsikllərin müqayisəli təhlili haqqında [6] doktorluq dissertasiyasını yekunlaşdırır (1921-ci ildə dərc olunmuşdur). Tsiklin tematikasına Hansen ömür boyu sadiq qalmışdır. O, yalnız ingilis dilli ədəbiyyatlardan deyil, həm də alman, fransız, skandinav ədəbiyyatlarından istifadə edirdi.

R.Elinin tövsiyəsi ilə Minnesota ştatının yenicə açılmış universitetində vəzifə alaraq, Hansen özünü bütövlükdə müəllimlik və tədqiqat işinə həsr etmişdir. **1927-ci** ildə onun birinci böyük monoqrafiyası – "İqtisadi tsiklin nəzəriyyəsi, onun inkişafı və müasir vəziyyəti" [9] işıq üzü görür. Əgər doktorluq dissertasiyasında tsikillərin səbəbləri pul kütləsinin tərəddüdləri ilə əlaqələndirilirdisə, artıq indi tsikl daha mürəkkəb hadisə kimi göz önünə gəlir: onun səbəblərini Hansen texnologiyalarda, hüquq strukturunda və istehsalın təşkil edilməsində baş verən dəyişikliklərlə əlaqələndirir. Monetar interpretasiya institusionalist interpretasiyası ilə əvəz olunur. Bununla yanaşı, o zamanlar hökmranlıq etmiş neoklassik cərəyan Hansenə ciddi təsir göstərməkdə davam edir. Belə ki, P.Samuelsonun dəlillərinə görə, 1927-ci ildə Hansen, Seyin "bazarlar qanununun" (makrosəviyyədə tələb və təklifin avtomatik uyğunluğu haqqında) tərəfdarı qalmaqda davam edirdi və məhz o, bazarda aşağı alıcılıq qabiliyyətinin mövcud olmasına görə işsizliyin mümkünsüzlüyü haqqında bəyanatlarla çıxış edirdi [6]. Böyük depressiya ərəfəsində Hansen, həmçinin tsiklik tərəddüdlərin yaranmasına səbəb olan **"dinamik faktorların yumşaldılması"** haqqında da yazırdı, bu isə o vaxtlar xüsusilə qeyri-real görünürdü.

1928-ci ildə Hansen, görünür ki, tədris məqsədilə F.Karverlə birgə standart adlı **"İqtisadi nəzəriyyənin prinsipləri"** kitabını dərc etdirir, burada olduqca geniş və müfəssəl formada o, neoklassik məktəbin baxışlarını və konsepsiyalarını ifadə edir. Ancaq bir neçə il keçəndən sonra alim bir çox neoklassik doqmaları (ehkamları) tənqid edir. Belə ki, böhranlardan ən

nəhənginin təsiri altında ərsəyə gəlmiş **“Qeyri-dayanıqlı dünyada iqtisadi sabitlik”** (1932-ci il) elmi işində Hansen ümumi həddən artıq istehsalın mümkünsüzlüyü haqqında tezisi və onunla birgə **Seyin “bazarlar qanunu”** ilə bağlı olan bütün instrumentarini (vasitə və alətlər komplektini) qətiyyətlə rədd edir. Fəsillərin birində Hansen birbaşa qeyd edir ki, “qiymətlərin və əməkhaqqının qeyri-çevikliyi” ilə struktur işsizliyin mövcud olmasını izah etmək mümkün deyildir. Neoklassik məktəbinin nüfuzuna olan inam həmişəlik pozulmuş oldu. Ancaq yalnız daha bir neçə il keçəndən sonra Hansen özü üçün yeni doktrinanı tapmağa müvəffəq olmuşdur.

Hansen keynsçiliyə qətiyyən dərhal gəlmədi. Keynsin əsas elmi işlərinə onun ilk resenziyaları (tənqidi rəy) kifayət qədər soyuq olmuşdur. Bundan əlavə, bioqrafların qeyd etdiyi kimi, 1937-ci ildə Harvard universitetinə professor vəzifəsinə ona görə dəvət edilmişdir ki, yerli konservativ rəhbərlik onu ilk əvvəl Keynsin əlehdarı kimi dərk edirdi.

Necə olursa olsun, ancaq Harvarda keçid amerikalı alimin yaradıcılığında dönüşün baş verməsinə dəlalət edir. Qismən də olsa “Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi” kitabında ifadə olunmuş nəzəri arqumentlərin və qismən də, laissez faire[7] epoxasının (dövrünün) başa çatmasını hər yerdə göstərən dünya təcrübəsinin təsiri altında Hansen qatı və ardıcıl keynsçı olur və yeni konsepsiyanın canla-başla müdafiə etdiyinə görə *“amerikalı Keyns”* ləqəbini alır.

İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Ceyms Tobin qeyd etdiyi kimi, **“Elvin Hansen** heç vaxt prezidentlərə və siyasətçilərə yaxın olmayıb və heç zaman yüksək dövlət təsisatına rəhbərlik etməmişdir[7]. Ancaq çətin ola bilsin ki, 1935-ci ildən başlayaraq 1965-ci ilə qədər Birləşmiş Ştatların makroiqtisadi siyasətinin yönəldilməsinin dəyişməsi üçün bu qədər əhəmiyyətli rolu olan digər bir amerikalı iqtisadçı tapılsın”[7].

Hansenin ABŞ-ın ictimai-siyasi həyatına təsir etməsi ilk növbədə müəllimlik fəaliyyəti vasitəsilə həyata keçirilirdi. 1937-ci ildən 1957-ci ilə qədər, yəni istefaya getməsinə qədər, E.Hansen C.Uilyamsonla birgə Harvardda vergi siyasətinə dair nəzəri aspirant seminarı aparırdı (faktiki olaraq - ümumilikdə makroiqtisadi siyasət üzrə). Seminar ali inzibatçıların və görkəmli alimlərin, sözün əsl mənasında, məktəbinə çevrilmişdir. Hansen-Uilyamsonun seminarına iqtisadiyyat üzrə gələcək Nobel mükafatçıları P.Samuelson, C.Tobbin, iqtisadi dinamikanın nəzəriyyəçisi E.Domar, Amerika institusionalizmin gələcək lideri C.K.Helbreyt gəlirdilər. P.Samuelsonun məlumatlarına əsasən, milli gəlir nəzəriyyəsinin inkişaf etdirilməsində sonralar həlledici rol oynamış iqtisadçılar arasında təqribən üç nəfərdən ikisi E.Hansenin məşğələlərində iştirak edirdilər [8].

Maraqlıdır ki, Hansen keynsçiliyin nəzəri inhisarçılığını tətbiq etməyə çalışmırdı; onun şagirdlərinin dediklərinə görə, alim keçirdiyi seminarlara ən müxtəlif baxışlara malik olan insanları dəvət etməyi xoşlayırdı. Hansenin sparrinq-partnyoru (tərəfdar**)** C.Uilyamson keynsçiliyə qarşı həmişə skeptik (şəkk-şübhə) yanaşırdı, bu səbəbdən seminarlardakı məşğələlər çox vaxt əsl intellektual yarışa çevrilirdi. Hamı Hansenə xas olan "izah edilmənin qeyri-aqressiv tərzini" qeyd edir. Xeyli il keçəndən sonra professor Uilyamson xatırlayırdı ki, Harvardın müəllimlərindən heç biri Hansen qədər dinləyicilərlə auditoriyadankənar iş üçün bu qədər vaxt və güc sərf etmirdi. Təsadüfi deyil ki, məhz Hansen tərəfindən aparılan seminarda **P.Samuelson ilk dəfə məruzə ilə çıxış edərək, multiplikatorun və akseleratorun birləşdirilməsi prinsipini ekonometrik model şəklində ifadə etmişdir.** Məhz burada E.Domar artımın yenilikçi modellərinin müəllifi qismində cıxış etmişdir və sair.

"Amerikalı Keyns" – Hansen, həmçinin yeni nəzəri doktrinanın populyarlaşdırıcısı kimi məhşurdur. Keynsçiliyin nəzəriyyəsi onun tərəfindən aşağıdakı monoqrafiyalarda ifadə olunur: ***"Tam bərpaolunma, yaxud staqnasiya?" (1938-ci il),***

"Vergi siyasəti və iqtisadi tsikllər" (1941-ci il), "İqtisadi siyasət və tam məşğulluq" (1947-ci il), "Pul nəzəriyyəsi və maliyyə siyasəti" (1949-cu il). Hamı E.Hansenə xas olan son dərəcə praktisizmi (təcrübəyə geniş miqyasda fikir vermə) qeyd edirlər. ***Onun elmi əsərlərində abstrakt mülahizələrə, darıxdırıcı akademik ətalətə rast gəlmək mümkün deyil. Onun dili – faktlar, çoxsaylı əyani təsviredici qrafiklərin, cədvəllərin dilidir və bunun sayəsində alim öz oxucularını lazımi nəticələrə olduqca məharətlə yaxınlaşdırır. (Ola bislin ki, məhz buna görə dinləyicilər bu professorla olan məşğələləri "təmiz havanın nəfəsi" kimi dəyərləndirirdilər).***

Ceyms Tobin əsl "Hansen inqilabı" haqqında iqtisadi siyasət müstəvisində yazır. Məhz bu mənada Hansenin səyləri nəticəsində Amerika Birləşmiş Ştatları keynsçiliyin vətəni – Böyük Britaniya ilə müqayisədə "daha çox keynsçi ölkə" olmuşdur. E.Hansen, ilk növbədə, Ruzvelt administrasiyasının görkəmli nəzəriyyəçisi olmuşdur. Müharibədən sonra Birləşmiş Ştatların akademik dairələrində məhz E.Hansen "tam məşğulluq uğrunda mübarizə"yə başçılıq etmişdir. Bu mübarizələrin nəticələrindən biri xüsusi "**Məşğulluq haqqında akt" (1946-ci il)** olmuşdur. Burada işsizliklə mübarizənin aparılması hökumətin birincidərəcəli vəzifəsi olaraq müəyyən edilmişdir. Tədricən səmərəli tələbin stimullaşdırılmasının digər metodları da təcrübəyə daxil edilməyə başlamışdır: ucuz pullar prinsipi (aşağı faiz dərəcəsi), iri dövlət xərcləri prinsipi, fəal vergi siyasəti prinsipi və sair. Ötən əsrin 50-ci illərinin əvvəllərində yenicə seçilmiş prezident D.Eyzenxauer (Respublikaçılar partiyasının lideri) prokeynsçiyönümlü demokratlardan administrasiyanı təmizləmək qərarına gələndə aydın olmuşdur ki, bunu həyata keçirmək mümkün deyil, çünki seçilmiş namizədlər sırasında bir çoxları da məhz "amerikalı Keynsin", yəni E.Hansenin ideyaları təsiri altında idi. XX əsrin 60-cı illərində Con Kennedi və L.Consun administrasiyasının

iqtisadi siyasəti artıq qeyri-şərtsiz keynsçi siyasətini təşkil edirdi.

Öz xatirələrində B.Selent müharibədən sonrakı ilk on-illiklərdə Amerika Birləşmiş Ştatlarının administrasiyalarında ən yüksək vəzifələri sadalayır, maraqlısı odur ki, həmin vəzi-fələri vergi siyasəti üzrə Harvard seminarının müdavimləri tu-turdu. Siyahı olduqca geniş alındı, bu faktın özü də Hansenin fəaliyyətinin Birləşmiş Ştatlar hökumətinin iqtisadi kursuna nə dərəcədə təsir göstərməsinin bariz nümunəsidir.

Ancaq Hansen təkcə keynsçiliyin ən böyük populyarlaş-dırıcısı [6], habelə fəal makroiqtisadi siyasətinin praktiki tədbirlərin müəllifi və təkmilləşdiricisi kimi məşhurluq qazan-mayıb, o, həm də görkəmli iqtisadçı-nəzəriyyəçi kimi də böyük şöhrət əldə etmişdir.

P.Samuelsonun bəyanatına əsasən, "professor Han-sen gəlirin müəyyən edilməsi nəzəriyyəsinə və ümumilikdə makroiqtisadiyyata daha əhəmiyyətli və orijinal töhfələr bəxş etmişdir" [8].

Hansenin mövqelərini Ruzvelt siyasətinin "akademik apologiyası" və "məsuliyyətsiz kollektivizm"in [9] bəhanəsi kimi lağa qoyan klassik nəzəriyyənin tərəfdarları onu, daha çox, staqnasiolizmin nəzəriyyəçisi qismində təqdim etməyə çalışırlar. Həqiqətən də, onun ötən əsrin 30-cu illərin əvvəlin-dən başlayaraq 40-cı illərə qədər bir sıra elmi əsərlərində heç də ürək açan olmayan proqnoz yer alır: Hansen hesab edirdi ki, əhalinin yavaşıdılmış artımı, xam torpaqların, faydalı qazın-tıların yataqlarının tam istifadəyə cəlb olunması, eləcə də texniki tərəqqinin ləngidilməsi cəmiyyətin bütün mövcud olan əmanətlərini mənimsəməyə imkan vermir. Buna görə kapitaliz-min staqnasiya dövrünə - milli gəlirin və rifah halının olduqca ləng, ancaq sabit artımı dövrünə daxil olmaq təhlükəsi yaranır.

Heç bir şübhə yoxdur ki, həm Hansenə, həm də Keynsə XX əsrin 30-cu illərdə baş vermiş depressiyanın səciyyəvi şərtləri təsir edirdi. İnkişafın olduqca zəif templərinin eks-

trapolyasiya üsulu gələcək üçün, sözsüz ki, yanlış olmuşdur. Lakin staqnasiolizm konsepsiyalarının Hansenin baxışlarına və əqidəsinə olan təsirini şişirtmək də olmaz. Müharibədən sonrakı sürətli artım şəraitində o, praktiki cəhətdən ümumiyyətlə hiss edilmirdi. Həmçinin, bəzi şərhçilər (P.Samuelson, B.Seliqmen) qeyd etdikləri kimi, "Hansen heç vaxt inanmırdı ki, staqnasiya həqiqətən də baş verəcək: o hesab edirdi ki, səmərəli tələbin çatışmazlığına doğru istənilən hər hansı tendensiya makroiqtisadi siyasət vasitəsilə aradan qaldırıla bilər"[8].

Staqnasiolizm ideyalarının təsir göstərməsinin öhdəsindən gələrək, E.Hansen müharibədən sonrakı dövrdə, ilk növbədə, tsiklin keynsçi konsepsiyasının müəllifi kimi qəbul edilir. Qeyd edək ki, sözügedən həmin konsepsiya iqtisadi dinamikanın tərkib hissəsi qismində daha geniş sinfə daxildir. Bu qismdə dörd hissədən ibarət olan "İqtisadi tsikillər və milli gəlir" (1951-ci il) fundamental monoqrafiya ona dünya şöhrəti gətirmişdir:

1. İqtisadi tsikllərin təbiəti
2. Gəlir və məşğulluq nəzəriyyəsi
3. İqtisadi tsikllərin nəzəriyyəsi
4. İqtisadi tsikllər və dövlət siyasəti.

Birinci hissədə E.Hansen, Amerika Birləşmiş Ştatlarının iqtisadi tarixi məlumatlarına əsaslanaraq, tsikllərin çoxluğu konsepsiyasını ifadə edir. Onun qənaətinə, Birləşmiş Ştatların xalq təsərrüfatının inkişafına dair məlumatlar tsiklik tərəddüdlərin ən azı dörd modelini qeyd etməyə imkan verir:

1) "kiçik tsikllər" – 2 ildən 3 ilə qədər, onlar dövriyyə kapitalının təkrar istehsalının qeyri-bərabərliyi ilə törədilir (kapital qoyuluşlarının tərəddüdlərinin bazası üzərində əmtəə-maddi ehtiyatlarına);

2) "böyük tsikllər" – 6-13 il, onların yaranma səbəbi əsas kapital qoyuluşlarına qeyri-müntəzəmliyindən ibarətdir;

3) "tikinti tsiklləri" – orta hesabla 17 ildən 18 ilə qədər tərəddüd amplitudası 16 ildən 20 ilə qədər olmaqla davam edir

[10]. (Tsiklin bu modeli yalnız binaların inşa edilməsinə aiddir. Hansenə görə, burada tərəddüdlər mexanizmi aşağıdakı kimidir: ehtimal edək ki, bazarda hər hansı bir anda mənzil sahələrinin çatışmazlığı aşkar olunub. Bazar buna yaşayış sahələrinə olan qiymətlərin artması və mənzil kirayə haqlarının yüksəlməsi ilə cavab verir. Mənzil tikintisinə yatırılan investisiyaların həcmi kəskin surətdə artır. Təməli qoyulmuş evlərin sayı tələbin ödənilməsi baxımından kifayət edər, ancaq bir halda ki, onlar hələ də tam inşa edilməyərək istismara verilməyib, yaşayış sahələrinə olan qiymətlər və mənzillərin kirayəhaqqı artmaqda davam edir. Tikintidə süni canlanmanın çarxı öz hərəkətini gücləndirdikcə yeni tikiləcək evlərin get-gedə daha çox təməli salınır. Bir gün tələbin ödənilməsinə tam kifayət edən yeni binaların bir hissəsi istismara verilir, mənzil haqları və qiymətlər aşağı düşür, lakin təməli yenicə qoyulmuş binaların inşası davam etdirilir – tikinti sənayesində həddindən artıq istehsal və tənəzzül məhz belə yaranır (tikinti tsiklləri yeni binalarda yaranan tələbatla bu tələbatın təmin edilmə anı arasında yaranan zaman kəsiyinin mövcud olması ilə törədilir);

4) "əsrlik tsiklik dalğalar" – onların müddəti yarım əsrdən başlayaraq və daha çox olur – texnikada yaranan fundamental dəyişiklikləri, istehsalda böyük tərəqqi ilə törədilir.

"Tsikillərin çoxlluğu" nəzəriyyəsinin bazasında Hansen çox maraqlı və özünəməxsus tərzdə 1929-1933-cü illərdə baş vermiş iqtisadi böhranın və sonrakı tənəzzülün səbəblərini izah edir.Onun fikrinə görə, istehsalın aşağı düşməsinin dərinliyi ona görə bu dərəcədə əhəmiyyətli olmuşdur ki, ötən əsrin 30-cu illərinə böyük və tikinti tsikllərinin enən dalğaların birləşməsi təsadüf edir.Bu labüd və qaçılmaz təsadüf kənd təsərrüfatında işlərin vəziyyətinin ağırlaşması ilə də tamamlanırdı ("əsrlik tsikllərin" tərəddüdləri prosesində). Hansenə görə, dünya bazarının kənd təsərrüfatı sektorunda əsrlik tərəddüd aşağıdakı kimi inkişaf edirdi: 1873-1896-cı illərin uzunsürən tənəzzülü;

1896-1920-ci illərin tərəqqi və firavanlıq dövrü; 1920-1939-cu illərin növbəti ağır vaxtlar dövrü.

Tsiklik tərəddüdlərin modellərinin və, xüsusilə də, 1930-cu illərdə baş vermiş "Böyük tənəzzülün" səbəblərinin Hansen tərəfindən izah edilməsinə müxtəlif nöqteyi-nəzərlərdən yanaşmaq olar (bir çox iqtisadçılar hesab edirlər ki, tsikllərin üç növündə enən dalğaların təsadüf nəticəsində üst-üstə düºməsinə istinadlar kifayət qədər inandırıcı deyil). Lakin görməmək mümkün deyil ki, "tsikllərın çoxluğu" nəzəriyyəsi zəngin tarixi materialın son dərəcə dəqiq öyrənilməsinə və ümumiləşdirilməsinə əsaslanır. Həmçinin "Böyük tənəzzül"ün baş verməsinin və bununla bilavasitə əlaqədə olan bir çox səbəblərin aşkara çıxarılması yolu ilə izah rdilməsi cəhdinin özü də səmərəli görünür.

Özünün xarakterinə görə Hansenin tsikillər nəzəriyyəsi investisiya nəzəriyyəsidir. Çünki mal ehtiyatlarına, əsas kapitala, binaların tikintisinə və sairlərə həyata keçirilən kapital qoyuluşlarının məhz qeyri-müntəzəmliyi və qeyri-bərabərliyi, bu iqtisadçının fikrincə, tsiklik səciyyəvi tərəddüdlərin əmələ gəlməsinə səbəb olur. Lakin belə nöqteyi-nəzər aşağıdakı suala cavab vermək zəruriyyətindən azad etmir: *investtisiya qeyri-müntəzəmliyinin özü nələri törədir?*

Bu suala Hansen müxtəlif formada cavab verir. Ən ümumi şəkildə, ekonometrik adlandırılan təhlil əsasında iqtisadçı-alim"**geriləmə və qabaqlama**" mexanizminə istinad edir. İqtisadi "servosistem", yaxud əks-əlaqəyə malik olan sistem, ümumilikdə və vahid formada dinamik tarazlığın vəziyyətinə doğru meyil göstərir, (deyək ki, tələb) ancaq qarşılıqlı əlaqədə olan faktorlaran biri (məsələn, təklif) buna dərhal deyil, əhəmiyyətli dərəcədə gecikmə ilə reaksiya verir. "**Geriləmə və qabaqlama"** uyğunlaşdırması iqtisadi sistemdə **"vurnuxma" (hunting)** hallarının, yaxud tarazlılıq vəziyyəti ətrafında permanent tərəddüdlərin əmələ gəlməsinə səbəb olur (konkret olaraq "vurnuxma" – tələbin təklifə tsiklik uyğunlaş-

dırılmasının mexanizmi yuxarıda – tikinti tsikllərinin misalında təsvir edilmişdir.)

Lakin tsiklin belə interpretasiyasında keynsçilik ucün spesifik olan hələ heç bir şey yoxdur və Hansen onunla (həmin interpretasiya ilə) qətiyyən məhdudlaşmır.

Təhlil edilən kitabın artıq ikinci hissəsində o, keynsçilik mövqelərinə əsaslanaraq investisiya tərəddüdləri mexanizminin müfəssəl izahını verir. Hansen üçün başlanğıc kateqoriya qismində burada sərbəst (avtonom) investisiyaların kateqoriyası çıxış edir; onlar buna görə belə adlandırılır ki, təsərrüfat konyunkturasından birbaşa asılı deyillər. Hansenə uyğun olaraq, **avtonom investisiyaların** əsas və başlıca səbəbi kimi elmi-texniki tərəqqi çıxış edir. Ancaq başqa səbəblər də mümkündür: bazarda əmək təklifinin dəyişməsinə səbəb olan demoqrafik yerdəyişmələr, faydalı qazıntıların yeni yataqlarının kəşfi, yeni təsərrüfat sahələrinin dövriyyəyə cəlb olunması.

Avtonom (sərbəst) investisiyalar multiplikator mexanizmini işə salır. Ən ümumi halda multiplikator (m) avtonom investisiyalarla törədilmiş gəlirin və həmin avtonom investisiyaların özlərinin kəmiyyətlərinin nisbətini ifadə edir, yəni:

$$\frac{\Delta Y}{\Delta I_{avton}}$$

Azad işçi qüvvəsinin və əlavə güclərin mövcudluğu şəraitində hər hansı bir sahədə investisiyalar həcminin artımı, gəlirlərin yüksəldilməsinə təkcə həmin sahədə deyil, həm də bu sahə ilə bağlı və əlaqəli olan sahələrdə də səbəb olur, çünki ora tələbin əlavə impulsu yönəldilir. Nəticədə gəlirin ümumi artımı avtonom investisiyaların ilkin artımından daha böyük ola bilər. Kəmiyyətcə bu qarşılıqlı bağlılığı məhz multiplikator müəyyən edir.

Multiplikator – Qərbin iqtisadi ədəbiyyatında nisbətən yeni yaranmış kateqoriyadır. İlk olaraq bu mexanizm ingilis

iqtisadçısı **R.Kan** tərəfindən 1931-ci ildə təsvir edilmişdir. Multiplikatorun mexanizminə C.M.Keynsin "Məşğulluğ, faiz və pulun ümumi nəzəriyyəsi"ndə də istinad olunur.

Multiplikatorun kəmiyyəti nədən asılıdır? Keynsin ardınca Hansen cavab verir: istehlakla bağlı son hədd meylindən. Avtonom investisiyalar nəticəsində yaranmış gəlirin hissəsi nə qədər çox istehlak olunsa, bir o qədər də əlaqəli sahələr artım üçün impulslar alacaqlar. Bu qarşılıqlı bağlılıq həm də formal şəkildə təsvir edilə bilər: bir halda ki, keynsçilik nəzəriyyəsinə əsasən:

$$\Delta I = \Delta Y - \Delta C,$$

deməli:

$$m = \frac{\Delta Y}{\Delta I} = \frac{\Delta Y}{\Delta Y - \Delta C} = \frac{I}{1 - \Delta C / \Delta Y} \quad \text{burada} \quad \frac{\Delta C}{\Delta Y}$$

istehlakla baglı son hədd meylidir.

İqtisadiyyatda multiplikatora əks olan qarşılıqlı bağlılıq da mövcuddur – akselerator effekti. Məsələ burasındadır ki, gəlirin artması yalnız investisiyaların artması ilə tərədilmir, onun özü də investisiyalar həcminin artımına səbəb ola bilər. Doğrudur, belə olan halda söhbət artıq avtonom deyil, stimullaşdırılmış, yəni gəlirin artmasından, təsərrüfat konyunkturasından asılı olan investisiyalar barədə gedəcək.

Akselerator effekti ilk dəfə fransız iqtisadçısı Alber Aftalion tərəfindən 1909-cu ildə təsvir edilmişdir. Akseleratorun düsturu belədir:

$$a = \frac{\Delta I_{STİM}}{\Delta Y} .$$

İndi, Hansenə uyğun olaraq, iqtisadiyyatda yüksəliş fazasını izah etmək üçün bizdə zəruri olan hər bir şey var: qoy

elmi-texniki tərəqqi istənilən hər hansı sahələrin birində avtonom investisiyaların müəyyən bir həcminin yaranmasına səbəb olsun; multiplikator mexanizmi vasitəsilə bu investtisiyalar milli gəlirin artımı ilə tamamlanır, həmin bu artım isə, öz növbəsində, (akseleratorun mexanizmi vasitəsilə) stimullaşdırılan investisiyaların daha da böyük artımını törədir. İqtisadiyyat yüksəlişə doğru gedir, onun daxilində süni canlanma çarxı get-gedə daha yüksək sürətlə fırlanmağa başlayır.

Multiplikatorun və akseleratorun qarşılıqlı təsir mexanizmini Hansen hədsiz dərəcədə kumulyativ proses, "ən yüksək multiplikator" sistemi adlandırır. Daha sonra o yazır: "Əgər investisiyaların təkamülü verilibsə, multiplikator bizə gəlirin necə inkişaf edəcəyi haqqında xəbər verəcək. Əgər gəlirin təkamülü verilibsə, onda akselerator bizə investisiyalar davranışının necə olacağı haqqında deyəcək. Multiplikator və akselerator birgə olaraq özlərinin müəyyən tərifini birləşdirirlər və biz tamamlanmış dinamik nəzəriyyəni əldə edirik. Onlar istənilən hər hansı bir tsiklik ekonometrik nəzəriyyənin əsas strukturunu təşkil edir. Bundan əlavə, belə nəzəriyyə bizə ekzogen faktoru birləşdirməyə imkan verir – avtonom investisiyaların həyata keçirilməsinin endogen faktorlarla – multiplikator və akseleratorla" [10].

Lakin əgər multiplikator və akselerator mexanizmləri bir-birini tamamlayır və hətta dəstəkləyirsə, onda nəyə görə yüksəliş daimi olmur? Niyə gec və ya tez yüksəlişdən tənəzzülə doğru dönüş baş verir? "Dönmə mexanizminin" izah edilməsi zamanı (yeri gəlmişkən, R.Harrodun artım nəzəriyyəsində onlar ümumiyyətlə yox idi) ***E.Hansen iki səbəblər qrupu üzərində öz diqqətini cəmləşdirir.*****Birinci** avtonom (sərbəst) investisiyaların tükənməsi ilə əlaqədardır. Hansenə görə, bu proses kapital qoyuluşların səmərəliliyinin aşağı düşməsi (yəni investisiyaların hər bir növbəti payının onların həcminin artması ilə rentabelliyinin azalması), süni canlanma mərhələsində faiz normasının artması və nəhayət, investisiya

əmtəələrinə olan qiymətlərin yüksəlməsi ilə şərtləndirilir**. İkinci səbəb** istehlaka olan son həddmeylin azalmasına aiddir, çünki Keynsin əsas psixoloji qanununa uyğun olaraq, yüksəliş mərhələsi üçün təbii hesab olunan gəlirlərin artması ilə istehlak meyilləri azalır, əmanətlərin yığılmasına həvəs isə artmağa başlayır. Yuxarıda artıq qeyd edilmişdir ki, hadisələrin bu cür gedişi **multiplikatorun (*m*)** azalmasına gətirib çıxarır, çünki **1 / 1 – *r*,** burada *r*– **istehlaka olan son hədd meylidir (Δ*C* / Δ*Y*);** lakin gəlirlərin artması və artımın ötürücü (avtonom investisiyalardan) müxanizmin işinin pisləşməsi həm də yüksək multiplikatora də yayıla bilər. Hansen yazır***: "Əgər biz multiplikator-akseleratorun qarşılıqlı təsirliyin birləşdirici sistemini K*simvolu ilə işarələsək, onda bu sistemin fəaliyyət göstərməsinin bütün effekti aşağıdakı kimi ifadə olunacaq: K* ΔI = ΔY" [10]. A***sanlıqla qöstərmək olar ki, istehlakla bağlı olan son hədd meyli nəinki, sözün dar mənasında, multiplikatordan hətta yuksək multiplikatordan da əks asılılıqdadır.

Artıma doğru ilkin impuls (avtonom investisiyalar) getgedə daha zəif təsir göstərir, həmçinin ötürücü mexanizm də (multiplikator və akselerator) daha aşağı faydalı iş əmsalı ilə işləyir. Artım dayanır və iqtisadiyyat tənəzzülə doğru dönməyə başlayır, çünki "avtonom investisiyalar tükənəndə, gəlir təkcə avtonom investisiyalar məbləğinə deyil, həm də onlar tərəfindən stimullaşdırılmış istehlak məbləğinə və stimullaşdırılmış investisiyalar məbləğinə azalır (multiplikator və akselerator bu zaman əks istiqamətdə işləyirlər)" [10].

Yeni yüksəliş o vaxt başlayır ki, tənəzzül mərhələsində, hər şeydən əvvəl, texniki təkmilləşdirmələrdə yeni avtonom investisiyalar üçün tədricən impulslar toplansın. Bundan əlavə, tənəzzül mərhələsində gəlirdə istehlakın payı kəskin surətdə artır (gəlirin azalması ilə istehlakla bağlı olan son hədd meyli bir ədəd vahidinə yaxınlaşır). Faiz normasının aşağı düşməsi, əsaslı (kapital) nemətlərə qiymətlərin azalması da

həmçinin iqtisadiyyata avtonom investisiyaların yeni miqdarda daxil olunmasını asanlaşdırır, güclü multiplikator isə ümumi artım tendensiyasının möhkəmləndirilməsinə səbəb olur.

Hansen burada ifadə olunmuş tsikllər nəzəriyyəsini inteqral nəzəriyyə adlandırır və güman edir ki, həmin bu nəzəriyyə o zamanlar mövcud olmuş dünya iqtisadi təfəkkürün bütün nailiyyətlərini ehtiva edir. Bu nailiyyətlərin tarixinin təhlili **"İqtisadi tsikllər və milli gəlir"** kitabının üçüncü hissəsini təşkil edir. Hansenin fikrincə, tsikllər nəzəriyyəsinin mövcud olan əsas elementlərinin və elmi əhəmiyyətli dərəcədə zənginləşdirmiş müəlliflərin qısa siyahısı aşağıdakı kimi ola bilər:

1.İnvestisiyaların miqdarında tərəddüdlərin rolu **(Tuqan-Baranovski, Şpitoff, Kassel, Robertson).**

2.İnvestisiya qoyuluşu determinantlarının təhlili**:** pulun faiz normasının nisbətində götürülmüş təbii norma, yaxud investisiyaların son həddə səmərəliliyinin və pulun faiz normasının qrafiki **(Viksel, Keyns).**

3.İnvestisiya qoyuluşunun determinantları kimi dinamik faktorların - texnikanın, təbii resursların, ərazilərin genişləndirilməsinin və əhali artımının rolu: (**Şpitoff, Harrod).**

4.İnvestisiya qoyuluşunun dəstələrdən (hissələrdən) ibarət olması xüsusiyyəti yeniliklərin tətbiq olunması sahəsində baş verən fəaliyyətlə törədilən hadisənin "sürü" səciyyəvi olması ilə şərtləndirilir **(Şumpeter).**

5.İstehsalın kapitalist üsulu (əsas kapital elementlərinin istehsal edilməsinə uzun müddətin tələb olunması) və akselerasiya prinsipi **(Aftalion, Piqu, C.M.Klark).**

6.İlkin impulslar və iqtisadiyyatın strukturu ilə şərtləndirilmiş tsiklik hərəkətlərin yayılması **(Viksel, Piqu).**

7.İnvestisiya multuplikatoru və istehlak funksiyaları **(Kan, Keyns).**

8.İqtisadi dəyişənlərin qarşılıqlı bağlılığı – ekonometrik modellər **(Tinbergen, Friş, Samuelson, Hiks, Kleyn və başqaları)** [10].

Hansen tərəfindən həyata keçirilmiş tarixi iqtisadi təhlil olduqca maraqlıdır, lakin tsiklik tərəddüdlərin inteqral nəzəriyyəsinin yaradılmasına onun iddialarını bir qədər şişirdilmiş hesab etmək lazımdır. Birincisi, ***Hansesnin*** yuxarıda ifadə edilmiş konsepsiyası, iqtisadi dinamikanın bütün keynsçi nəzəriyyələri kimi, təkrar istehsal prosesinin sosial formasından, beləliklə də, kapitalist istehsal üsulunun xüsusiyyətlərindən və ziddiyyətlərindən əsaslı surətdə təmizlənib. Konkret olaraq bu, xüsusən, istehsalın və fərdi istehlakın hərəkətinin mübahisəli formasının lazımınca qiymətləndirilməməsində, böhran zamanı uyğunluqların və nisbətlərin zorakı kəskin (Hansendə olduğu kimi rəvan deyil, məhz kəskin) bərpa edilməsi üsulunda və bir çox digər məqamlarda özünü büruzə verir. Bundan əlavə, amerikalı iqtisadçının elmi işində tsiklin təhlili qiymətlərin artım prosesindən və inflyasiyanın inkişafından faktiki olaraq ayrı aparılırdı. Sonuncu hal dinamikanın keynsçi nəzəriyyəsinin tarixi müqəddəratında, sözün əsl mənasında, həlledici rol oynamışdır.

Əgər Hansenin nəzəriyyəsini əvvəllər Qərbin iqtisadi təfəkküründə tsikllər və böhranlar haqqında hökm sürmüş təsəvvürlərlə müqayisə etsək, onda biliklərin artırılmasındakı irəliləyiş aşkar və bəlli olacaqdır. Əslində, 1930-cu illərin əvvəlinə qədər Qərbdə makroiqtisadiyyat sferasında **J.B.Seyin "bazarlar qanunu"** adlandırılan məfhuma əsaslanan neoklassik məktəb üstünlük təşkil edirdi (J.B.Sey, məlum olduğu kimi, təkrar istehsal böhranlarının mümkünlüyünü buna əsasən inkar edirdi ki, hər kəs digər əmtəələri əldə etmək üçün öz əmtəələrini əmələ gətirir, cəmiyyət miqyasında ümumi həddindən artıq istehsal mümkün deyil).

Tsiklik tərəddüdlərə gəlincə isə, onların baş vermə səbəbləri neoklassiklər tərəfindən kapitalist iqtisadiyyatından

kənara çıxarılırdı, sonuncu isə uşaq oyuncağı ilə müqayisə edilirdi – yellənən (öz-özünə hərəkət edən) atla, onun tərəddüdləri sırf zahiri səbəblərlə törədilir. Hansen, gördüyümüz kimi, ekzogen faktorların (avtonom investisiyaların) əhəmiyyətini inkar etmir, lakin o, "öz-özünə hərəkət edən endogen tsiklin", yəni tsiklik tərəddüdlərin daxili mexanizmlərin mövcud olmasını təkidlə bildirir. Onun kitabının nəticələrindən biri, xüsusən, belə səslənir: "Müasir təhlil aşkara çıxardır ki, iqtisadiyyat hələ də dinamik olaraq qalırsa, artım və tərəqqi tələbləri hələ də investisiyaların həyata keçirilməsinə böyük xərclər tələb edirsə, o vaxta qədər də tsiklik tərəddüdləri törədən nəhəng və əzəmətli qüvvələr fəaliyyət göstərəcək. Buna görə tsiklin özünü patoloji vəziyyət kimi nəzərdən keçirmək olmaz. O, müasir dinamik iqtisadiyyatın təbiətinə xasdır" [10].

Axırıncı iddia, çox güman ki, neokeynsçiliyin tsikllər nəzəriyyəsi üçün həlledicidir. Bununla yanaşı, o mövqelərin ifadə olunmasında bilavasitə əlaqəlidir: bir halda ki, tsikil inkişaf edən kapitalist iqtisadiyyatına daxilən xasdır, onun tənzimlənməsi üçün yalnız bazarın "görünməz əl"inin fəaliyyəti kifayət etməz, Hansen qeyd etdiyi kimi, "müsbət antitsiklik proqramın olması zəruridir"[10].

1.4. Dövlətin antitsiklik siyasəti

Neokeynsçilik mülkiyyət münasibətlərinə dövlətin birbaşa müdaxiləsini nəzərdə tutmur. Hansen tərəfindən ifadə edilmiş dövlət tənzimlənməsinin bütün tədbirləri tədavül sferasına və gəlirlərin yenidən bölüşdürülməsinə aiddir**.** Özünün antitsiklik proqramını Hansen artıq 1950-ci illərin əvvəllərinə mövcud olmuş təcrübənin əsasında formalaşdırır. Onun kitabında antitsiklik xarakterli tədbirlər əsasən üç rubrikalar əsasında qruplaşdırılıb:

1) çeviklik mexanizminin yeridilməsi (sabitləşdiricilər);

2) avtomatik şəkildə fəaliyyət göstərən kompensasiyaedici əks-tədbirlər;

3) idarə olunan kompensasiya proqramları.

Antitsiklik **siyasətinin birinci növü** (avtomatik sabitləşdiricilər) proqressiv gəlir vergisini, işsizlikdən sığorta sistemini, fermer təsərrüfatlarının məhsullarına olan qiymətlərin dəstəklənməsi sistemini əhatə edir. Hansen yazır: "Çeviklik mexanizmlərinin yeridilməsi avtomatik sistemi ifadə edir, bu sistem baş verən tərəddüdləri boğmaq iqtidarındadır, lakin tənəzzül vəziyyətindən əsl bərpa səviyyəsinə keçidin reallaşdırılmasına kömək etməkdə acizdir. Sistem iqtisadi vəziyyətin dəyişikliyinə avtomatik şəkildə reaksiya verir. O, şüurlu idarə olunmasını tələb etmir" [10].

Yüksəliş mərhələsində sərt proqressiv şkala ilə gəlir vergisinin əvvəlcədən təsbit edilmiş dərəcəsinin kəmiyyəti həmişə büdcə artıqlığı əmələ gətirəcəkdir: bu zaman gəlirlərin artımı büdcəyə vergi daxilolmalarının daha da böyük yüksəlişinin baş verməsi deməkdir (vergi qoyuluşunun proqressiv xarakter daşıdığına görə). Səmərəli tələbin bir hissəsi iqtisadiyyatdan "çəkiləcək", yüksəliş ləngiməyə başlayacaq. Bunun əksinə, tənəzzül mərhələsində büdcəyə vergi daxilolmaları gəlirlərlə müqayisədə daha böyük miqdarda azalacaq. Bu səbəbdən, baxmayaraq ki, gəlirlərin miqyasları mütləq şəkildə azalacaq, fərdi investorlar və istehlakçılar tərəfindən sərf edilə biləcək nisbi pay artacaq. Həmçinin tənəzzül mərhələsində iqtisadiyyata dövlət xərcləri vasitəsilə əlavə vəsaitlər daxil edilir (güzəştli kreditlər, dövlət tədarükləri, ictimai işlər sistemi və sair) – yüksəliş dövründə büdcədə həyata keçirilmiş yığım hesabına. Avtomatik sabitləşdiricilər sistemi süni canlanma dövründə səmərəli tələbin bir hissəsinin bazardan çıxartmaq və onu tənəzzül dövrünə köçürmək məqsədilə daxil edilir. Bununla süni canlanma tədricən ləngidiləcək, tənəzzül isə yumşaldılacaq.

Artıq qeyd edildiyi kimi, avtomatik sabitləşdiricilər sistemi, Hansenə görə, dövri tərəddüdlərin amplitudasını azaldır, ancaq o, gəlirin və məşğulluğun ümumi artımına keçidi təmin etmək iqtidarında deyil. Bunun üçün antitsiklik siyasətin ikinci növünün – avtomatik fəaliyyət göstərən əks-tədbirlərin tətbiq edilməsi gərəkdir. Qeyd etdiyimiz bu əks-tədbirlər ona görə belə adlandırılıb ki, onların həyata keçirilməsi üçün konqreslə əlavə razılaşdırılmanın əldə edilməsinə ehtiyac yoxdur. Əgər, məsələn, işsizlik 7 faizdən yuxarı qalxsa, keynsiançıların təkliflərinə uyğun olaraq, kompensasiyanın avtomatik tədbirləri dərhal tətbiq edilməlidir.

Tənəzzül mərhələsində tətbiq olunan bu cür tədbirlərə aşağıdakılar aiddir: faiz normasının azaldılması (Federal ehtiyat sistemi tərəfindən uçot dərəcəsinin azaldılması vasitəsilə); vergi dərəcələrinin ümumi azaldılması; Federal ehtiyatlar sistemi tərəfindən açıq bazarda dövlət istiqraz vərəqələrin alışı; fərdi (xüsusi) banklar tərəfindən Federal ehtiyatlar sisteminin sərəncamına verilməli olan ehtiyatların mütləq miqyasının azaldılması; federal hökumət tərəfindən təqdim edilən ssudaların miqdarının, ssudalar üzrə zəmanətlərin ümumi artımı və sair. İnflyasiya bumu mərhələsində qabaqcadan müəyyən edilmiş və şərtləndirilmiş inflyasiya hüdudunun yüksəlməsi zamanı əks səciyyəvi tədbirlərin həyata keçirilməsi zərurət doğurur.

Nəhayət**, üçüncü mərhələ** - tsiklin kompensasiya edilməsinin idarə olunan proqramıdır. Onun tətbiq edilməsinin üsulları və müddəti icra hakimiyyətinin və konqresin razılaşdırılması əsasında müəyyən olunur. Faktiki olaraq, söhbət büdcə tənzimlənməsi haqqında gedir, bu zaman (fərdi (xüsusi) investisiyaların və istehlakın artması illərində) dövlət xərcləri məhdudlaşdırıla və büdcə artıqlığı toplanıla bilərdi. Əksinə, tənəzzül dövrlərində işgüzarlıq fəallığının azaldılması, dövlət xərclərinin artırılması ilə kompensasiya edilə bilərdi, hətta büdcə kəsirinin əmələ gəlməsinə gətirib çıxarardı. Antitsikl siyasətinin digər növlərindən sonuncusu həyata keçirilmə üsulu

ilə fərqlənir. Məsələn, prezident konqres tərəfindən müəyyən edilmiş hüdudlarda gəlir vergisinin bazis dərəcələrini dəyişmək üçün səlahiyyətlər əldə edə bilər. Lakin bu, azad mülahizə nəticəsində təşəbbüs edilən bir hərəkət olacaq, bu hərəkətdə, avtomatik proqramların tətbiq edilməsindən fərqli, məcburiyyət olmayacaq[10].

Təkrar edək: bütün bu tədbirlər Hansenin ixtirası deyil, onlar faktiki olaraq (alimin yazdığı) kitab hələ işıq üzü görməzdən əvvəl təcrubədə tətbiq edilirdi. Hansen onları yalnız sistemləşdirib və ümumiləşdirib. Növbəti onillik ərzində, 1960-cı illərdə C.Kennedi və L.Conson prezidentləri dövründə tsiklik tərəddüdlərlə mübarizə siyasəti tam məşğulluğun və artımın maksimum mümkün olan templərin əldə edilməsi məqsədilə dövlət xərclərinin və büdcə kəsirlərin geniş şəkildə istifadə olunması strategiyası ilə tamamlanmışdır. Ümumilikdə iqtisadi dinamikanın keynsçi nəzəriyyəsi təcrübədə kifayət qədər bitkin və mükəmməl formada təcəssüm edilmişdir.

Son illərin dünya iqtisadi ədəbiyyatında artımın keynsçi siyasətinin və antitsiklik tənzimlənmənin qiymətləndirilməsi zamanı tənqidi yanaşma üstünlük təşkil edirdi. Bunun əsas səbəbi 1970-ci illərdə keynsçi nəzəriyyənin böhrana düçar olmasıdır, bu zaman büdcə kəsirləri strategiyası (kəsirli maliyyələşmənin) inanılmaz sürətlə artan inflyasiya proseslərində tamamlanırdı, iqtisadiyyatı milli üsullarla sabitləşdirmək cəhdləri isə dünya kapitalist təsərrüfatının qeyri-sabitliyi ilə pozulmuşdur (neft şokları, maliyyə-valyuta böhranı və sair). Lakin bu cür köklənmə haqlı hesab oluna bilməz. İqtisadi siyasətin istənilən növündən bütün zamanlarda səmərəlilik tələb etmək olmaz; kifayətdir ki, o, uzun müddət ərzində səmərəli olsun.

Bu nöqteyi-nəzərdən "keynsçiliyin" 50-60-cı illəri 80-ci illərlə müqayisə edildikdə, hətta daha üstün görünür, bu zaman inkişaf etmiş kapitalist ölkələrində konservativ iqtisadi siyasət həyata keçirilirdi – *reyqanomika və tetçerizmə* bənzər. Keynsçilik dövründə tənəzüllər daha zəif, artım isə daha yüksək

olmuşdur. Bu baxımdan ötən əsrin 60-cı onilliyi xüsusi olaraq səciyyəvidir, bu dövr ərzində Amerika Birləşmiş Ştatlarında ümumi milli məhsulun orta artım tempi 4-4,5 faizə çatırdı. 1980-ci illərdə bu göstərici 2-2,5 faizə qədər azalmışdır. Bu cür təqribən iki dəfəyə qədər baş vermiş azalmanı sadəcə olaraq artımın hər bir faizinin "çəkisinin" artması ilə izah etmək olmaz.

Neokeynsçiliyin iqtisadi siyasətinin aparıcı "sağ" tənqidçilərindən biri, məlum olduğu kimi, Çikaqo məktəbinin (Amerika monetarizminin) **rəhbəri** M.**Fridmendir**. Keynsçiliyin praktiki resepturasına qarşı bu alimin əsas etirazı ondan ibarətdir ki, həmin reseptura "baş verən dövrlərə uyğunlaşdırılmaq" prinsipinə əsaslanır: süni canlanma mərhələsində restriksion və antiinflyasiya tədbirləri həyata keçirilir, tənəzzül mərhələsində isə iqtisadiyyatın canlandırılmasına istiqamətləndirilmiş tətbirlərin həyata keçirilməsinə əl atılır. Fridmenə görə, belə bir siyasət tutarsız və əsassızdır, çünki hər hansı tədbirin həyata keçirilməsi ilə onun tətbiq edilməsinin real effektinin baş verməsi arasında "zaman boşluqları" mövcuddur. Sözügedən bu zaman boşluqları kifayət qədər böyük olduqlarına görə (0,5 ildən başlayaraq 1,5 ilə qədər) tənəzzülə qarşı yönəlmiş tədbirlər real olaraq yüksəliş dövründə təsir göstərmək iqtidarındadır və əksinə - yüksəlişə qarşı istiqamətləndirilmiş tədbirlərin təsir gücü tənəzzül mərhələsində özünü göstərməyə başlayacaq.

Fridmenə görə belə alınır ki, keynsin resepturası həmişə səmərəsiz idi, əslində isə o, yalnız ötən əsrin 70-ci illərində belə olmuşdur. Görünür ki, hər bir inkişaf etmiş iqtisadi sistemdə idarəolunmanın müəyyən həddi mövcuddur ki, bundan sonra həmin idarəetmə son dərəcə mürəkkəbləşir, nəticədə nisbətlərin mərkəzləşdirilmiş formada tənzimlənməsi cəhdləri öz əhəmiyyətini və mənasını itirir və, sadəcə olaraq, ümumi uyğunsuzluğu və nisbətsizliyi daha da artırmış olur. Qərbdə qeyd edilmiş hədd təqribən **1960-1970-ci** illərin astanasında

keçilmiş oldu və bu zaman elmi-texniki inqilabın baş verməsi məhsullar nomenklaturasının kəskin mürəkkəbləşməsinə, onların sürətlə əvəz edilməsinə, kiçik və orta biznesin əhəmiyyətinin artmasına, həndəsi silsilə ilə müəssisələrin sayının və ümumiyyətlə, idarə etmə obyektlərinin artmasına gətirib çıxarmışdır. Bu cür sistem (burada Fridmen, sözsüz ki, haqlıdır) mərkəzləşdirilmiş təsir tədbirləri ilə müqayisədə olduqca inersiondur və obyektiv olaraq tənzimlənmənin bazar mexanizmlərinə keçidini tələb edir. Məhz bu səbəbdən əvvəllər səmərəli olmuş keynsin tənzimlənmə tədbirləri sonradan öz effektivliyini və səmərəliliyini itirmiş oldu. .

Sonda qeyd edək ki, E.Hansenin nəşrləri və elmi işləri yalnız cari tənzimlənmənin proqramını əhatə etmir. Orada iqtisadi inkişafın uzunmüddətli strateji məqsədi ifadə olunub. Amerikalı alim, o cümlədən "imkanların bərabərliyinə fərdlərin (individumların) bütün növlərinin əldə olunmasına səmərəli imkanının demokratik idealı" haqqında yazırdı. Keyns və Harrod kimi, Hansen də tam bərabərliyə olan yönəltməni nə mümkün, nə də ki arzuolunan hesab etmirdi, lakin onlar kimi Hansen də "hal-hazırda mövcud olan nəhəng qeyri-bərabərliyi eliminasiya etməyi ən mühüm zərurət" hesab edirdi. Keyns kimi Hansen də fərdi investisiyaları iqtisadi artımın əsas vasitəsi kimi nəzərdən keçirirdi, lakin perspektivdə o, belə bir cəmiyyətə yönəlirdi ki, burada "iqtisadiyyatda tam məşğulluq yüksək ictimai və fərdi istehlakla birləşdiriləcək və uyğunlaşdırılacaq". *Hansenin sonuncu elmi işlərində sosial sferanın rolu xüsusilə qeyd edilirdi. O, məsələn, yazırdı: "İctimai xərclərin səviyyəsi aşağı olan bir ölkəni mənə göstərin və mən sizə həyat səviyyəsinin aşağı olduğu ölkənin adını çəkəcəm". Və daha bir sitat "Hətta Birləşmiş Ştatlarda belə, hesablandığı kimi, təhsil işinə qoyulmuş 100 dollar əməyin daha yüksək artımına səbəb olacaq, nəinki istehsal binalarına, tikililərə, maşın və avadanlıqlara qoyulmuş həmin bu 100 dollar".*

Nəticə

Müharibədən sonrakı illərdə, baş verən sürətli, lakin qeyri-bərabər inkişaf şəraitində Qərb iqtisadçıları **böhran** və **tənəzzül** üzərində deyil, ümumilikdə **tsiklin** özündə, onun dörd fazalarının, o cümlədən **canlanma** və **yüksəlişin** vəhdətində bütün fikirlərini cəmləşdirməli idi. Buradan da aydın oldu ki, iqtisadiyyat üçün inflyasiya bumu, uzunmüddətli tənəzzül qədər arzuedilməzdir, məhz buna görə də tsiklin bütün fazalarında onun tənzimlənməsinə ehtiyac var, lakin tsikli tənzimləmək üçün onun səbəblərini, fəaliyyət göstərməsinin daxili mexanizmini bilmək zəruridir. Beləliklə, həyatın özü və təcrübə neokeynsçilik nəzəriyyəsini tsiklik tərəddüdlərin xüsusi nəzəriyyəsinin işlənib hazırlanmasının zəruriliyinə doğru yaxınlaşdırmışdır.

Harrodun praktiki proqramına bu səbəbdən iki qrup tədbir daxildir: qısamüddətli planda **antitsiklik siyasət** (bu proqram "zəmanətli artım tempindən faktiki artım tempinin uzaqlaşdırılmasına" istiqamətləndirilib) və iqtisadi artım templərinin uzunmüddətli stimullaşdırılması siyasəti – onun əsas məqsədi zəmanətli artım tempinin təbii artım templərinə yaxınlaşdırılmasından, eləcə də kütləvi işsizliyə qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Hansenin mövqelərini Ruzvelt siyasətinin "akademik apologiyası" və "məsuliyyətsiz kollektivizm"in bəhanəsi kimi lağa qoyan klassik nəzəriyyənin tərəfdarları onu, daha çox, staqnasiolizmin nəzəriyyəçisi qismində təqdim etməyə çalışırlar. Həqiqətən də, onun ötən əsrin 30-cu illərin əvvəlindən başlayaraq 40-cı illərə qədər bir sıra elmi əsərlərində heç də ürək açan olmayan proqnoz yer alır: Hansen hesab edirdi ki, əhalinin yavaşıdılmış artımı, xam torpaqların, faydalı qazıntıların yataqlarının tam istifadəyə cəlb olunması, eləcə də texniki tərəqqinin ləngidilməsi cəmiyyətin bütün mövcud olan əmanətlərini mənimsəməyə imkan vermir. Buna görə kapitaliz-

min staqnasiya dövrünə - milli gəlirin və rifah halının olduqca ləng, ancaq sabit artımı dövrünə daxil olmaq təhlükəsi yaranır.

Staqnasionalizm ideyalarının təsir göstərməsinin öhdəsindən gələrək, E.Hansen müharibədən sonrakı dövrdə, ilk növbədə, tsiklin keynsçi konsepsiyasının müəllifi kimi qəbul edilir. Qeyd edək ki, sözügedən həmin konsepsiya iqtisadi dinamikanın tərkib hissəsi qismində daha geniş sinfə daxildir. Bu qism də dörd hissədən ibarət olan **"İqtisadi tsikillər və milli gəlir" (1951-ci il)** fundamental monoqrafiya ona dünya şöhrəti gətirmişdir :

1. İqtisadi tsikllərin təbiəti
2. Gəlir və məşğulluq nəzəriyyəsi
3. İqtisadi tsikllərin nəzəriyyəsi
4. İqtisadi tsikllər və dövlət siyasəti.

Neokeynsçilik mülkiyyət münasibətlərinə dövlətin birbaşa müdaxiləsini nəzərdə tutmur. Hansen tərəfindən ifadə edilmiş dövlət tənzimlənməsinin bütün tədbirləri tədavül sferasına və gəlirlərin yenidən bölüşdürülməsinə aiddir. Özünün antitsikl proqramını Hansen artıq 1950-ci illərin əvvəllərinə mövcud olmuş təcrübənin əsasında formalaşdırır. Onun əsərində antitsiklik xarakterli tədbirlər əsasən üç rubrikalar əsasında qruplaşdırılıb: 1) çevikliyin mexanizmlərinin yeridilməsi (yeridilmiş sabitləşdiricilər); 2) avtomatik şəkildə fəaliyyət göstərən kompensasiyaedici əks-tədbirlər; 3) idarə olunan kompensasiya proqramları.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1. Müharibədən sonrakı dövrdə keynsçilər arasında dinamik iqtisadi məsələlərin həlli necə nəzərdən keçirilir?
2. Tsiklik tərəddüdlərin xüsusi nəzəriyyəsinin yaranma zərurəti nəyə əsaslanır?
3. Harrodun metodologiyası nəyi tədqiq və təhlil edir?
4. Zəmanətli, təbii və faktiki artım tempinin sabit səviyyəsi haqqında Harrodun mülahizələri nədən ibarətdir?
5. Əmanətlərə (yığım) dair neoklassik və keynsçi mövqelər arasında əhəmiyyətli fərqləri göstərin.
6. Nəyə görə xroniki işsizliyə və uzunmüddətli tənəzzülə qarşı Harrod əlavə radikal vasitələrin istifadə olunması ilə bağlı təklif irəli sürür?
7. R.Harrodun dinamik iqtisadi modelinin rolu nədən ibarətdir?
8. E.Hansenin tsikllər nəzəriyyəsinin xarakteristikasını verin.
9. Tsikllərin çoxluğu konsepsiyası əsasında E.Hansenə məxsus staqnasionalizm ideyalarının və onların aradan qaldırılmasının təsiri necədir?
10. Keynsçi nöqteyi-nəzərdən investisiya tərəddüdləri mexanizmini izah edin.
11. Hansenə məxsus dövlətin antitsiklik siyasətinin tədbirlərini sadalayın.

Ədəbiyyat siyahısı:

1. Keyns C.M. Seçilmiş əsərlərlə. M., 1993, s. 224-519.
2. Harrod. R. The Trade Cycle: an Essay. Oxford, 1936, p. 70. Economic Journal, 1939, Vol. 49. P. 14-33. Ibid. p. 14.
3 Keynsçi klassiklər: iki cilddə, birinci cild. Harrod R. İqtisadi dinamika nəzəriyyəsinə. M, 1997. Səh. 115-116, 121-125, 176, 241, 382. 385.

4. İ.M. Osadçaya. Konservatizm reformizmə qarşı. Moskva, 1984, s. 67-71.

5 Harrod R. Economic Dynamics. L.; N.Y., 1973.

6. Hansen A.H. Cücles of Prosperity and Depression in the United States, Great Britain and Germany: A Study of Monthly Data 1902-1903. Madison, 1921.

7. Tobin J.A. Hansen and Public Policy / / Quarterly Journal of Economics. 1976. Vol. 90, No 1, p. 32.

8. Samuelson P. Alvin Hansen as a Creative Economic Theorist / / Quartly Jornal of Economics. 1978. Vol. 92, No 1, p. 26.

9. Seliqmen B. Müasir iqtisadi təfəkkürün əsas cərəyanları, M: Proqress, 1968. VIII fəsil, s. 450.

10. Keynsçi klassiklər. Cild 2. . M, 1997, s. 221.299-300, 306, 355-356

11. Xudokormov A.Q. İqtisadi təlimlər tarixi. M: İNFRA- M, 2004. s. 733.

12. Bartenev S.A. İqtisadi təlimlər tarixi. M.: Ekonomist, 2005, s. 45.

II FƏSİL. NEOKLASSİK SİNTEZ

2.1. Fərqli yanaşmaların uyğunluğu
2.2. Keynsin sadələşdirilmiş modeli
2.3. Hiks-Hansen sxemi
2.4. Keynsin nəzəriyyəsinin xüsusi hallar

İqtisad elmində kök salmış makroiqtisadi nəzəriyyələr iqtisadiyyatın necə fəaliyyət göstərdiyini izah etməkdə öz aralarında rəqabət aparan və biri-digərinə alternativ olan nəzəriyyələr olmuşdu. Bu nəzəriyyələrə neoklassik, keynsçi, monetarist, təklif iqtisadiyyatı və səmərəli gözləmə nəzəriyyələri daxildir. Bu nəzəriyyələr, xüsusən də neoklassik və keynsçilik daim təkamülə uğramış, inkişaf edib təkmilləşmişdi. Hər bir nəzəriyyənin tərəfdarları iqtisadiyyatın makroiqtisadi problemlərinə aid olan əsas müddəalara vaxtaşırı yenidən baxıb, öz mövqelərində dəyişikliklər etməklə mühüm kompromislərə nail olmuşlar.

İqtisadi nəzəriyyələrin təkamülünün indiki son mərhələsində onun ənənəvi istiqamətlərinin - keynsçiliyin və neoklassizmin ünvanına tənqid getdikcə artmışdır. Bununla yanaşı, onların əsasında konsepsiyaların yeni variantlarının, iqtisadi doktrinanın yenidən qiymətləndirilməsi, iqtisadiyyatın tənzimlənməsinin yeni metodlarının yaradılması prosesi gedir.

Neoklassizm və keynsçilik sintezinin əsasını neokeynsçi iqtisadçılar *(Nobel mükafatı laureatları C.Xiks və P.Samuelson)* qoymuşdu. Onlar Keynsin nəzəriyyəsinə neoklassik təsvir vermiş, onu neoklassik iqtisadçı adlandırmış və onun iqtisadi nəzəriyyəsinin neoklassik ənənələri və kökləri haqqında danışmışlar. **"Neoklassik sintez" anlayışı ilk dəfə 1937-ci ildə ingilis iqtisadçısı C.Xiks tərəfindən işlənilmişdir. *Neoklassik sintez keynsin nəzəriyyəsi ilə neoklassik iqtisadi artım nəzəriyyəsinin sintezidir*.**

Neoklassik sintez Keynsin nəzəriyyəsini "Natamam işsizlik" şəraitində müvazinət nəzəriyyəsi kimi şərh etmişdi. Keynsin nəzəriyyəsinin bu cür izah edilməsi müharibədən sonra hakim istiqamət olmuş və iqtisadi siyasətin əsas prinsiplərini formalaşdıran **ortodoksal keynsçiliyin** inkişafına səbəb olmuşdu.

Neoklassik sintezin görkəmli təbliğatçısı və yaradıcılarından biri amerikan iqtisadçısı P.**Samuelson** olmuşdu. O, 50-ci illərin əvvəlində keynsçiliyin və neoklassizmin bir vahid istiqamətdə birləşməsinin zəruriliyini əsaslandırmışdı. **Neoklassizmin və keynsçiliyin** yaxınlaşmasının və sintezinin aydın ifadəsi, onun "**neoklassik sintez**" nəzəriyyəsi oldu. P.Samuelsonun "**Neoklassik sintez**" nəzəriyyəsi iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsinin mühüm qolu olmaq şərtilə iki istiqamətin əsas prinsiplərinin əlaqələndirilməsidir. ***Samuelsonun "Neoklassik sintez" nəzəriyyəsinin əsasını keynsçi səmərəli tələb nəzəriyyəsi ilə neoklassik istehsal və bölgü nəzəriyyəsinin birləşməsi təşkil edir. P.Samuelson özünün nəzəriyyəsinə, həmçinin elmi-texniki inqilaba böyük əhəmiyyət verən institusionalizmin müasir nəzəriyyəçisi C.Helbreytin əsas ideyalarını da daxil etmişdi. Nəticədə xüsusi və dövlət sahibkarlığını əlaqələndirən qarışıq iqtisadiyyat yaranmışdı.***

"**Neoklassik sintez**" **- pul amili əlavə olmaqla natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsidir**. Bu nəzəriyyədə fiskalizmin keynsçi ideyaları iqtisadiyyatı pul-kredit siyasətinin (faiz dərəcəsini dəyişmə, açıq bazarda əməliyyatları keçirmə və s.) köməyi ilə tənzimlənməsini nəzərdə tutan neoklassik konsepsiyaları ilə birləşmişdir. **P.Samuelsonun** fikrinə görə maliyyə siyasətinin vəzifəsi "ictimai əmtəələr" təklifi sferası üçün tənzimləyici tədbirləri təmin etməkdir. Dövlətin mikro aləmə müdaxiləsinin əsas məqsədi hökumət məsrəflərində optimallığa və dövlət, müəssisələr və cəmiyyətin ayrı-ayrı üzvləri arasında resursların səmərəli bölgüsünə və yenidən bölgüsünə nail olmaqdır.

Müasir dövrdə pulun iqtisadiyyatda oynadığı rol haqqında keynsçi və monetarist baxışlarda müəyyən yaxınlaşma nəzərə çarpır. Pul haqqında ***ənənəvi keynsçi*** baxış olan "**pul əhəmiyyət kəsb etmir**" və yaxud ***ifrat monetarist*** ideya olan **"yalnız pul əhəmiyyət kəsb edir"** fikirlərinin olmasına ***baxmayaraq hər iki modellərdə pul xalis milli məhsulla eyni istiqamətdə təsir göstərir. Hər iki nəzəriyyəyə uyğun olaraq pul təklifinin genişlənməsi xalis milli məhsulu artırır və əksinə.***

2.1. Fərqli yanaşmaların uyğunluğu

Müharibədən sonrakı illərdə Keynsin nəzəriyyəsi və neoklassik sistem iqtisad elminin əsas "iştirakçı simalarına" çevrildi. Onlar arasında münasibət birmənalı şəkildə yaranmırdı. Bir tərəfdən, neoklassiklərin və Keynsin mövqeləri açıq-aşkar bir-birinə qarşı ziddiyyət təşkil edirdi. Onun müəllifi olduğu *"Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi"ndə* gəldiyi nəticə belə bəyan edilirdi ki, kapitalist iqtisadiyyatı qeyri-sabitdir, resursların faydasız və hədər xərclənməsinə meyillidir və tam məşğulluğun nail olunması üçün ehtimal azdır; lakin neoklassiklərin nəzəri quruluşu kapitalizmin özünütənzimləmə bazasına, bazarın resursları səmərəli şəkildə bölüşdürmək və tam məşğulluqla müşayiət olunan tarazlığı təmin etmək qabiliyyətinə əsaslanırdı.

Digər tərəfdən, Keynsin nəzəriyyəsinin və neoklassik sistemin bir-birinə kəskin ehtiyacı var idi. Neoklassik sistem məntiqi baxımdan əlaqəli və müfəssəl surətdə işlənib hazırlanmışdı, lakin burada hamı üçün aşkar olan böhran və işsizlik kimi hadisələr olduqca pis uyğunlaşdırılmışdı. İqtisadi qeyri-sabitliyin yaranma səbəblərinin qənaətbəxş izahını vermək və xüsusən də, onunla mübarizə aparmağın praktiki proqramını işləyib hazırlamaq neoklassiklərin quvvəsində deyildi. **"Ümumi nəzəriyyə"** isə, əksinə, iqtisadiyyatı tarazlıq vəziyyə-

tindən çıxaran faktorların təhlilini ehtiva edirdi və fəaliyyətin konkret proqramını təklif edirdi; lakin adına baxmayaraq, sözün həqiqi mənasında, ümumi və hər şeyi hər tərəfli əhatə edən nəzəri sistem burada yox idi [1].

Buna görə heç də təəccüblü deyil ki, "**Ümumi nəzəriyyə**"**nin** peyda olmasından sonra iqtisad elmində Keynsin və neoklassiklərin mövqelərinin birləşdirilməsi üzrə intensiv analitik işə başlanılmışdır.Bu işdə ən fəal iştirakçılardan biri **C.Hiks, E.Hansen, P.Samuelson, L.Kleyn** və bir çox digər görkəmli iqtisadçılar olmuşlar. Məhz onların səyləri sayəsində, ən nəhayət, **"neoklassik (yaxud keynsçi-neoklassik) sintez" adını almış nəzəri sistem yaranmışdır.**

"Neoklassik sintezin baniləri" bunu irəli sürürdülər ki, neoklassika ilə inteqrasiya olunmazdan əvvəl Keynsin orijinal nəzəriyyəsi, yəni onun əsas elmi işində ifadə olunmuş konsepsiya, əhəmiyyətli dərəcədə yenidən işlənməlidir. Bunun üçün onların ən azı **iki** tutarlı səbəbi var idi.

Sözügedən həmin səbəblərdən **biri** kapitalist iqtisadiyyatının fəaliyyət şəraitinin dəyişikliyi ilə bağlı səbəbdir. Məlum olduğu kimi, müharibədən sonra Qərb ölkələrindəiqtisadi yüksəliş baş vermişdir. O, 1929-1933-cü illərdə tüğyan etmiş Böyük tənəzzülün isti izləri ilə yazılmış **"Ümumi nəzəriyyə"də** vurğulanan məsələlərdən tamamilə fərqli məsələləri gündəmə gətirmişdir. *Əsas problem artıq tələb deyil, resursların yığımı idi.Bundan əlavə, yüksəliş, inflyasiya ilə müşahidə olunduğu və qeyri-sabit xarakter daşıdığı üçün, yalnız tənəzzül şəraiti üçün deyil, həm də yüksəliş şəraiti üçün yararlı olan tənzimlənmənin daha ümumi konsepsiyasının mövcud olmasına zərurət yaranırdı* [2].

"Ümumi nəzəriyyə"nin yenidən işlənməsinin digər səbəbi isə bundan ibarət olmuşdur: Keynsin əsas əsəri, elmi işlərin o sırasından idi ki, onlar özünün mürəkkəb və ziddiyyətli olduğuna görə ən müxtəlif, bəzi hallarda isə hətta birbirini inkar edən interpretasiyaların mümkünlüyünə yol açır.

M.Blauq qeyd edir: "Ümumi nəzəriyyə" – sadəcə olaraq – Rikardonun "Prinsiplər", Marksın "Kapital" və Bem-Baverkin "Müsbət nəzəriyyə" kitabları kimi, sahmansız yazılmış kitabdır və burada müasir iqtisadiyyatın fəaliyyətinin bir deyil, iki deyil, üç, yaxud dörd "modelini" özündə əks etdirir" [3]. Keynsin bəzi fikirləri neoklassik modellə kifayət qədər rahat uyğunlaşdırıldığı bir halda , digər fikirləri isə – onun bütün məntiqini dağıdır. Deyək ki, keynsçilikdən əvvəlki ənənələr əsasında tərbiyələndirilmiş neoklassik heç bir problem olmadan bununla razılaşacaq ki, investisiyanin funksiyası kapitalın və faiz normasının son həddsəmərəliliyindən asılıdır; bəs Keynsə görə sahibkarı bütün ehtimallara və mülahizələrə zidd olaraq hərəkət etməyə vadar edən qeyri-müəyyənliyin və gözləntilərin oynadıqları rolu necə olsun?

"Ümumi nəzəriyyə"də adət etmədiyimiz və alışmadığımız terminlər, qeyri-aşkar şəkildə qəbul edilmiş fərzetmələr, tamamlanmamış mülahizələrin çoxluğu faktdır və bu səbəbdən də həmin nəzəriyyənin dərk edilməsinin son dərəcə mürəkkəb olduğu haqda fikir onun dərc edilməsindən dərhal sonra qeyd edilmişdir. Lakin əgər tənqidçilər burada sadəcə olaraq Keynsin intellektual səhlənkarlığının təzahürünü görürdülərsə, onun ardıcılları "Ümumi nəzəriyyədə" bir çox qaranlıq məqamların mövcud olmasını onun inqilabi məzmunu ilə izah edirdilər ki, bunu da ümumi qəbul edilmiş məfhumların və müəllifin fikirlərinin sadə insanlara bir o qədər də əlçatan olmayan dahiyanəliyi ilə izah etmək çox çətindir. Belə ki, P.Samuelson etiraf edir: *"Ümumi nəzəriyyə" pis tərtib olunub mürəkkəb dillə yazılıb. O, təkəbbürlü, kifayət qədər mülahizə edilməmiş, polemikdir. Bu nəzəriyyədə xeyli məntiqsizlik və dolaşıqlıq vardır.Keynsin sistemi burada olduqca bir bulanıq şəkildə təsvir olunub". Lakin daha sonra o, əlavə edir: "Nə zaman ki, bunu tamamilə və qəti surətdə dəf etmək mümkün olacaq, burada yer almış təhlil tam aşkar və eyni zamanda yeni*

bir formada göz önünə gələcək. Bir sözlə, bu, dahinin əsəridir".

Keynsin orijinal konsepsiyasının "fərqlilikliyinin və dolaşıqlıqlarının" dəf edilməsi prosesində onun tədqiqatının bir istiqamətləri (ilk növbədə qeyri-müəyyənliyin rolu ilə bağlı olanlar) təhlilin əsas xəttinə kölqə salan və az əhəmiyyət daşıdığı üçün kənarlaşdırılmışdır; digərləri (tədqiqatları) isə inkişaf etmişdir. Nəticədə Keyns nəzəriyyəsinin səciyyəvi bir versiyası əmələ gəlmişdir ki, onu müxtəlif şərhçilər Keynsin elmi nəzəriyyəsinin dərk etdiklərindən asılı olaraq neokeyns-çilik, ortodoksal keynsçilik, hebalə "Hiksçi" yaxud "qanunsuz doğulan" keynsçilik adlandırırlar. Məhz bu nəzəriyyənin taleyinə "neoklassik sintez"ə daxil olmaq yazılmışdır.

"Sintezin" formalaşma ssenarisi aşağıdakı kimi təsəvvür edilə bilər.

Məntiqi cəhətdən ilk addım sadələşdirilmiş, yaxud (kəsil-miş) qısaldılmış adlandırılan Keynsin modelinin işlənib hazırlanması olmuşdur. Onu daha çox P.Samuelsonun adı ilə bağlayırlar ki, bu alimin məşhur dərsliyində həmin model ən birinci nəşrdən başlayaraq təkrar edilir (1948-ci il). Neoklassik ənənələrinə və Keynsin özünün niyyətlərinə uyğun olaraq *sözügedən model iqtisadiyyatın pul və real sektorları arasında dixotomiyanı bərpa etməklə bütün diqqətinin sonuncunun üzərində cəmləşdirir. Maliyyə sferasının təhlilini qurban verməklə, sadələşdirilmiş model milli gəlirin müəyyən edilməsi prinsipini olduqca dürüst, dəqiq və aydın şəkildə ifadə etməyi bacardı*. Qeyd edək ki, ortodoksal keynsçilər, bunuKeynsin konsepsiyasının özəyi hesab edirlər.

Daha sonra modelə pul parametrləri daxil edilmişdir. Bu əməliyyatın həyata keçirilməsi üçün nəzərdə tutulmuş analitik aparat hələ 1937-ci ildə C.Hiks tərəfindən onun məşhur **"Cənab Keyns və "klassiklər**": təklif edilən interpretasiya" məqaləsində təklif olunmuşdur, daha sonra isə həmin aparat E.Hansen [4] tərəfindən təkmilləşdirilərək uğurla istifadə

edilmişdir. ***Nəticədə*** *Hiks-Hansenin "gəlirlər-xərclər" sxemi peyda olmuşdur ki, o, Keyns nəzəriyyəsini ümumi tarazlıq konsepsiyasınıın xüsusi halı qismində təqdim edir və bu səbəbdən"neoklassik sintezin" kvintessensiyası hesab olunur.*

Nəhayət, *yekunda göstərilmişdir ki, hansı səbəblərə (xüsusi hallara) görə tam məşulluğun avtomatik surətdə nail olunması mümkünsüzdür; və beləliklə, özünün nəzəri mahiyyətini qoruyub saxlamaqla neoklassik sistemin, V.Leontyev ifadə etdiyi kimi, "keynsin eynəklər"inə ehtiyacı var, kapitalist iqtisadiyyatının isə - tənzimlənmənin keynsçi doktrinasına.*

Beləliklə, "neoklassik sintez" üç blokdan ibarətdir – Keynsin sadələşdirilmiş, yaxud qısaldılmış modeli, Hiks-Hansenin "gəlirlər-xərclər" sxemi və natamam məşğulluğun səbəblərinin izah edilməsi. Onların hər birinin üzərində ayrı-ayrılıqda dayanaq.

2.2. Keynsin sadələşdirilmiş modeli

Keynsin sadələşdirilmiş modelində tələb, yaxud planlaşdırılan xərclər (E) istehlaka (C) və investisiyalara (I) parçalanır, məcmu təklif isə milli gəlirin (Y) səviyyəsi ilə verilir. Beləliklə, tarazlıq şərti aşağıdakı tənliklə səciyyələnir:

$$Y = E = C + I.$$

Əgər absis oxu üzərində gəlirin səviyyəsini, ordinat oxü üzərində isə xərclərin həcmini qeyd etsək, onda həmin tarazlıq yalnız koordinat oxlarına doğru **45** dərəcə bucaq altında çəkilmiş **OO** düz xətti üzərində yerləşən nöqtələr üçün düzgün olacaqdır (şəkil 1).

Neoklassik nəzəriyyəyə uyğun olaraq, bazar faiz dərəcəsinin dəyişikliyi ilə təmin edilən tarazlığa doğru meyil edir. Ehtimal edək ki, hər hansı bir zahiri səbəblər üzündən iqtisadiyyat $\boldsymbol{Z_2}$ nöqtəsində olub. Bu o deməkdir ki, təklif artıqlığı mövcuddur **(*OR* > *OF*).** Bu artıqlıq əmtəələrin arzu edilməz yığılmasına və yaxud, qeyri-tarazlıq şərtini başqa cürə ifadə

etsək - (planlaşdırılan) yığımın (planlaşdırılan) investisiyalar üzərindəki artıqlığına gətirib çıxarır. Belə olan halda faiz dərəcəsi aşağı düşür. Faizin azalması investisiyaları artırır və yığımı o həddə qədər azaldır ki, iqtisadiyyat ***OO`*** düz xətti üzərində yerləşən nə isə bir $\boldsymbol{Z_1}$ nöqtəsinə yenidən qayıtmır. Qeyd edək ki, şaquli və üfüqi oxlar üzərindəki koordinatları bir-birilə bərabərdir.



Şəkil 1

Fərqli mənzərə Keynsin sadələşdirilmiş modeli tərəfindən təsvir olunur. Burada kapital qoyuluşların həcmi verilmiş hesab edilir ($J = T$), əmanətlərin və istehlakın dinamikasına dair başqa fərziyyə qəbul olunur. İstehlak funksiyası faiz dərəcəsindən asılı vəziyyətə deyil, milli gəlirin səviyyəsindən asılı vəziyyətə qoyulur.

Keynsin "əsas psixoloji qanunu"na uyğun, "insanlar, bir qayda olaraq, gəlirin artması ilə istehlakı artırmağa meyillidilər, lakin bu artım gəlirin yüksəldiyi dərəcədə baş vermir", yəni $\boldsymbol{C = C\ (Y)}$, həm də nəzərə almaq lazımdır ki,

istehlaka olan son hədd meyli (***c*** = ***Δ C / ΔY***) sıfırdan artıq, lakin birdən azdır: **0<*c* <1**. Sadəlik üçün iqtisadi modellərdə gəlir və istehlak arasındakı fərq bir çox hallarda xətti hesab olunur və aşağıdakı kimi qeyd edilir:

$$C = a + cY,$$

Burada, ***a*** –milli gəlirin həcmindən asılı olmayan, istehlakın (avtonom) sərbəst səviyyəsidir**;** ***c*** – istehlaka olan son hədd meyli**,** ***Y*** – milli gəlir.

Qrafik şəklində keynsin istehlak funksiyası ordinat oxu ilə müsbət kvadrantında kəsişən düz xətlə təsvir olunur. Onun tanqens küncünün maillik dərəcəsi istehlaka olan son hədd meylinə bərabərdir, koordinat başlanğıcı və ordinat oxu ilə düz xəttin kəsişdiyi nöqtə arasındakı məsafə isə ***a***-ya bərabərdir (şəkil 2).



Şəkil 2

İnvestisiya funksiyasının ekzogen tətbiqi və "əsas psixoloji qanunu"nun istifadə edilməsi Keynsin sadələşdirilmiş modelinə milli gəlirin səviyyəsinin necə müəyyən edilməsini göstərməyə imkan verir:

$$Y = C(Y) + I;$$
$$Y = f + cY + I;$$
$$Y = (a + I) / (I - c);$$

yaxud son hədd kəmiyyətlərinə keçərək:

$$\Delta Y = \frac{1}{I - c}\,\Delta I.$$

Qısaldılmış model dəqiq və dürüst həndəsi interpretasiya oluna bilinir, ona "Keynsin xaçı" adı verilib (Keyns qayçısı).

İndi isə növbəti qrafiki nəzərdən keçirək. Bu qrafikin koordinat oxları qismində, neoklassik modeldə olduğu kimi, milli gəlirin (***Y***) səviyyəsi ilə müəyyən edilən məcmu təklif, eləcə də istehlaka (***C***) və investisiyalara (***I***) bərabər olan məcmu tələb (şəkil 3) verilib.



Şəkil 3

Kənardan verilən investisiya funksiyası ***II`*** düz xəttin şəklini alır ki, həmin bu xətt absis oxuna paraleldir və bu onun gəlirdən asılı olmadığını göstərir. İstehlak funksiyası – ***C= a + cY***, şəkil 2-də olduğu kimi düz xətt olan ***CC`***-lə ifadə olunur. Məcmu tələb istehlakdan və investisiyalardan ibarət olduğu

üçün, ***II***`və ***CC***`xətlərin cəmlənməsi ilə biz onu xarakterizə edən ***DD***` xəttini ala bilərik. Bu xətt ***CC***` xəttinə paraleldir və ondan ***OI*** məsafəsinə uzaqlaşır. ***DD***` xətti **45-dərəcəlik** düz xəttlə kəsişdiyi ***Z*** nöqtəsi əmtəə bazarındakı tarazlıq nöqtəsini ifadə edir. Onun proyeksiyasını absis oxuna salmaqla biz milli gəlirin Y_Z tarazlı səviyyəsini alırıq. Əgər aqreqat istehsal funksiyası ***Y = Y (N)*** verilibsə və burada ***N*** – məşğulluq səviyyəsidir, biz ondan da xəbərdarıq.

Bu qrafik natamam məşğulluqda tarazlıq haqqında Keynsin fundamental ideyasını aydın şəkildə təsvir edir. Məcmu tələbi səciyyələndirən düz xətt ordinat oxu ilə müsbət kvadrantında kəsişdiyi ücün, yəni planlaşdırılan təklif planlaşdırılan tələbi üstələyir, faktiki tarazlıq isə madi resursların faydasız sərf edilməsi və işsizliklə təyin edilir.

Ortodoksal keynsçilik nöqteyi-nəzərdən verilmiş qrafik əsas məsələni, Keynsin nə demək istədiyini aydın və açıq şəkildə ifadə edir. Onun mahiyyətini qiymətləndirərək, P.Samuelson yazırdı: **"*C(Y)* + *I*** xarakterizə edən xəttin absis oxuna dair 45 dərəcə bucaq altında çəkilmiş xəttlə kəsişməsi bizə ən sadə **"Keyns xaçı"nı** verir ki, o, məntiq nöqteyi-nəzərdən, "tələb və təklifin marşal əyrilərin"in kəsişməsi ilə eynilik təşkil edir.

Lakin burada nöqtə qoymaq çox tez olardı. Birincisi, investisiya funksiyasını ekzogen parametrlərindən endogen parametrlərinə çevirmək və ikincisi, real sektorun tədqiq olunmasını pul bazarının təhlili ilə birləşdirmək gərək idi. Hər iki məsələni Hiks-Hansen sxeminin köməyi ilə həll etmək mümkün olmuşdur.

Amerika iqtisadçısı E.Hansen(1887-1975) C.M.Keynsin davamçısı olmuş, onu hətta "amerikalı Keyns də adlandırırlar".

"İqtisadi tsikllərin nəzəriyyəsi" kitabında (1926) irəli sürdüyü müddəalar müasir "biznes-tsikl nəzəriyyəsinin əsasını təşkil edir. C.Xikslə birgə makroiqtisadi təhlildə geniş istifadə

olunan İS-LM modeli adlandırılan, məcmu tələbin səviyyəsinə təsir qöstərən amillərin neokeynsçı modelini yaradıb.

C.Xiks (1904-1989) ingilis iqtisadçısı. Neokeynsçilik istiqamətinin nümayəndəsi. Dəyər, tələb, İstehsal, istehlak və rifah nəzəriyyələrinin banisidir. 1937-ci ildə əmtəələrin qiymətinin dəyişməsi ilə baglı əvəzləmə və gəlir effektini açmışdır.

2.3. Hiks-Hansen sxemi

Hiks-Hansen sxemi belə bir qrafiki ifadə edir ki, onun koordinat sistemi qismində milli gəlirin səviyyəsi **(*Y*)** – absis oxu və faiz dərəcəsinin miqdarı **(*r*)** – ordinat oxu çıxış edir.

Onun müəllifləri Keynsdən sonra belə bir mövqedən çıxış edirlər ki, investisiya prosesinin intensivliyi kapitalın son hədd səmərəliyi ilə, yəni kapital əmlakının bir ədəd vahidinin gətirdiyi gözlənilən gəlirlə həmin ədəd vahidinin istehsal qiyməti arasındakı nisbətlə müəyyən edilir. Kapitalın növbəti ədəd vahidinin investisiya olunması barədə sahibkar qərar qəbul etdikdə ya borca alınmış vəsaitlər ödəyir, yaxud öz vəsaitlərinin başqa cür istifadə edilməsi zamanı əldə edə biləcəyi gəlirdən imtina etməklə alternativ xərclərə məruz qalır. Qeyd etdiklərimizin hər ikisi faizin bazar norması ilə müəyyən edilir. Deməli, yalnız o halda investisiya qoyuluşlarının həyata keçirilməsinin mənası olacaq ki, nə zaman kapitalın son hədd səmərəliliyi faiz dərəcəsini üstələyir. Beləliklə, investisiyaları faizin funksiyası hesab etmək olar: ***I = I (r).*** Faiz dərəcəsi nə qədər aşağı olsa, bir o qədər də bütün digər bərabər şərtlər zamanı əlavə kapital qoyuluşlarını həyata keçirmək sərfəli olacaq və əksinə.

Əmtəə bazarında tarazlıq şərti **investisiyaların (*I*)** və **əmanətlərin (*S*)** bərabərliyi olacaqdır**: *I* = *S***. Əmanətlər isə **"əsas psixoloji qanunu"na** uyğun olaraq milli gəlirin səviyyəsi ilə müəyyən olunur: ***S* = *S (Y)*.** Gəlirin səviyyəsi nə qədər yüksək olsa, əmanətlərin həcmi bir o qədər də yüksək olacaq.

Beləliklə aşağıdakı funksiyanı alırıq**: *IS* [*I (r)* = *S (Y)*].** Qrafik ifadəyə görə bu funksiya mənfi mailliliyə malik olan əyri xətlə təsvir olunur ki, həmin xətt ***Y*** və ***r*-in** hər bir qiymətinə əmanətlərin və investisiyaların bərabərliyini, yəni əmtəə bazarının müəyyən tarazlıq səviyyəsinin uyğun olduğunu göstərir (şəkil 4).



Şəkil 4.

Bir halda ki, əmtəə bazarında tarazlıq şərtləri aydındır, biz pul bazarının təhlilinə keçə bilərik.Orada tarazlıq o zaman başlayır ki, pula olan tələb (*L*) təklifi ilə (*M*) üst-üstə düşür. Sonuncu kəmiyyət verilmiş kimi qəbul edilir.Pula olan tələbə gəldikdə isə, Keynsin nəzəriyyəsinə uyğun olaraq, həmin tələb əsasən *iki səbəblə müəyyən edilir.*

Onlardan biri – **transaksion** – kommersiya sövdələşmələrin həyata keçirilməsi üçün pula olan tələblə şərtləndirilib. O, gəlir funksiyasının əsas ifadəsidir: $\boldsymbol{L_1 = L_1 (Y)}$**.** Milli gəlirin səviyyəsi nə qədər yüksək olursa, bir o qədər də iqtisadiyyatda

daha çox sazişlər və sövdələşmələr bağlanılır və mövcud olan qiymətlər şəraitində pula olan tələb də bir o qədər yüksək olur.

Digər səbəb – **möhtəkirlik**. Maliyyə bazarında fəaliyyət göstərərək, iqtisadi subyektlər daima seçim qarşısında qalırlar: vəsaitləri hansı formada saxlamaq – pul yaxud qiymətli kağızlar şəklində. Qiymətli kağızlara malik olmaq, bir tərəfdən, böyük risklə bağlıdır, digər tərəfdən isə bu faizin əldə edilməsinə şərait yaradır**.** Faiz nə qədər yüksək olsa, bir o qədər də qimətli kağızlara daha çox üstünlük verilir və bir o qədər də pula olan tələbin möhtəkirlik səbəbi zəif olacaqdır. Buna görə pula olan möhtəkir tələb faiz normasının azalan funksiyasıdır**:**

$$L_2 = L_2\,(r).$$

Beləliklə, transaksiya və möhtəkir səbəblərlə şərtləndirilmiş pula olan məcmu tələb milli gəlirdən birbaşa asılılıqda və bazar faiz dərəcəsindən əks asılılıqda malikolacaq:

$$L = L_1\,(Y) + L_2\,(r),$$ yaxud $$L = L\,(Y, r).$$

L və ***M*-i** bərabərləşdirməklə aşağıdakı funksiyanı almaq mümkündür:

$$LM\,[L\,(Y, r) = M].$$

Bu funksiyanın qrafik ifadəsi qismində ***r*** və ***Y*** arasında nisbəti xarakterizə edən müsbət mailliliyə malik olan əyri xətt çıxış edir. Qeyd etməliyik ki**,** ***r*** və ***Y*** mövcudluğu zamanı pul sektorunda tarazlıq bərqərar olunur (şəkil 5).



Şəkil 5.

Bir halda ki, ***IS*** və ***LM*** funksiyaları eyni parametrlərlə müəyyən edilir, onları bir koordinat sistemində təsvir etmək mümkündür (şəkil 6).



Şəkil 6.

IS və ***LM*** qrafiklərin kəsişmə nöqtəsi ***r*** və ***Y*** arasında mövcud olan belə bir nisbətin olduğunu göstərir ki, bu zaman əmanətlər investisiyalara bərabərdir, pula olan tələb isə onların təklifinə bərabərdir, yəni hər iki sektor tarazlıq vəziyyətindədir.

Ancaq model hələ də tamamlanmayıb. Burada əmək bazarı mövcud deyil. Buna baxmayaraq, Keyns üçün əsas və başlıca problem, məlum olduğu kimi, işsizlik olmuşdur.

Ortodoksal keynsçilər tərəfindən qurulan əmək bazarının modeli digər bazarlarla əlaqələrin xaricində götürülüb və formal nöqteyi-nəzərdən neoklassik modellə çox oxşardır. Burada tarazlıq belə bir real əməkhaqqı zamanı bərqərar olunur ki, o, əməyin tələb və təklifini tarazlaşdırır. Lakin iki əsas fərqləndirici cəhət də mövcuddur.

Birincisi, keynsçilər nominal əməkhaqqının qeyri-çevikliyinə əsaslanır, bir halda ki, neoklassiklər onun tamamilə hərəkətli və dəyişkən olduğunu ehtimal edir. İkincisi, neokeynsci modeldə, əmək bazarı passiv rol oynayır: onun vəziyyəti digər bazarlarda - əmtəə və pul bazarında mövcud olan vəziyyətlə şərtləndirilib.

Nə zaman bütün çərçivələr və hüdudlar qarşılıqlı bağlılıq şəraitində nəzərdən keçirilir, qeyd etdiyimiz sonuncu bu məqamın mahiyyəti aydın olur. Bunun üçün adətən şəkil 7-də göstərilmiş ümumiləşdirici diaqramdan istifadə olunur.

A hissəsinə daha əvvəl şəkil 6-da təsvir edilmiş ***IS-LM*** sxemi daxildir**.** ***B*** hissəsi$Y = Y(N)$ istehsal funksiyasının qrafik təsviridir. Qeyd edək ki, sözügedən funksiya Keynsin qısaldılmış modeli çərçivəsində məşğulluq səviyyəsi ilə milli gəlirin səviyyəsi arasındakı asılılığı müəyyən etməyə imkan vermişdir. ***C*** hissəsi əmək bazarının modelini ifadə edir, burada ***N*** – məşğulluq səviyyəsi, ***W*** – nominal əməkhaqqı dərəcəsi, ***P*** – qiymətlərin səviyyəsidir (***W / P,*** beləliklə, real əməkhaqqı dərəcəsi), N_D və N_S– müvafiq olaraq işçi qüvvəsinin tələb və təklifidir.

Keynsin nəzəriyyəsinə uyğun olaraq, səbəb əlaqələri ***A*** hissəsindən başlayaraq ***B*** hissəsindən ***C*** hissəsinə doğru istiqamətlənib. Əmtəə və pul bazarlarının qarşılıqlı əlaqəsi milli gəlirin **(*Y*)** səviyyəsini tarazlıqla müəyyən edir. O isə, öz növbəsində, istehsal funksiyasının köməyi ilə işçi qüvvəsinə olan tələbi **(N_D)** təyin etməyə imkan verir ki, nəticədə də məhz bu tələb əmək bazarında tarazlıq nöqtəsini təyin edir.

Hal-hazırda Hiks-Hansen modelini tamamlanmış hesab etmək olar. Onun peyda olması iqtisadçıların əksəriyyəti tərəfindən "Ümumi nəzəriyyə"nin mahiyyətinin ziddiyyətsiz, aydın və eyni zamanda adekvat ifadəsi kimi qəbul edilmişdir. Beləliklə də keynsçilik və neoklassik nəzəriyyələrin sintezi üçün fundament salınmışdır.



Şəkil 7.

Hiks-Hansen sxemi ümumi iqtisadi tarazlıq konsepsiyasının növ müxtəlifliyini ifadə edir, bu konsepsiyanın işlənib hazırlanması ilə neoklassik məktəb Valrasın vaxtlarından məşğul olur. Keynsin nəzəriyyəsi ona xüsusi hal qismində daxildir. Əgər keynsçiliyin səciyyəvi ehtimallarından əsas olan əməkhaqqının qeyri-çevikliyini kənara qoysaq, onda bu model neoklassik tezisə tamamilə uyğun olaraq kapitalizmin özünütənzimləmə, tam məşğulluğun avtomatik surətdə nail olunmasının imkanını nümayiş etdirir.

Həqiqətən də, əgər əməyin artıq təklifi ilkin olaraq mövcuddursa, onda əməkhaqqı azalır, bu isə xərclərin aşağı düşməsinə və qiymətlərin azaldılmasına gətirib çıxarır. Belə şəraitdə kommersiya sövdələşmələrinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş pulların bir hissəsi azad olur. Pul təklifinin

artıqlığı əmələ gəlir. Faiz normasının aşağı düşməsi investisiya tələbinin artmasına səbəb olur ki, həmin artımın genişlənməsi tam məşğulluğun səviyyəsinə uyğun olan təklif həcmini alıb-aparana qədər davam edir.

Hiks-Hansen modelində tam məşğulluğa doğru mövcud olan avtomatik tendensiya işçi qüvvəsin bazarı ilə pul bazarının qarşılıqlı surətdə bir-birinə təsir göstərməsi nəticəsində əmələ gəlir, pul bazarı isə, öz növbəsində, əmək bazarında əks reaksiyanın yaranmasına səbəb olur. Məsələ burasındadır ki, modelin bu cür izah və şərh edilməsi neoklassikləri tam qane edir. Lakin ortodoksal keynsçilər iqtisadiyyatın özünütənzimlənmə ideyasını rədd edirlər. Hiks-Hansen modelinin neoklassik interpretasiyasının əksinə olaraq onlar **üç dəlil – üç xüsusi hal, - gətirirlər ki**, onların təsiri nəticəsində tam məşğulluğun nail olunması mümkünsüzdür.

2.4. Keynsin nəzəriyyəsinin xüsusi halları

1. Əməkhaqqının qeyri-çevikliyi. Keynsin nəzəriyyəsi buna əsaslanır ki, güclü həmkarlar ittifaqları, yaxud əməkhaqqının minimal dərəcəsi haqqında qanun əməkhaqqının müəyyən bir səviyyədən aşağı düşməsinə imkan vermirlər. Belə bir hal əmək bazarında avtomatik tənzimlənmə mexanizmini təcrid olunmuş vəziyyətə salır. Doğrudur, "pul illüziya"sı mövcud olduğuna görə, yəni insanlar nominal dəyişiklikləri real dəyişikliklər kimi qəbul etdikləri üçün, qiymətlərin müəyyən artımı hesabına real əməkhaqqını aşağı salmaq olar. Lakin problemin bu cür həlli maliyyə bazarı tərəfindən əks təsir və müqavimətlə üzləşəcək və mövcud olan vəziyyəti sadəcə olaraq daha da ağırlaşdıracaq və mürəkkəbləşdirəcək. Qiymətlərin artması ***LM*** pul əyrisini sol tərəfə çəkir (bax: şəkil 7), yəni qiymətlərin artması ilə pullara olan tələb yüksəlir, bu isə o deməkdir ki, likvidlikdən ayrılmağın əvəzinin ödənilməsi olan faiz artır, nəticədə

investisiyalar azalır, milli gəlirin və məşğulluğun səviyyəsi aşağı düşür.

2.”Likvidlik tələsi”. Bu termin D.Robertson tərəfindən tətbiq olunub və iqtisadiyyatın belə bir vəziyyətinin təsvir edilməsi üçün istifadə olunur ki, burada faiz norması minimal səviyyədə qərarlaşıb. Onun gələcəkdə də enməsi və beləliklə, investisiyaların, milli gəlirin və məşğulluğun artımı mümkünsüz olur. Özü də nə əməkhaqqının aşağı salınması (o, çevik olduğu halda), nə də ki tədavüldə pul miqdarının artırılması (bu, Keyns nəzəriyyəsinə uyğun olaraq, eyni effektə malikdir), iqtisadiyyatı “likvidlik tələsi”ndən çıxartmaq iqtidarında deyil. Likvidliklə vidalaşmanın əvəzinin ödənilməsi o qədər kiçikdir ki, heç kim nağd pullardan məhrum olmaq istəmir. Pul kütləsinin bütöv artımı pullara olan möhtəkir tələb tərəfindən sərf edilir və faizə lazım olan azalma təsiri göstərmir.

3.Faizə görə investisiya tələbının qeyri-elastikliyi. Hətta pul ödənişi çevik olduğu və iqtisadiyyatın likvidlik tələsinə düşmədiyi halda tam məşğulluğa doğru olan tendensiya əmanətlər və investisiyalar funksiyalarının uyğunsuzluğunu və ziddiyyətini təcrid etmək iqtidarındadır. Başqa sözlə ifadə etsək, belə bir vəziyyətin mövcud olması mümkündür ki, verilmiş istehlak funksiyası zamanı əmanətlərin bütün həcminin **(I = S)** sərf edilməsi üçün zəruri olan investisiya xərclərin səviyyəsi o qədər yüksəkdir ki, hətta müsbət faiz dərəcəsi olduğu belə halda ona nail olmaq mümkünsüzdür. Ancaq mənfi faiz iqtisadi mənaya malik deyil. Beləliklə, iqtisadiyyat özünün ilkin tarazlıq vəziyyətində tam məşğulluq şəraitində qalmaqda davam edir.

Keyns nəzəriyyəsinin üç xüsusi halının mənası və əhəmiyyəti bundan ibarətdir ki, onlar sözügedən nəzəriyyənin “neoklassik sintez”ə daxil olmasının şərtlərini təşkil edir. Keynsçilər sanki neoklassiklərə deyirlər: biz etiraf etməyə hazırıq ki, prinsip etibarı ilə iqtisadiyyat daha çox tarazlığa meyillidir, ancaq siz də onunla razılaşmalısınız ki, ən azı üç tama-

milə mümkün ola biləcək hallarda özünü tənzimlənmə mexanizmi işləmir və bu səbəbdən faktiki olaraq tarazlıq, natamam məşğulluq və resursların faydasız və əhəmiyyətsiz israf edilməsi ilə xarakterizə olunur.

Neoklassiklərin cavabı özünü çox gözlətmədi. Onlar Keyns nəzəriyyəsinin xüsusi hallarını dəf etməyə cəhd edilər. Bunun üçün **Piqu** effektinə (sərvət effekti, real kassa qalıqlarının effekti) əsaslanan nəzəri konsepsiyadan istifadə olunmuşdur.

Real sərvətin istehlaka göstərdiyi təsiri Piqu effekti adlandırmaq qəbul olunub. Bu konsepsiyanın işlənib hazırlanmasında A.Piqu ilə yanaşı H.Haberler, D.Patinkin və digər görkəmli iqtisadçılar məşğul olmuşlar. Həmin konsepsiyanın köməyi ilə bunu göstəmək mümkündür ki, iqtisadiyyat "likvidlik tələsi"ndən və faiz üzrə investisiya tələbinin qeyri-elastikliyi vəziyyətindən çıxara biləcək mexanizminə malikdir. Bu mexanizmin mahiyyəti aşağıdakılardan ibarətdir.

İşsizliyin mövcud olması əməkhaqqını və deməli, xərcləri və qiymətlərin mütləq səviyyəsini azalan tərəfə hərəkət etməyə təkan verir. Qiymətlərin aşağı düşməsi maliyyə sərvətinin real dəyərini artırır. "Özünü daha varlı hiss edərək", subyektlər istehlaka sərf etdikləri xərcləri yüksəldir, bu isə məcmu tələbin artmasına təkan verir və tam məşğulluğa uyğun tarazlıq vəziyyəti bərpa olunana qədər genişlənir.

Prinsipial cəhətdən çox vacibdir ki***, Piqu effekti, Hiks-Hansen modelində olduğu kimi dolayı deyil, məhz birbaşa faiz normasını, tam məşğulluğa doğru aparan yolu göstərir***. Bir halda ki, özünütənzimlənmə mexanizmi, qiymət dəyişikliklərinin sərvətin real dəyərinə edilən təsirinəticəsində işə düşür, investisiyaların həcmi faiz dərəcəsinin istənilən hər hansı bir səviyyəsi zamanı yüksəlməyə başlayır. Beləliklə, **Piqu** effektinin məcmu tələb funksiyasına tətbiq edilməsi ilə Keynsin arqumentlərinə uyğun olaraq, **"likvidlik tələsi"** və

faiz üzrə investisiya tələbinin qeyri-elastikliyi tam məşuğulluğa olan tendensiyanı təcrid edir, - qüvvəsini itirmiş olurlar.

Nəticədə keynsçiliyin nəzəri təsir sferası əhəmiyyətli dərəcədə daraldı. Hamı tərəfindən qəbul edildi ki, natamam məşğulluğun əsas səbəbi qismində yalnız əməkhaqqının qeyri-çevikliyi çıxış edir.

Lakin tezliklə aydın olmuşdur ki, Piqu effekti (sərvət effekti, real kassa qalıqlarının effekti) empirik nöqteyi-nəzərdən olduqca zəif bir şəkildə təsdiqini tapır. Bu da təəccüblü deyil. Piqu effektinin təzahürü uzun sıra qeyri-real şərtlərin yerinə yetirilməsini, o cümlədən - əməkhaqqının tam və mütləq çevikliyini, qiymətlərin azad dinamikasını, "pul illüziyası"nın olmamasını və sair bu kimi şərtlərin yerinə yetirilməsini tələb edir. Məhz bu səbəbdən nəzəri konsepsiyaya elmi cəmiyyət tərəfindən yekdilliklə çıxarılmış və **Piqu** effektinə söykənən hökm həmin nəzəriyyənin məntiqi cəhətdən tamamilə inandırıcı, sübutlu və əsaslandırılmış şəkildə ifadə edildiyindən və onun praktiki əhəmiyyətinin sıfıra yaxın olduğundan ibarətdir [3].

Yekunda*"neoklassik sintez"in* formalaşma prinsipləri əvvəldə olduğu kimi qalmışdır: iqtisadiyyatda tarazlığa doğru tendensiya mövcuddur və beləliklə, neoklassik sistem özünün nəzəri əhəmiyyətini ümumilikdə qoruyub saxlayır; lakin əməkhaqqının qeyri-çevikliyi, "likvidlik tələsi" və faiz üzrə investisiya tələbinin qeyri-elastik olması kimi xüsusi halların mövcud olmasına görə, Keynsin nəzəriyyəsi və xüsusilə praktiki proqram da olduqca zəruri və əhəmiyyətlidir. Belə bir kompromisi iqtisadçıların böyük əksəriyyəti qənaətbəxş hesab etmiş və "neoklassik sintez"uzun bir müddətə hamı tərəfindən qəbul edilən nəzəri konsepsiya mövqeyində bərqərar olmuşdur. Qeyd etməliyik ki, sözügedən həmin konsepsiyaya bu və ya digər şəkildə iqtisadi təfəkkürün aparıcı və qabaqcıl istiqamətlərin meyilləri olmuşdur.

Bu konsepsiyanın mahiyyətini müəyyən edərək və öz həmkarlarının böyük əksəriyyətinin fikirlərini ifadə edərək,

*P.Samuelson yazırdı: "Neoklassik sintez: müvafiq pul-kredit və fiskal siyasətinin köməyi ilə bizim qarışıq sahibkarlıq sistemi süni canlanma və kəskin tənəzzül eksesslərdan (*normadan çıxmalardan*) qurtula və sağlam mütərəqqi artıma ümid edə bilər. Bir halda ki, bu fundamental mövqe anlaşılıb, "mikroiqtisadiyyatın" kiçik miqyaslarına aid olmuş köhnə klassik prinsipləri onların tətbiq edilmənin və mühümlüyünün əhəmiyyətli dərəcəsindən məhrum edən paradokslar artıq öz kəskinliyini itirir.* Sözün qısası, gəlir səviyyəsinin müəyyən edilməsinin müasir təhlilinə həqiqi mənada malik olması qiymət qoyuluşunun əsas klassik prinsiplərini təsdiq edir; artıq iqtisadçı tamamilə əsaslı şəkildə bəyan edə bilər ki, mikroiqtisadiyyat və makroiqtisadiyyat arasında mövcud olan geniş fikir ayrılığı və ziddiyyət aradan qaldırılıb"[7].

Belə görünürdü ki, Keynsin nəzəriyyəsinin neoklassik sistemlə uyğunlaşdırılması problemi həqiqətən də həll edilmiş oldu. Neoklassik prinsiplər mikroiqtisadiyyat sahəsində üstün mövqelərini qoruyub saxlamağa nail olmuş, keynsçilik isə təcrübi makroiqtisadi resepturanı müəyyən etmək imtiyazını və üstünlüyünü əldə etmişdir. İlk baxışdan, bu həll məntiqə uyğun görünür. Ancaq daha ətraflı və müfəssəl araşdırma zamanı aydın olur ki, "sintez" tərəfdarlarına kapitalist iqtisadiyyatının sabitliyi haqqında neoklassik tezisi ilə qeyri-sabitliklə mübarizənin Keynsin proqramı ilə barışdırmaq müyəssər olmamışdır. Ortodoksal iqtidsadçılar daima bir-birləri ilə münaqişəyə girirdi: öz konsepsiyalarının mikroiqtisadi hissəsini müdafiə etməklə onlar Keynsin doktrinasını bütün mənasından məhrum edən dəlillər gətirirdilər və əksinə, dövlət tərəfindən müdaxilənin zəruriliyini müdafiə etməklə onlar neoklassik nəzəriyyənin prinsiplərini rədd edən arqumentlərdən istifadə edirdilər.

Belə ki, makroiqtisadi sahədə "neoklassik sintez" qeyri-çevik qiymətlərə əsaslanır. Yaranmış vəziyyəti P.Samuelson "inzibati-qiymət oliqopoliyalarına" çevrilmiş iri korporasiyaların peyda olması ilə izah edir [7]. Qiymətlərdə çevikliyin yox

olması haqqında tezis Keynsin tənzimlənmə proqramının həyata keçirilməsinin lehinə olan əsas qismində çıxış edir. Lakin məhz onun özü "qiymət qoyuluşunun neoklassik prinsiplər"in doğruluğu haqqında danışmağa imkan vermir. Bununla yanaşı, "sintez" tərəfdarları bunda israrlıdır və iqtisadiyyatın inhisarlaşdırılması haqqında iddianı makronəzəriyyə üçün qüvvədə qalmış hesab etməklə, mikroiqtisadiyyat sahəsində belə bir rəqabətli bazarın mövcud olmasını ehtimal edirlər ki, burada qiymətlərin azad dinamikası yer alıb və həlledici rol istehlakçıya aiddir [7]. Lakin mikro və makro kateqoriyalar eyni iqtisadiyyatın təhlil edilməsi üçün nəzərdə tutulub, buna görə qiymətlərin "inzibati" təyin olunması və təkmil rəqabət haqqında iddialar bir-birinə uyğun gəlmir.

Eyni vəziyyət "neoklassik sintez"in digər konsepsiyaları üçün də mövcud olmuşdur. Məsələn, "neoklassik sintez"in mikro- və makronəzəriyyələri bilavasitə bir-birinə ziddiyyət təşkil edən və səmərəli davranış tərzinə aid olan ilkin şərtlərə əsaslanırdı. Mikro sahədə iqtisadi agentin tam olaraq məlumatlandırılmasına, real və gözlənilən kəmiyyətlərin və, beləliklə, davranış tərzinin tam və mütləq səmərəliliyinə yol verilirdi, bir halda ki makrosahədə adətən məlumatsızlıq və qeyri-mükəmməllik, ehtimalların yanlış olması və tamamilə təkmil davranışın qeyri-mümkünülüyü etiraf olunurdu. Firma nəzəriyyəsinin qurulması zamanı ortodoksal iqtisadçılar hesab edirdilər ki, gələcək qiymətləri, xərcləri əməkhaqqı dərəcələrini və sair bu kimi məsələləri bilməklə sahibkar resursları səmərəli formada bölüşdürür və maksimal gəlir əldə edir. Lakin əgər bu doğrudursa, onda Keynsin pul doktrinasının həyata keçirilməsi nəinki lazım deyil, hətta mümkünsüzdür. Çünki "neoklassik sintez" nöqteyi-nəzərdən natamam məşğulluğun səbəbi - əməkhaqqının qeyri-çeviklik olmasıdır. Deməli, əməkhaqqı dərəcəsini elə bir səviyyəyə qədər azaltmaq lazımdır ki, bu zaman sahibkar bütün istəyənləri işə götürməyə razı olsun. Buna qiymətlərin artıtrılması yolu ilə nail olmaq mümkündür.

Belə olan halda əvvəlki, yaxud hətta yüksəlmiş nominal əməkhaqqı şəraitində onun real qiyməti aşağı düşəcək və problem həll edilmiş olacaqdır. Lakin bu cür tədbirlərin həyata keçirilməsi yalnız o halda mümkündür ki, əgər iqtisadi agent "pul illüziyası"ndan əziyyət çəkir və nominal kəmiyyətləri real kəmiyyətlər qismində qəbul edir, yəni özünü qeyri-səmərəli şəkildə aparır. Bu isə ortodoksal iqtisadçıların mikrosahədə mümkün hesab etdikləri təkmil səmərəliliyin ilkin şərti ilə açıq-aşkar ziddiyyət təşkil edir.

Beləliklə, "neoklassik sintez" məntiqi cəhətdən ziddiyyətli, iki bir-biri ilə uyğunlaşmayan konsepsiyalardan ibarət olan sistemdir. Qeyd etməliyik ki, həmin konsepsiyalar eyni iqtisadiyyat haqqında olduqca qeyri-oxşar təsəvvürlər verir. Əgər "sintezin" neoklassik hissəsində ötən əsrin 70-ci illərindən Qərbin iqtisadi nəzəriyyəsində təsbit edilmiş bütün əsas postulatlar təsvir edilirsə, onun Keynsə aid hissəsində isə az qala onlardan hər biri inkar olunur. Bununla əlaqədar sual meydana gəir: görəsən aparıcı Qərb iqtisadçıları öz konstruksiyalarında bu dərəcədə açıq-aşkar ziddiyyətli məqamların mövcud olduğunu görə bilməyiblər?

Əlbəttə, bir çoxları neoklassik sintez sisteminin məntiqi cəhətdən qeyri-təkmil və qeyri-mükəmməl olduğunu dərk edirdilər. Vaxtaşırı neoklassik mikrotəhlilin keynsçi makro yanaşma ilə uyğunluğu barədə diskussiyalar "alovlanırdı", onların iştirakçıları adətən belə bir vahid fikrə gəlirdilər ki, problem əvvəlki kimi açıq olaraq qalır. Ancaq onlar vəziyyəti dramatikləşmənin tərəfdarı deyildilər, cünki "sintezin" praktiki məsləhətləri müsbət nəticə verirdi. Kapitaist ölkələrində başlanmış sabitlik dövrü Qərb iqtisadçıları tərəfindən həm tənzimlənmənin keynsçi doktrinasının səmərəliliyin sübutu, həm də, digər tərəfdən, - kapitalizm iqtisadiyyatının dayanıqlığı və həmahəngliyi barədə neoklassik tezisin təsdiqi kimi qəbul olunurdu. Buna görə "neoklassik sintez"in daxilində mövcud olan həm kapitalist iqtisadiyyatının sabitliyinin lehinə, həm də

qeyri-sabitliklə mübarizə proqramının dəstəklənməsinə dair olan arqumentlər eyni dərəcədə uyğun və münasib hesab edilirdi. Amerika iqtisadçısı A.Leyonhufvudun ifadəsinə görə, birbirinə zidd olan ortodoksal sistemin bölmələri arasında ”sülh şəraitində” münasibətlərin bərqərar olunması təmin edildi.

Onlar yalnız XIX əsrin 70-ci illərində tənzimlənmənin rəsmi doktrinası özünü etibardan salandan sonra pozulmuşdur. Yalnız bu zaman Qərb iqtisadçıları konsepsiyanın nəzəri əsaslandırılması qismində çıxış edən məntiqi ziddiyyətlərdə mövcud olan ciddi problemləri görmüşdülər. “Neoklassik sintez” bütün tərəflərdən ciddi tənqidə məruz qalmışdır, o, müxtəlif nəzəri cərəyanların cəlb etmə qütbü olmaqda öz gücünü itirmişdir və Qərbin iqtisadi nəzəriyyəsində baxışların dərin və ciddi oriyentasiya dəyişikliyi baş vermişdir.

Nəticə

"Neoklassik sintez" anlayışı ilk dəfə 1937-ci ildə ingilis iqtisadçısı C.Xiks tərəfindən işlənilmişdi. ***Neoklassik sintez Keynsin nəzəriyyəsi ilə neoklassik iqtisadi artım nəzəriyyəsinin sintezidir/***

"Neoklassik sintez" - pul amili əlavə olmaqla natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsidir.

“Sintez”in formalaşma ssenarisi aşağıdakı kimi təsəvvür edilə bilər.

Məntiqi cəhətdən ilk addım sadələşdirilmiş, yaxud (kəsilmiş) qısaldılmış adlandırılan Keynsin modelinin işlənib hazırlanması olmuşdur. Onu daha çox P.Samuelsonun adı ilə bağlayırlar ki, bu alimin məşhur dərsliyində həmin model ən birinci nəşrdən başlayaraq təkrar edilir (1948-ci il) . Neoklassik ənənələrinə və Keynsin özünün niyyətlərinə uyğun olaraq sözügedən model iqtisadiyyatın pul və real sektorları arasında dixotomiyanı bərpa etməklə bütün diqqətini sonuncunun üzə-

rində cəmləşdirir. Maliyyə sferasının təhlilini qurban verməklə, sadələşdirilmiş model milli gəlirin müəyyən edilməsi prinsipini olduqca dürüst, dəqiq və aydın şəkildə ifadə etməyi bacardı. Qeyd edək ki, ortodoksal keynsçilər, bunu Keynsin konsepsiyasının özəyi hesab edirlər.

Daha sonra modelə pul parametrləri daxil edilmişdir. Bu əməliyyatın həyata keçirilməsi üçün nəzərdə tutulmuş analitik aparat hələ 1937-ci ildə C.Hiks tərəfindən onun məşhur "Cənab Keyns və "klassiklər": təklif edilən interpretasiya" məqaləsində təklif olunmuşdur, daha sonra isə həmin aparat E.Hansen tərəfindən təkmilləşdirilərək uğurla istifadə edilmişdir. Nəticədə Hiks-Hansenin "gəlirlər-xərclər" sxemi peyda olmuşdur ki, o, Keyns nəzəriyyəsini ümumi tarazlıq konsepsiyasınıın xüsusi halı qismində təqdim edir və bu səbəbdən "neoklassik sintezin" kvintessensiyası hesab olunur.

Nəhayət, yekunda göstərilmişdir ki, hansı səbəblərə (xüsusi hallara) görə tam məşğulluğun avtomatik surətdə nail olunması mümkünsüzdür; beləliklə, özünün nəzəri mahiyyətini qoruyub saxlamaqla neoklassik sistemin, V.Leontyev ifadə etdiyi kimi, "keynsin eynəklər"inə ehtiyacı var, kapitalist iqtisadiyyatının isə - tənzimlənmənin keynsçi doktrinasına.

Yekunda "neoklassik sintez"i formalaşdıran prinsiplər əvvəlki olaraq qalmışdır: iqtisadiyyatda tarazlığa doğru tendensiya mövcuddur və, beləliklə, neoklassik sistem özünün nəzəri əhəmiyyətini ümumilikdə qoruyub saxlayır; lakin əmək-haqqının qeyri-çevikliyi, "likvidlik tələsi" və faiz üzrə investisiya tələbinin qeyri-elastik olması kimi xüsusi halların mövcud olmasına görə, Keynsin nəzəriyyəsi və xüsusilə praktiki proqram da olduqca zəruri və əhəmiyyətlidir. Belə bir kompromisi iqtisadçıların böyük əksəriyyəti qənaətbəxş hesab etmişdir və "neoklassik sintez" uzun bir müddətə hamı tərəfindən qəbul edilən nəzəri konsepsiya mövqeyində bərqərar olmuşdur. Qeyd etməliyik ki, sözügedən həmin konsepsiyaya bu

və ya digər şəkildə iqtisadi təfəkkürün aparıcı və qabaqcıl istiqamətlərin meyilləri olmuşdur.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1. "Sintez"in formalaşma ssenarisini xarakterizə edin.
2. Keynsin sadələşdirilmiş modelini izah edin.
3. Xiks-Hansen sxemini qrafik vasitəsilə təsvir edin.
4. Keynsçi nəzəriyyənin üç hadisəsinin əhəmiyyətini sadalayın.
5. Ümumilikdə neoklassik sistemin nəzəri əhəmiyyəti nədən ibarətdir?
6. Aşağıdakı terminlərin mənasını açın: "əməkhaqqının qeyri-çevikliyi", "likvidlik tələsi", "investisiya tələbin faiz üzrə qeyri-elastikliyi".
7. "Neoklassik sintez" konsepsiyasının mahiyyəti nədən ibarətdir?

Ədəbiyyat siyahısı:

1. Leontyev V. İqtisadi esse: Nəzəriyyələr, tədqiqatlar, faktlar və siyasət: İngilis dilindən tərcümə, Moskva, 1990, s. 128.
2. Osadçaya İ.M. Konservatizm reformizmə qarşı: burjua siyasi iqtisadında iki tendensiya. Moskva, 1984, s. 34.
3. Blaug M.Economic Theory in Retrospect. 4th ed. L., 1985, p. 670.
4. Hicks J.R. Mr. Keynes and the "Classics" a Suggested Interpretation / / Econometrica. 1937. Vol. 5. P. 147-159; hansen A.H. A Guide to Keynes. N.Y., 1953.
5. Pezenti A. Kapitalizmin siyasi iqtisadının oçerkləri. Cild 2. Moskva, 1976, s. 613-658, 699-711.
6. Harris L. Pul nəzəriyyəsi. Moskva, 1990, s. 268-315, 402-440.

7. Samuelson P. İqtisadiyyat. Moskva, 1964, s. 56, 396.

8. Xudokormov A.Q. İqtisadi təlimlər tarixi. M: İNFRA- M, 2004, s. 733.

9. Meybullayev M.X. İqtisadi təlimlər tarixi. Dərslik, 2005, s. 513-516.

10. Q.S.Əlləzov. İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı (monoqrafiya). Bakı. "İqtisad Universitet" Nəşriyyatı, 2009, s. 313- 314.

III FƏSİL. POSTKEYNSÇİLİK

3.1. Nəzəri yanaşmaların ümumi xarakteristikası

3.2. "Ümumi nəzəriyyə"nin Kembric variantı (Böyük Britaniya)

3.3. C.Robinsonun kapital yığımı nəzəriyyəsi və texniki tərəqqi

3.4. P.Sraffanın dəyər və qiymət qoyuluşu nəzəriyyəsi

3.5. İqtisadiyyatın qeyri-müəyyənliyi və qeyri-müntəzəmliyi keynsçi nəzəriyyənin "həqiqi əsası" kimi

3.6. "Neoklassik sintezin" və makroiqtisadi siyasət probleminin yenilənməsi

Keynsçiliyin "zəfər yürüşünün", eləcə də Qərbin iqtisadi fikrinin hakim cərəyanına çevrilmiş onun ortodoksal variantının formalaşması illəri kimi ötən əsrin 50-60-cı illər göstərilə bilər.

Keynsçiliyin mövqelərinin güclənməsinə, XX əsrin 40-cı illərin ikinci yarısından başlayaraq 60-cı illərin ortalarına kimi Qərbi Avropa ölkələrində və Amerika Birləşmiş Ştatlarında az-çox dərin iqtisadi böhranların baş verməməsi imkan vermişdir. Birləşmiş Ştatlarda 60-cı illərdə təqribən 8 il davam etmiş son dərəcə uzunmüddətli yüksəliş keynsçiliyin havadarları tərəfindən fəal keynsçi iqtisadi siyasətinin zəfəri elan edilmişdir. Belə görünürdü ki, dövlət tənzimlənmə mexanizmi az-çox düzəlmiş, onu əsaslandırmış nəzəriyyə isə doğrudur və yüksək elmi nüfuza malikdir. Ancaq həyat bu təsəvvürlərə öz düzəlişlərini etdi. Artıq qeyd etdiyimiz kimi, ötən əsrin 70 illərində baş vermiş struktur və tsiklik böhranlar, xüsusilə də 1974-1975-ci ildəki böhran, tədricən xroniki xarakter alan inflyasiya və bütün bunlar bir yerdə iqtisadi siyasətin böhranına, həmçinin iqtisadi çətinlikləri necə həll etmək lazım olduğuna dair aşkar qarışıqlığa gətirib çıxartmışdı. Antitsikl siyasətinin

standart keynsçi sxemləri iflasa uğradı, həmin sxemlərə əsasən, adətən yüksəliş mərhələsi ilə üst-üstə düşən inflyasiyanın qarşısını almaq tələbini məhdudlaşdırmağa, böhranın özünü isə, əksinə - tələbin genişləndirilməsi yolu ilə aradan qaldırmağa çalışırdılar. İnflyasiyanın inkişafı hökumətin siyasətini yüksəliş mərhələsində də cətinləşdirmişdir; ənənəvi metodlarla yüksəlişi təmin etmək və stimullaşdırmaq cəhdləri isə hər dəfə inflyasiya proseslərini daha da kəskinləşdirirdi və stimullaşdırıcı vasitələrin son dərəcə ehtiyatla tətbiq olunmasını tələb edirdi.

Dövlət tənzimlənməsinin rəsmi doktrinası qismində keynsçiliyin və onunla birgə həm də bütün neokeynsçilik sintezinin böhrana düşməsi həmin nəzəriyyənin ənənəvi əleyhdarları – "neoklassik dirçəliş" bayrağı altında çıxış edən neoklassiklər tərəfindən kəskin tənqid edilməsi ilə əlamətdar olmuşdur. XX əsrin 60-cı illərin ortalarından başlayaraq keynsçiliyin tənqid olunmasında yeni mövqe güclənməyə başlamışdır. Bu keynsçi iqtisadi nəzəriyyənin ardıcıllarının özləri tərəfindən Keynsin nəzəriyyəsinin ortodoksal versiyasının yenidən nəzərdən keçirilməsi ilə bağlı olmuşdur. ***İqtisadi təfəkkürdə bu yeni hadisə*** **postkeynsçilik adlandırılmışdır**.

3.1. Nəzəri yanaşmaların ümumi xarakteristikası

Postkeynsçilik müxtəlif metodoloji və ideoloji yanaşmalara malik olan iqtisadçıları öz sıralarına cəlb etmişdir. Tarixi baxımından o**, iki axının birləşməsi nəticəsində əmələ gəlmişdir**. **Bir tərəfdən**, bu mərkəzi Kembricdə yerləşən Böyük Britaniya solçu keynsçilik olmuşdur, bu şəhərdə uzun illər ərzində **C.M.Keynsin** bir çox şagirdləri və N.Kaldor, P.Sraffa və məşhur Coan Robinson silahdaşlarından yaşayıb çalışırdı. Onlar həmin bu cərəyanın hamı tərəfindən tanınan lideri.

Digər tərəfdən, ötən əsrin 60-cı illərinin təxminən ortalarından keynsçiliyin yenidən tənqidi qiymətləndirilmə

prosesi Amerika Birləşmiş Ştatlarında da başlanmışdır. Sözügedən bu proses R.Klauer, A.Leyonhufvud, P.Davidson, S.Vayntraub, X.Minski və s. iqtisadçıların təşəbbüsünə əsasən başlamışdır. Qeyd etdiyimiz bu müəlliflər neoklassik sintezin tərkib hissəsi olmuş "natamam məşğulluğa malik olan tarazlığın" ortodoksal keynsçi nəzəriyyənin qəzəbli tənqidi ilə çıxış etmişdilər. Onlar iddia edirdilər ki, yaşlı nəsil, ilk növbədə E.Hansen, P.Samuelson və C.Hiks tərəfindən işlənib hazırlanmış keynsçi versiya, əslində Keynsin nəzəriyyəsinin əsl mahiyyətini təhrif etmişdir. Onların fikirlərinə görə, Keynsin nəzəriyyəsi və neoklassik nəzəriyyə bir-birilə qətiyyən bir araya sığmır. Bu cərəyanın keynsçi rekonstruksiyası bir çox hallarda monetar keynsçilik adlandırırlar, çünki burada pul prosesləri ilə bağlı olan qeyri-dayanıqlığa və qeyri-müəyyənliyə həlledici əhəmiyyət verilir.

XX əsrin 70-ci illərində postkeynsçiliyin bu iki cərəyanı kifayət qədər məşhur olmuşdur və təkcə keynsçi nəzəriyyənin əvəz edilməsinə deyil, həm də "neoklassik sintez" formasında hökmranlıq edən ortodoksiyaya alternativ olan və ümumiyyətlə daha geniş baxışlar sisteminin yaradılmasına iddia edirdi.

Amerikalı iqtisadçı A.Eyxner – bu cərəyanın ən görkəmli nümayəndələrindən biri – yeni iqtisadi liqanı aşağıdakı kimi xarakterizə edirdi. O, yazırdı: "Onun üzvləri iqtisadi nəzəriyyədə başqa cür düşünmənin müxtəlif ənənələrinin birləşməsini ifadə edir – amerikalı institusionalistlərin, avropalı marksistlərin ənənələrinin, həmçinin Keynsin ən yaxın həmkarlarının ənənələrini də təsvir edirlər. Ümumilikdə götürüləndə, onların iş fəaliyyəti, iqtisadi nəzəriyyədə hökmranlıq edən hərtərəfli, məntiqi cəhətdən həmahəng ortodoksiyanın işlənib hazırlanması imkanını verir. Sözügedən bu ortodoksiya özünün qeyri-realistik olduğuna görə şüurlu bir iqtisadi siyasətin əsas və mühüm maneəsini təşkil edir" [1].

Lakin hətta özlərini postkeynsçilərə aid edənlərin arasında belə bu cərəyanın şərhində həmfikirlilik mövcud olma-

mışdır. Məsələn, amerikalı C.Krotti yazır: "Keyns qarşısında hamı tərəfindən qəbul edilmiş intellektual borcu (bamayaraq ki, onlardan bəziləri – M.Kaletski, D.Rikardo, K.Marks yaxud P.Sraffa daha böyük əhəmiyyətə malikdirlər) və ortodoksal nəzəriyyəyə qarşı olan narazılıqları hesaba almasaq, **"post-keynsçi"** adı bir çox hallarda bir-birinə hətta bənzəməyən belə iqtisadçıların böyük bir qisminə tətbiq edilə bilər". İngiltərə iqtisadçıları **Ş.Dou və P.Erl** isə əksinə, postkeynsçi nəzəriyyəni son dərəcə dar bir çərçivədə şərh edirlər. Postkeynsçilərə onlar yalnız belə iqtisadçıları aid edirlər ki, həmin iqtisadçılar qeyri-müəyyənliyin rolunun, eləcə də iqtisadiyyatda maliyyə qeyri-sabitliyi törədən maliyyə-pul infrastrukturunun həmin qeyri-müəyyənliyə təsir göstərməsi nöqteyi-nəzərindən kapitalist iqtisadiyyatını təhlil edirlər. Onların fikirlərinə əsasən, postkeynsçilər – yalnız "**monetar keynsçilərdir".** Kembric solçu keynsçilik onları**"neorikardoçu keynsçilik"** adlandırırlar, çünki onun nümayəndələri qeyri-müəyyənlik ºəraitində pulların rolunun təhlil edilməsi ilə məşğul olmurlar.

Hər halda, adı çəkilmiş bu iki cərəyanın nümayəndələrini iqtisadi nəzəriyyəyə olan bəzi ümumi yanaşmalar birləşdirmişdir. Qeyri-ortodoksal keynsçi qrupların hər ikisi neoklassik sistemi bütünlüklə devirməyi, iqtisadi nəzəriyyədə Keyns tərəfindən başlanan "inqilabı" axıra qədər çatdırmağa, makro- və mikroiqtisadiyyatın yeni sintezini yaratmağa öz qarşılarına məqsəd qoymuşdular [2].

Lakin etiraf etmək lazımdır ki, **"radikal" postkeynsçiliyin** bu iradları, xüsusən də onun ən görkəmli nümayəndələrinin **(D.Robinsonun, H.Kaldorun, P.Sraffanın, S.Vaytraubun)** dünyasını dəyişəndən sonra hər hansı bir məqsədli, ən əsası isə - hamı tərəfindən qəbul edilmiş nəzəri sistemin yaradılması ilə başa çatmamışdır.Bundan əlavə, ötən əsrin 80-ci illəri üçün ideologiyada və siyasətdə səciyyəvi olmuş konservativ dəyişikliklər şəraitində bazar iqtisadiyyatının radikal yenidənqurma ideyalarının ümumi zəifləməsi ilə **"**radikal post-

keynsçilik” öz mövcudluğuna son qoymasa belə, əvvəlki populyarlığını itirmiş oldu.

XX əsrin 80-ci illərin axırları 90-cı illərin əvvəllərində “radikal postkeynsçiliyin” yenidən canlanması (hal-hazırda artıq “yeni” keynsçilik adı altında) müşahidə olunurdu.

İngiltərə iqtisadçısı D.Koulender müəllifi olduğu “keynsçilik nəzəriyyəsinin təkamülü: keynsçilikdən Yeni Klassikaya və Yeni keynsçiliyə doğru” çoxmənalı başlıq adı altında dərc edilmiş məqaləsində ötən əsrin 60-80-ci illərdə iqtisadi nəzəriyyənin inkişaf prosesini belə səciyyələndirir: “60-cı illərin ortalarında keynsçilik inqilabı sönməyə və zəifləməyə başlamışdır və artıq 70-ci illərin ortalarına tamamilə dayanmışdır; 35 yaşa qədər olan keynsçi yox olan növə çevrildi; ancaq yaşı 50-dən yuxarı olanlar qalmışdırlar ki, lakin onlar da öz otaqlarında xəlvətə çəkildilər.

Yaşı 35-ə çatmamış iqtisadçıların rastlaşdığı fəlakət Yeni klassik iqisadiyyatdan ibarət olmuşdur ki, artıq ötən əsrin 80-ci illərin əvvəllərində mətbuat keynsçiliyin sonu və Yeni klassikanın artıq bundan sonra əsas cərəyan olduğunu bəyan etmişdir. Lakin sonuncunun hökmranlıq dövrü uzun sürmədi. XX əsrin 80-ci illərin ortalarına onun tərəfdarlarının özləri keynsçiliyin yeni həmləsi (hücumları)– Yeni keynsçi nəzəriyyə adı altında sıxışdırılmaq astanasında qalmış oldular ki, həmin bu nəzəriyyənin də Yeni klassika virusuna qarşı immunitetinin olması aşkarlanmışdı”.

Postkeynsçiliyin inkişafında bu yeni burulğan, Keynsin nəzəriyyəsinin sonrakı inkişafı, onun müasir bazar şəraitində inflyasiya proseslərinin və iqtisadiyyatın beynəlmiləlləşdirilməsində olduqca böyük rol oynayan makroiqtisadi siyasətin tələblərinə uyğunlaşması ilə səciyyələnir.

Postkeynsçiliyin görkəmli nümayəndələrinin – M.Kaletskinin, D.Robinsonun, P.Sraffanın və S.Vayntraubun xatirəsinə həsr olunmuş kitabında A.Eyxner yazır: “Hamı tərəfindən qəbul olunmuş nəzəriyyənin əsas məqsədi bunu göstərməkdən

ibatədir ki, bazar iqtisadiyyatı özü özünə tənzimlənən bir mexanizmi ifadə edir və beləliklə, dövlət tərəfindən tənzimlənmənin həyata keçirilməsinə xüsusi bir zərurət yaranmır… Əksinə, postkeynsçilər bunu tanımırlar və qəbul etmirlər. İstənilən halda onlar hesab edirlər ki, dövlətin daimi, habelə fəal müdaxiləsi istehsalın mərkəzləşdirilməmiş sisteminə xas olan ən pis fəsadların aradan qaldırılmasında əhəmiyyətli rol oynayır ” [2].

Lakin postkeynsçilik cərəyanını təmsil edən müxtəlif nümayəndələrin iqtisadi siyasət məsələlərinə dair mövqeləri onların nəzəri quruluşları qədər müxtəlifdir [2].

3.2. “Ümumi nəzəriyyə”nin Kembric variant (Böyük Britaniya)

Keynsin nəzəriyyəsinin tənqidi yenidən qiymətləndirilməsi, eləcə də onun nəzəri təhlilini digər qeyri-ortodoksal cərəyanlarla sintezi bazasında inkişaf etdirmək cəhətləri ilk öncə ötən əsrin 40-50-ci illərində Kembric məktəbinin (Böyük Britaniya) üzvləri çıxış etmişdilər, onlardan bir çoxları Keynsin tələbələri və silahdaşları olmuşlar – D.Robinson, N.Kaldor, P.Sraffa, R.Kan.

Bu nəzəriyyəçilər üçün, Keynsdən başqa, həmçinin “klassiklərin” də, ilk növbədə isə Rikardo və Marksın ideyaları və metodologiyası böyük əhəmiyyət kəsb edirdi; onlara həmçinin M.Kaletskinin elmi işləri də az təsir göstərməmişdir. M.Kaletski məşhur Polşa iqtisadçısı olmuş və uzun müddət ərzində Kembricdə işləmişdir (XX əsrin 30-cu illərində hələ Keynsin müəllif olduğu kitabın nəşrindən əvvəl polşalı alim özünün makroiqtisadi nəzəriyyəsi ilə çıxış etmişdir, (həmin nəzəriyyədə səmərəli tələb problemi, bölgü və iqtisadiyyatın inhisarlaşdırma prosesləri ilə əlaqələndirilmişdir). Zaman keçdikcə, onların tanınmış lideri Coan Robinson olmuşdur.

İqtisadi ədəbiyyatda bu cərəyan tez-tez *"solçu keynsçilik"* adlandırılır, çünki onun tərəfdarları səmərəli tələbin genişləndirilməsi faktoru qismində əməkhaqqının artımına böyük əhəmiyyət verirdilər, inhisarların hakimiyyətinin məhdudlaşdırılması və sosial islahatların həyata keçirilməsinin leyhinə çıxış edirdilər. *Coan Robinson* özü haqqında isə belə yazırdı: "Mənim "Ümumi nəzəriyyə"dən çıxartdığım nəticələr hələ bu əsər nəşr edilməzdən xeyli əvvəl mavidən daha çox çəhrayi olmuşdur (mənim bəxtim gətirdi ki, mən bu nəzəriyyənin yazılması zamanı Keynslə bir yerdə uzun müddət işləmiş onun dostları sırasında idim). Beləliklə, daha sonra ***"solçu keynsçilik"*** adlandırılmış həmin o qabın içinə düşmüş mən ilk damla idim.Bundan artıq və bu gün də mən bu qabın içində olanın əhəmiyyətli hissəsini təşkil edirəm, çünki bu vaxt ərzində həmin qabdan kifayət qədər çox içilib".

Bütün bunlar Kembric məktəbinin inkişaf etməsinin xüsusiyyətini və orijinallığını qabaqcadan müəyyən etmişdir. Onun tərəfdarları neoklassik məktəbinin ən vacib əsasları ilə də qətiyyətlə bütün əlaqələri qırırlar – söhbət son hədd məhsuldarlığı və son hədd faydalılığı nəzəriyyələrindən gedir ki, onların bazasında istehsalın, resursların istifadə edilməsinin, məhsul bölgüsünün və qiymət qoyuluşunun neoklassik məktəbinin bütün binası qurulub. Əlaqələrin beləcə qırılması aşağıdakı hallarda daha açıq-aydın özünü büruzə verir: birincisi, kapitalın, iqtisadi artımın və məhsul bölgüsünün yeni nəzəriyyəsinin işlənib hazırlanmasında və ikincisi, rikardoçuluğun dirçəlməsinə söykənən dəyər nəzəriyyəsinə dair yeni yanaşmanın inkişaf etdirilməsində. Radikal əhval-ruhiyyələrin yüksəlişi, 60-cı illərin sonu və xüsusən 70-ci illərdə marksizmə olan marağın artması nəticəsində gənc iqtisadçılar arasında bu məktəbin xüsusi olaraq məşhurlaşması heç də təsadüfi olmamışdır. İqtisadi təfəkkürün nəzəri arsenalının (ehtiyatların) yeniləşməsi zərurəti meydana gələndə və özünü son dərəcə kəskin bir surətdə hiss etdirdiyi bir şəraitdə bu məktəb ön

plana keçməklə hamının, o cümlədən də gənc iqtisadçıların, diqqətini özünə cəlb etmişdir. İtalyan iqtisadçısı *L.Pazinetti* iqtisadi təfəkkürün bu cərəyanının tərəfdarları haqqında yazırdı: "Onlar iqtisadi nəzəriyyələşmənin bütün fokusunu (mərkəzini) onun (iqtisadi nəzəriyyənin), demək olar ki, yüz il ərzində məşğul olduğu verilmiş resursların optimal bölqüsü problemlərindən, ölkələrin sənaye inkişafının dinamikasını müəyyən edən fundamental faktorların təhlilinə keçirməyə can atırdılar. Bu yerdəyişmə kapital yığımı, əhali sayının artımı, istehsal ekspansiyası, gəlirin bölüşdürülməsi və məhz bu səbəbdən həm texniki tərəqqi, həm də struktur dəyişiklikləri kimi hər hansı bir mərkəzi problemlərin ön plana çıxarılması demək idi".

3.3. Coan Robinsonun kapital yığımı nəzəriyyəsi və texniki tərəqqi Joan Violet Robinson (1903–1983)

İngilis iqtisadçısı və ictimai xadim, yeganə məşhur iqtisadçı xanım, keynsçiliyin və poskeynsçiliyin davamcısı.

31 oktyabr 1903-cü ildə Kemberlide anadan olmuş (Surrey qraflıgı) Böyük Britaniya. 1925-ci ildə Kembric Universitetini bitirmiş və 1931-1971-ci illərdə universitetdə müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

C.Robinson və onun Kembric üzrə həmkarları (N.Kaldor, sonralar isə L.Pazinetti, Ya.Kreqel, C.İtuell və digərləri) səmərəli tələbin qısamüddətli təhlilini kapital yığımı, texniki tərəqqi və məhsulun bölgüsü faktorlarının uzunmüddətli təhlili ilə birləşdirməklə Keynsin "Ümumi nəzəriyyəsi"nin alternativ variantını ərsəyə gətirməyə çalışırdılar. Bu işin həyata keçirilməsində prioritet (birincilik), şübhəsiz ki, **Coan Robinsona** məxsusdur. ***1956-cı ildə C.Robinson***

özünün əsas elmi işini nəşr etdirir – "Kapital yığımı". Burada o, iqtisadiyyatın uzunmüddətli artımına təsir göstərən əsas faktorları (gəlir və əməkhaqqı arasında bölgü, kapitalın həcmi və texniki tərəqqinin xarakteri, iqtisadiyyatın inhisarçılıq və rəqabət dərəcəsi, əhalinin artması və sair***) sintez etməyə, habelə dayanıqlı artımdan uzaqlaşmanın və kənara çıxmaların səbəblərini müəyyən etməyə cəhd göstərmişdir.***

Keynsin nəzəriyyəsinə əsaslanaraq, C.Robinson qeyd etdiyimiz kitabın müqəddiməsində yazırdı:

Keynsin ümumi nəzəriyyəsi statik nəzəriyyənin şüşəli binasını "real problemin – işsizliyin səbəblərinin təhlil edilməsi məqsədilə xıncım-xıncım etmişdir. Lakin sözügedən təhlil qısa bir dövrlə məhdudlaşırdı ki, nə zaman kapitalın ehtiyatı və istehsal texnikası verilib. Bu, statik nəzəriyyənin qırıqları ilə örtülmüş və dağıdılmış binanı necə yenidən qurula biləcəyinə dair olduqca zəif eyhamlarını verən uzunmüddətli problemlərin ucsuz-bucaqsız və olduqca geniş sferasını toxunulmamış bir vəziyyətdə saxlayırdı" [3]. Coan Robinson da məhz bu vəzifəni üzərinə götürür – "Ümumi nəzəriyyə"nin ümumiləşdirmək vəzifəsini; yəni burada söhbət qısamüddətli keynsçi təhlilin uzunmüddətli inkişaf problemlərinə yayılması vəzifəsindən gedir.

Təhlilin özünün xarakterinə, ikisektorlu iqtisadiyyatı təsvir edən ilkin modelinə, özünün sadə və genişləndirilmiş təkraristehsal sxemləri ilə müəyyən təsiri Karl Marks göstərmişdir [3]. Kapitalist təsərrüfatı sistemi inkişafının nəzəri ümumiləşdirilməsini (kapitalın yığımı marksist nəzəriyyəsinə uyğun olaraq) təqdim etməli olan bu problemin tədqiq edilməsini nəzərdə tutaraq, Coan Robinson yazırdı: (Marksın) "Geniş təkrar istehsal sxemi əmanətlərin və investisiyaların bərabərliyi probleminə, habelə istehsal vasitələrinin istehsal olunması və istehlak mallarının istehsal edilməsi arasında bərabərliyinə olduqca sadə və labüd yanaşmanı verir. Bu yanaşma bir daha kəşf olunub və Kaletski tərəfindən keynsçi problemin tədqiq

edilməsinin əsasına çevrilib, eləcə də uzunmüddətli inkişaf nəzəriyyəsi üçün bazis qismində Harrod və Domar tərəfindən yenidən ixtira olunub. Əgər Marksa bir tərəfdən məsumorakul, (kahin) digər tərəfdən isə ucuz epiqramlar üçün hədəf qismində nəzərdən keçirmək əvəzinə onu ciddi iqtisadçı kimi araşdırıb öyrənsəydilər, onda biz xeyli vaxta qənaət etmiş olardıq".

Bəs Coan Robinson öz tədqiqatını necə qurur?

İstənilən hər hansı bitkin və mükəmməl nəzəri sistemdə istehsal və bölgü qarşılıqlı surətdə əlaqələndirilib.

Marksist nəzəriyyədə bu qarşılıqlı əlaqələndirilmə əmək dəyər nəzəriyyəsi kateqoriyası əsasında həyata keçirilir: yenidən yaradılmış dəyərin həcmi zəruri və izafi məhsulun kəmiyyəti ilə müəyyən olunur ki, bu da, öz növbəsində, sonrakı bölgünün əsasını təşkil edir. Fəhlə sinfi işçi qüvvəsinin dəyər ekvivalentini əldə edir (əgər bütün növbəti mürəkkəbləşdirən faktorlardan, o cümlədən də siyasi mübarizə faktorlarından abstraktsiya etsək (nəzərə almasaq)); izafi dəyər kapitalist sinfinə çatır ki, o, həmin dəyəri onun gələcəkdə yığılması məqsədilə istifadə edir.

Neoklassik nəzəriyyədə bu cür qarşılıqlı bağlılıq məhsulun son həddi kateqoriyaları əsasında həyata keçirilir: istehsal faktorlarının həcmi (onların artım templəri) və onların son hədd məhsuldarlığı həm məhsulun həcmini, həm də faktorların nisbi paylarini, yəni onların bölgüsünü müəyyən edir.

Coan Robinson belə bir nəzəriyyəni inkişaf etdirir ki, burada artımın, kapital yığımının və bölgünün qarşılıqlı əlaqələndirilməsi real mövcud olan institutların fəaliyyət göstərməsi əsasında həyata keçirilir. Həmin institutlar isə bir tərəfdən müəssisələrin yığıma olan meyillərini, digər tərəfdən isə məhsulun milli gəlirdəki payına görə fəhlələrin mübarizəsini müəyyən edir (xanım alim yazırdı: "iqtisadi tarix, məlum olduğu kimi, mübahisə edən maraqların arenasını təsvir edir ki və məhz həmin bu maraqları da neoklassiklər müzakirə etmək istəmirlər"). Başqa sözlə desək, o, təkcə əmək dəyər nəzə-

riyyəsi olmadan deyil, həmçinin məhsulun son həddi kateqoriyası olmadan da keçinməyə cəhd göstərir.

Bütöv ictimai istehsalı Coan Robinson iki sektora bölür: ***investisiya əmtəələri sektoru (I) və istehlak malları sektoru (II).***

Alim buna əsaslanır ki, hər bir bölmənin yekun məhsulunun dəyəri əməkhaqqından **(*W*),** eləcə də gəlirdən və amortizasiyadan **(*Q*)** ibarət olan kvazirenta adlandırılan bir elementdən əmələ gəlir.

(I) $W_1 + Q_1 = Y_1$;

(II) $W_2 + Q_2 = Y_2$; $W_2 = Q_2$.

Yığımın qanunauyğunluqlarının aydınlaşdırılması məqsədilə Robinson bir sıra məhdudlaşdırıcı şərtləri nəzərdə tutur, o cümlədən: *dövlət tərəfindən iqtisadiyyata müdaxilənin olmamasını, yalnız iki sinfin mövcud olmasını – fəhlələrin və sahibkarların, bütövlükdə kapital yığımına yönəldilən gəlirdən istehlakın istisna edilməsini.* Onun sistemində əməkhaqqı – müstəqil dəyişən kəmiyyətdir. Bu əməyin müqabilində ödənişdir və onun miqdarı uzunmüddətli tarixi inkişafın nəticəsini təsvir edir. Onun özünün aşağı həddi var – ailənin mövcudluğunu və təmin edilməsi imkanını nəzərdə tutan fizioloji minimum. Coan Robinson yazır: "O vaxtdan tarixi inkişaf prosesi əməkhaqqını və məşğulluğu hal-hazırda mövcud olan səviyyəyə gətirib çıxartmışdır".

Əməkhaqqının müstəqil və asılı olmayan dəyişən kəmiyyət olduğunu nəzərə almaqla, Robinson qeyd edilmiş bərabərliklərdən birinci nəticəni hasil edir: I *bölmədəki əməkhaqqı fondu və məşğulluq II bölmənin kvazirentasının miqdarı ilə müəyyən edilir. Beləliklə, investisiya aktının baş verməsi üçün I bölmədə istehsal və məşğulluq artmalıdır. Bunun yerinə yetirilməsinin şərti kimi isə ya real əməkhaqqının azaldılması, yaxud da II bölmənin kvazirentasının (Q_2) müvafiq artımı ola bilər. Yığım, məşğulluq və istehlak arasında münasibətin inkişaf etdiyi əsas görünüş (fon) məhz bundan ibarətdir.*

Kapital yığımı (yaxud artıması) prosesinə gəldikdə isə, həmin proses iki şərtdən asılıdır: ***birincisi,*** illik sərmayə qoyulmuş əsaslı əmtəə istehsalından aşınma çıxıldıqdan sonra mənfəətin (gəlirin) həcminə bərabərdir **($Y_1 - R$),** yaxud kvazirentanın ümumi məbləğindən çıxılsın amortizasiya **($Q_1 + Q_2$ - *A); ikincisi,*** sahibkarların investisiya həyata keçirmək meyillərindən. Bu iki şərtə gəlir normasının kapital yığımı tempinə bərabər olması cavab verir, buradan isə aşağıdakı nəticə hasil olunur: ***"Əgər onların gəliri yoxdursa, onda sahibkarlar yığım iqtidarında deyillər, əgər onlar yiğa bilmirsə, deməli, onların gəlirləri yoxdur" [3].***

İkinci şərtə Coan Robinson olduqca böyük əhəmiyyət verir. O, yazır: "Belə bir vəziyyəti nəzərdən keçirək ki, real əməkhaqqı yaşamaq üçün lazım olan minimumu bir o qədər də çox üstələmir, belə ki, yığım üçün zəruri olan texniki artıqlıq da mövcuddur, fəhlələr bir o qədər də çox təşkil olunmayıb və mövcud olan qiymətlərə böyük həssaslıqla yanaşmırlar ki, real əməkhaqqının aşağı düşməsinə qarşı inflyasiya maneələri aradan qaldırılsın. Belə oldugda yığım mümkündür. Lakin belə də ola bilər ki, hər bir ayrıca sahibkar artıq yığılmış kapitalın miqdarından razıdır. Onların hamısı birlikdə yalnız o qədər fəhləni işə cəlb edəcəklər ki, kapital ehtiyatları dəyişməz olaraq qalmaqda davam etsin. Bunun nəticəsində kvazirenta yalnız amortizasiyaya bərabər olacaq və gəlir itəcək".

Burada **Robinson belə bir nəticəyə gəlir ki, kapitalist iqtisadiyyatı iki növ staqnasiyaya məruz qala bilər**: texniki tərəqqinin çatışmazlığı və habelə son dərəcə "doyma", apatiya, kapitalın sərmayə şəklində yerləşdirilməsinin arzu edilməməsi səbəbindən.

Ən sadə model Robinson üçün uzunmüddətli perspektivdə yığım probleminin təhlil edilməsi üçün çıxış nöqtəsidir və həmin çıxış nöqtəsini o, mənfəət (gəlir), əməkhaqqı və məşğulluq arasındakı nisbət kimi nəzərdən keçirir. Özü də bu

qlobal nisbət Coan Robinson tərəfindən üç dinamik proseslərin təsiri altında tədqiq edilir - əhalinin artması və işçi qüvvəsi təklifinin dəyişməsi; inhisarın və rəqabətin nisbəti və ən nəhayət, teniki tərəqqinin təsiri.

Texniki tərəqqi haqqında nəzəriyyə - Coan Robinson nəzəriyyəsinin əhəmiyyətli hissəsini təşkil edir.

Xanım alim texniki tərəqqinin üç növünü nəzərdən keçirir: ***neytral***, bu zaman iki bölmənin əsas parametrləri arasındakı nisbətlər, o cümlədən həmçinin məşğulluq üzrə, dəyişmir və onun iki təmayülü – ***kapitaləmanətli*** və ***kapitaltutumlu*** texniki tərəqqi. **Birincisi** investisiya bölümündə yeniliklərin və əmək məhsuldarlığının daha sürətli artım tempini ifadə edir, **ikincisi** isə nəzərdə tutur ki, istehlak malları istehsal edən **II** bölmədə əmək məhsuldarlığı daha yüksək sürətlə artır. Bu "təmayüllər" iki bölmənin nisbətini, o cümlədən də həm gəlirin bölgüsünü, həm də işçi qüvvəsinə olan tələbin miqdarını dəyişəcəklər.

İstehsal texnikasının seçiminə, texniki tərəqqinin "təmayüllərinə" və templərinə əməkhaqqı və gəlirin nisbətinin təsir göstərməsini də Robinson müfəssəl bir formada təhlil edir.

Öz kitabında Coan Robinson iqtisadi inkişafın ideal şərtlərini – "qızıl əsr" şərtlərini qısaca və dürüst bir şəkildə ifadə edir. Onlardan ən mühüm və əhəmiyyətli olanlar aşağıdakılardır:

1. Neytral teniki tərəqqi, bu şəraitdə bir adama düşən əməyin məhsuldarlığı, əməkhaqqı və kapitalla silahlanma eyni proporsiyada yüksəlir, mənfəət (gəlir) norması isə dəyişməz olaraq qalır.

2. Əhalinin hər nəfərinə düşən istehsal artımı ilə birgə yüksələn fəhlə sinfinin əməkhaqqının çevikliyi .

3. Əməkhaqqının məhz bu cür artımının labüd və mütləq şərti olan azad və sərbəst rəqabət.

4. Qızıl əsr şəraitində kapital yığımı yalnız texniki tərəqqinin və məşğul olan əhalinin artımı templərindən asılıdır.

Xanım alim yazır: “Potensial artım tempi təqribən məşğulluğun artım tempi üstə gəl əhalinin adam sayına düşən məhsulun artım tempinə bərabərdir”.

Coan Robinson hesab edir ki, məhz bu şərtlərin pozulması kapitalizmin qeyri-sabit inkişafının əsas səbəblərini təşkil edir. “Sabit inkişaf üçün zəruri olan şərtləri sadalamaq kifayət edir ki, biz ***kapitalizm oyununun qaydaları*** şəraitində sabitliyin qorunub saxlanılmasının nə dərəcədə etibarsız olduğuna əmin ola bilək… Şərtlər aşağıdakılar səbəbindən pozulur: **1)** texniki tərəqqi tempinin gözlənilmədən pozulması; **2)** rəqabət mexanizminin fəaliyyət göstərməsi üçün maneələrin peyda olması; **3)** əmək məhsuldarlığın artımının yığım tempinə nisbətən dəyişməsi; **4)** texniki tərəqqinin bərabər və müntəzəm surətdə bütövlükdə sistemi əhatə etmək iqtidarında olmaması”[3].

Coan Robinsonun qənaətinə görə, kapitalın yığım tempinin optimal səviyyəsi mövcuddur və həmin bu səviyyə milli gəlirin bu cür bölügüsünə uyğundur ki, bu zaman səmərəli tələbin artımı istehsalın artımı ilə bir addımlayır. Onun fikrinə görə, yığımın həddindən yüksək tempi gəlirdə hədsiz dərəcədə yüksək pay hissəsini şərtləndirir və fəhlə sinfinin payını azaldır. Bu halda inflyasiya prosesləri inkişaf etməyə başlayır, bu proses nəticəsində, həyat səviyyəsinin aşağı düşməsi fəhlələri onların öyrəşdikləri həyat səviyyəsinin saxlanılması məqsədilə əməkhaqqının artırılması uğrunda mübarizə aparmağa vadar edir. Yığımın hədsiz dərəcədə aşağı səviyyəsi gəlirin norma və payının azalmasına gətirib çıxardacaq və bunun nəticəsi kimi iqtisadi artımın stimulları aşağı düşmüş olacaqdır. İqtisadiyyatda durğunluğa (staqnasiya) doğru tendensiyalar yaranmağa başlayır.

Lakin əgər gəlir norması son dərəcə yüksəkdirsə və həmin gəlir həddindən artıq yüksək yığım normasının deyil, inhisarın nəticəsidirsə, onda bu şəraitdə də iqtisadi durğunluğa (staqnasiya) doğru tendensiya əmələ gələ bilər.

Coan Robinson yazırdı: “Zamanın uzunmüddətli dövrü nöqteyi-nəzərdən sərvətin artım həddi texniki sərhədlərlə deyil, belə bir letargiya (fəaliyyətsizlik, hərəkətsizlik, durğunluq) ilə bərqərar olur ki, o (letargiya), rəqabətin zəifləməsi və əmək-haqqı artımının mövcud olmaması nəticəsində inkişaf etməyə başlayır” [3]. **Robinson** hesab edirdi ki, fəhlə sinfi ilə həm-karlar ittifaqlarının birgə mübarizəsi nəticəsində bu tendensi-yanın qarşısını almaq mümkündür. “Durğunluğun (staqnasiya-nın) əsas maneəsi həmkarlar ittifaqların əməkhaqqının artırıl-ması uğrunda apardıqları mübarizə sayəsində əmələ gəlir. Əgər bunun sayəsində real əməkhaqqını əhalinin adam sayına düşən istehsal artımı ilə eyni dərəcədə yüksəltmək mümkün olursa, onda bəlanın kökü məhv edilmiş olur, iqtisadiyyat isə kapital yığmağa və ümumi istehsal tempini texniki tərəqqinin tempinə uyğun bir şəkildə - eyni ilə, sanki rəqabət hələ də təsir göstərmək qabiliyyətindədir, - artırmağa qadirdir” [3].

Əməkhaqqının artırılması - əmək məhsuldarlığının artım hüdudlarına uyğun olaraq, - Coan Robinsonun fikrincə, texniki tərəqqi şəraitində təkcə kapitalist artımının reallaşdırılması ziddiyyətlərini həll etmir, həm də onun olduqca mühüm və əhə-miyyətli stimuludur. Cəmiyyətdə hər zaman bu və ya digər texniki problemin həll edilməsinin texnoloji həllərin geniş spektri mövcuddur. Sözügedən problem əmək məhsuldarlığı və kapitalla silahlanması səviyyəsi ilə müəyyən edilir: bir qayda olaraq əmək məhsuldarlığının daha yüksək səviyyə-sini təmin edən texnika əməyin bir ədəd vahidinə sərf edilən kapitalın daha da böyük miqdarını tələb edir. Məhz əmək-haqqının səviyyəsi və dinamikası texnikanın gəlirlilik hüdudla-rını müəyyən edir. Əməkhaqqı yüksək olduqda, daha az əmək tutumlu tətbiq etmək əlverişlidir və beləliklə, daha capitaltu-tumlu texnikanı tətbiq etməyə sərfəli olacaqdır.

Robinson qeyd edirdi ki, məhz əksinə olaraq rəqabət şəraitində əməkhaqqının yüksəldilməsi məhsuldarlıq artımını müəyyən edir. “Məhsuldarlıq artırılmadan daha yüksək əmək-

haqqı mümkündür (bu şərtlə ki, yığım templəri ləngiyir), lakin (rəqabət şəraitində) əməkhaqqı artırılmadan daha yüksək məhsuldarlığa malik olmaq mümkün deyil". Xanım alimin fikrincə, "mexanikləşdirmənin aşağı səviyyəsi – bunun simptomudur (əlamətidir) ki, hər hansısa səbəblər real əməkhaqqının aşağı səviyyəsini müəyyənləşdirir, ancaq bu həmin aşağı səviyyənin səbəbi deyil".

Coan Robinson buradan belə bir nəticəyə gəlir ki, əməkhaqqının artırılması "özləri yaşayıb digərlərinə də yaşamağa imkan verməyin" zəruriliyini dərk edən "oxumuş" inhisarçıların şüurlu siyasəti ola bilər, Robinsonun qənaətinə görə belə bir cəmiyyət yaradıla bilər ki, burada proqressiv inhisarçılar və həmkarlar ittifaqları əməkdaşlıq edəcəklər, yaxud hər ikisi eyni dərəcədə əməkhaqqının artırılmasında maraqlıdır: birincilər (inhisarçılar) ona görə ki, həmin artım tələbin yaranmasına səbəb olur və texniki tərəqqini stimullaşdırır, ikincilər (həmkarlar ittifaqları) isə ona görə ki, onların həyat şəraiti yüksəlir və yaxşılaşır. Baxmayaraq ki, fəhlələrin, eləcə də mütərəqqi və qabaqcıl sahibkarların könüllü əməkdaşlıq proqramı kapitalist cəmiyyətinin real inkşafından və fəhlə sinfinin öz iqtisadi maraqları uğrunda apardığı mübarizədən hələ ki, uzaqdadır, məhz əməkhaqqının yüksəldilməsi sayəsində istehsal və istehlak arasında mövcud olan ziddiyyətlərin gərginliyini aradan qaldırmağa müvəffəq olmuş bəzi obyektiv prosesləri sözügedən proqram düzgün əks etdirir.

Biz Coan Robinsonun kapital yığımı nəzəriyyəsinin binasını təşkil edən problemlərin yalnız kiçik bir hissəsinə toxunduq. Çünki bu alimin nəzəriyyəsinin əsasını təşkil edən kapital yığımı uzunmüddətli aspektlərindən əlavə, o (nəzəriyyə), həmçinin qısamüddətli xarakterə malik olan bir çox digər problemlərin təhlilini də ehtiva edir. Xüsusən də bu nəzəriyyə investisiya fəaliyyətinin tsiklik tərəddüdlərini doğuran gözləntilər və qeyri-müəyyənliklərin rolunu, maliyyənin və pul sisteminin əhəmiyyətini, beynəlxalq ticarətin rolunu,

habelə gəlirdə istehlakın rolunu müfəssəl formada təhlil edir. Lakin Coan Robinsonun özü hesab edir ki, nəzəriyyənin bu bölmələrini "onun mərkəzi nüvəsinin mürəkkəbləşməsi və dəqiqləşdirilməsi kimi nəzərdən keçirmək olar" [3].

3.4. P.Sraffanın dəyər və qiymət qoyuluşu nəzəriyyəsi

Pyero Sraffa (1898–1983) italyan iqtisadçısıdır. Turində yəhudi ailəsində anadan olmuşdur. Orta və ali təhsilini Turində almış, universiteti bitirdikdən sonra təhsilini London iqtisad məktəbində davam etdirmişdir. Postkeynsçilik və yeni rikardoçuluğun banilərindən hesab olunur. 1927-ci ildə Kembricə dəvət almışdır. Kembric Universitetinin professorudur (İngiltərə).

1960-cı ildə Londonda Kembric məktəbinin qocaman eretiklərindən"dönüklərdən" biri hesab olunan ***P.Sraffanın "Əmtəələrin əmtəə vasitəsilə istehsal edilməsi"*** kitabı işıq üzü görmüşdür [4]. Keynçi problemlərə bu kitabın bilavasitə aidiyyatı yoxdur. Ancaq postkeynsçilik üçün bu elmi əsər olduqca güclü nəzəri silaha çevrildi. ***Həmin kitab neoklassik nəzəriyyənin belə bir aspektin tənqid edilməsində istifadə olunmuşdur ki, onu "keynsçi inqilabı" toxunulmaz olaraq saxlamışdır,*** - söhbət onun mikroiqtisadi əsasından gedir. Bəs Sraffanın kitabı nə ilə əlamətdar olmuşdur, bu kitabın qızğın diskussiyalara, xüsusən də radikal iqtisadçılar və marksistlər arasında diskussiyalara səbəb olmasının xüsusiyyəti nədən ibarətdir? ***Birincisi***, sözügedən bu kitab neoklassik dəyər nəzəriyyəsinin (son həddə məhsuldarlığın) ziddiyyətli olmasının, məntiqi əsassızlığın yeni formal sübutlarını təqdim etmişdir. ***İkincisi***, kitab Rikardonun, onun ardınca isə Marksın dirəndiyi problemin həll edilməsinə iddia edirdi:

Sraffa belə bir metod təklif etmişdir - onun köməyi ilə xüsusi əmtəələrin istehsal edilməsinin belə bir qiymətinin tapılması mümkün görünürdü ki, həmin qiymət özünün dayanıqlığı sayəsində bütün digər əmtəələrının dəyər meyarı ola bilərdi.

İngiltərə iqtisadçısı R.Mik yazırdı ki, Sraffanın müəllif olduğu kitabın əhəmiyyəti bir neçə nöqteyi-nəzərdən araşdırıla bilər: "Lazım gələrsə, onu iqtisadiyyatın xüsusi formasının sadəcə olaraq neortodoksal model kimi nəzərdən keçirmək olar ki, həmin model ənənəvi dəyər probleminin yeni üsulla həll edilməsi üçün nəzərdə tutulur. Onu (modeli), həmçinin müasir marjinal təhlilə edilən qeyri-aşkar hücum kimi də nəzərdən keçirmək olar. Yaxud da, ən nəhayət, bu kitab dəyərə və bölgüyə aid olan klassik yanaşmanın bir növ özünə məxsus parlaq reabilitasiyası qismində də araşdırıla bilər" [5].

Öz əsaslandırmasını Sraffa təbii sahələrarası balansı təsvir edən model əsasında inkişaf etdirir. Əməkhaqqının məlum verilmiş miqdarına və vahid gəlir normasına söykənərək, o, məhsulların qiymətlərini (istehsal qiymətlərini) əldə etməyə tənliklər sistemini qurur. **Sayı *k*** təşkil edən məhsullara və ***k* sahələrə**, əməkhaqqına və gəlirə malik olmaqla, o, ***k* tənliklər** qurur və onların əsasında qiymətlər müəyyən edilir. Alınmış sistem özündə **k+2** məchulunu (naməlumu) özündə ifadə edir. Ölçü ədəd vahidinin seçilməsindən sonra məchul kəmiyyətlərin sayı **(*k* + 1)-ə** qədər azalır. Daha bir məchul kəmiyyəti aradan götürmək, eləcə də sistemi müəyyən və həll oluna bilən etmək məqsədilə **Sraffa ehtimal edir ki, mənfəət (gəlir) və əməkhaqqı arasında məhsul bölgüsü kənardan, ekzogen** (xarici qüvvələrin təsiri ilə baş verən yaxud yaranan) **formada müəyyən edilir.** Yalnız bu şərtlər çərçivəsində sistem həll olunandır və onun əsasında bütün ***k*** məhsulların istehsal qiymətlərini müəyyən etmək mümkündür. **Neoklassik nəzəriyyəyə qarşı birinci məntiqli dəlil bundan ibarətdir: eyni zamanda qiymət və bölgü məhsuldarlığın son həddi faktorları əsasında müəyyən etməyin cəhdi ona görə çıxılmaz vəziy-**

yətə düşür ki, əslində bölgü, sistemdən kənarda olan faktorlar tərəfindən müəyyən edilir. (Bu halda Sraffa, Coan Robinson kimi, buna əsaslandırdı ki, əməkhaqqı, onun səviyyəsi və məhsuldakı payı siyasi və tarixi faktorların təsiri altında formalaşır.) **Həmin bu modeli Sraffa məhsuldarlığın son həddi nəzəriyyəsinin əsas müddəalarının məntiqi cəhətdən qeyri-ardıcıllığını və məntiqsizliyini göstərmək üçün istifadə edir:**

- ***birincisi***, istehsal faktorlarının gəlirlərini və bölgüsünü onların təklif və "məhsuldarlıq" şərtlərindən kənara çıxartmaq olar;

- ***ikincisi***, istehsal faktorlarının nisbəti və onların gəlirləri arasında birmənalı asılılıq mövcuddur, belə ki, fondla silahlanmanın artımına **(*K* / *Y*)** mütləq şəkildə əməkhaqqına nisbətən gəlirin azaldılması uyğundur və əksinə.

Birinci doqmaya (ehkama) gəldikdə isə bunu söyləmək olar ki, o, artıq uzun müddət ərzində bölgünün neoklassik nəzəriyyəsi əleydarlarının atəşi altındadır. Onun tənqid edilməsinə həm də **Coan Robinson** da böyük töhfə vermişdir. Bu tənqidin mahiyyəti ondan ibarət olmuşdur ki, istehsal faktorlarının özünün təklifi və onların dəyişikənliyi bölgü münasibətlərinin təsiri altındadır. Məhz bu səbəbdən neoklassik nəzəriyyə çıxılmaz vəziyyətə düşmüş olur. Bölgünün ekzogen xarakterinin qəbul edilməsi - cıxılmaz vəziyyətdən çıxış yolu göstərən məntiqi dəlillərin birincisidir. Neoklassik nəzəriyyəyə uyğun olaraq Şraffa sübut edir ki, mənfəətin (gəlirin) həcmini müəyyən edən kapitalın tərifinin özünün məhsuldarlığı, gəlirin və əməkhaqqının necə bölüşdürülməsindən asılıdır. Sraffa son məhsulun istehsal edilməsinə işlənən aralıq əmtəələrin cəminin istehsal qiymətləri əsasında kapitalın həcminin hesablanması üçün öz modelini istifadə edirdi və əyani şəkildə nümayiş etdirirdi ki, mənfəət (gəlir) və əməkhaqqı nisbətinin dəyişilməsi istehsal qiymətləri və onların vasitəsilə - həmin istehsal qiymətləri əsasında ölçülən kapital dəyərinin həcmini dəyişdirir.

İqtisadi nəzəriyyə üzrə dərs vəsaitində C.Robinson və C.İtuell qeyd edirdilər: "Sraffanın əsaslandırmasının əsas müddəalarından biri bunu göstərməkdən ibarətdir ki, ümumilikdə "kapitalın dəyərinin" kəmiyyəti əməkhaqqı və gəlir arasında xalis məhsulun bölgüsündən asılı olmayaraq heç bir mənaya malik deyil, buna görə də mənfəət normasının kapitalın son həddi məhsulu ilə müəyyən edilməsi haqqında fikir məzmunsuz və mənasızdır" [3].

İkinci doqmanın tənqidini daha müfəssəl formada nəzərdən keçirək. Neoklassik nəzəriyyəsinin fundamental müddəası kapitalla silahlanması (yəni kapital / əmək nisbəti) ilə gəlir və əməkhaqqı nisbəti arasındakı bağlılığın birmənalı olmasından ibarətdir, çünki sonuncular (gəlir və əməkhaqqı) kapital və əməyin son həddi məhsulunun dəyər ifadəsi kimi nəzərdən keçirilir. Kapital-əmək nisbəti dəyişir, onların son həddi məhsulunun nisbəti də, beləliklə də, mənfəət və əməkhaqqı da dəyişir. Buradan isə belə bir qənaətə gəlirik ki, kapital silahlanmanın hər bir səviyyəsinə gəlir normasının həcminin tamamilə müəyyən bir kəmiyyəti uyğundur.

Beləliklə, əgər kapital silahlanmanın səviyyəsi ilə fərqlənən istehsal metodlarının toplamı mövcuddursa, onda gəlirin maksimallaşdırılması şərti ilə seçilmiş istehsal üsulu mənfəət norması və əməkhaqqı nisbəti ilə müəyyən ediləcəkdir.

Bəs bu nisbət dəyişdiyi halda nələr baş verəcək? *Neoklassik nəzəriyyə iddia edir ki, əməkhaqqının gəlirə olan nisbətin artması halında* (gəlir norması nisbətən aşağı düşür) *əmək kapitalla əvəz ediləcəkdir, yəni daha kapitaltutumlu istehsal üsullarına keçid baş verəcək, həm də nəzərə almaq lazımdır ki, bu asılılıq monoton xarakterə malikdir.*

P.Sraffa sübut edir ki, bu belə deyil. Kapitalın eyniliyini (homogen, eyni mənşəli olmasını) və onun çevik uyğunlaşma imkanını inkar edən alimin özünün kapital nəzəriyyəsinə əsaslanaraq, o, "keçicilik (dəyişikənlik) effekti" (reswitching) konsepsiyasını irəli sürür ki, həmin bu konsepsiyaya uyğun

olaraq mənfəət (gəlir) normasının dəyişikənliyini istehsalın gah bir, gah da digər üsulu edə bilər, beləliklə də, istehsalın gah daha kapitaltutumlu üsuluna, gah da əvvəlki üsuluna keçid baş verəcəkdir. "Keçicilik (dəyişikənlik) effekti" də neoklassik nəzəriyyəyə endirilən bir zərbə kimi dəyərləndirilmişdir.

Öz modelini Sraffa, həmçinin belə bir problemin həll olunması üçün istifadə edirdi ki, həmin bu problem Rikardo tərəfindən qaldırılıb və onu özünəməxsus tərzdə Marks həll etməyə cəhd edirdi. Hər ikisi hesab edirdi ki, əgər qiymətlər əmtəələrin dəyəri ilə müəyyən olunursa, onda qiymətlər və dəyərlərin cəmi bərabərləşdirilməlidir. Həmin bərabərlik bununla təmin edilir ki, istehsalın ictimai qiyməti (dəyərə bərabər olan) kapitalın orta orqanik quruluşu şəraitində istehsal edilmiş əmtəələrin istehsal qiymətləri ilə tənzimlənir, belə ki, kapitalın daha yüksək, yaxud daha aşağı tərkibə malik olan sahələrdə qiymətlərin istehsal qiymətlərindən kənara çıxmaları qarşılıqlı surətdə ödənilir.

Dəyər nəzəriyyəsinin bütün tənqidi həmin bu problem ətrafında cəmləºmiºdir və bunun sübut edilməsinə yönəlirdi ki, dəyərlərin cəmləri və istehsal qiymətlərinin cəmləri əslində təmin olunmur. Bu onunla şərtləndirilir ki, orta məhsulun istehsal qiymətinin özü dəyişməz olaraq qalmır. Əgər əməkhaqqı və mənfəət (gəlir) arasında nisbət dəyişirsə, onda qiymətlərin bütöv strukturu da dəyişir.

Müxtəlif əmtəələrin istehsal xərcləri bundan asılıdır ki, onların əmələ gəlməsində əmək və kapital hansı nisbətdə iştirak edirlər. Daha cox əmək tutumlu əmtəələrin xərcləri, az əməktutumlu əmtəələrdən fərqli olaraq daha yüksək dərəcədə artacaq. Əgər bu əmtəələr, öz növbəsində, digər əmtəələrinn tərkibinə istehsal xərcləri qismində daxil olursa, onda həmin bu digər əmtəələrin istehsal qiymətlərindəki dəyişikliklər birincilərin məsrəflərindəki onların xüsusi çəkisindən asılı olacaqdır. Nəticədə istehsal qiyməti yüksələ bilər, lakin nisbətən aşağı da düşə bilər – birmənalı həll mövcud deyil. Əgər məlum verilmiş

əmtəə əməktutumludursa, ancaq onun əsas maddi xərcləri kapitaltutumludursa, onda əməkhaqqının yüksəlidlməsi nəzərdən keçirilən əmtəənin əmək xərclərini artıracaq, lakin həmin əmtəənin istehsalında istifadə olunmuş maddi sərf edilmələrin xərclərini nisbətən azaldacaq. Beləliklə, qiymət bu qarşıqarşıya olan qüvvələrin əvəzləyici qüvvəsi qismində çıxış edəcəkdir.

Buradan belə bir qənaətə gəlmək mümkündür ki, qiyməti dəyişməz olaraq qalan və gəlirin bölgüsündə baş verən dəyişikliklərdən asılı olmayan istehsal qiymətinə malik əmtəələr tapmaq mümkün deyil. Başqa sözlə ifadə etsək, kapitalın orta orqanik tərkibinə malik olan sahədə istehsalın qiyməti əmtəələrin mübadilə proporsiyalarının göstərici kəmiyyət qismində çıxış edə bilməz. Sraffa bölgünün və qiymətlərin dəyişikənliklərindən asılı olmayan mübadilə dəyərinin "göstərici kəmiyyəti"nin tapılmasını özünə məqsəd qoymuşdur. Alim sualı bu cür qoyur: görəsən, nəzəri cəhətdən belə bir sahəni qurmaq mümkün olardımı, burada xalis məhsulun maddi xərclərin dəyərinə olan nisbəti **(*Y / C*)** bölgüdə və qiymətlərdə baş verən dəyişikliklərin təsiri altında dəyişməz olaraq qalardı? Və göstərir ki, real iqtisadiyyatdan belə bir sahəni ayırmaq mümkündür**.** Sraffa onu "standart sahə" adlandırır. "Standart sahə"nin qurulması üçün o, "bazis əmtəələr" adlandırılan məfhumu tətbiq edir, yəni söhbət belə bir əmtəələrdən gedir ki, onlar bütün digər əmtəələrin istehsalına bilavasitə yaxud dolayısı ilə daxil olur. Məhz həmin bu əmtəələrin istehsal edilməsinin və istehlakının bağlılığını xarakterizə edən qapalı tənliklər sistemi də "standart sahəni" təşkil edir. Bu sahənin xüsusiyyəti ondan ibarətdir ki, həm məhsulun təbii strukturu, həm də xərclərin təbii strukturu burada eynidir. "Standart sahə"nin məhsulunun ədəd vahidini Sraffa və onun tərəfdarları qiymətlərin dəyişikliyindən asılı olmayan dəyərin "fiziki" göstərici kəmiyyəti hesab edirlər.

Sraffanın müəllifi olduğu kitabın ətrafında qızğın mübahisələr başlandı. Ancaq öz dəyərləndirilmələrində onun iştirakçıları həmrəy və həmfikir olmamışdılar. Onlardan bəziləri qeyri-şərtsiz iddia edirdilər ki, Sraffa Marksın dəyər nəzəriyyəsini inkişaf etdirir. Amerika Birləşmiş Ştatlarının bəzi radikal iqtisadçıları (məsələn, H.Şerman, bu alim "Marks-Marşall-Sraffanın dəyər nəzəriyyəsi" haqqında yazır) məhz bu fikirdə olmuşdular. Məsələn, C.İtuell özünün polemik məqalələrindən birində Sraffanın elmi işinin qiymətləndirilməsi haqqında təəssüflə qeyd edir: "Baxmayaraq ki, Sraffanın elmi işi tənqidi rolda geniş bir formada qəbul olunub, onun, xüsusən də marksist nəzəriyəsinin inkişaf etdirilməsi üçün, yaratdığı nəzəri əsasının konstruktiv imkanları tamamilə nəzərə alınmır". Məşhur ingilis iqtisadçısı M.Dobb özünün sonuncu "Adam Smitin vaxtlarından dəyər və bölgü nəzəriyyəsi: ideologiya və iqtisadi nəzəriyyə" (1973-cü il) elmi əsərində yazırdı: Necə ki, U.Cevonsdan və 1870-ci ildəki "marjinal inqilabından" başlayaraq iqtisadi təfəkkürün bütün tarixini yenidən yazmaq gərəkli olduğu kimi, eyni ilə Sraffadan **v**ə 60-cı illərin inqilabiləşdirilmiş diskussiyalardan sonra onu yenə də təzədən yazmaq lazım idi". Dobbun qənaətinə görə, Sraffa, Robinson və son hədd məhsuldarlığı nəzəriyyəsinin digər tənqidçiləri də "mübadilə və bölgü problemlərinin təhlilində "rikardoçı-marksist ənənəsinin" davamçılarıdır [9].

Lakin əks-nəzər nöqtəsi də mövcud olmuşdur, ona uyğun olaraq Sraffanın nəzəri işlərinin marksist dəyər nəzəriyyəsinə bilavasitə aidiyyatı yoxdur. Sraffa dəyər nəzəriyyəsinin qətiyyən marksist deyil, rikardoçu ənənəsini inkişaf etdirir.

Beləliklə, P.Sraffanın elmi işləri, Coan Robinsonun əsərləri kimi, müasir iqtisadi təfəkkürün ümumi inkişafına böyük və əhəmiyyətli nəzəri töhfə vermiş oldular və xüsusən də, söhbət bu antimarjinal inqilabdan gedir ki, bu inqilab gah güclənərək, gah da zəifləyərək, müasir iqtisadi təfəkkürün əsas cərəyanının hüdudlarında daima coşur. 1983-cü ildə bir ay

fərqlə bu iki "sükut pozucuları" vəfat etmişlər. Bu alimlərin ardıcıllarından biri olan H.Herkot yazırdı ki, "Coan Robinson və Pyero Sraffanın ölümü Kembric nəzəriyyəsində, həm də ümumiyyətlə iqtisad elminin özündə bütöv bir eranın (tarixi dövrün) sonuna dəlalət edir"[10].

3.5. İqtisadiyyatın qeyri-müəyyənliyi və qeyri-müntəzəmliyi keynsçi nəzəriyyənin "həqiqi əsası" kimi

Postkeynsçiliyin bu cərəyanının nümayəndələri (həmin cərəyan, hər şeydən əvvəl, Amerika Birləşmiş Ştatlarında yaranıb) fərqli yol seçiblər, onlar keynsçi inqilabının "həqiqi" ruhunu, onun nəzəriyyəsinin əsl mahiyyətinin bərpa olunmasının müdafiəçiləri kimi çıxış edirdilər. R.Klauer, A.Leyonhufvud, P.Davidson, S.Vayntraub, H.Minski kimi iqtisadçılar iddia edirdilər ki, yaşlı nəsil, ilk növbədə E.Hansen, P.Samuelson və C.Hiks tərəfindən işlənib hazırlanmış keynsçiliyin versiyası əslində Keyns nəzəriyyəsinin məzmununu və mahiyyətini təhrif etmişdir və alimin əslində fikirləşdiyi və yazdığı ilə ümumi cəhətlərdən az bir şeyə malik idi. S.Vayntraub yazırdı: "Sadəcə olaraq belə olub ki, Keynsin adı və nüfuzu bu cür nəzəri interpretasiya ilə bağlı olmuşdur ki, ilkin olaraq professor Elvin Hansen və Pol Samuelson tərəfindən işlənib hazırlanmış metodologiyaya, sonra isə - ser Con Hiks tərəfindən işlənib hazırlanmış Keynsin nəzəriyyəsinin daha sərt versiyası üzərinə söykənirdi.

Buna görə də dərsliklərdə və iqtisadi jurnallarda özlərini düşünmə tərzinə qörə keynsçi obrazda, eləcə də keynsçilik düşünmə tərzinə işləmiş ideyalar məcmuəsini **hiksçi keynsçilik adlandırmaq daha düzgün olardı".**

"Hiksçi**"** keynsçiliyin əsas "nəbilərindən" birinə **S.Vayntraub** aid etmisdir: işsizliyə və ya inflyasiyaya məruz qala biləcək iqtisadiyyata sadələşdirilmiş baxış tərzini, özü də həm işsizlik həm də inflyasiya guya ki, əks-stiqamətlərə yönəlmiş

büdcə və pul-kredit siyasəti tədbirlərinin nəzarəti altına alına bilər; modellərdə real olaraq ifadə edilmiş kəmiyyətlərin istifadə edilməsi, yəni hətta inflyasiyanın "Fillips əyrisi" şəklində nəzəri təhlildə yaranandan sonra da qiymətlərin dəyişikliyindən mücərrədləşdirməni; "vahid əməkhaqqının ədəd vahidi" kateqoriyasının nəzərə alınmaması, həmin kateqoriyanın köməyi ilə Keyns öz nəzəriyyəsinin iqtisadi kəmiyyətlərini ölçməyi nəzərdə tuturdu; qeyri-müəyyənlik, risklərin, informasiyanın qeyri-mükəmməlliyi, faktorların kapitalist cəmiyyətində investisiyaları müəyyən edən mühüm kateqoriyalar qismində nəzərə alınmaması; pul faktorundan, həmçinin bölgü problemindən mücərrədləşdirmə və bununla əlaqədar – makroiqtisadi və mikroiqtisadi nəzəriyyələr arasında uyğunsuzluq; Keynsin nəzəriyyəsinin neoklassik sintezə yol açmış tarazlıq nəzəriyyəsinin xüsusi halı kimi; keynsin nəzəriyyəsinə statik nəzəriyyəyə olduğu kimi baxmaq vərdişi, bir halda ki, özünün əsasında və mahiyyətində bu "dinamik nəzəriyyə"dir.

Bu yanaşmanın inkişaf etməsinin müəyyən dönüş nöqtəsi 1965-ci ildə dərc olunmuş Amerika iqtisadçısı R.Klauerin "Keynsçi əks-inqilab: nəzəri dəyərləndirmə" məqaləsi olmuşdur. Bu məqalədə Keynsin nəzəriyyəsinin prinsip cəhətdən yeni izahı verilirdi. "Natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsi"ni, neoklassik ümumi tarazlıq nəzəriyyəsinin xüsusi halı kimi şərh edən ortodoksal keynsçilikdən fərqli olaraq, R.Klauer sübut edirdi ki, Keynsin nəzəriyyəsi – bu, ilk növbədə qeyri-tarazlıq nəzəriyyəsidir. Bu belə bir nəzəriyyədir ki, iqtisadiyyatı tarazlığın (hətta natamam məşğulluqla olsa belə) bərpa edilməsinə cəhd göstərən iqtisadiyyat kimi deyil, onun daimi pozulmasına yönələn iqtisadiyyat kimi təsvir edir. İqtisadi sistemin bu xüsusiyyətini o, informasiyanın qeyri-mükəmməl olmasından, iqtisadiyyatda zəncirvari reaksiyalara səbəb ola biləcək və onun dayanıqlı vəziyyətini fasiləsiz olaraq pozmağa qadir olan gözlənilən və faktiki kəmiyyətlərin fərqlərindən hasil edirdi. Klauer özünün nəzəri konsepsiyasını

“ikili həll (hipotezi) fərziyyəsi” adlandırılan (dual decision process) belə fərziyyəylə əsaslandırırdı ki, ona uyğun olaraq tələbin təsəvvür edilən, yaxud nəzəri cəhətdən mümkün olan və “səmərəli”, yəni real olaraq həyata keçirilə bilən tələbin artımını fərqləndirmək vacibdir. Birinci kəmiyyət iqtisadiyyatın tam məşğulluğu zamanı istehlakçılar (ev təsərrüfatları) tərəfindən tarazlı qiymətlərə əsaslanaraq müəyyən edilir. Lakin qeyri-müəyyənlik və məlumatın qeyri-mükəmməlliyi şəraitində iqtisadiyyat bu cür tarazlı vəziyyətə nail olmaya da bilər, belə olan halda isə “təsəvvür edilən” gəlirlər bir çoxları üçün faktiki gəlirlərdən aşağı ola bilər, beləliklə də, səmərəli tələb “təsəvvür edilən” tələbdən daha kiçik olacaqdır. Uzunmüddətli tarazlıqdan bu kənaraçıxma və uzaqlaşma multiplikativ proseslər sayəsində həm də bütün iqtisadiyyata yayılır. Bundan artıq, istehlakçılar yanlış qiymət siqnalları alacaqlar ki, həmin siqnallar da müvafiq olaraq düzgün olmayan reaksiyaların yaranmasına gətirib çıxaracaqlar. Bu şəraitdə, hətta əməkhaqqının aşağı salınması belə səmərəli tələbin yüksəldilməsinə səbəb ola bilməyəcək, məşğulluq isə azalmaqda davam edəcəkdir. “Yanlış qiymətlərlə” qeyri-tarazlıq şəraitində uyğunlaşma prosesi, yəni tarazlığın bərpa edilməsi prosesi, Keynsin iddia etdiyi kimi nisbi qiymətlərdən deyil, gəlirlərin dinamikasından asılıdır. Beləliklə, Keyns tərəfindən “əsas psixoloji qanunla” əlaqələndirilən istehsal funksiyasını (həmin funksiya onun nəzəriyyəsində olduqca əhəmiyyətli rola malikdir), Klauer bazarın qeyri-düzgün məlumatlandırılmaması ilə əlaqələndirdi və ona fərqli interpretasiya (izah), daha dəqiq desək – “gəlirlə məhdudlaşdırılan proses” (income constrained process) interpretasiyasını (izahı) verdi.

Klauer tərəfindən verilmiş bu interpretasiya 1968-ci ildə dərc olunmuş digər amerikalı iqtisadçı A.Layenhofvudun “Keynsçi iqtisadi nəzəriyyə və Keynsin nəzəriyyəsi haqqında” elmi işində özünün sonrakı inkişafını almışdır. A.Layenhofvud qətiyyətlə bəyan etdi ki, Keyns nəzəriyyəsinin (gəlirlər-xərclər)

standart interpretasiyası (izahı) onun nəzəriyyəsinin əsas elementlərini nəinki inkişaf etdirmədi, onları rədd etdi. Alimin qənaətinə görə, həmin interpretasiyanın (izahın) əsas qüsur və nöqsanları aşağıdakılardan ibarət olmuşdur: *birincisi,* pulun oynadığı rolun lazımi qədər qiymətləndirməməsi. O, soruşurdu, necə ola bilərdi ki, pulun əhəmiyyətini qəbul edən nəzəriyyə daha sonra belə bir nəzəriyyəyə çevrildi ki, burada pulun heç bir əhəmiyyəti yoxdur? *İkincisi,* faiz dərəcəsinin oynadığı rolun kiçildilməsi səbəbindən diqqət mərkəzinə tələb dəyişikliklərinin təsiri altında genişlənən təkcə multiplikasiya prosesi düş-müşdür. *Üçüncüsü,* büdcə siyasətinə üstünlüyün verilməsi və pul-kredit tənzimlənməsinin əhəmiyyətinin lazımi qədər qiy-mətləndirməməsi. A.Layonhofvud istehza ilə qeyd edir: *işsizlik probleminə bu qədər diqqət ayırırdılar ki, nəzəriyyənin pul aspekti ümumiyyətlə yaddan çıxmışdır, Keyns nəzəriyyəsinin qiymət və monetar tərəfinin böyük bir hissəsi yox olmuşdur; nəticədə "pulun əhəmiyyətsizliyinin" və "pul-kredit siyasətinin səmərəsizliyinin" qəribə bir doktrinası dünyaya gəlmişdir.*

A.Layenhofvud iddia edirdi: "Ümumi nəzəriyyə"də baş-lanmış və mahiyyət etibarı ilə yeganə olmuş yenilik bundan ibarət olmuşdur ki, qiymətlərin və əməkhaqqının dəyişdirilməsi yolu ilə deyil, daha çox istehsal həcminin dəyişdirilməsi yolu ilə tarazlığın pozulmasına reaksiya verən bir sistemin davranış tərzinin sistematik surətdə təhlil olunmasını təmin etməyə cəhd edilmişdir.

İqtisadi sistemin reaksiyasının bu cür xarakteri, müəllifin fikrinə görə, həqiqətən də qiymətlərin və əməkhaqqının qeyri-çevik olması ilə şərtləndirilib. Lakin, bir qayda olaraq, bu qeyri-çeviklik adətən qiymət qoyuluşunun inhisarçı təcrübəsi, minimal əməkhaqqı qanununun mövcud olması və həmkarlar ittifaqlarının siyasəti nəticəsində əməkhaqqının sərtliyi ilə əlaqələndirilirdi. Bu maneələri aradan qaldırın və iqtisadi sis-tem neoklassik tarazlığın çərçivəsinə qayıdacaqdır! Alim iddia edir ki, iş tamamilə bunda deyil. Məsələ burasındadır ki, pul

iqtisadiyyatı – informasiyanın qeyri-mükəmməlliyini və informasiya məsariflərini törədən qeyri-müəyyənliyin iqtisadiyyatıdır. Məhz bu səbəbdən tarazlıq əslində mövcud deyil. Onun pozuntuları təsadüfi xarakter daşımır və iqtisadi reaksiyaların müxtəlif dəyişikliklərə olan qeyri-müəyyənliyin, qeyri-elastikliyin nəticəsidir.

A.Leyonhufvudda ***C.M.Keynsin nəzəriyyəsi "natamam məşğulluğa malik olan tarazlığın" statik nəzəriyyəsini deyil, özünün mahiyyətinə görə "iqtisadi tarazlığın pozulmasına dair makroiqtisadi uyğunlaşmanın dinamik nəzəriyyəsi"ni [10], təsvir edir.***

A.Leyonhufvudun kitabında faiz dərəcəsinin roluna və əhəmiyyətinə, onun investisiyalara və bununla da əlaqədar – pul-kredit siyasətinin əhəmiyyətinə xeyli diqqət ayrılır. O, yazır: "İnvestisiyaların faiz üzrə elastikliyinin müzakirə edilməsi iqtisadi tərəddüdlərlə mübarizədə pul-kredit siyasətinin səmərəliliyinə dair mübahisələr çərçivəsində baş verirdi. Sonuncuya nisbətən Keynsin pessimizmi və bədbinliyi və fiskal siyasətinin müxtəlif növlərinin lehinə təbliğatı "Ümumi nəzəriyyə"nin iki ən vacib və mühüm cəhətlərindən olmuşdur. Bir çox erkən "keynsçilər"in əllərində onun təfəkkürün bu elementləri sadələşdirilmiş doqmalara və ehkamlara çevrildilər: pul-kredit siyasəti resessiya zamanı tamamilə qeyri-səmərəli bir vasitə kimi nəzərdən keçirilməlidir, bir halda ki, fiskal siyasət makroiqtisadi problemlərin universal və yeganə müalicə vasitəsi kimi təbliğ olunmağa başlamışdır".

A.Leyonhufvud iddia edir ki, əslində hər şey bir o qədər də birmənalı deyil. O qeyd edir ki, Keynsdə investisiyaların kifayətsizliyi bununla əsaslandırılmır ki, sonuncular faizin dəyişilməsinə zəif reaksiya verir, məsələnin mahiyyəti faizin özünün qeyri-elastik olmasındadır. Məhz bu səbəbdən faiz dərəcəsinin aşağı salınması böyük əhəmiyyət kəsb edirdi, xüsusən də uzunmüddətli perspektivdə. Ancaq əgər belədirsə, onda nəticə etibarı ilə Keyns monetar siyasətin səmərəliliyini ümu-

miyyətlə inkar edə bilməzdi. Alim qeyd edirdi: "Mərkəzi bankın qısamüddətli aspektdə məcmu tələbə nəzarət etmək iqtidarında olması məhdud da ola bilər, lakin – yaxşı və ya pis – mərkəzi bank hələ də uzunmüddətli planda böyük təsir gücünə malikdir".

Burada da müəllif özü belə bir nəticəyə gəlir: pul tədavülünü tənzimləyən orqanlar öz vasitlərindən iqtisadi şəraitlərin və məşğulluğun hər hansı bir müvəqqəti dəyişikliyinə əks-təsir göstərmək üçün deyil, faiz dərəcəsini onun **"təbii norması"** səviyyəsində qoruyub saxlamaq üçün istifadə etməlidir ki, bu da iqtisadiyyatın uzunmüddətli perspektivində onun sabitliyin əsası olacaqdır. (Monetaristlər üçün həlledici dəyişən kəmiyyətin faiz dərəcəsinin təbii səviyyəsinin sabitliyi deyil, pul təklifinin sabit artımı kimi olduqca əhəmiyyətli cəhətin olduğunu hesaba almasaq, bu nəticə, demək olar ki, az qala monetarist bir nəticədir).

Keynsçi nəzəriyyənin bu cür izahını qiymətləndirərək, iqtisadi təfəkkürün məşhur tarixçisi M.Blauq yazırdı: "Klauer və Leyonhufvud üçün keynsçi nəzəriyyə - natamam informasiyanın nəzəriyyəsidir və sözügedən informasiyanın əldə edilməsi qiymətlərin ləng uyğunlaşdırılması problemi ilə bağlıdır; bu qiymətlərin deyil, istehsal həcmlərinin dəyişdirilməsi vasitəsilə adaptasiya (uyğunlaşma) nəzəriyyəsidir; bu, gəlirlə məhdudlaşdırılan ikili həll və proses fərziyyəsidir… Qiymətlərin dərhal uyğunlaşdırılması kimi kifayət qədər spesifik xüsusiyyətə malik olan bir haldan biz uzaqlaşan kimi, artıq buna söykənə bilərik ki, qiymət mexanizminin fəaliyyət göstərməsi avtomatik olaraq bazarda artıqlıqların (bollugun) və defisitlərin (əskiklərin və kəsirlərin) aradan qaldırılmasına və deməli, onların tam məşğulluğuna gətirib çıxarır".

Keyns nəzəriyyəsinin Klauer və Leyenhufvud tərəfindən interpretasiyası (izahı) qızğın mübahisələrə səbəb olmuş və Qərbin iqtisadi təfəkkürünün gələcək inkişafına böyük təsir göstərmişdir.

XX əsrin sonlarına postkeynsçiliyin bu cərəyanı C.Teylor, C.Stiqlis, C.Akerlof və bu kimi digər "yeni" keynsçilik nümayəndələri tərəfindən fəal şəkildə inkişaf etdirilir. *Öz nəzəri modellərini bu alimlər ümumi tarazlıq nəzəriyyəsi bazasında, amma onu əsas ilkin şərti hesab edilən bazarların avtomatik "təmizlənməsi", yəni qiymətlərin sürətli dəyişkənliyi vasitəsilə tələb və təklifin uyğunluq vəziyyətinə avtomatik olaraq gətirilməsi prosesi olmadan (onu nəzərə almadan) qururlar. Səbəblər – dolğun və etibarlı məlumatların olmaması, eləcə də müxtəlif institusional məhdudiyyətlər.*

3.6. "Neoklassik sintezin" və makroiqtisadi siyasət probleminin yenilənməsi

Klauer Leyonhufvud nəzəriyyəsini hansı müstəvidən nəzərdən keçirməyimizdən asılı olmayaraq – istər Keyns nəzəriyyəsinin "əsl" oxunma qismində, istərsə də onun yeni variant qismində (qeyd edək ki, bu haqda olduqca kəskin mübahisələr aparılırdı), buna baxmayaraq həmin nəzəriyyə, monetarizm olduğu kimi, postkeynsçiliyin, xüsusilə də onun monetar aspectlərin gələcək inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş oldu. Sözügedən bu aspektlər müasir iqtisadiyyatın və ilk növbədə inflyasiya proseslərinin gücləndirilməsi ilə bir tərəfdən, digər tərəfdən - böhran tərəddüdlərin kəskinliyinin azalması ilə, üçüncü tərəfdən isə - həyata keçirilə bilən makroiqtisadi siyasətinin məqsəd və vasitələrinin yenidən qiymətləndirilməsi və dərk edilməsinin zərurəti ilə əhəmiyyətli dərəcədə bağlıdır.

"Neoiklassik sintezin" ümumilikdə əhəmiyyətli dərəcədə yenilənməsi dövrü ötən əsrin 80-90-cı illərinə təsadüf edir. Məşhur və tanınmış Amerika iqtisadçısı, Nobel mükafatı laureatı C.Tobin 1983-cü ildə yazırdı: "Keynsçi ideyalar əksinqilabları dözəcək. Onların təsiri altında yaranan sintez, güman edirəm ki, əvvəlki "neoklassik sintez"dən nəzəri cəhətdən daha münasib olacaqdır. İqtisadi nəzəriyyənin böhranı həm

mikroiqtisadiyyatı, həm də makroiqtisadiyyatı əhatə edir və həmin böhrandan çıxış yolu nəzəriyyənin qeyri-valras təməli əsasında nəzəriyyənin ardıcıl yenidənqurulması əsasında tapılmalıdır" [6]. Keynsin anadan olmasının 100-illiyi ərəfəsində isə həmin müəllif fikrini daha qəti və aydın şəkildə ifadə etmişdir: "Makroiqtisadi siyasətə dair hal-hazırda mövcud olan çəkişmələri, ixtilafları, eləcə də qarma-qarışıq və xaotik debatları, mənim fikrimcə, əvəz edə biləcək yeni intellektual sintezdə keynsçi ideyalar özlərinə layiq şərəfli yer tutacaqlar" [6].

Müasir posteynsçilik səmərəli sabitləşdirmə siyasətini həyata keçirməyə, yəni əvvəlki kimi məşğulluğun dayanıqlı səviyyəsinin qorunub saxlanılmasını təmin etmək iqtidarında olan, lakin eyni zamanda həm də antiinflyasiya xarakteri daşıyan iqtisadi sistemin həlledici parametrlərinin nəzəri axtarışlarını davam etdirir. **Ortodoksal keynsçilərə** bu problemi həll etmək daha asan idi – onlar zaman kəsiyində bu məqsədlərə şərik çıxırdılar. **İndikilər** öz qarşısına əhəmiyyətli dərəcədə daha ağır və mürəkkəb, habelə ziddiyyətli bir vəzifə qoyurlar. **Bu baxımdan monetaristlərin və müasir keynsçilərin** (müəllifin tərifinə əsasən qeyri-monetaristlərin) **mövqelərini müqayisə edərək** sonuncuların (müasir keynsçilərin) tərəfdarı olan ***Modilyani yazır:*** "qeyri-monetaristlər etiraf edirlər ki, - və mən bunu "Ümumi nəzəriyyə"nin əsas və başlıca ideyası kimi nəzərdən keçirirəm, - bazar iqtisadiyyatı düzəlişə (təshih) ehtiyacı olan, düzəliş edilə biləcək və bu səbəbdən də düzəliş edilməli olan məcmu məhsulun, işsizliyin və qiymətlərin tərəddüdlərinə meyillidir. **Monetaristlər isə hesab edirlər ki,** iqtisadiyyatın sabitləşdirilməsinə o vaxta qədər heç bir ehtiyac duyulmur ki, pul kütləsinin artımı aşağıdakı sadə və əvvəlcədən müəyyən edilə biləcək qaydaya riayət edir: hətta əgər bu cür ehtiyac (iqtisadiyyatı sabitləşdirmək zərurəti) mövcud olsaydı, biz onu sabitləşdirmək iqtidarında deyilik və əgər onu sabitləşdirməyə qadir olsaq da belə biz inzibati orqanlara bu prosesin həyata keçirilməsi üçün

zəruri olan diskresion (öz mülahizəsinə görə hərəkət edən, istədiyi kimi hərəkət edən) səlahiyyəti verməməliyik".

İnflyasiya –yalnız moinetaristlər üçün deyil, həm də müasir keynsçilik üçün birinci dərəcəli mövzuya çevrilmiş problemdir. Bu problemin təhlili çərçivəsində (və bu məqam məhz postkeynsçilik üçün səciyyəvidir) böyük diqqət həm müxtəlif bazarlarda qiymət qoyuluşu proseslərini müəyyən edən faktorlara, həmçinin iqtisadiyyatın inkişaf etməsinin pul aspektlərinə verilir.

Qiymət qoyuluşu proseslərinə gəldikdə isə, bu məsələlərdə postkeynsçilərin mövqeləri bir çox cəhətdən müasir institusionalizm ilə birləşir.Qiymətlərin və əməkhaqqının qeyri-çevik olması, hətta daha çox – onların qarşılıqlı bağlılığın avtonom (sərbəst) xarakterə malik olması problemini öyrənərkən onlar (postkeynsçilər) bütün bunları inhisarçı bazarların, o cümlədən əmək bazarının mövcud olması ilə əlaqələndirirlər. Onların bir çoxunun rəyinə görə, dayanıqlı inflyasiya prosesinin təməli "qiymətlər-əməkhaqqı" spiralı (çıxış nöqtəsi və ya ox ətrafında getdikcə böyüyən dairələr cızaraq uzaqlaşan müstəvi xətti) hesab edilir.

Məşhur amerikalı iqtisadçı A.Oyken yazırdı: "Mənim qənaətimə görə, qiymətlərin və əməkhaqqının qarşılıqlı əlaqəsi və bir-birinə təsir göstərməsi – bir həlqədir, bu həlqəni biz inflyasiyanın dayanıqlığının təhlil edilməsi zamanı mütləq şəkildə tədqiq etməliyik. Qiymətlərin və əməkhaqqının tələb və təklif tarazlığının pozulmasına reaksiyanın ləngliyi tələb və məşğulluq tərəddüdlərini gücləndirir. Qiymətlər özünün əsas və başlıca funksiyasını – tarazlığın bərpa edilməsini – yerinə yetirmədiklərinə görə, onların əvəzində bunu istehsal tərəddüdləri həyata keçirir. İnflyasiya nəzəriyyəsi və real iqtisadiyyatın tərəddüdlər nəzəriyyəsi bir məqsədə xidmət edir: ümumi milli məhsulun nominal artımın real və qiymət komponentlərə parçalanmasını izah etmək" [7].

Postkeynsçilərin *intellektual güclərinin tətbiq olunma sferası paralel şəkildə pul tələbinin və təklifinin, eləcə də ümumilikdə maliyyə bazarlarının və onların iqtisadi qeyri-sabitliyə və inflyasiyaya təsir göstərməsinin təhlili olmuşdur***.** Postkeynsçiliyin bu aspektinə müəyyən dərəcədə həm də monetarizm təsir etmişdir. Amma məsələ burasındadır ki, postkeynsçilərdə, monetaristlərlə müqayisədə, həmin bu təhlil fərqli ilkin şərtlərə əsaslanır və fərqli nəticələrə gətirib çıxarır. **Monetarizm** kapitalist iqtisadiyyatının dövri reaksiyalarının qaçılmaz olduğunu etiraf etmişdir. Amma onların səbəblərini bu cərəyan mərkəzi banklar tərəfindən həyata keçirilən və keynsçilik reseptlərinə uyğun olaraq iqtisadi konyunkturanın sabitləşdirilməsinə istiqamətləndirilmiş pul siyasətinin qeyri-dayanıqlı olmasında görür. Həmin bu siyasətin nəticəsi bundan ibarətdir ki, pul təklifinin qeyri-dayanıqlı olması, monetarist nəzəriyyəsinə görə, iqtisadiyyatda tsiklik (dövrü) tərəddüdlərin baş verməsinin əsas və başlıca mənbəyidir.

Əksinə, keynsçilər iqtisadi qeyri-dayanıqlığın mənbəyini pul tələbinin formalaşdırılmasında görürlər.Onlar hesab edirlər ki, qeyri-dayanıqlı olan məhz sonuncudur. Onun həcmi "aktiv portfelinin" daimi dəyşikliklərindən asılı vəziyyətdədir, sözügedən bu dəyişikiklərin subyektiv dəyərləndirilmələri isə müxtəlif faktorlardan, dövlət siyasətindən başlayaraq informasiyanın qeyri-müəyyənliyi və qeyri-mükəməlliyinə qədər olan faktorların təsiri altında dəyişir. Pul iqtisadiyyatının qeyri-dayanıqlığının təhlil edilməsinə dair bu cür **"**portfel yanaşması"nın müəlliflərdən biri yuarxıda sitatlar gətirdiyimiz C.Tobindir. Məhz bununla əlaqədar digər amerikalı iqtisadçı H.Minskin müəllifi olduğu nəzəriyyəni – kapitalist iqtisadiyyatının maliyyə qeyri-dayanıqlığı haqqında nəzəriyyəni qeyd etmək olardı.

Keynsçi nəzəriyyə ətrafında baş verən bütün müasir nəzəri diskussiyalar və müzakirələr makroiqtisadi siyasətin məqsədləri və vasitələri ətrafında cərəyan edir.

XX əsrin 60-70-ci illərində əsas məqsədləri iqtisadi tsiklin sabitləşdirilməsi və məşğulluğun yüksək səviyyəsinin ("tam", yaxud daha sonra "qeyri-inflyasiya" səviyyəsinin) əldə edilməsindən ibarət olmuş makroiqtisadi siyasət haqqında ənənəvi keynsçi təsəvvürlər vergi-büdcə tənzimlənməsinin aparıcı rolunu nəzərdə tuturdu. Həm də bunu nəzərə almaq lazımdır ki, məcmu tələbin genişləndirilməsi, yaxud azaldılması məqsədilə büdcə kəsirinin idarə edilməsinə xüsusilə böyük əhəmiyyət verilirdi.

Büdcə ekspansiyasını pul-kredit təklifinin genişləndirilməsi yolu ilə gücləndirməklə pul-kredit siyasəti büdcə siyasətinə uyğunlaşmamalı idi. Bu cür "akkomodativ", yaxud razılaşdırılmış pul-kredit siyasətinin əsas məqsədi uzunmüddətli planda dayanıqlı, yaxud da azalan faiz dərəcələrinin qorunub saxlanılmasından ibarət idi.

Keynsçi makroiqtisadi tənzimlənmənin aparıcı aləti qismində dövlət büdcəsinin, o cümlədən defisitli (kəsirli) maliyyələşmənin istifadə edilməsi büdcə kəsirinin tsiklik xarakterə malik olmasını və xarici faktorların hiss edilə biləcək təsir göstərməsinin mövcud olmamasını nəzərdə tuturdu.

Büdcə kəsirinin tsiklikliyi göstərirdi ki, büdcə kəsiri tənəzzül dövründə əmələ gəlir və artır, lakin iqtisadiyyatın yüksəliş və tərəqqi şəraitində o, minimuma endiriləcək.

Ancaq ötən əsrin 70-ci illərindən başlayaraq və xüsusən də 80-ci illərdə başlanmış yüksəliş və inkişafdan sonra vəziyyət dəyişməyə başlamışdır. İqtisadiyyatın artımı və məşğulluğun nisbətən yüksək səviyyədə olması şəraitində defisitin (kəsirin) artması, yəni struktur defisiti (kəsiri) adlandırılan bir vəziyyətin əmələ gəlməsi, get-gedə daha həyəcanlı və təhlükəli hala çevrilməyə başladı.

Məhz struktur defisitlərin (kəsirlərin) üst-üstə yığılması defisitin (kəsirin) antitsikl siyasətinin aləti qismində istifadə olunmasını tamamilə qeyri-mümkün etmişdir. Məsələn, C.Tobin yazırdı: "Əlbəttə, resessiya ilə mübarizə məqsədilə

istənilən hər hansı bir əlavə maliyyə stimulu bu gün sadəcə olaraq ağlasığmazdır".

Büdcə kəsirlərinin yığılması dövlət borcunun artmasına və müvafiq olaraq, dövlət xərcləri strukturunda faiz ödənişlərinin xüsusi çəkisinin yüksəlməsinə gətirib çıxartmışdı. Bundan əlavə, aydın olmuşdur ki, büdcə tənzimlənməsi, yəni xərclərlə və gəlirlərlə manipulyasiya etmə iqtisadi konyunkturada baş verən dəyişikliklərə tez bir surətdə reaksiya vərmək üçün olduqca nəhəng və qeyri-çevik bir alətdir. Büdcə tənzimlənməsinin özü onun qeyri-sabitliyinin mənbəyinə çevrilə bilər. Buna görə müasir keynsçilər, onların sələflərindən fərqli olaraq, büdcə siyasətinə daha ehtiyatla yanaşırlar.

Amerika iqtisadçısı H.Uolliç yazırdı: "Məhz dayanıqlıq siyasəti, pulun, yaxud digər makrogöstəricilər sahəsində məzənnələrin kəskin dəyişikliklərindən imtina siyasəti, həmçinin "dəqiq köklənmə" adlandırıla biləcək məsələdən imtina bizim məqsədimizə çevrilməlidir. İqtisadiyyatı yüksək dəqiqliklə idarə etmək qabiliyyətimizə malik olmağımıza inanmaq böyük hökumətin üstünlüklərinə inam deməkdir. Təcrübə bu cür ümidləri doğrultmayıb… Dayanıqlıq siyasəti, hər bir tsiklik yerdəyişməyə kəskin reaksiyaların olmaması, çox güman ki, uzunmüddətli perspektivdə tərəddüdlərin özünün azaldılmasının, ilk baxışdan göründüyü kimi, sadəcə olaraq ən yaxşı üsulu deyil, bu həm də dövlətin rolunun məhdudlaşdırılması və azad bazar sisteminin mövcudluğunun təmin edilməsinin üsulu deməkdir" [8].

Daha sonra, ***konservativ yönümlü iqtisadçılarla birgə keynsçilər*** büdcə kəsirlərinin və dövlət xərclərinin nəzarətsiz artımının təhlükəli olduğunu etiraf etmək məcburiyyətində qalmışdılar. Bununla əlaqədar müasir iqtisadi ədəbiyyatda büdcə kəsirinin iqtisadi artıma olan təsirinin müzakirə edilməsinə böyük diqqət yetirilir. Bu mövzu ilə əlaqədar aparılan diskussiyalar xüsusi (şəxsi) istiqrazların (borc öhdəliklərin) dövlət istiqrazları (borc öhdəlikləri) tərəfindən "sıxışdırılıb çıxarılması" problemi ətrafında diskussiyalar kimi daxil olmuşdur.

Artıq qeyd edildiyi kimi, son dərəcə konservativ yönümlü iqtisadçılar, *bir qayda olaraq, belə bir nəzər nöqtəsinə əsaslanırdılar ki, istiqrazlar vasitəsilə maliyyələşdirilən dövlət xərcləri xüsusi istiqrazları sadəcə olaraq əvəz edir (sıxışdırır). Bu dəlil onlar tərəfindən istehsal prosesinə dövlətin müdaxilələrini tənqid etmək üçün istifadə olunur. Eyni zamanda həm də sərt monetar kursun tərəfdarları olmaqla, onlar büdcə ekspansiyasının dəstəklənməsi məqsədilə pul-kredit siyasətinin istifadə edilməsinə qarşı çıxış edirlər, sonuncuda xüsusi (şəxsi) kapital qoyuluşları artımının zəifləməsinin əsas səbəbini görürlər və buna görə dövlət tərəfindən həyata keçirilən vergi-büdcə fəaliyyətinin kəskin şəkildə məhdudlaşdırılmasını tələb edirlər.*

Keynsçi yönümlü iqtisadçılar *daha çevik mövqelərdə qərarlaşıblar. Onların böyük əksəriyyəti belə bir fikirdə həmrəydilər ki, nə qədər ki, iqtisadiyyat tənəzzül vəziyyətində qalmaqda davam edir, eləcə də məşğul edilməmiş istehsal və əmək resurslarına malikdir, dövlət kəsiri real məhsulun artımına stimullaşdırıcı təsir göstərməkdə davam edir. Sıxışdırılma və əvəz edilmə problemi məşğulluğun "qeyri-inflyasiya kandarı" adlandırılan bir vəziyyətə doğru yaxınlaşmaqla əmələ gəlir və güclənməyə başlayır.*

Məsələn, milli prioritetlər və dövlət xərcləri haqqında illik tədqiqatın müəllifləri yazırlar: "Nə zaman ki, iqtisadiyyat hələ zəifdir, federal defisit (kəsir) tərəfindən törənən tələb güc mənbəyi ola bilər. Lakin iqtisadiyyat tam məşğulluq vəziyyətinə doğru hərəkət etdikcə, dövlət defisiti (kəsiri) ciddi bir problemə çevrilir. Dövlət istiqrazları xüsusi (şəxsi) əmanətləri özünə tərəf çəkir, həmçinin yaşayış binalarına və avadanlıqlara, mənzillərə, uzunmüddətli istehlak üçün nəzərdə tutulmuş əşyalara, yaxud əmtəə-maddi ehtiyatlara yerləşdirilə biləcək investisiyalar qismində istifadə olunması üçün nəzərdə tutulan kreditləri yayındırır. Federal büdcənin böyük defisiti nəticəsi yüksək səviyyəli istehlaka və aşağı

investisiyalara, ləng artım templərinə və dayanıqlı ticarət defisitinə (kəsirə) malik iqtisadiyyat olacaqdır".

Federal ehtiyatlar sistemini idarə edənlər Şurası üzvlərindən biri olaraq uzun illər ərzində işləmiş həmin H.Uolliç qeyd edirdi: "Nə zaman iqtisadiyyat əhəmiyyətli dərəcədə natamam məşğulluq şəraitində fəaliyyət göstərir, bu, işin bir tərəfidir. Defisit (kəsir) nəticəsində törənən güclü tələb stimulu qəflətən iqtisadi fəallığın genişləndirilməsinə səbəb olur, bunun nəticəsində isə məhz əmanətlərin artımı baş verəcəkdir. Əlbəttə, hətta zəif iqtisadi fəallıq şəraitində belə müəyyən dərəcədə hansısa əvəz edilmə və sıxışdırılma mövcud olur, çünki faiz normasının istənilən hər hansı bir artımı potensial borc alanları aradan götürür – (istənilən bazarda sıfırdan yuxarı olan istənilən qiymətə kiminsə tələbi "sıxışdırılmış" olur). Amma maliyyə bazarlarında sıxışdırılmanın tam effekti yalnız o halda baş verir ki, nə zaman iqtisdiyyat resurlsarın tam istifadə edilməsinə yaxınlaşır" [8].

Məhz bu səbəbdən müasir postkeynsçilər büdcə məhdudiyyətləri şəraitində əsasən fəal pul-kredit siyasətinə söykənirlər. Bu hal ötən əsrin 80-ci illərində prezident Reyqan administrasiyası tərəfindən həyata keçirilən makroiqtisadi siyasət ətrafında aparılan diskussiyalar və müzakirələrdə daha aydın şəkildə və əyani surətdə özünü büruzə vermişdir. Həmin bu dövr ərzində bütün keynsçi iqtisadçılar monetarizmin, habelə inflyasiya ilə mübarizədə pul-kredit məhdudiyyətlərinin və büdcə xərclərinin azaldılması vasitəsilə onun (monetarizmin) makroiqtisadi mübarizə üsullarının kəskin tənqidi ilə çıxış etmişdilər. Yalnız xərclərin azaldılması ilə deyil, həm də vergilərin artırılması yolu kimi daha sərt büdcə siyasətilə razılaşaraq, onların hamısı çevik və hətta ekspansionist pul siyasətinin lehinə çıxış edirdilər. Bu siyasət faiz dərəcələrinin aşağı salınmasına və bunun əsasında, investisiya tələbinin stimullaşdırılması və Amerika Birləşmiş Ştatlarının tədiyyə balansının tarazlaşdırılmasına istiqamətləndirilmişdir.

Daha bir ideya mövcuddur ki, o, tələbin məhdudlaşdırılması əsasında inflyasiyaya qarşı həyata keçirilən mübarizənin ***monetar siyasətə*** *qarşı söylənilən tənqidi fikirlərin içərisindən keçir.* Sözügedən bu ideya ondan ibarətdir ki, dövlət tərəfindən həyata keçirilən antiinflyasiya siyasəti tələbdən belə parametrlərə yenidən istiqamətləndirilməlidir ki, onlar xərclərin və gəlirlərin formalaşmasını müəyyən edir. Onların qənaətinə görə, məhz təməlində xərclərin üzərinə "üstəlik" ("əlavə") (mark-up pricing) prinsipi mövcud olan qiymət qoyuluşu mexanizmində xəstəliyin əsas mənbəyi cəmləşib və məhz bu xəstəlik də mütləq şəkildə müalicə olunmalıdır.

A.Oyken yazdığı kimi, "Xərcləri azaldan tənzimlənmə metodları potensial olaraq məşğulluq və qiymətlərin səviyyəsi kimi məqsədlərin əsas və başlıca barışıq üsulunu ifadə edir". Daha sonra alim davam edir: "Bəziləri qorxurlar ki, daha geniş və daha hərtərəfli strategiya bazar sisteminə daha da böyük tənzimlənmənin və müdaxilənin həyata keçirilməsi üçün bəhanə olacaqdır. Onlar təhlükə gördükləri məhz həmin yerdə mən heç bir səmərəli sistemin dözmək istəməyəcəyi eksternalilərin (effektlərin), sadəcə olaraq, korrektə (təshih) edilmə imkanını görürəm" [7].

Əgər təkcə tələbin məhdudlaşdırılmasının yalnız ənənəvi metodlarından istifadə etsək və bunun müqabilində istehsalın və məşğulluq həcminin artım templərini qurban versək, onda bizim inflyasiyanın öhdəsindən gəlmək imkanımız və ehtimalımız sıfra bərabər olacaqdır. Postkeynsçilərin fikirlərinə görə, əgər pul-kredit siyasətinin yalnız ənənəvi üsullarından istifadə edilsə, onlar mütləq gəlirlər siyasətinin elementləri ilə tamamlanmalıdır. Onlar belə gəlirlər siyasətinə tərəfdar çıxırlar ki, bu siyasətin nəticəsində əmək məhsuldarlığının artımı nəticəsində öz gəlirlərinin artım tempində maraqlı olan bütün tərəflərin (müəssisələrin, həmkarlar ittifaqlarının, dövlətin) gəldiyi könüllü razılığı olacaqdır. A.Eynher yazır: "Gəlirlər siyasəti önündə siyasi səviyyədə hər hansı bir minimal ictimai razılıq olmalıdır və həmin razılıq

iqtisadi artımın bəhrələri və nəticələri necə bölüşdürülməli olduğu barədə olmalıdır. Bazarın təkbaşına bu problemi həll etmək iqtidarında olmadığı haqqında fakt gəlirlər siyasətini əhəmiyyətli dərəcədə vacib və mühüm edir".

Ötən əsrin 70-80-ci illərində Amerika Birləşmiş Ştatlarında vergi təşviqi və sanksiyalara əsaslanan gəlirlər siyasətinin layihəsi müzakirə olunurdu, həmin layihəyə əsasən, gəlirlər siyasətinin həyata keçirilməsinə görə məsuliyyəti mərkəzi hakimiyyət deyil, müəssisələr özləri daşıyır. Ancaq bu təkliflər yalnız düşüncə səviyyəsində qalmışdır və antiinflyasiya siyasətinə heç bir real təsir göstərməmişdir.

Postkeynsçiliyin bir çox nümayəndələri, xüsusən də XX əsrin 70-ci illərində, gəlirlər siyasətini ümumilikdə artım siyasəti ilə, o cümlədən də investisiyaların templərini və strukturunu müəyyənləşdirən siyasətlə əlaqələndirilməsinin və uyğunlaşdırılmasının lehinə çıxış edirdilər. Bu isə dövlət tərəfindən həyata keçirilən tənzimlənmə prosesinə ona çatışmayan uzlaşdırmanı və uzunmüddətli aspekti vermək iqtidarında olan "ümummilli planlaşdırmadan" istifadə edilməsini nəzərdə tuturdu.

Lakin bu cür ideyalar bugünlərdə artıq öz populyarlığını itirmiş oldu və konservatorlarla (yeni klassiklərlə və monetaristlərlə) aparılan mübahisələrdə müasir keynsçilər əsas etibarılə sabitləşdirici siyasətin davam etdirilməsi zərurətini müdafiə edirlər, həmçinin nəzərə almaq lazımdır ki, onların qənaətininə görə bu, əsasən, pul-kredit instrumentarisinin istifadə edilməsi yolu ilə həyata keçirilməlidir.

Nəticə

Dövlət tənzimlənməsinin rəsmi doktrinası qismində keynsçiliyin və onunla birgə həm də bütün neokeynsçilik sintezinin böhrana düşməsi həmin nəzəriyyənin ənənəvi əleyhdarları – "neoklassik dirçəliş" bayrağı altında çıxış edən neoklassiklər tərəfindən kəskin tənqid edilməsi ilə əlamətdar olmuşdur. XX əsrin 60-cı illərin ortalarından başlayaraq keynsçiliyin tənqid olunmasında yeni mövqe güclənməyə başlamışdır. Bu, keynsçi iqtisadi nəzəriyyənin ardıcıllarının özləri tərəfindən keynsin nəzəriyyəsinin ortodoksal versiyasının yenidən nəzərdən keçirilməsi ilə bağlı olmuşdur. İqtisadi təfəkkürdə bu yeni hadisə postkeynsçilik adlandırılmışdır.

Postkeynsçilik müxtəlif metodoloji və ideoloji yanaşmalara malik olan iqtisadçıları öz sıralarına cəlb etmişdir. Tarixi baxımından o, iki axının birləşməsi nəticəsində əmələ gəlmişdir. Bir tərəfdən, bu mərkəzi Kembricdə yerləşən Böyük Britaniya solçu keynsçilik olmuşdur (N.Kaldor, P.Sraffa və məşhur Coan Robinson – həmin bu cərəyanın hamı tərəfindən tanınan lideri).

Digər tərəfdən, ötən əsrin 60-cı illərinin təxminən ortalarından keynsçiliyin yenidən tənqidi qiymətləndirilmə prosesi Amerika Birləşmiş Ştatlarında da başlanmışdır. Sözügedən bu proses R.Klauer, A.Leyonhufvud, P.Davidson, S.Vayntraub, X.Minski və s. iqtisadçıların təşəbbüsünə əsasən başlamışdır. Qeyd etdiyimiz bu müəlliflər neoklassik sintezin tərkib hissəsi olmuş "natamam məşğulluğa malik olan tarazlıq" ortodoksal keynsçi nəzəriyyənin qəzəbli tənqidi ilə çıxış etmişdilər. Onlar iddia edirdilər ki, yaşlı nəsil , ilk növbədə E.Hansen, P.Samuelson və C.Hiks tərəfindən işlənib hazırlanmış keynsçi versiyası, əslində Keyns nəzəriyyəsinin əsl mahiyyətini təhrif etmişdir. Onların fikirlərinə görə, Keynsin nəzəriyyəsi və neoklassik nəzəriyyə bir-birilə qətiyyən bir araya sığmır. Bu cərəyanın keynsçi rekonstruksiyasını bir çox hallarda monetar

keynsçilik adlandırırlar, çünki pul prosesləri ilə bağlı olan qeyri-dayanıqlığa və qeyri-müəyyənliyə həlledici əhəmiyyət verilir.

XX əsrin 70-ci illərində postkeynsçiliyin bu iki cərəyanı kifayət qədər məşhur olmuşdur və təkcə keynsçi nəzəriyyənin əvəz edilməsinə deyil, həm də "neoklassik sintez" formasında hökmranlıq edən ortodoksiyaya alternativ olan və ümumiyyətlə daha geniş baxışlar sisteminin yaradılmasına iddia edirdi.

Hər halda, adı çəkilmiş bu iki cərəyanın nümayəndələrini iqtisadi nəzəriyyəyə olan bəzi ümumi yanaşmalar birləşdirmişdir. Qeyri-ortodoksal keynsçi qrupların hər ikisi neoklassik sistemi bütünlüklə devirməyi, iqtisadi nəzəriyyədə Keyns tərəfindən başlanan "inqilabı" axıra qədər çatdırmağa, makro- və mikroiqtisadiyyatın yeni sintezini yaratmağa öz qarşılarına məqsəd qoymuşdular.

Coan Robinson olduqca böyük əhəmiyyət verir: "real əməkhaqqı yaşamaq üçün lazım olan minimumu bir o qədər də çox üstələmir, belə ki, yığım üçün zəruri olan texniki artıqlıq da mövcuddur, fəhlələr bir o qədər də çox təşkil olunmayıb və mövcud olan qiymətlərə böyük həssaslıqla yanaşmırlar ki, real əməkhaqqının aşağı düşməsinə qarşı inflyasiya maneələri qaldırılsın. Belə olduqda yığım mümkündür. Lakin belə də ola bilər ki, hər bir ayrıca sahibkar artıq yığılmış kapitalın miqdarından razıdır. Onların hamısı birlikdə yalnız o qədər fəhləni işə cəlb edəcəklər ki, kapital ehtiyatları dəyişməz olaraq qalmaqda davam etsin. Bunun nəticəsində kvazirenta yalnız amortizasiyaya bərabər olacaq və gəlir itəcək" .

Ən sadə model Robinson üçün uzunmüddətli perspektivdə yığım probleminin təhlil edilməsi üçün çıxış nöqtəsidir və həmin çıxış nöqtəsini o, gəlir, əməkhaqqı və məşğulluq arasındakı nisbət kimi nəzərdən keçirir. Özü də bu qlobal nisbət Coan Robinson tərəfindən üç dinamik proseslərin təsiri altında tədqiq edilir - əhalinin artması və işçi qüvvəsi təklifinin də-

yişməsi; inhisarın və rəqabətin nisbəti və ən nəhayət, texniki tərəqqinin təsiri.

Texniki tərəqqi haqqında nəzəriyyə - Coan Robinson nəzəriyyəsinin əhəmiyyətli hissəsini təşkil edir.

Xanım alim texniki tərəqqinin üç növünü nəzərdən keçirir: neytral, bu zaman iki bölmənin əsas parametrləri arasındakı nisbətlər, o cümlədən həmçinin məşğulluq üzrə dəyişmir və onun iki təmayülü – kapitaləmanətli və kapitaltutumlu texniki tərəqqi.

Robinson qeyd edirdi ki, məhz əksinə olaraq deyil rəqabət şəraitində əməkhaqqının yüksəldilməsi məhsuldarlıq artımını müəyyən edir.

Coan Robinson buradan belə bir nəticəyə gəlir ki, əməkhaqqının artırılması "özləri yaşayıb digərlərinə də yaşamağa imkan verməyin" zəruriliyini dərk edən "oxumuş" inhisarçıların şüurlu siyasəti ola bilər, yaxud artıq olub.

Öz əsaslandırmasını Sraffa təbii sahələrarası balansı təsvir edən model əsasında inkişaf etdirir.Sraffa son məhsulun istehsal edilməsinə işlənən aralıq əmtəələrin cəminin istehsal qiymətləri əsasında kapitalın həcminin hesablanması üçün öz modelini istifadə edirdi və əyani şəkildə nümayiş etdirirdi ki, gəlir və əməkhaqqı nisbətinin dəyişilməsi istehsal qiymətləri və onların vasitəsilə - həmin istehsal qiymətləri əsasında ölçülən kapital dəyərinin həcmini dəyişdirir.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1. Postkeynsçiliyin ümumi xarakteristikasını verin.
2. "Solçu keynsçilik" cərəyanının mahiyyətini açıqlayın.
3. İqtisadiyyatın uzunmüddətli artımına təsir göstərən əsas amillərin sintezləməsi nədən ibarətdir?
4. Dayanıqlı inkişafdan uzaqlaşmanın səbəblərini qeyd edin.

5. Marksa görə ikisektorlu iqtisadiyyatın başlanğıc modelinə əsaslanaraq Robinson öz tədqiqatını necə qurur?

6. Uzunmüddətli perspektivdə yığım probleminin Robinson tərəfindən aparılan təhlili üçün çıxış nöqtəsi qismində nə göstərilə bilər?

7. Robinsonun təriflərində "qızıl əsrin" iqtisadi inkişafının ideal şərtlərini göstərin.

8. Sahələrarası balans modeli əsasında Sraffin sübut və dəlillərini izah edin.

9. Əmək və kapitalın nisbətlərinin asılılığını necə izah etmək olar?

Ədəbiyyat siyahısı:

1. Eichner A.S. Postkeynescian Theory: an Intrudaction / / Challenge. 1978. May / June, p. 6.
2. Postkeynescian Economics / Ed. By M.C.Sawyer. Vol. 2. L., 1988.
3. Robinson J., Eatwell J. An Introduction to Modern Economics. L., 1973, p. 184.
4. Sraffa P. Production of Commodities by Means of Commodities. L., 1960.
5. Meek R. Piero Sraffa`s Rehabilitation of Classical Economics / / Science and Society. 1961. Vol. 25, No 2, p. 139.
6. Keynes and the Modern World, Cambridge. 1983, p. 37.
7. Okun A.M. Prices and Qauntities: a Macroeconomic Analysis. Wash., 1981, p. 4, 356, 358.
8. Wallich H. Monetary Policy and Practice. Lexington, 1982, p. 48-49.
9. S.A.Bartenev. İqtisadi təlimlər tarixi. Mockva: 2005, s. 303-305.
10. Xudokormov A.Q. Dərslik. M.: İNFRA-M., 2004. s. 733.

IV FƏSİL. ALMAN NEOLİBERALİZMİ

4.1. Formalaşma mərhələləri və metodoloji əsaslar

4.2. Dövlətin iqtisadi rolu: üçüncü yolun neoliberal konsepsiyaları

4.3. İqtisadiyyatın dövlət tənzimlənməsində neoliberalizmin nəzəri və praktiki rolu

Valter Oyken (1891-1950)— Alman iqtisadçısı

V.Oyken 17 fevral 1891-ci ildə Almaniyanın İyen şəhərində anadan olmuşdur. Doktorluq dərəcəsini Bonda almışdır (1913). Berlin universitetində professor adını aldıqdan sonra (1921-ci il) Tyubenqen (1925) və Frayburq (1927-50-ci illərdə) universitetlərində iqtisadi nəzəriyyəni tədris edirdi. 20 mart 1950-ci ildə London İqtisad Məktəbində mühazirə oxuyarkan dünyasını dəyişmişdir.

Neoliberalizm müasir neoklassik nəzəriyyələrin bir istiqamətidir. Neoliberalizm ideyaları hələ XX əsrin 20-30-cu illərində meydana gəlməyə başlamış və getdikcə inkişaf edərək bütöv bir təlimə çevrilmişdir. **Neoliberalistlər iqtisadiyyatda baş verən tənəzzül, işsizlik, durğunluqların səbəbini azad rəqabətin inhisarçılıqla əvəz olunmasında görürlər. İnhisarçılıqla bərabər iqtisadiyyatda inflyasiya hallarını da təhlükəli hesab etmişlər.** Keynsin kəsirli büdcə vasitəsi ilə maliyyələşdirmə tədbirlərinin, dövlətin investisiya fəaliyyətinin azad bazar təsərrüfatı üçün əks nəticə verdiyini göstərirlər. İqtisadi tarazlığa nail olunması üçün pul tədavülünün sabitliyini, dövlət büdcəsinin gəlir və xərclərinin tarazlaşdırılmasını təklif edirlər. Həmçinin sosial sahədə də müəyyən tədbirləri - minimum əməkhaqqının təminatlılığı, qadın və uşaq əməyindən istifa-

dənin məhdudlaşması, xeyriyyə tədbirlərinin genişlənməsi - vacib hesab edirdilər. Buradan da iqtisadi azadlığın təmin olunması üçün hər cür inhisarçılığa, o cümlədən də xüsusi mülkiyyətin inhisara alınmasına qarşı çıxırlar.

Neoliberalizm nəzəriyyəsinin işlənib hazırlanmasında əsas rolu alman iqtisadçıları və ilk növbədə, onun əsasını qoymuş, eləcə də onun metodologiyasını yaratmış B.Oyken oynamışdır. Neoliberalizm ideyaları İkinci Dünya müharibəsindən sonra Almaniya Federativ Respublikasında, habelə Qərbin bir sıra digər ölkələrində geniş şəkildə yayılmışdır.

4.1.Formalaşma mərhələləri və metodoloji əsaslar

XX əsrin iqtisadi təfəkküründə neoliberalizm nəzərəçarpan rola malikdir, bu cərəyan yeni (gənc) tarixi məktəbin, neoklassikanın və ənənəvi liberalizmin ideyalarının sintezi əsasında xalq təsərrüfatı haqqında özünün nəzəriyyəsini yaratmağa cəhd etmişdir. Metodoloji baxımından neoliberalizm ictimai inkişaf prosesinin ləng, tədricən baş verən təkamülünün izah edilməsi üçün xarakterik (səciyyəvi) olan yeni tarixi məktəbə (xüsusən də K.Büherin və V.Zombartın elmi əsərlərinə) daha yaxındır. Kapitalist quruluşunun bəzi xassələrinin və əlamətlərinin (iqtisadiyyatın idarə edilməsi mexanizmləri, əmtəə istehsalının konkret formaları və sair) dəyişilməsindən asılı olaraq hər iki cərəyanın nümayəndələri cəmiyyətin təsərrüfat həyatının müxtəlif "nizamlarını", "pillələrini" və "üslublarını" ayırırdılar.

Neoklassikadan fərqli olaraq, neoliberalizmin metodoloji instrumentarisində marjinalizm müstəqil, xüsusən də mərkəzi yer tutmur. O, əlbəttə ki, neoliberallar tərəfindən Qərbin konsepsiyalarında geniş şəkildə yayılmış nəzəri üsul kimi qeyd olunur, lakin onlar tərəfindən tədqiqatın əsas və olduqca əhəmiyyətli alət qismində tətbiq edilmir.

Kapitalist təkrar istehsalın kəmiyyət aspektlərinin tədqiq edilməsində öz fikirlərini cəmləşdirərək artım və istehsal funksiyalarının neoklassik nəzəriyyələrinin müəlliflərindən fərqli olaraq, neoliberallar *keyfiyyət və institusional problemləri ön plana çəkirdilər.* Bu cür problemlərin həll edilməsini onlar təkrar istehsal prosesinə xas olan fundamental kəmiyyət disproporsiyaların (uygunsuzlugu) aradan qaldırılması istiqamətində kifayət edə biləcək ilkin şərt hesab edirdilər. Buna görə də neoliberal nəzəriyyədə təsərrüfat inkişafı və iqtisadi artımın tənzimlənməsi problemi nəzərəçarpacaq rola malik deyil.

Neoliberalizmi ənənəvi liberalizmə olduqca yaxın edən, hər şeydən əvvəl, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin hərtərəfli möhkəmləndirilməsi və təşviq edilməsi ideyasıdır. Bununla belə, neoliberallar, öz sələflərindən fərqli olaraq, *təsərrüfat həyatında baş verən prosesləri mikroiqtisadi deyil, makroiqtisadi mövqelərdən dəyərləndirirdilər.*

Bundan əlavə, neoliberalizm azad rəqabətin kapitalizm epoxasını "köhnə" liberalizmindən bununla fərqlənirdi ki, həmin cərəyan dövlət tərəfindən iqtisadiyyata fəal müdaxilələrin həyata keçirilməsinin tərəfdarı kimi çıxış edirdi. Həm də xüsusilə qeyd etmək lazımdır ki, sözügedən bu müdaxilələrin obyektini, keynsçilərdən fərqli olaraq, neoliberallar təkrar istehsal prosesinin özünü deyil, gəlir və rəqabət mexanizminin institusional əsaslarını hesab edirdilər.

Ümumilikdə, neoliberalizm1929-1933-cü illərdə baş vermiş böhrandan ciddi nəticələr çıxararaq iqtisadi nəzəriyyə çərçivəsində dərk etmə prosesinə böyük töhfələr vermişdir. O, göstərmişdir ki, dövlət tərəfindən bazar təsərrüfatının aparılmasında və möhkəm ümumi şərtlərin və rəqabət mübarizəsi üçün sərt çərçivənın yaradılmasına yönələn təsərrüfat mexanizminin institusional əsaslarının fəal şəkildə tənzimlənməsı həyata keçirilmədən kapitalizm dərin sarsıntılar keçirməyə məhkumdur və özünün mövcudluğunu təhlükə altına qoyur. Neoliberalizmin bu ideyası İkinci Dünya müharibəsindən sonra bu

və ya digər şəkildə Qərb ölkələrinin hakim dairələri tərəfindən qəbul edilmiş və onların həyata keçirdiyi iqtisadi siyasəti də müəyyən dərəcədə öz istiqamətini dəyişmişdir.

Neoliberalizmin əsasına ilk növbədə bütün onun tərəfdarlarını birləşdirən iqtisadi quruluşun iki növü haqqında təlim aiddir. Neoliberalizm metodologiyasının təməl daşı olaraq sözügedən bu təlim görkəmli alman filosofu və sosioloqu M.Veberin müəllif olduğu *ictimai sistemlərin ideal növləri nəzəriyyəsinin iqtisadi variantını təqdim edir.*

Oykenin tərifinə görə, iqtisadi quruluş "təcrübədə həyata keçirilmiş təsərrüfat formaların məcmuəsidir və onların daxilində konkret gündəlik təsərrüfat prosesi baş verir" [2]. O, hesab edir ki, tarixdə məlum olan bütün iqtisadi sistemlərin təhlilinə açarı iqtisadi quruluşun iki əsas növünü seçməklə əldə etmək mümkündür**.** Birincisi, "*mərkəzdən idarə olunan təsərrüfat"* (Zentralgeleitere Wirtschaft), onun tərkib hissəsini aşağıdakı növlər təşkil edir – "fərdi", yəni natural təsərrüfat (Eigenwirtschaft) və "mərkəzi-amirlik təsərrüfatı" (Zentralverwaltungswirtschaft). İkincisi, *"qarşılıqlı münasibət təsərrüfatı"* (Verkehrswirtschaft), bu təsərrüfat növü neoliberal ədəbiyyatında daha çox bazar təsərrüfatı kimi işlədilir.

Neoliberalizm keynsçiliklə eyni vaxtda əmələ gəlir. Hər iki nəzəriyyə kapitalizmin özünü tənzimlənmə qabiliyyətinə dair ənənəvi təsəvvürləri dağıtmış və 1929-1933-cü illərdə baş vermiş böhran hadisələrinə qeyri-marksist nəzəriyyələrin reaksiyasını ifadə edirdi. Ancaq əgər C.M.Keyns kapitalizmin xəstəliklərini səmərəli tələbin xroniki çatışmazlığı ilə izah edirdisə (Keynsə görə, dövlət tərəfindən iqtisadiyyata müdaxilələrin həyata keçirilmədiyi təqdirdə, bu vəziyyət quruluşu inkişafa doğru kifayət edə biləcək stimullardan məhrum edir), neoliberalizmin baniləri isə bütün bəlaların əsas mənbəyini təkmil rəqabətin pozulmasında, eləcə də istehsalın bazar tənzimləyicilərinin fəaliyyətini pozan təsərrüfatın inhisarlaşmasında görürdülər.

"İnhisar" məfhumunu Oyken istehsal və kapitalın təmərküzləşməsi prosesi ilə bağlamırdı, onu sırf bazar fenomeni kimi şərh edirdi. İnhisarlaşma dedikdə o, təkmil rəqabət modelindən istənilən hər hansı bir uzaqlaşmanı kənara çıxmasını nəzərdə tuturdu ki, nə zaman çoxlu sayda satıcılar qarşısında xeyli sayda alıcılar dayanır və qiymət istehsalın zahiri tənzimləyicisi qismində çıxış edir. Oykenin təsəvvürlərinə əsasən, rəqabəti "oliqopoliyalar" və "inhisarlar" pozur, belə olan halda satıcıların və alıcıların sayı kiçikdir yaxud minimuma endirilib. İnhisarçılara (əmək bazarında) Oyken həmçinin həmkarlar ittifaqlarını da aid edirdi, beləliklə də nəzəri cəhətdən sahibkarlar və dövlət tərəfindən tred-yunionlara (həmkarlar ittifaqlarına) qarşı məhdudlaşdırıcı tədbirlərin görülməsi alim tərəfindən nəzəri cəhətdən əsaslandırılmış olurdu.

İnhisarçılıq proseslərinin qanunauyğun xarakterini Oyken qəti surətdə inkar edirdi. Alim ümumiyyətlə ictimai inkişafın obyektiv qanunlarını tanımırdı və qəbul etmirdi. Kapitalizm, Oykenə görə, "təsərrüfat unsiyyətinin" sadəcə olaraq tarixi formalarından biridir və tarixdə belə bir dövrə uyğun gəlir ki, həmin dövrdə dövlət təsərrüfat həyatına müdaxilə etməmək siyasətini (laissez faire) həyata keçirirdi və "gecə keşikçisi" rolu ilə kifayətlənirdi. Məhz dovlətin passivliyindən Oyken təkmil rəqabətin pozulmasını və kapitalizmin bütün sosial çatışmazlıqlarını hasil edirdi ki, onlar da, alimin fikrincə, yalnız dövlət tərəfindən iqtisadiyyata müdaxilələr sayəsində aradan qaldırıla bilər.

4.2. Dövlətin iqtisadi rolu: üçüncü yolun neoliberal konsepsiyaları

Dövlətin iqtisadi rolu barədə neoliberalların ortaq bir fikiri mövcud deyil. **Neoliberalizmin çoxsaylı cərəyanları arasında Frayburq məktəbinin nəzəriyyəçilərinin – ordoliberalların –** ***rəqabətin quruluşu və sosial bazar təsərrüfatı***

***konsepsiyası* haqqında elmi işləri daha geniş formada yayılmışdır**.

Qeyd edək ki, ötən əsrin 70-ci illərinə qədər yerli iqtisadçıların əsərlərində bu iki konsepsiya arasında fərq qoyulmurdu. Lakin belə bir cəhət nəzərə çarpır ki, Oykenin nəzəri axtarışlarında və tədqiqalarında **"sosial bazar təsərrüfatı"** termini müzakirə obyekti olmur və onun adı çəkilmir. Bu termin ilk dəfə yalnız 1947-ci ildə, A.Müller-Armakın "İqtisadiyyatın tənzimlənməsi və bazar təsərrüfatı" elmi işində üzə çıxmışdır.

Rəqabətin quruluşu və sosial bazar təsərrüfatı konsepsiyaları, şübhəsiz ki, bir sıra oxşar cəhətlərə malikdir və həmin cəhətlər müəlliflərin xüsusi mülkiyyətə olan bağlılıqla, iqtisadi quruluşun iki növü (tipi) nəzəriyyəsi, eləcə də kapitalizm və sosializm arasında üçüncü yolun mövcud olması haqqında fərziyyə ilə şərtləndirilir. Amma sosial bazar təsərrüfatının nəzəriyyəçiləri frayburq məktəbinin ideyalarını əhəmiyyətli dərəcədə təkmilləşdirdilər onları İkinci Dünya müharibəsindən sonrakı ilkin dövr ərzində Qərbi Almaniyanın sosial-iqtisadi inkişafının konkret şərtlərinə uyğunlaşdırdılar. Bu modifikasiya, ilk növbədə, sosial siyasətin, eləcə də inhisarların və rəqabətin tənzimlənməsi məsələlərinə qeyri-bərabər yanaşma tərzində öz ifadəsini tapmışdır.

Ordoliberallar dövlətin iqtisadi siyasətinin *iki əsas istiqamətini* qeyd edirdilər – *təsərrüfat quruluşun formalaşdırılması* (Ordnungspolitik) *və təkrar istehsal prosesinə təsir* (Ablaufspolitik). *Birinci* istiqamətin mahiyyəti inhisarın və rəqabətin tənzimlənməsindən, xüsusi və dövlət mülkiyyətinin nisbətindən, iqtisadiyyata birbaşa və dolayı tədbirlərin həyata keçirilməsindən, eləcə də təsərrüfatçılığın hüquqi normalarının təyin edilməsindən ibarətdir. *İkinci* istiqamətə isə iqtisadi artımı tənzimləyən dövlət tədbirlərinin bütöv kompleksi aiddir.

Ordoliberal nəzəriyyənin məzmunu, iqtisadi təfəkkürün Qərbi Almaniyadan olan alimi **H.Q.Şaxtştabelin** qeyd etdiyi kimi, bundan ibarətdir ki, "mahiyyət etibarı ilə dövlət

iqtisadi quruluşun formalaşdırılması ilə məhdudlaşdırılır, bir halda ki, özü-özlüyündə tənzimlənmə və təsərrüfat prosesinin gedişi (spontan) qəfildən, kortəbii öz-özünə əmələ gəlir" [1]. Məhz bu səbəbdən Frayburq məktəbinin nəzəriyyəçiləri özlərini ordoliberallar (latın dilində **"ordo" – "quruluş"** deməkdir**)** adlandırırdılar. Bu cür mövqe həm də Frayburq neoliberalizminin bir şüarda özünün aydın və dürüst ifadəsini tapmışdır, burada deyilir: **"Təsərrüfat formalarının dövlət planlaşdırılması – bəli, təsərrüfat prosesinin dövlət planlaşdırılması və tənzimlənməsi – yox!".**

Ordoliberalların konsepsiyasında mərkəzi yeri "təkmil rəqabətin funksional cəhətə malik olan qiymət sisteminin" yaradılması tuturdu ki, bunu da, onların qənaətlərinə görə, "təsərrüfat siyasətinin hər bir tədbirinin mühüm və əhəmiyyətli meyarı etmək lazımdır" [2]. Rəqabət inhisarların qəsdlərindən daima qorunan "dövlət institutu" kimi səciyyələndirilirdi [3].

Oyken rəqabət quruluşunun "təskiledici" prinsilərini və onların arasında – xüsusi mülkiyyətin toxunulmazlıq prinsipini qeyd edirdi. Bu onunla əsaslandırılırdı ki, rəqabət quruluşu şəraitində xüsusi mülkiyyət "rəqabətin nəzarətinə" məruz qalaraq cəmiyyətin bütün üzvlərinə, o cümlədən də məxsus olanlara da fayda verəcəkdir [2]. Ordoliberalların fikrincə, belə bir nəzarət, xüsusən, buna gətirib çıxaracaq ki, əmək bazarlarında əvvəlki rəqabət bərpa ediləcək, bu da muzdla işləyənlərin daimi iş yerlərini almaq imkanlarını əhəmiyyətli dərəcədə artıracaq və onları inhisarçılardan birtərəfli asılılıqdan qurtaracaq.

"Təşkiledici" prinsiplərə Oyken həmçinin pul tədavülünün və milli valyutanın sabitliyini, açıq bazarları, məqsədli olaraq rəqabəti məhdudlaşdıranlar istisna edilməklə bütün sövdələşmələrin və razılaşmaların azadlığını, təsərrüfat vahidlərinin hərəkətlərinə cavab verənlərin üzərinə maddi məsuliyyətin qoyulmasını (yəni saxta şirkətlərin qarşısının alınmasını),

habelə iqtisadi siyasətinin dəyişməzliyini və sabitliyini də aid edirdi.

İnstitusional tənzimlənməni ordoliberallar ən yaxşı antitsikl vasitə hesab edirdilər. Oyken yazırdı: "Bundan əlavə rəqabət quruluşu çərçivəsində konyunktura tərəddüdlərinin yumşaldılması üzrə xüsusi tədbirlərin həyata keçirilməsi tələb ediləcəkmi? Ehtimal olunur ki, yox" [2]. Buna görə də ordoliberallar iqtisadi siyasətin dəyişməzliyini Keynsin və onun ardıcıllarının ideyalarına qarşı qoyurdular. Qeyd edək ki, Keyns və onun tərəfdarları çevik fiskal və monetar antitsikl siyasətinin həyata keçirilməsini zərurət hesab edirdilər. Təsərrüfat prosesinə dövlət tərəfindən edilə biləcək təsirləri ordoliberallar yalnız sparodik (hərdənbir baş verən, hər yerdə olmayan, təsadüfdən-təsadüfə yaranan) bir proses kimi qəbul edirdilər və onu, əsasən, ekzogen amillərin təsiri ilə əlaqələndirirdilər.

Ordoliberalların elmi nəzəriyyəsində xüsusi mülkiyyətin lehinə əsasların və dəlillərin gətirilməsi təkmil rəqabətin və inhisarların cilovlanması zəruriliyindən irəli gəlir. "İnhisarlar və inhisarların üzərində nəzarətin həyata keçirilməsi haqqında qanunvericiliyin məqsədi iqtisadi hakimiyyət daşıyıcılarını belə bir davranış tərzinə məcbur etməkdən ibarətdir ki, sanki təkmil rəqabət həqiqətən də mövcuddur" [2]. Lakin hətta neoliberallara yaxın olan alimlər belə hərdənbir bu cür modelin qeyri-reallığını etiraf edirlər. Belə ki, neoliberalların əksər baxışlarını və mövqelərini bölüşən görkəmli alman iqtisadçısı H.Girş qeyd edirdi ki, "bazara təsir göstərən iri müəssisələrin yaranmasına gətirib çıxaran texniki tərəqqi çarxını geri fırlatmaq mümkün deyil" [4]. Burada Girş, faktiki olaraq, istehsal və satış şərtlərini tənzimləyən konsernləri (müəssisələrin ümumi maliyyə rəhbərliyi altında inhisarçı birləşmələr) nəzərdə tutur.

Kapitalizmin tarixi ciddi şəkildə şübhə etməyə əsas verir ki, rəqabəti tətbiq etməklə dövlət iqtisadiyyatın inhisarlaşmasının qarşısını ala bilərdi. Təbii seçmə qanunlarına bənzər fəaliyyət göstərən rəqabət kapitalizmin inkişafının bütün mər-

hələlərində əmtəə istehsalçılarının fərqləndirilməsini əmələ gətirərək bazarlarda üstünlük təşkil edən istehsalın təmərküzləşməsinə yardımçı olurdu.

Antiinhisar siyasətinə dair ordoliberal tövsiyələrində reallıqda inhisarlaşmaya qarşı çıxış edən bir çox ictimai qüvvələrin imkanları nəzərə alınmır. Oykenə görə, inhisarlara nəzarət edilməsi üzrə idarə - siniflər üzərində olan orqandır və həmin bu orqan "müstəqil" ekspert-siyasətçilərdən ibarətdir. O, qəti surətdə inhisarlara dair dövlət tərəfindən həyata keçirilən siyasətə həmkarlar ittifaqlarının təsir göstərməsinə qarşı çıxış edirdi [2].

Ordoliberalların planlarına nə inhisarçı nəhənglərin dövlət mülkiyyətinə verilməsi, nə onların kiçildilməsi, nə də ki iri kapitalist mülkiyyətinə istənilən hər hansı digər qəsd daxil deyildi.

Ordoliberaların nəzəri baxışları İkinci Dünya müharibəsindən dərhal sonra Qərbi Almaniyanın sahibkar dairələri tərəfindən fəal şəkildə dəstəklənmişdir. Lakin bir sıra səbəblər üzündən onlar rəqabət quruluşu haqqında elmi nəzəriyyədən istifadə edə bilmədilər**.** Birincisi, ordoliberalların ehtimal etdiklərindən daha dərin bir şəkildə dövlət tərəfindən iqtisadiyyata təsir göstərilməsinin obyektiv zəruriliyinə görə. İkincisi, buna görə ki, rəqabət quruluşu ölkə əhalisinin geniş təbəqələri tərəfindən dəstəklənmirdi. Ordoliberalların leksikonunda adı çəkilən rəqabətin tətbiq edilməsi tələbləri (Wettbewerb) qeyri-ixtiyari şəkildə dağıdıcı böhranlarla, işsizliklə və ötən əsrin 20-30-cu illərin kapitalizmi üçün xarakterik olan qeyri-sosial qarışıqlıqlar ilə assosiasiya (ayrı-ayrı təsəvvürlər arasındakı əlaqə) əmələ gətirirdi.

Bu hallar **sosial bazar təsərrüfatı** nəzəriyyəçiləri tərəfindən nəzərə alınmışdır. Belə ki, inhisarın və rəqabətin tənzimlənməsini **Müller-Armak** kapitalizmin sabitləşdirilməsində əsas vasitə hesab etmirdi. Frayburq məktəbinin bir sıra daha çox ümumi olan prinsipləri (xüsusi mülkiyyətin toxunulmazlığı, açıq bazarları, pul tədavülünü və milli valyutanın sabitliyini) qəbul etməklə, Müller-Armak eyni zamanda

“inhisarların cilovlanması” yolu ilə təkmil rəqabətin bərpa edilməsi və canlanması sifarişindən imtina etmişdir. Baxmayaraq ki, antiinhisar siyasət “fərdin azadlığı”nın mühakimə qismində əsas götürülməsi üçün əhəmiyyətli dərəcədə mühüm bir rola malik idi, vurğu antiinhisar problematikasından sosial siyasət məsələlərinə köçürülürdü.

Ordoliberal nəzəriyyəsində bu məsələlər müstəqil mənaya malik deyildi. **Oyken və Frayburq məktəbinin digər nəzəriyyəçiləri təkmil rəqabət şəraitində gəlirlərin ədalətli bazar bölgüsünü sosial ədalətin nailiyyəti və ən yüksək zirvəsi adlandırmışdılar.** Oyken qeyd edirdi ki, yalnız ayrı-ayrı hallarda “əgər özünə edilən yardım və sığorta kifayət edəcək dərəcədə olmasa”, bundan əlavə “dövlət xeyriyyəçilik təsisatları” zəruri olacaqlar.

Ordoliberallar inhisarın və rəqabətin tənzimlənməsini kapitalizm və sosializm arasındakı üçüncü yolun müəllif olduqları modelin əsas keyfiyyət xarakteristikası bəyan etmişdilər və bu xatakteristika həmçinin sosial ədaləti bərqərar etmək iqtidarındadır. Müller-Armak isə “sosial kompensasiya” [5] prinsipinə tabe olan fəal sosial siyasəti sosial bazar təsərrüfatının kapitalizmdən əsas fərqi qismində göstərmişdir. Neoliberalizmin Qərbi Almaniya tədqiqatçısı R.Blüm qeyd edir: “Həmin bazar təsərrüfatı sosial təsərrüfata onun sayəsində çevrilir ki, - “sosial bazar təsərrüfatı” söz birləşməsi məhz bununla izah olunur, - istehsal prosesindən əmələ gələn mülkiyyətin “funksional” bölüşdürülməsi sosial siyasət sayəsində gəlirlərin cəmiyyət tərəfindən arzuolunan “fərdi” bölüşdürülməsinə çevrilir” [6].

Yüksək gəlirlərə malik olan şəxslərə proqressiv vergilərin tətbiq edilməsini, eləcə də əldə edilmiş həmin vəsaitlərin uşaqların təminatına, mənzil haqlarının ödənilməsinə, şəxsi mənzil sahələrinin tikintisinə və bu kimi digər məsələlərə dair büdcə dotasiyaları şəklində əhalinin daha az təminatlı təbəqələrinin xeyrinə yenidən bölüşdürülməsini Müller-Armak

“sosial kompensasiyanın əsas aləti qismində görürdü. Yüksək və aşağı gəlirlər arasında mövcud olan fərqləri bu yolla azaltmaq nəzərdə tutulurdu. Sosial siyasətin digər formalarına o, geniş formada inkişaf etdirilmiş sosial sığorta sistemini (işsizlik, xəstəlik və bu kimi digər hallar üzrə), habelə insana layiq olan sosial infrastrukturu aid edirdi.

XX əsrin əllinci illərində sosial bazar təsərrüfatı konsepsiyasının nəzərdən keçirilmiş müddəaları “hamı üçün rifah” və “hamı üçün mülkiyyət” şüarları ilə konkretləşdirilmişdir və tamamlanmışdır ki, həmin bu şüarlar aparıcı hakim partiyalar tərəfindən irəli sürülmüşdür. Sonuncu şüarın arxasında səhmdar kapitalın demokratikləşdirilməsinin məşhur nəzəriyyəsi, eləcə də istehsal vasitələri üzərində xüsusi mülkiyyətə bərabərləşdirilmiş şəxsi əmanətlərin dövlət tərəfindən stimullaşdırılması dayanırdı. Beləliklə, sosial bazar təsərrüfatı konsepsiyası bəzi yanaşmalarda xalq kapitalizmi nəzəriyyəsinin neoliberal növ müxtəlifliyini ifadə edir.

“Almaniya Federativ Respublikası sosializm və kapitalizm arasındakı ziddiyyətlərə sosial bazar təsərrüfatının köməyi ilə üstün gəlmişdir və bunun nəticəsində əldə etdiyi uğurla üçüncü yolu göstərmişdir”, - bu sözləri daha sonra Almaniya Federativ Respublikasının kansleri olmuş **Helmut Kol** 1973-cü ildə bəyan etmişdir. Həmin ideya Almaniya Federativ Respublikası vətəndaşlarının ictimai şüurunda kifayət qədər möhkəm surətdə geniş yayılmışdır.

4.3. İqtisadiyyatın dövlət tənzimlənməsində neoliberalizmin nəzəri və praktiki rolu

Neoliberalizmin ideyaları bu və ya digər dərəcədə Qərbin bir çox ölkələrində dövlət tərəfindən təsərrüfatın tənizmlənməsi prosesinin inkişafında təcəssüm edilmişdir. Daha çox bu ideyalar Almaniya Federativ Respublikasında geniş yayılmışdır ki, buna da bir sıra konkret tarixi faktorların təsiri səbəb olmuşdur.

İkinci Dünya müharibəsində faşizmin darmadağın edilməsindən sonra Qərbi Almaniyanın sahibkar dairələrinin belə bir iqtisadi nəzəriyyəyə ehtiyacları yaranmışdır ki, həmin nəzəriyyə, antiinhisar ritorikasından istifadə edərək, xüsusi mülkiyyəti müdafiə etməklə və eyni zamanda sosial reformaların lehinə çıxış etməklə kapitalizmin iqtisadi əsaslarının sabitləşdirilməsinə və möhkəmlənməsinə istiqamətlənmiş olsun. İrəli sürülmüş bu tələblərə neoliberalizm tam şəkildə cavab verirdi və bu cərəyan Almaniya Federativ Respublikasının rəsmi iqtisadi doktrinası elan edilmişdir.

Qeyd etdiyimiz dairələrin ideoloji tələblərinə Oykenin iqtisadi quruluşun iki tipi haqqında nəzəriyyəsi cavab verirdi. Belə ki, Almaniya Federativ Respublikasının gələcək iqtisadiyyat naziri və kansleri L.Erhard 1947-ci ildə yazırdı: "Faşizm və bolşevizm bir tərəfdən, həmçinin kapitalizm – digər tərəfdən, iqtisadi nöqteyi-nəzərdən əsas nümunələrin tarixi baxımından məhdudlaşdırılmış fazaları kimi başa düşülməlidir – planlı təsərrüfat və bazar təsərrüfatı"[1]. Sosializmi və faşizmi bərabər tutmaqla, neoliberallar sosialist ideyalar ilə olduqca uğurlu mübarizə apara bilirdilər, o dövrdə sosialist ideyalar təkcə Şərqdə deyil, həm də Qərbi Almaniyada kifayət qədər məşhur olmuşdur.

Almaniya Federativ Respublikasında neoliberal əqidələrin və nöqteyi-nəzərlərin uğuru və müqayisəli surətdə populyarlığı XX əsrin 50-ci illərində ölkədəki təsərrüfat inkişafının xüsusiyyətləri ilə izah olunur. Uzunmüddətli iqtisadi yüksəliş işsiz vətəndaşlar ordusunun kəskin surətdə azalmasına, eləcə də əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə gətirib çıxarmışdır. Qərbi Almaniyada baş vermiş iqtisadi möcüzəsinin yaradıcıları təsərrüfat siyasətinə rəhbərlik etmiş neoliberallar elan edilmişlər (Erhard, Müller-Armak və başqaları).

---

[1]Erhard L. Deutsche Wirtschaftspolitik: Der Weg der sozialen Marktwirtschaft. Dusseldorf, 1962, s. 24.

İnsan kütləsinə ideoloji baxımdan təsir göstərmək məqsədilə ordoliberalların nəzəriyyəsinə əsaslanan inhisarların məhdudlaşdırılması və rəqabətin tətbiq edilməsinə dair dəlillərə iri biznes fəal şəkildə müraciət edirdi. Oliqopolistik, yaxud inhisarçı strukturları formalaşdıran konsernlər daha çox kölgədə qalırkən kütləvi-informasiya vasitələrində kartellərə qarşı kampaniya həyata keçirilirdi.

Neoliberalizm ayrı-ayrı təsərrüfat vahidlərinə dövlət tərəfindən tənzimlənən rəqabətin ümumi şərtləri çərçivəsində tam fəaliyyət azadlığını verməyi tələb edirdi və həmçinin müharibədən sonrakı ilk illər ərzində Qərbin işğalçı hakimiyyət nümayəndələri tərəfindən tətbiq edilən nəzarətdən və nizama salma prosesindən Almaniya Federativ Respublikasında iri kapitalın azad olunmasına xidmət edirdi.

Qərbi Almaniyanın elitasına həm də "rəqabətin nəzarətinə" məruz qalmış xüsusi mülkiyyətin neoliberal müdafiəsi də olduqca cəlbedici görünürdü. Qərbi Almaniya iqtisadçısı Y.Huffşmidin dəyərləndirilməsinə görə, rəqabətin təbliğ edilməsi Almaniya Federativ Respublikasında kapitalizmin "bütöv sisteminin qanuniləşdirilməsinin ideya təməlinə" çevrilmişdir [8].

Eyni zamanda, Qərbi Almaniyada iqtisadiyyatın dövlət tənzimlənməsində neoliberalizmin praktikasından (təcrübəsindən) yalnız qismən istifadə olunurdu. O, üçüncü yolun neoliberal nəzəriyyələri ilə daha cox ziddiyyət təşkil edirdi, lakin iri biznesin öz qarşısına qoyduğu əsas məqsədlərə də kifayət qədər cavab verirdi. 1957-ci ildə antikartel qanununu qəbul etməklə və rəqabətin təbliği ilə məşğul olmaqla Almaniya Federativ Respublikasının hakim dairələri vergi, maliyyə və iqtisadi siyasətin digər vasitələrin köməyi ilə həmçinin kapitalın təmərküzləşməsinə və konsernlərin mövqelərinin möhkəmləndirilməsinə də fəal şəkildə kömək edirdilər.

Sosial kompensasiya ideyası təcrübəyə böyük təsir göstərmişdir. Ötən əsrin 60-cı illərinə Almaniya Federativ Respublikasında dünyada ən inkişaf etmiş və məşhur isveç modeli ilə

tam müqayisə edilə biləcək sosial sığorta və təminat sistemlərindən biri formalaşdırılmışdır. "İnsanın sağ qalma problemi" gündəlikdən çıxarılmış oldu. Gəlirlərin diferensiasiya (təbəqələşmə, fərqləndirmə) dərəcəsi kifayət qədər yüksək olsa belə, məsələn, Amerika Birləşmiş Ştatlarında olduğu qədər fərqləndirilmiş və bölünmüş deyil.

XX əsrin 50-ci illərində "hamı üçün mülkiyyət" şüarı altında həyata keçirilən kampaniya əsasən bir neçə dövlət konsernlərinin "xalq səhmləri"nin (ölkənin bütün səhmdar kapitalının 2 faizinin) satılması ilə tükənmişdir. Ümumilikdə götürəndə, "köhnə konservativ sosial strukturun bütünlüklə aradan qaldırılmasına" [7] dair L.Erhardın vədləri əhəmiyyətli dərəcədə yerinə yetirilsə də, heç də tam olaraq icra olunmamışdır.

Təkraristehsal prosesinin dövlət tərəfindən tənzimlənməsi bir çox yanaşmalarda neoliberalların tövsiyyələri ilə ziddiyyət təşkil edirdi. Bu, ilk növbədə, xüsusi sektorda investisiyaların özünümaliyyələşməsinə dair dövlət tərəfindən həvəsləndirilməsinə aiddir. Ssuda kapitalı bazarından kapital qoyuluşlarının həcminin asılılığını azaltmaqla, o, neoliberal nəzəriyyəsi tərəfindən investisiyalara təsir göstərmək baxımından ssuda faizinin tənzimləyici rolunu pozurdu. Sürətləndirilmiş amortizasiyanın sanksiyalaşdırılması (ona icazə verilməsi) və əhəmiyyətli vergi güzəştlərinin tətbiq olunması – neokeynsçilik arsenalından götürülmüş fiskal siyasətin alətləridir. Dövlət bir çox hallarda, həmçinin istehsal prosesinə birbaşa müdaxilə tədbirlərinə də müraciət edirdi.

Həyata keçirilən iqtisadi siyasətə neoliberalizmin təsir göstərməsi əsas etibarı ilə istehsal vasitələrin geniş şəkildə milliləşdirilməsindən imtina olunmasında, tənizmlənmənin dolayı yollara üstünlük verməsində, eləcə də nisbətən liberal xarici ticarət və valyuta siyasətində defisitli (kəsirli) maliyyələşmənin məhdudlaşdırılmasında ifadə olunmuşdur.

XX əsrin 60-cı illərinin ortalarına qədər neokeynsçilik Qərbi Almaniya dövlətinin həyata keçirdiyi iqtisadi siyasətə

əhəmiyyətli təsir göstərmirdi. Almaniya Federativ Respublikasının iqtisadiyyatı üçün bir sıra müvəqqəti səbəblərdən kapitalın xroniki hədsiz dərəcədə toplanması və tsiklik böhranlar nəticəsində əmələ gələn kütləvi işsizliklə xarakterizə edilən "keynsçilik" vəziyyəti ümumilikdə səciyyəvi deyildi.

Lakin belə bir vəziyyət ötən əsrin 60-cı illərinin ikinci yarısına artıq əmələ gəlməyə başlamışdır və 70-ci illərdə özünü aşkar və aydın bir surətdə büruzə verirdi. Bu səbəbdən 1966-1967-ci illərdə Almaniya Federativ Respublikası tarixində istehsalın hədddən artıq tsiklik böhranı ilk dəfə başlanmışdır, təsərrüfatın dövlət tərəfindən tənzimləsində neokeynsçiliyin rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Eyni zamanda, həm də 1966-1967-ci illərdən sonra da satış problemi Qərbin bir çox digər ölkələrində olduğu kimi, Almaniya Federativ Respublikasında o cür kəskin vəziyyətə gəlib çıxmamışdır, çünki bu, dövlətin xarici bazarlardakı güclü mövqeləri Qərbi Almaniyada istehsal edilən əmtəələrə böyük əlavə tələbi təmin edirdi. Buna görə də keynsçiliyin yayılması dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət məsələlərinə dair neoliberal və neoklassik əqidələrin və nöqteyi-nəzərlərin sıxışdırılıb aradan çıxarılmasına səbəb olmamışdır. Bir çox ideoloji məqsədlərin və istiqamətlərin, eləcə də qeyd edilmiş cərəyanların metodoloji prinsiplərinin yaxınlığı onların birgə mövcud olmasını və qarşılıqlı surətdə təsir göstərməsini mümkün etmişdir. Almaniyanın sosial-demokratik partiyasının nəzəriyyəçiləri tərəfindən işlənib hazırlanmış və ölkənin digər ən iri partiyaları tərəfindən ötən əsrin 60-cı illərin ikinci yarısında bəyənilmiş **"qlobal tənzimlənmə"** doktrinası neoklassik sintezin bir növ müxtəlifliyini ifadə edir. O, məcmu tələbin tənizmlənməsinin neokeynsçi vasitələri (fiskal və pul-kredit vasitələri) ilə əmtəələrin təklifi (infrastrukturun və elmi-tədqiqatların inkişaf etdirilməsi, təhsilin və peşə hazırlığının stimullaşdırılması və sair) tərəfindən iqtisadiyyata təsir göstərən iqtisadi artımın neoklassik

nəzəriyyələri instrumentarisi (alətləri) ilə birgə uyğunlaşdırılmasını və birləşdirilməsini təklif edir.

1974-1975-ci illərdə Almaniya Federativ Respublikasının iqtisadi təfəkküründə baş vermiş böhrandan sonra "sosial bazar təsərrüfatı" kateqoriyasının izah edilməsinə mövcud olmuş yanaşma müəyyən dərəcədə dəyişmişdir. Bir tərəfdən isə, onun sosial funksiyası yenə də həddindən artıq təriflənir. Belə ki, **E.Fetterin** iddiasına əsasən, Qərbi Almaniyanın təsərrüfatı "yalnız varlıların xoşu gəlsin deyə deyil, bütün insanların rifahı naminə öz gücünü və nailiyyətləri əldə etmək qabiliyyətini sübut etmişdir" [8].

Yeni reallıqların mövcud olması Almaniya Federativ Respublikasında **"üçdə ikisini təşkil edən cəmiyyət"** haqqında tezisdə özünün kifayət qədər obyektiv əksini tapmışdır (həmin bu tezisi Almaniyanın sosial-demokratlar partiyasının görkəmli nəzəriyyəçisi **P.Qlots** irəli sürmüşdür). Qeyd edək ki, həmin bu tezis XX əsrin 80-90-cı illər ərzində publisistikada və kütləvi-informasiya vasitələrində geniş şəkildə dolaşırdı. Hələ də konsepsiya formasına çevrilməmiş sözügedən bu tezisə uyğun olaraq, ölkə əhalisinin 2/3 möhkəm rifaha və sabit sosial vəziyyətə malikdir, bir halda ki ölkə vətəndaşlarının 1/3-i bu və ya digər dərəcədə maddi çətinliklərlə üzləşir, etibarlı iş yerinə malik deyil, onların qənaətbəxş sosial müdafiəsi yoxdur, yaxud hətta - əsas etibarı ilə işsiliyə və məşğulluğa dair zəmanətlərin olmadığına görə - "yeni kasıblar" kateqoriyasına aid edilir.

Digər tərəfdən, 1974-1975-ci illərdən sonrakı müddəti əhatə edən dövr ərzində ölkənin iqtisadi inkişafının ləngiməsi və dövlət borcunun əhəmiyyətli dərəcədə artması ilə əlaqədar xüsusi kapitalın və dövlətin sosial manevr etmə imkanlarının azaldılması hakim partiyalar blokuna daxil olan partiya rəhbərlərinə yaxın olan nəzəriyyəçilərini Almaniya Federativ Respublikasında sosial xidmətlər sferasının həddindən artıq inkişaf etməsi barədə ideyanı yaymağa məcbur edir ki, bunun nəticəsində zəhmətkeşlərə artıq güzəşt və imtiyazlar verilir, habelə

fərdi təşəbbüslərin qarşısı alınır. Buradan isə belə bir nəticəyə gəlinir ki, dövlət maliyyəsinin sağlamlaşdırılması məqsədilə fərdi təşəbbüsün və **"qarşılıqlı yardım"ın** həvəsləndirilməsi zamanı dövlətin sosial xərclərinin kəskin şəkildə azaldılması zəruridir.

Belə ki, K.Bidenkopf və M.Migel dövlət tərəfindən mənzil tikintisinə ayrılan pul vəsaitlərini, kənd təsərrüfatının və fərdi əmanətlərin, eləcə də təhsilin və ümumi istifadə üçün nəzərdə tutulmuş nəqliyyatın subsidiyalaşmasını azaltmağa, qocalığa görə təminatın dövlətin təqaüd sığorta sistemindən əsas istiqaməti fərdi əsaslara keçirilməsini, habelə xüsusi sahibkarlıq fəaliyyəti miqyasının genişləndirilməsi naminə dövlətin sosial siyasətinin həyata keçirilmə sferasını məhdudlaşdırmağı təklif edirlər [9].

Ümumilikdə, alman iqtisadçıları bu gün ölkə iqtisadiyyatının sosial xarakterindən daha çox onun bazar xüsusiyyətlərini qeyd edirlər. Bununla yanaşı, "sosial bazar təsərrüfatı" vətəndaşlarının böyük əksəriyyətini birləşdirən ictimai-iqtisadi oriyentir (istiqaməti, səmti göstərən amil) qalmaqda davam edir, 1990-cı ildən Almaniya Demokratik Respublikasının Almaniya Federativ Respublikası tərkibinə daxil olunduqdan sonra isə onu yenidən birləşmiş Almaniyanın bu günü və gələcəyi üçün bir model kimi dəyərləndirirlər.

Ötən əsrin 70-ci illərində Qərb ölkələrinin böyük əksəriyyətində olduğu kimi, Almaniya Federativ Respublikasında da iqtisadi təfəkkürə neokonservativ nöqteyi-nəzərlərin təsiri kəskin surətdə güclənmişdir. Burada neokeynsçiliyin öhdəsindən gəlməkdə aciz qaldığı inflyasiya proseslərinin gücləndirilməsi, eləcə də struktur dəyişikliklərinin kəskinləşməsi neokonservatizmin müxtəlif cərəyanlarının, ilk növbədə isə, monetarizmin fəallaşmasına gətirib çıxarmışdır. Bununla birgə, Almaniya Federativ Respublikasında neokonservatizmin ekspansiyasına bir sıra faktorlar əks-təsir göstərmişdir. *Birincisi,* əksədasında və təsir dalğasında neokonservatizmin yüksəlişi baş

verdiyi böhran prosesləri Almaniya Federativ Respublikasında bir o qədər də kəskin surətdə keçmirdi, müqayisə üçün deyə bilərik ki, məsələn, Amerika Birləşmiş Ştatlarında və Böyük Britaniyada sözügedən proseslər özünün pik həddinə çatmışdır. *İkincisi,* 1969-1982-ci illərdə Almaniya Federativ Respublikasında belə partiyaların koalisiyası hakimiyyətdə olmuşdur ki, onlar ümumilikdə "qlobal tənzimlənmə" doktrinasına tərəfdar çıxırdılar. *Üçüncüsü*, Almaniya Federativ Respublikasında Qərbdə dünya səviyyəli alimlər şöhrətini qazanmış, məsələn, M.Fridman, yaxud A.Laffer kimi neokonservativ cərəyana məxsus alimlər yoxdur. Bu ölkədə yüksək beynəlxalq nüfuza malik olan alimlərdən, yalnız, "qəti" monetarist M.Noymann, eləcə də H.Girş və H.Fels qeyd oluna bilər ki, onların elmi əsərlərində müxtəlif məktəblərin ideyaları birləşir, beləliklə də, onlar ancaq müəyyən qeyd-şərtlər çərçivəsində neokonservativ nəzəriyyəçilər sırasına daxil edilə bilərlər. Bu hal Almaniya federativ Respublikasında həyata keçirilən iqtisadi siyasətə neokonservatizmin təsirini əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı.

Bununla bərabər, Qərbi Almaniyada **neokonservatizm** özünə münbit şərait tapmışdır, çünki bu ölkədə, yuxarıda qeyd etdiyimiz səbəblər üzündən, **neoliberal** yönümlü alimlər ənənəvi olaraq hakim mövqeləri tuturlar – həm kəmiyyət nöqtəyinəzərdən, həm də ölkənin iqtisadi təfəkkürünə təsir göstərmək baxımından. Bir halda ki, **neoliberalizm** və **neokonservatizm** cəmiyyətin sosial-iqtisadi təşkilinin əsas problemləri üzrə yaxın baxışlara malikdirlər, alman **ordoliberalları neokonservatorların** hakim ideyalarını kifayət qədər müsbət bir şəkildə qarşıladılar.

XX əsrin 70-90-cı illərində alman konservatizmi onun Amerika Birləşmiş Ştatlarında və Böyük Britaniyadakı "peşə yoldaşları" ilə müqayisədə bir sıra səbəblər üzündən bəzi xüsusiyyətlərə malikdir. Həmin bu səbəblərdən ön planda olanlar, ilk növbədə, aşağıdakılardır. Birincisi, neokonservatizmin bir

çox doktrinal elementlərini həyata keçirmək niyyətində olan ölkənin hakim partiyalarından ibarət koalisiya hakimiyyətə yalnız 1982-ci ildə gəlmişdir. Bu vaxta qədər neokonservatizm Qərbin iqtisad elmində özünün yüksəlişinin pik nöqtəsini artıq ötüb keçmişdir. 1970-ci illərin ortalarında mövcud olmuş problemlər (ilk növbədə, inflyasiya və struktur böhranı) qeyd etdiyimiz ana qədər artıq əhəmiyyətli dərəcədə yumşalmışdır. Amerika Birləşmiş Ştatlarında və Böyük Britaniyada neokonservatizmin praktiki tətbiqinin məhdud imkanları və ziddiyyətləri kifayət edəcək dərəcədə aydın və dəqiq bir şəkildə özünü ifadə etmişdir ki, bunun nəticəsində onunla rəqabət aparan cərəyanların postkeynsçi əsaslar üzərində yeni canlanması baş vermişdir. 1980-1990-cı illərin alman neokonservatizmi bu halları nəzərə almaya bilməzdi, çünki həmin hallar nəticəsində onun belə bir xüsusiyyəti daha da qabarıq şəkildə özünü büruzə vermişdir ki, onlar da Amerika Birləşmiş Ştatları və Böyük Britaniya ilə müqayisədə eklektisizm (bir-birinə zidd olan fikir və nəzəriyyələrin mexaniki olaraq birləşdirilməsi) və heterogenlik (müxtəlif növlük və formalıq) kimi xüsusiyyətlərin daha kəskin surətdə qeyd edilməsindən ibarət olmuşdur.

İkincisi, Amerika və Britaniya neokonservatizmin bu və ya digər ideyalarını mənimsəmiş **alman ordoliberalları *"sosial bazar təsərrüfatı"*** nəzəriyyəsinin əsas və mərkəzi elementindən – sosial kompensasiyadan imtina edə bilmədilər. Bunun nəticəsində ***fridmansayağı*** **ultra konservatizm** Almaniya Federativ Respublikasında daha çox ikinci dərəcəli mövqedə qərarlaşmışdır. Əslində, hakim partiyalar blokunun formalaşdığı hökumət bəzi sosial xidmətləri məhdudlaşdıraraq az-çox geniş "sosial demontaj" həyata keçirməmişdir, həm də ümumiyyətlə bunu etməyə fəal şəkildə cəhd göstərməmişdir, çünki həmin hökumət yaxşı anlayırdı ki, Almaniya Federativ Respublikasında bunu etmək siyasi nöqteyi-nəzərdən son dərəcə çətindir.

Üçüncüsü, Qərbi Almaniyada iqtisadiyyatın institusional tənzimlənməsi probleminə alman neoliberalizmi tərəfindən verilən birinci dərəcəli diqqət neokonservativ baxışlara əhəmiyyətli şəkildə təsir göstərmişdir. Bunun nəticəsində, məsələn, inflyasiya ilə mübarizəyə həsr olunan neokonservativ cərəyanın nəşrlərində institusional məsələlərə, pul kütləsinin məhdudlaşdırılması ilə müqayisədə, bəlkə də, heç də az diqqət yetirilmir. Bunu nəzərə alaraq, konservativ koalisiyasının hakimiyyəti dövründə 1957-ci ildə qəbul edilmiş rəqabətin məhdudlaşdırılmasına qarşı Qanuna yeni mühüm dəyişikliklər daxil edilmişdir**.** Qeyd edək ki, hal-hazırda bu qanun sadəcə olaraq antikartel aktından daha artıq özünü büruzə verir. Bu məqamın əhəmiyyətini həddindən artıq qiymətləndirməyərək, tam əminliklə söyləmək olar ki, qeyd edilmiş düzəlişlər bazarlarda, xüsusilə də qiymət qoyuluşu sahəsində, üstünlük təşkil edən inhisarçı və oliqopolist təcrübəsinə qarşı kartellər üzrə Federal təsisata daha cəsarətli, bir çox hallarda isə daha məhsuldar mübarizə aparmağa imkan vermişlər.

Neoliberalizmlə hədsiz dərəcədə sıx bir şəkildə bağlı olan müasir alman neokonservatizmdə qeyri-aydın olsa da üç cərəyan görünür ki, onlar dəfələrlə "kəsişir" və bir-birinin üzərinə "qoyulur".

Birincini **ultrakonservativ, müəyyən mənada isə həm də sosial-darvinist (onun nümayəndələri – F.Engels, keçmiş iqtisadiyyat naziri və sosial-demokrat partiyasının sədri O.Lambsdorf, B.Molitor və digərləri) adlandırmaq olar.** *O, daha çox Amerika və Britaniya neokonserizminə yaxındır və onlarla müqayisədə onun daxilində hər hansı bir xüsusiyyət və orijinallıq aşkar etmək çətindir. Onların tövsiyələr çeşidi təqribən eynidir: iqtisadiyyatın "bütün cəbhə boyu" tənzimlənməsinin dayandırılması, bürokratikləşmənin qarşısının alınması, tədavüldə olan pul kütləsinin sıxılması, vergi pressinin (basqının), xüsusilə də kapital üzərinə, zəifləməsi zamanı "sosial demontaj" və sair.*

Belə ki, təkcə Almaniya Federativ Respublikasında deyil, həm də ümumilikdə Qərbdə ən çox nüfuza malik olan həftədə bir dəfə çıxan iqtisadi nəşrlərdən birinin ("Wirtschaftswoche") rəhbəri olan B.Engels sosial sığorta təminatı üçün edilən ödənişləri hamı üçün eyni etməyə təklif edirdi. Qeyd edək ki, hal-hazırda adı çəkilən ödənişlər gəlirin miqdarından asılı olaraq müəyyən edilir. Eyni zamanda, kapitala tətbiq edilən yüksək vergilərin iqtisadiyyata mənfi təsir göstərdiyini qeyd edərək, iqtisadçı alim onları əhəmiyyətli dərəcədə aşağı salmağı tövsiyə edir və buna dair aşağıdakı əsaslandırmanı irəli sürür: "Nəqədər ki, vergi dərəcələri mötədil idi, mikroiqtisadi səviyyədə qərarların qəbul edilməsi zamanı onlar ikinci dərəcəli əhəmiyyətə malik idi. Buradan irəli gələn və resursların yanlış allokasiyasında (yəni onların sahə və regional nöqteyinəzərdən bölüşdürülməsində - *Müəllif*) ifadə olunan nəticələr məhdud olmuşdur" [8]. Hal-hazırda isə həmin nəticələr dözülməz olmuşdur ki, bu da sahibkarlıq gəlirlərinə tətbiq edilən vergilərin ümumi azaldılmasının sürətlə həyata keçirilməsini tələb edir. Bir halda ki, Qərb ölkələrinin əksər hissəsində, o cümlədən də Almaniya Federativ Respublikasında vergilər cəmiyyətin bütün təbəqələri üçün həqiqətən də ağır və məşəqqətlidir və bunun məhz belə olduğunu mübahisələndirməyərək qeyd edək ki, ultrakonservatorların elmi əsərlərindən aşağıdakı suala az-çox qaneedici və əsaslı cavab tapmaq mümkün deyil – 1929-1933-cü illərdə baş vermiş "Böyük böhran"a bənzər bir vəziyyətə düşməsinin qarşısını ala biləcək, eləcə də ictimai sabitliyə təminat verən dövlətin iqtisadi rolunun heç olmasa minimal səviyyədə qorunub saxlanılmasının qeyd-şərtsiz ehtiyacı ilə vergilərin kəskin şəkildə ümumi azaldılmasını necə birləşdirmək və uyğunlaşdırmaq olardı?

İkinci cərəyan, onun ən çox görkəmli nümayəndələrinə **K.Bidenkopfu, H.Qirşi və H.Felsi** aid etmək lazım gələrdi, bəlkə də ***texnokratik-strukturalist,*** yaxud ***modernist-strukturalist*** adlandırılmasına layiq olardı. Birinci ilə kifayət qədər

çoxlu sayda ümumi cəhətlərə malik olmaqla, sözügedən bu cərəyan həm də nəzərə çarpacaq dərəcədə fərqlərin mövcud olması ilə də diqqət çəkir. Əgər ultrakonservatorlar *onların tövsiyələrinin həyata keçirilməsi təqdirdə ən mühüm və ən zəruri problemləri həll etməyə imkan verə biləcək spontan (kortəbii) bazar qüvvələrinə bütövlükdə güvənirlərsə,* **struktu-ralistlər** *maliyyə və pul-kredit siyasətinin "bazara müvafiq olan" tədbirlərin köməyi ilə iqtisadi artımı stimullaşdıran dövlətin struktur və texnoloji siyasətin həyata keçirilməsinə böyük əhəmiyyət verirlər*. Bu kontekstdə xüsusi diqqət Almaniyanın iqtisadi inkişafının dünyəvi təsərrüfat aspektlərinə ayrılır. Yeri gəlmişkən qeyd edək ki, K.Bidenkopf, Saksoniya ərazisinin baş naziri olduğu vaxtlarda, özünün modernist-struk-turalist baxışlarını kifayət qədər uğurlu şəkildə həyata keçirirdi. Daha çox məhz onun həyata keçirdiyi uğurlu siyasəti sayəsində bu ərazi vahidi keçmiş Almaniya Demokratik Respublikasının digər əraziləri ilə müqayisədə daha yaxşı inkişaf edir və təhlil edilə biləcək perspektivdə Qərbi Almaniyanın iqtisadi səviy-yəsinə nail olmaq üçün daha yaxşı perspektivlərə malikdir.

Hakim partiyanın görkəmli nümayəndələri N.Blüm (əmək və sosial təminat məsələləri üzrə nazir) və H.Hayslerin rəhbərlik etdikləri üçüncü cərəyan *katolik sosial təlimlərə əsas-lanır və sosial yönümlü neokonservatizm adlandırıla bilər.* O, ilk iki cərəyanlardan fərqli olaraq, *sosial problemlərə birinci dərəcəli diqqət yetirir və hər hansı "cəbhə boyu sosial de-montaj"a qarşı çıxış edir*. Bir çox hallarda dövlət üçün çox ağır olan sosial xərclərin qənaət olunmasına sözügedən bu üçüncü cərəyan katolik təlimdə olan **subsidiarlıq** (Subsidiaritat) prin-sipinin ardıcıl şəkildə həyata keçirilməsi əsasında nail olmağa təklif edir. Həmin bu prinsipə uyğun olaraq, xüsusi əhəmiyyət dövlət tərəfindən belə vətəndaşlara "qarşılıqlı yardım" vermək lazımdır ki, onlar qocalığa və xəstəliyə görə, bədbəxt hadisə zamanı, yaxud işsizliklə üzləşdikləri zaman və bu kimi digər

halların baş verdiyi təqdirdə özlərini tam və ya qismən şəkildə təmin etmək iqtidarında deyillər.

Neoliberalizm Almaniyanın iqtisadi birləşdirilməsində aparıcı rol oynamaqda davam edir (keçmiş Almaniya Federativ Respublikasının və Almaniya Demokratik Respublikasının hüquqi və beynəlxalq-hüquqi birləşməsi 3 oktyabr 1990-cı ildə baş vermişdir). Həmin birləşmə prosesi əsasən neoliberal təsəvvürlərə uyğun olaraq, ilk növbədə V.Oykenin *"qurulmuş"* (konstruktə edilmiş) prinsipləri ilə baş verir ki, bu da ən azından aşağıdakı məqamlarda ifadə olunur.

Birincisi**,** keçmiş Almaniya Demokratik Respublikasının ərazi torpaqları Almaniya Federativ Respublikasının iqtisadi quruluşunun əsaslarını mənimsəyiblər və bura ***"real sosializmin"*** heç bir institusional xüsusiyyətini daxil etməmişlər.

İkincisi, şərqi ərazilərdə əvvəllər dövlət mülkiyyətində olmuş əmlakın sürətli özəlləşdirməsi həyata keçirilmişdir və həmin proses təqribən 1994-cü ilin axırlarına yekunlaşdırılmşdır ki, bunun sayəsində 1 yanvar 1995-ci il tarixdən etibarən bunun üçün yaradılmış dövlət mülkiyyətinin idarə edilməsi üzrə idarəni **("Troyhand")** ləğv etmişdir. ***"Sürətli özəlləşdirmə, ehtiyatlı ləğv etmə və cəsarətli sağlamlaşdırma"*** **düsturunu rəhbər tutaraq,"Troyhand"** cəmi üç ilə xüsusi mülkiyyətə ***14 minə yaxın iri və orta müəssisə vermişdir***. Bununla yanaşı, xüsusi mülkiyyətinin toxünulmazlıq prinsipinə uyğun olaraq, üstünlük Almaniya Federativ Respublikasının mövcudluğunun ilk illərində ekspropriasiya (cəmiyyətdə bir sinif və ya ictimai qrup tərəfindən başqa sinif və ya ictimai qrupun mülkiyyətinin zorla əlindən alınması) olunmuş müəssisələrin, evlərin, torpaq sahələrinin və s. sahiblərinə kompensasiyanın ödənilməsindən əvvəl restitusiyaya (yəni mülkiyyət obyektlərinin əvvəlki sahiblərə qaytarılmasına) üstünlük verilirdi.

Doğrudur, bu cür yanaşma heç də ən əlverişli və ən münasib olmamışdır. Gözlənilən gəlirlər əvəzinə **"Troyhand"** özəlləşdirmə prosesini 275 milyard marka zərərlə başa çatdır-

mışdır. İctimai rəyin öyrənilməsi göstərdiyi kimi, keçmiş Almaniya Demokratik Respublikasının on sakinindən doqquzu hesab edirlər ki, "Troyhand" təsisatı dövlət mülkiyyətini Qərbi Almaniyadan olan sahibkarların istək və arzularının yerinə yetirilməsi üçün istifadə edirdi. Bunun nəticəsində iş yerlərinin sayı 2,5 milyon azalmışdır, bir halda ki, onların yalnız 2 milyon qeyd-şərtsiz azaldılmasına zərurət var idi. Neoliberal göstərişlərə uyğun olaraq, keçmiş dövlət müəssisələrinin əmək kollektivləri şərqi torpaq ərazilərində, demək olar ki bütün sosialist ölkələrində olduğundan fərqli, özəlləşdirmə zamanı heç bir güzəşt və imtiyaz əldə etməmişdilər.

Üçüncüsü, şərqi torpaq ərazilərində pul tədaüvlünün sürətli sağlamlaşdırılması prosesi həyata keçirilmişdir. Bunun üçün hələ 1990-cı ilin iyul ayında, yəni Almaniyanın hüquqi birləşdirilməsindən əvvəl, Şərqi Almaniyada Almaniya Demokratik Respublikasının markası (pul vahidi) tədavüldən çıxarılaraq Almaniya Federativ Respublikasının markası ilə əvəz olunmuşdur.

Dördüncüsü, sosial kompensasiya prinsipinə uyğun olaraq, şərqi torpaq ərazilərində yaşayan sakinlərə Almaniya Federativ Respublikasının sosial təminatları şamil edilmişdir. Bununla birgə, Şərqi Almaniyada köklü struktur dağılmanın nəticəsi kimi yaranmış kütləvi işsizlik şəraitində onlar (sosial təminatlar) ən azı müvəqqəti də olsa kifayət etməyəcək dərəcədə olmuşlar. Amma, hər halda, birləşdirilmiş Almaniyanın iqtisadi təfəkküründə neoliberalizm özünün aparıcı rolunu saxlamaqda davam edir. Bu ölkədə yaşayan vətəndaşların böyük əksəriyyəti hesab edirlər ki, "sosial bazar təsərrüfatı"na nə hazırda, nə də ki gələcəkdə inandırıcı, qaneedici və əsaslı bir alternativ yoxdur.

Nəticə

Neoklassikadan fərqli olaraq, neoliberalizmin metodoloji instrumentarisində marjinalizm müstəqil, xüsusən də mərkəzi yer tutmur.

Kapitalist təkrar istehsalın kəmiyyət aspektlərinin tədqiq edilməsində öz fikirlərini cəmləşdirərək artım və istehsal funksiyalarının neoklassik nəzəriyyələrinin müəlliflərindən fərqli olaraq, neoliberallar keyfiyyət və institusional problemləri ön plana çəkirdilər.

Neoliberalizmi ənənəvi liberalizmə olduqca yaxın edən, hər şeydən əvvəl, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin hərtərəfli möhkəmləndirilməsi və təşviq edilməsi ideyasıdır. Bununla belə, neoliberallar, öz sələflərindən fərqli olaraq, təsərrüfat həyatında baş verən prosesləri mikroiqtisadi deyil, makroiqtisadi mövqelərdən dəyərləndirirdilər.

Bundan əlavə, neoliberalizm azad rəqabətin kapitalizm epoxası "köhnə" liberalizmdən bununla fərqlənir ki, həmin cərəyan dövlət tərəfindən iqtisadiyyata fəal müdaxilələrin həyata keçirilməsinin tərəfdarı kimi çıxış edirdi. Həm də xüsusilə qeyd etmək lazımdır ki, sözügedən bu müdaxilələrin obyektini, keynsçilərdən fərqli olaraq, neoliberallar təkraristehsal prosesinin özünü deyil, gəlir və rəqabət mexanizminin institusional əsaslarını hesab edirdilər.

Ümumilikdə, neoliberalizm 1929-1933-cü illərdə baş vermiş böhrandan ciddi nəticələr çıxararaq iqtisadi nəzəriyyə çərçivəsində dərketmə prosesinə böyük töhfələr vermişdir. O göstərmişdir ki, dövlət tərəfindən bazar təsərrüfatının aparılmasında və möhkəm ümumi şərtlərin və rəqabət mübarizəsi üçün sərt çərçivənın yaradılmasına yönələn təsərrüfat mexanizminin institusional əsaslarının fəal şəkildə tənzimlənməsı həyata keçirilmədən kapitalizm dərin sarsıntılar keçirməyə məhkumdur və özünün mövcudluğunu təhlükə altına qoyur. Neoliberalizmin bu ideyası İkinci Dünya müharibəsindən sonra bu

və ya digər şəkildə Qərb ölkələrin hakim dairələri tərəfindən qəbul edilmiş və onların həyata keçirdiyi iqtisadi siyasəti də müəyyən dərəcədə öz istiqamətini dəyişmişdir.

Neoliberalların dövlətin iqtisadi rolu barədə ortaq bir fikri mövcud deyil. Neoliberalizmin çoxsaylı cərəyanları arasında Frayburq məktəbinin nəzəriyyəçilərinin – ordoliberalların – rəqabətin quruluşu və sosial bazar təsərrüfatı konsepsiyası haqqında elmi işləri daha geniş formada yayılmışdır. Ordoliberallar dövlətin iqtisadi siyasətinin iki əsas istiqamətini qeyd edirdilər – təsərrüfat quruluşunun formalaşdırılması (*Ordnungspolitik*) və təkrar istehsal prosesinə təsir (Ablaufspolitik). Birinci istiqamətin mahiyyəti inhisarın və rəqabətin tənzimlənməsindən, xüsusi və dövlət mülkiyyətinin nisbətindən, iqtisadiyyata birbaşa və dolayı tədbirlərin həyata keçirilməsindən, eləcə də təsərrüfatçılığın hüquqi normalarının təyin edilməsindən ibarətdir. İkinci istiqamətə isə iqtisadi artımı tənzimləyən dövlət tədbirlərinin bütöv kompleksi aiddir.

Neoliberalizm nəzəriyyəsinin işlənib hazırlanmasında alman iqtisadçıları və ilk növbədə, onun əsasını qoymuş, eləcə də onun metodologiyasını yaratmış V.Oyken əsas rol oynamışdır.

"İnhisar" məfhumunu Oyken istehsal və kapitalın təmərküzləşməsi prosesi ilə bağlamırdı, onu sırf bazar fenomeni kimi şərh edirdi. İnhisarlaşma dedikdə o, təkmil rəqabət modelindən istənilən hər hansı bir uzaqlaşmanın kənara çıxmasını nəzərdə tuturdu ki, nə zaman çoxlu sayda satıcılar qarşısında xeyli sayda alıcılar dayanır və qiymət istehsalın zahiri tənzimləyicisi qismində çıxış edir. Oykenin təsəvvürlərinə əsasən, rəqabəti "oliqopoliyalar" və "inhisarlar" pozur, belə olan halda satıcıların və alıcıların sayı kiçikdir, yaxud minimuma endirilib. İnhisarçılara (əmək bazarında) Oyken, həmçinin həmkarlar ittifaqlarını da aid edirdi, beləliklə də nəzəri cəhətdən sahibkarlar və dövlət tərəfindən tred-yunionlara (həmkarlar ittifaqlarına) qarşı məhdudlaşdırıcı tədbirlərin görülməsi alim tərəfindən nəzəri cəhətdən əsaslandırılmış olurdu.

Oyken rəqabət quruluşunun "təşkiledici" prinsilərini və onların arasında – xüsusi mülkiyyətin toxunulmazlıq prinsipini qeyd edirdi.

"Təşkiledici" prinsiplərə Oyken, həmçinin pul tədavülünün və milli valyutanın sabitliyini, açıq bazarları, məqsədi rəqabəti məhdudlaşdırmaq olanlar istisna edilməklə bütün sövdələşmələrin və razılaşmaların azadlığını, təsərrüfat vahidlərinin hərəkətlərinə cavab verənlərin üzərinə maddi məsuliyyətin qoyulmasını (yəni saxta şirkətlərin qarşısının alınmasını), habelə iqtisadi siyasətinin dəyişməzliyini və sabitliyini də aid edirdi.

Ordoliberalların elmi nəzəriyyəsində xüsusi mülkiyyətin lehinə əsasların və dəlillərin gətirilməsi təkmil rəqabətin və inhisarların cilovlanması zəruriliyindən irəli gəlir.

Ordoliberallar inhisarın və rəqabətin tənzimlənməsini kapitalizm və sosializm arasındakı üçüncü yolun müəllifi olduqları modelin əsas keyfiyyət xarakteristikası bəyan etmişdilər və bu xarakteristika həmçinin sosial ədaləti bərqərar etmək iqtidarındadır.

Yüksək gəlirlərə malik olan şəxslərə proqressiv vergilərin tətbiq edilməsini, eləcə də əldə edilmiş həmin vəsaitlərin uşaqların təminatına, mənzil haqlarının ödənilməsinə, şəxsi mənzil sahələrinin tikintisinə və bu kimi digər məsələlərə dair büdcə dotasiyaları şəklində əhalinin daha az təminatlı təbəqələrinin xeyrinə yenidən bölüşdürülməsini Müller-Armak "sosial kompensasiyanın əsas aləti qismində görürdü. Yüksək və aşağı gəlirlər arasında mövcud olan fərqləri bu yolla azaltmaq nəzərdə tutulurdu. Sosial siyasətin digər formalarına o, geniş formada inkişaf etdirilmiş sosial sığorta sistemini (işsizlik, xəstəlik və bu kimi digər hallar üzrə), habelə insana layiq olan sosial infrastrukturu aid edirdi.

Sosial kompensasiya ideyası təcrübəyə böyük təsir göstərmişdir. Ötən əsrin 60-cı illərinə Almaniya Federativ Respublikasında dünyada ən inkişaf etmiş və məşhur İsveç modeli ilə

tam müqayisə edilə biləcək sosial sığorta və təminat sistemlərindən biri formalaşdırılmışdır. İnsanın sağ qalma problemi gündəlikdən çıxarılmış oldu. Gəlirlərin diferensiasiya (təbəqələşmə, fərqləndirmə) dərəcəsi kifayət qədər yüksək olsa belə, məsələn, Amerika Birləşmiş Ştatlarında olduğu qədər fərqləndirilmiş və bölünmüş deyildir.

Həyata keçirilən iqtisadi siyasətə neoliberalizmin təsir göstərməsi əsas etibarı ilə istehsal vasitələrinin geniş şəkildə milliləşdirilməsindən imtina olunmasında, tənizmlənmənin dolayı yollara üstünlük verilməsində, eləcə də nisbətən liberal xarici ticarət və valyuta siyasətində defisitli (kəsirli) maliyyələşmənin məhdudlaşdırılmasında ifadə olunmuşdur.

Ümumilikdə, alman iqtisadçıları bu gün ölkə iqtisadiyyatının sosial xarakterindən daha çox onun bazar xüsusiyyətlərini qeyd edirlər. Bununla yanaşı, "sosial bazar təsərrüfatı" vətəndaşların böyük əksəriyyətini birləşdirən ictimai-iqtisadi oriyentir (istiqaməti, səmti göstərən amil) qalmaqda davam edir, 1990-cı ildən Almaniya Demokratik Respublikasının Almaniya Federativ Respublikası tərkibinə daxil olduqdan sonra isə onu yenidən birləşmiş Almaniyanın bu günü və gələcəyi üçün bir model kimi dəyərləndirirlər.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1.Neoliberalizmin "köhnə" liberalizmdən fərqlərini göstərin.

2. Neoliberalizm nəzəriyyəsinin işlənib hazırlanmasında kim başlıca rola malik idi?

3. Oyken nöqteyi-nəzərindən "inhisar" məfhumunu əsaslandırın.

4. Rəqabət və sosial bazar təsərrüfatı quruluşu konsepsiyasının ümumi əlamətlərini göstərin.

5. Ordoliberallar tərəfindən seçilən dövlət iqtisadi siyasətinin iki əsas istiqamətini göstərin.

6. Oyken rəqabət quruluşunun hansı “təşkiledici” prinsiplərini seçirdi?

7. Ordoliberalların nəzəriyyəsində xüsusi mülkiyyətin lehinə olan dəlillər və sübutlar nəyə əsaslanır?

8. Kapitalizm və sosializm arasında üçüncü yol modelinin başlıca keyfiyyət xarakteristikası qismində ordoliberallar nəyi göstərirdi?

9. Müller-Armakın “sosial kompensasiya”nın başlıca aləti qismində nə çıxış edir?

10. İqtisadi quruluşun iki tipi haqqında nəzəriyyə nədən ibarətdir?

11. Sosial kompensasiya ideyası AFR-da ötən əsrin 60-cı illərində necə təsir göstərmişdir?

12. Neoliberalizmin iqtisadi siyasətə göstərdiyi təsiri izah edin.

13. Alman neokonservatizmin bir sıra səbəblər üzrə onun ABŞ və Böyük Britaniyadakı “həmyoldaşlarına” dair olan bir sıra xüsusiyyətlərini sadalayın.

14. Müasir alman neokonservatizmində neoliberalizmlə bağlı olan üç cərəyanı gösərin.

15. Oykenin “təşkiledici” prinsipləri nəzərə alınmaq şərtilə Almaniyanın iqtisadi birləşməsində neoliberalizmin aparıcı rolunu göstərin.

Ədəbiyyat siyahısı:

1. Schachtschtabel H.G. Wirtschftspolitische Konzeptionen. 2. Aufl. Stuttgart, 1970, p. 86.
2. Eucken W. Grunsatze Der Wirtschftspolitik. 2. Aufl. Tubingen; Zurich, 1955, p. 254, 275, 293-294, 311.
3. Miksch L. Wettbewerb alsAufgabe. Grundsatze einer Wettbewerbsordnung. 2. Aufl. Codesberg.

4. Giershc H. Allgemeine Wirtschftspolitik. Bd. 1. Wiesbaden, 1960, p. 184.

5. Muller-Armak A. Wirtschaftsordung und Wirtschaft-spolitik: Studien und Konzepte zur Sozialen Marktwirtschaft und zer Europaischen Inteqration. Freiburg im Breisgau, 1966, p. 234.

6. Blum R. Soziale Marktwirtschaft: Wirtschaftspolitik zwischen Neoliberalismus and Ordoliberalismis. Tubingen, 1969, p. 96.

7. Erhard L. Deutsche Wirtschaftspolitik: Der Weg der sozialen Marktwirtschaft. Dusseldorf, 1962, p. 24.

8. Huffschmid J. Die Politik des Kapitals, Konzentration und Wirtschaftpolitik in der Bundesrepublik. Frankfurt a. M., 1969, p. 67.

9. Biedenkopf K.H., Miegel M. Die Programmierte Krise. Stuttgart, 1979, p. 92-93; Miegel M. Sicherheit Alter. Stuttgart, 1984. S. 184. Die Verkannte Revolutionj. Bd. 1. Stuttgart, 1983. p. 34-47.

10. M.X.Meybullayev. İqtisadi təlimlər tarixi. Bakı: NURLAN Nəşriyyatı, 2002.

V FƏSİL. İNSTİTUSİONAL-SOSİOLOJİ CƏRƏYAN

5.1. Müharibədən sonrakı institusializmin xüsusiyyətləri

5.2. C.K.Helbreyt: "yetkin korporasiyanın" və "yeni sosializm" konsepsiyaları

5.3. Fransada institusional sosioloji ənənə. F.Perru

5.4. H.Mürdal: institusionalizmin və İsveç məktəbinin sintezi

Müstəqil cərəyan kimi institusionalizm Amerika Birləşmiş Ştatlarında XX əsrin əvvəllərində yaranmışdır. İnstitusionalizmin banisi – Amerikanın böyük iqtisadçısı, sosioloqu, antropoloqu **T.Veblen (1857-1929)** olmuşdur. Veblenin əsas tədqiqatları ictimai təkamül nəzəriyyəsi ilə bağlıdır. Erkən institusionalizmin sosial-hüquqi cərəyanı məşhur amerikan iqtisadçısı **Con R. Kommonsun (1862-1945)** elmi işlərində təmsil edilmişdir. Erkən institusionalizmin empirik cərəyanının lideri də məşhur amerikalı iqtisadçı **Uesli K. Mitçell (1874-1948)** olmuşdur.

Dövlət tərəfindən iqtisadiyyat üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı ideyanı irəli sürənlərdən və nəzəri planda keynsçiliyin sonradan yayılması üçün müəyyən platformanı hazırlayanlardan ən birinciləri institusionalistlər olmuşdur.

Erkən institusionalistlər "sosial nəzarətin" həyata keçirilməsinin müxtəlif üsullarını təklif etmişdilər. Belə ki, **T.Veblen** sonradan istehsal üzərində nəzarətin həyata keçirilməsi ilə birgə hakimiyyətin mühəndis-texniki ziyalılar təbəqəsinə verilməsi proqramı ilə çıxış etmişdir. **C. Kommons** dövlətin və onun iqtisadiyyata müdaxilələrinin həyata keçirilməsi rolunun yüksəldilməsini təklif edirdi, onun qənaətinə görə, hökumət cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarının balansını təmin etmək iqtidarındadır. **U.Mitçel** dövlət xərc-

lərinin istifadə edilməsi hesabına böhranların aradan qaldırılması imkanını müdafiə edirdi, milli planlaşdırmanın təşkil edilməsinin lehinə çıxış edirdi.

5.1. Müharibədən sonrakı institusionalizmin xüsusiyyətləri

Bir daha institusionalizm müharibədən sonrakı dövrdə dirçələrək təzədən meydana çıxmışdır. Onun yüksəlişinin əsas hissəsi **XX** əsrin **50-60-cı** illərinə təsadüf edir. Bu dövr ərzində institusionalizm **Q.Minz, A.Berli, C.M.Klark** (kapitalizmin transformasiya nəzəriyyələri), **C.K.Helbreyt, R.Heylbroner** (texnokratik determinizm nəzəriyyələri**), F.Perru, J.Furastye** (sosioloji cərəyanın konsepsiyaları), **H.Mürdal, K.Vittfoqel, U.A.Lyuis** (üçüncü dünyanın problemlərinin tədqiqi) kimi alimlər tərəfindən təmsil olunurdu. İnstitusionalizmin ən mühüm və əhəmiyyətli təyinedici əlaməti bazarın neoklassik konsepsiyasına qarşı olan tənqidi münasibətdən ibarətdir**. İnstitusionistlər neoklassik məktəbi bir neçə məsələlərə görə tənqid edirlər.** Birincisi*, iqtisadi mexanizmin fəaliyyət göstərməsində sosioloji, siyasi, sosial-psixoloji faktorlarının rolunu nəzərə almayan başlanğıc metodologiyasının məhdudluğuna görə.* İkincisi, *real iqtisadiyyatın ən mühüm struktur və institusional xüsusiyyətlərə əhəmiyyət verilmədiyinə görə*. Üçüncüsü, *neoklassik nəzəriyyənin ideoloji baxımından qabaqcadan yanlış qənaətə (fikrə) əsaslandığına görə.* İnstitusionalistlər abstrakt fərdin (individuumun) davranış tərzini əsas kimi götürən neoklassik məktəbi təmsil edən iqtisadçıların metodoloji individualizmə, eləcə də bazar strukturunun atomistikliyi haqqında ilkin mühakiməsinə və iqtisadi tənzimlənmənin butövlukdə əhatə edən təkmil rəqabət mexanizminə qarşı çıxırdılar. *Bununla əlaqədar olaraq, onlar verilmiş məhdudiyyətlər zamanı rasional iqtisadi subyekt tərəfindən maksimallaşdırılan determinist (bütün hadisələrin qanunauyğunluğu və səbəbiyyət əla-*

qəsindən asılı olduğu haqqında nəzəriyyə) məqsədli funksiya haqda ideyanı tənqid edirdilər.

İnstitusionalistlərin metodoloji əsasına gəldikdə isə, Veblendən başlayaraq bütün institusionalistlərin rəhbər **tutduğu üç prinsipi** qeyd etmək vacib olardı. Birinci – *tədqiqat subyektinin özünün – institutlarla, vahid ictimai mexanizminin bir hissəsi kimi iqtisadiyyat sferasında institusional sisteminin struktur və funksional aspektləri ilə bağlı olan fənlərarası yanaşması.* Belə problematika iqtisadi nəzəriyyə çərçivəsinin genişləndirilməsini və onun qapalılığının aradan qaldırılmasını nəzərdə tutur; o, digər ictimai fənlərlə - sosiologiya, politologiya, sosial psixologiya və bu kimi digər fənlərlə sıx formada bağlı olur.

İnstitusionalistlər tərəfindən **bəyan edilən digər metodoloji prinsip – tarixi prinsip** – *ictimai təkamülün hərəkətverici qüvvələrini və inkişaf faktorlarını, eləcə də əsas tendensiyalarını üzə çıxartmaq, habelə ictimai inkişafın perspektivlərinə məqsədyönlü şəkildə təsir göstərməsini əsaslandırmaq meyillərində ifadə olunur.*

İnstitusionalistlər ictimai ziddiyyətlərə əhəmiyyətli dərəcədə fikir verirdilər. *Onlar hesab edirlər ki, Qərb cəmiyyəti belə bir mərhələyə çatıb ki, o, ictimai institutlarda elm və texnologiyanın inkişaf səviyyəsinin dərin uyğunsuzluğu ilə xarakterizə olunur.* İqtisadi həyatın reallıqlarının öyrənilməsinə müraciət edərək, institusionistlər iqtisadi hakimiyyət problemlərinə xüsusi diqqət yetirirdilər. Adı çəkilən bu problemlər aşağıdakılarla bağlıdır: birincisi, inhisarlaşma prosesləri ilə, bazar strukturunun yenidənqurması və bazar mexanizmlərində baş verən dəyişikliklərlə, ikincisi, sosial-iqtisadi proseslərə dövlət tərəfindən həyata keçirilən müdaxilələrin artması ilə. İqtisadçı-sosioloqlar kimi, institusionistləri də iqtisadi hakimiyyət problemləri müxtəlif aspektlərdə cəlb edirdi: mənbələr, formalar, miqyaslar, həyata keçirmə üsulları, nəticələr, məhdudiyyət metodları; həm mikrosəviyyədə, həm də ümu-

milikdə iqtisadi sistem daxilində hakimiyyət, iqtisadi və siyasi hakimiyyətin bağlılığı. İqtisadi tədqiqatlar orbitinə (diqqət mərkəzinə) iqtisadiyyatın inkişafına dövlət siyasətinin təsir göstərməsi ilə əlaqədar olan məsələlər, iqtisadi sferada baş verən maraqlar münaqişələri düşmüşdür.

Müharibədən sonrakı dövr ərzində Qərbin iqtisadi təfəkkürünün inkişafı, hər şeydən əvvəl, "keynsçi inqilabı"nın kəşf etdiyi yolla gedirdi. Reformist yönümlü bütün iqtisadçılar kimi, institusionistlər dövlət tərəfindən tənzimlənmənin həyata keçirilməsi ilə fərdi və ictimai maraqları bir-biri ilə uyğunlaşdıra biləcək sabit və səmərəli sistemin yaradılmasına böyük ümidlər bəsləyirdilər. Bazar sisteminə dövlətin tənzimləyici təsir göstərməsi haqqında Keynsin ideyaları onlara olduqca yaxın idi.

Ancaq **institusionalizm** keynsçiliyin daxilində qətiyyən itmədi. Onun **nümayəndələri** (institusionistlər) iqtisadiyyat üzərində ***sosial nəzarətin həyata keçirilməsinin əhəmiyyətini hər zaman qeyd edərək, onu ictimai maraq problemi və ictimai rifahın məzmunlu meyarları ilə əlaqələndirirdilər.*** Buna görə də onlardan bir çoxları dövlət tərəfindən müdaxilələrin həyata keçirilməsini bazar qeyri-tarazlılığının korrektə (təshih) edilməsinin zəruriliyinə bəraət qazandıran keynsçiliyin dar məzmunlu olduğunu görürdülər. Dövlət tənzimlənməsinin müsbət rolunun zəruriliyini sübut etməklə, institusionistlər, ilk növbədə, sırf bazar yanaşmasının hüdudlarından kənara çıxmağa can atırdılar.

Bununla yanaşı, müharibədən sonrakı institusionalizm 30-cu illərin institusionalizmindən həm metodoloji, həm də nəzəri sahədə fərqlənirdi. 1930-cu illərin əsas problemi – iqtisadiyyatın inhisarlaşdırılması və maraqların mübahisəsi – İkinci Dünya müharibəsinin sona çatmasından sonra ikinci plana keçmişdir. *Yeni mərhələdə institusionalizmin təkamülü industrial (sənaye)-texnokrat yanaşmanın açıq-aşkar üstünlük təşkil etməsində ifadə olunmuşdur.*

T.Veblenin əsas elmi işlərində industrial (sənaye) konsepsiyaların kökləri rahat bir şəkildə baxılır; ancaq XX əsrin 50-60-cı illərində bu konsepsiyalar əvəlki tənqidi səslənməni itirmiş oldular; bir çox istitusionalistlərdə bu böyük biznesin nəzəri reabilitasiyasında özünü büruzə vermişdir, çünki məhz elmi-texniki tərəqqinin baş verməsini onunla əlaqələndirirdilər.

İnstitusionalist konsepsiyaya əsasən, elmi-texniki inqilab – bu, fundamental ictimai-siyasi problemləri həll edə biləcək ən böyük inqilabdır. İqtisadi tərəqqinin rasional və hərəkətverici qüvvəsinin əsas daşıyıcısı qismində industriallaşma (sənayeləşmə) imperativləri əsasında fəaliyyət göstərən iri korporasiyalar çıxış edir.

Ötən əsrin 50-60-cı illərində kapitalizmin (spontan) kortəbii transformasiyası haqqında fikirlər və mülahizələr, ilk növbədə, iri korporasiyaların təbiətinin dəyişilməsi hesabına xüsusi olaraq məşhurlaşmağa və yayılmağa başlayır. Sözügedən bu fikirlər aşağıdakılarla bağlı idi: **birincisi**, "idarə edənlərin inqilabı" konsepsiya ilə, **ikincisi**, kapital üzərində mülkiyyətin demokratikləşmə nəzəriyyəsi ilə. Kapitalizmin sosial-iqtisadi sistemini keyfiyyətcə yeni bir mərhələsində təsvir edən - "xalq kapitalizmi", "ümumi rifah cəmiyyəti" və sair kimi anlayışlar həlledici rol qazanmış oldular.

İnstitusionist nöqteyi-nəzərdən dövlət olduqca mühüm və əsaslı dəyişikliklərə məruz qalıb, bunun nəticəsində onun əsas məqsədi "cəmiyyətin bütün üzvləri üçün rifah"ın təmin edilməsi olmuşdur. Bunun təməlində müxtəlif "sosial nəzarət" nəzəriyyələri inkişaf etməyə başlamışdır ki, bu da kapitalizmin transformasiyası fikri ilə birgə İkinci Dünya müharibəsindən sonrakı institusionalist cərəyan üçün səciyyəvi idi.

5.2. C.K.Helbreyt: "yetkin korporasiya" və "yeni sosializm" konsepsiyaları



Müasir institusionalizmin, şübhəsiz, lideri amerikalı iqtisadçı **C.K.Helbeyt** hesab edilir. O, uzun müddət ərzində Harvard Universitetinin aparıcı professorlardan biri olmuşdur. C.K.Helbreyt, həmçinin Amerika İqtisadçılar Assosiasiyasının prezidenti də seçilmişdi. İkinci Dünya müharibəsi illərində Helbreyt Qiymətlər üzrə Nəzarət İdarəsinin rəisi vəzifəsində çalışırdı. Ona prezident Kennedinin "yeni mərhələ "(новых рубежей) siyasətinin işlənib hazırlanmasında olduqca əhəmiyyətli rolu vardı.

C.K.Helbreytin daha vacib və mühüm elmi işlərindən aşağıdakıları qeyd edə bilərik: "Amerika kapitalizmi" (1952-ci il), "Bolluq cəmiyyəti" (1958-ci il), "Yeni sənaye cəmiyyəti" (1967-ci il), "İqtisadi nəzəriyyələr və cəmiyyətin məqsədləri" (1973-cü il).

Amerika Birləşmiş Ştatları iqtisadiyyatının İkinci Dünya müharibəsi zamanı tənzimlənmə təcrübəsini nəzəri cəhətdən ümumiləşdirmək cəhdini ən birinci məhz Helbreyt etmişdir. Məşhur alim belə bir nəticəyə gəlmişdir ki, özünün təbiətinə görə oliqopopilistik olan bazar, azad rəqabət bazarından fərqli olaraq, tənzimlənmənin və planlaşdırılmanın təsiri altına daha yaxşı düşür. Özünün sonrakı elmi işlərində Helbreyt Amerika iqtisadiyyatını keyfiyyətcə iki müxtəlif sistemlərə bölür– "planlaşdırıcı" və "bazar".

İqtisadiyyatın iki sistemə bölünməsinin əsas meyarları istehsalın texniki-təşkili faktorlarından ibarətdir: qabaqcıl texnikanın və mürəkkəb təşkil edilmənın mövcud olması. Helbreyt sübut etməyə çalışır: *"Tamamilə bir şəxsin nəzarəti altında olan müəssisə ilə... təşkil olunmadan fəaliyyət göst-*

tərməsi mümkünsüz olan firma arasında dərin konseptual fərq vardır". Bu fərq sanki bir divar kimi "on iki milyon xırda firmanı" (yəni bazar sistemini) planlaşdırıcı sistemə daxil olan minlərlə nəhənglərdən ayırır.

Planlaşdırıcı və bazar sistemləri arasında mövcud olan fərqlərin xarakteristikasında Helbreyt böyük diqqəti iqtisadi hakimiyyət kateqoriyasına, yəni qiymətlər, xərclər, istehlakçılar və iqtisadi mühit üzərində nəzarət edilməsinə ayırır. O hesab edir ki, müasir cəmiyyətdə bu cür hakimiyyət yalnız iri korporasiyalarda cəmləşdirilir. İqtisadiyyat sektorların qeyri-bərabər inkişafı "hakimiyyətdə və beləliklə də, sosial nəticələrdə" böyük fərqlərin əmələ gəlməsinə səbəb olur.

Helbreytin qənaətinə görə, xırda firmaları və fərdi sahibkarları ehtiva edən bazar sistemi planlaşdırıcı sistemlə müqayisədə təkmil və mükəmməl deyil. O, qiymətlərə, yaxud hökumət tərəfindən həyata keçirilən siyasətə təsir göstərmək iqtidarında deyil; burada güclü həmkarlar ittifaqları fəaliyyət göstərmir; fəhlələr isə burada daha aşağı əməkhaqqı alırlar. Beləliklə, bazar sistemi imtiyazlı planlaşdırıcı sistemdən ayrılmış müəyyən bir kənarlaşma (bir mülkü və sair dövlət və ya ictimai təşkilatlar xeyrinə zəbt etmə, alma) zonasını təsvir edir.

Helbreytin konsepsiyasında ən əsas və başlıcası – planlaşdırıcı sistemin və onun əsas bəndinin, yəni **"yetkin korporasiyanın**" təhlilidir. Onun fikrinə görə, məhz bu sistem müasir Qərb cəmiyyətinin simasını və onun inkişafının yeni tendensiyalarını müəyyən edir.

Helbreytə görə, iri korporasiyanın əsasını "qabaqcıl texnika ilə kapitalın böyük həcmdə və kütləvi istifadə edilməsinin birləşdirilməsi" təşkil edir. O, korporasiyaların inkişafında iki tendensiyanı qeyd edir: birinci mərhələni alim "sahibkarlıq korporasiyanın" hökmranlığı ilə əlaqələndirir ki, həmin bu korporasiya "özünün yaranma vaxtına, miqyasına və əməliyyat-

ların sadəliyinə görə onun kapitalına nəzarət edən ayrıca şəxsə təkbaşına hakimiyyətliliyə sahib olmağa hələ də imkan verir…”.

Vaxt keçdikcə, ayrı-ayrı sahibkarlar tədricən korporativ mülkiyyət üzərində təkbaşına həyata keçirdikləri nəzarəti itirməyə başlayırlar. Korporasiyadakı hakimiyyət qaçılmaz olaraq müəssisənin fəaliyyətini istiqamətləndirən, onun beyni olan xüsusi insanlar qrupuna keçir. Belə insanlar qrupunu **Helbreyt texnostruktur adlandırmağı təklif edir**. **O yazır ki, texnostruktur “xüsusi biliklərə, qərarların qrup halında qəbul etmək qabiliyyətinə, yaxud təcrübəyə malik olan hər bir kəsi əhatə edir”**. Başqa sözlə desək, texnostruktur – “alimlərin, mühəndislərin, realizasiya, reklam və ticarət əməliyyatları üzrə mütəxəssislərin, ictimai münasibətlər sahəsində ekspertlərin, lobbiçilərin, vəkillərin və Vaşinqton bürokratik aparatının və onun fəaliyyətinin xüsusiyyətləri ilə yaxşı tanış olan insanların, eləcə də vasitəçilərin, idarə edənlərin, inzibatçıların bütöv bir məcmuəsidir”.

Beləliklə, inkişaf etmiş, yaxud yetkin korporasiya deyəndə belə bir korporasiya nəzərdə tutulur ki, burada bütün hakimiyyət artıq texnostruktura keçib. Hakimiyyət keçidi həm də korporasiya strategiyasının dəyişikliklərini də müəyyən etdi: texnostruktur maksimal gəlirin əldə olunmasını artıq məqsəd kimi qarşısına qoymur.

Helbreyt texnostrukturların məqsədlərini iki qrupa bölür: ilk növbədə texnostrukturun özünü qorumasınına yönəldilmiş **müdafiə məqsədləri və müsbət məqsədlər** – hakimiyyətinin möhkəmləndirilməsini və genişləndirilməsini nəzərdə tutan qrup.

Məqsədlərin birinci qrupu qərarların qəbul edilməsi prosesinə xarici müdaxilə risklərin (kapital sahibləri və kreditorların, fəhlələrin – həmkarlar ittifaqları vasitəsilə, istehlakçıların və hökumətin) minimuma endirilməsinə istiqamətləndirilib. Qərarların qəbul edilməsi prosesinin xarici təsirlərdən

qorunmasının əsas üsulunu Helbreyt hər bir kəs üçün gəlirlərin müəyyən səviyyəsinin təmin edilməsini hesab edir.

Alimin fikrincə, texnostrukturun əsas müsbət məqsədi firmanın inkişafı və artımıdır. Həmin bu inkişaf və artım, öz növbəsində, sənaye sisteminin və bütövlükdə cəmiyyətin ən əsas və əhəmiyyətli məqsədinə çevrilir, burada başlıca və aparıcı rola nəhəng korporasiyalar malikdir. Bundan əlavə, iri firma üçün risklərin minimizasiyası, yəni bazardan olan asılılığın minimuma endirilməsi, əsas oriyentir hesab olunur: *"Firma satdığı və əldə etdiyi məhsul üzərində nəzarəti həyata keçirməlidir. O, bazarın əvəzinə planlaşdırmanı onun yerinə qoymalıdır".*

Helbreyt belə bir nəticəyə gəlir ki, planlaşdırma – müasir sənayenin obyektiv ehtiyacıdır. Planlaşdırmaya olan ehtiyacı, alim istehsal texnologiyasının mürəkkəbləşməsi, yeni texnika üçün kapital qoyuluşları həcminin əhəmiyyətli dərəcədə artırılması, eləcə də istehsalın təşkil olunmasına dair tələblərin yüksəldilməsi ilə izah edir.

Bazar qeyri-mütəşəkkilliyinin sənaye planlaşdırılması ilə əvəz edilməsi ideyası Helbreyt tərəfindən kapitalizmin yeni sənaye cəmiyyətinə transformasiya prosesinin əsaslandırılmasında geniş şəkildə istifadə olunur. Bazarın planlaşdırma ilə əvəz edilməsinin əsası və başlıca alətini o, inkişaf etmiş korporasiyanı hesab edir, dövlətin iqtisadi fəaliyyətini isə **"planlaşdırma binasının tacı"nı** qoyan zəruri element kimi nəzərdən keçirir.

Helbreytin fikrincə, **dövlət tərəfindən müdaxilələrin həyata keçirilməsi Amerikada kapitalizmin əsas və başlıca problemlərinin həll edilməsində zəruri addımdır.** Sözügedən problemlərin təməlində nəhəng korporasiyalar dünyasını əks etdirən planlaşdırma sistemi ilə kiçik biznes, kənd təsərrüfatı, təhsil, səhiyyə, nəqliyyat və sosial xidmətlərin digər sferaların daxil olduğu bazar sistemi arasında ziddiyyətlər dayanır. Bu ziddiyyətlərin həll edilməsi üçün amerikalı iqtisadçı

ümumi islahatlar nəzəriyyəsini istifadə etməyi təklif edir. İslahatları bir neçə mərhələdə həyata keçirmək nəzərdə tutulur.

Daha vacib vəzifə məslək və əqidələrin ekspansiyası (genişləndirilməsi, yayılması) hesab olunur. Helbreytin qənaətinə görə, bu proses gənclər arasında artıq başlanılıb və hamı tərəfindən qəbul edilmiş standartlara qarşı qiyamla ifadə olunur.

İslahatın növbəti addımı –iki sistemin qeyri-bərabərliyinə aidiyyatı olan və eyni zamanda onun aradan qaldırılmasının əsas vasitəsi qismində çıxış edən dövlətin emansipasiyasıdır (azadlığı və xilasıdır). Hökumətin emansipasiyası planlı sistemin nəzarətindən azad olmaq üçün zəruridir. Helbreyt hesab edir ki, hökumətin əsas vəzifəsi bazar sistemi şəraitinin yaxşılaşdırılması və planlı sistem tərəfindən onun istismar edilməsinin zəifləməsinə xidmət göstərən tədbirlərin həyata keçirilməsindən ibarətdir. Bunun üçün qiymətlərin tənzimlənməsini həyata keçirmək, gəlirin minimum zəmanətini təmin etmək, fəhlələrin həmkarlar ittifaqlarının təşkil edilməsini dəstəkləmək, əməkhaqqını artırmaq, bazar sistemini kapitalla və yeni texnika ilə təmin edilməsi istiqamətində güzəştli siyasəti həyata keçirmək və bu kimi digər tədbirləri təmin etmək tövsiyə olunur.

Səhiyyə, şəhər tikintisi və nəqliyyat kimi sahələri Helbreyt dövlət strukturu əsasında təşkil etməyi təklif edir. Bütün bunlar yeni sosializmi ifadə etməlidir. Əgər köhnə sosializm ideoloji yönümlü olmuşdursa, **yeni sosializm, Helbreytin qənaətinə görə, hallar və səbəblərin nəticəsidir.**

Bazar sisteminin inkişaf etdirilməsinə yönəldilmiş tədbirlərlə eyni zamanda planlı sistemin islahatlaşdırılması üçün tədbirlərin həyata keçirilməsi təklif olunur: gəlirlər arasında mövcud olan fərqlərin aradan qaldırılması məqsədilə proqressiv vergi qoyuluşunun tətbiq edilməsi, qiymətlərin və əməkhaqqının sabitləşdirilməsinə istiqamətləndirilmiş tədbirlər, sahələrarası koordinasiya (uyğunlaşdırılma, əlaqələndirilmə), iri hərbi firmaların milliləşdirilməsi, ətraf mühitin, içməli suyun

və sair çirkləndirilməsinə qarşı mübarizənin aparılması. Helbreytin qeyd etdiyinə görə, planlı sistemə dair siyasət onun məqsədlərini intizamlı etmək və ictimai məsələlərin xidmətinə istiqamətləndirməkdən ibarətdir. Beləliklə, **Helbreyt bütün islahatçı proqramının mahiyyətini konkretləşdirərək "sosializm" məfhumunun idarəetmə və nəzarət vasitəsi kimi** (Qərb iqtisadiyyatının müasir sisteminin köklü və xüsusilə də, zorakı diğılmasına və pozulmasına yol vermədən) **izahını üzə çıxartmışdır**.

5.3. Fransada institusional sosioloji ənənə. F.Peru

Amerikan institusionalizminə olduqca yaxın olan baxışlar müharibədən sonrakı dövrdə Qərbi Avropada geniş şəkildə inkişaf etmişdir. Bu inkişaf Fransada xususilə hiss olunurdu, bu ölkədə onlar nüfuzlu sosioloji məktəbin (iqtisadi nəzəriyyə və sosiologiyanın qovuşması zamanı fransız iqtisadi təfəkkürün şaxələnməsi) dəstəyinə söykənirdi. İnstitusional-sosioloji cərəyanın fransız variantı indikativ planlaşdırmanın inkişaf etdirilməsində xüsusi müzakirəyə layiqdir, çünki onun çərçivəsində irəli sürülmüş sosial nəzarətin tövsiyyələri təcrübədə istifadə olunmuşdur. Qeyd edək ki, adı çəkilən bu planlaşdırma hal-hazırda artıq böyük və əhəmiyyətli bir tarixə mailkdir.

İlkin olaraq **bazar iqtisadiyyatının planlı tənzimlənmsi ideyası ötən əsrin 20-ci illərində erkən Amerikan institusionalizmi çərçivəsində yaranmışdır**, ancaq o zaman bu fikir "azad sahibkarlığın" təməl daşına edilən qəsd kimi dəyərləndirilərək rədd edilmiş və təcrübədə tətbiq olunmamışdır. Müharibədən sonrakı illər ərzində kapitalist iqtisadiyyatının

planlaşdırılması ideyası yenidən bərpa olunur və Fransada güclü inkişaf edir.

İnstitusional-sosioloji cərəyanın fransalı tərəfdarları arasında **Fransua Peruya** (1903-1987) xüsusi yer məxsusdur. F.Peru "Kollec de Frans"ın professoru, eləcə də İqtisadi və Sosial inkişaf İnstitutunun banisi və direktoru olmuşdur.

F.Perunun əsas elmi işlərindən biri – "XX əsrin iqtisadiyyatı" (1961-ci il) **hesab olunur**. Bu kitabda fransız alimin əsas fikiri və mülahizələri şərh edilir. **Perunun ümumi iqtisadi nəzəriyyəsi üç hissəyə bölünür**. **Birinci hissə** - ***"üstünlük təşkil edən iqtisadi" nəzəriyyə – müasir kapitalist təsərrüfatının yeni təsvirini verir***.

Əvvəlki nəzəriyyələri Peru birmənalı şəkildə qeyri-qənaətbəxş hesab edir. Onun müəllifi olduğu nəzəriyyənin **ikinci hissəsi** ***"ahəngdar (harmonizasiyalı) artım nəzəriyyəsi" adlanır. Bu hissə dövlət tərəfindən həyata keçirilən tənzimlənmənin köməyi ilə kapitalist təsərrüfatının təkmilləşdirilməsi yollarını və metodlarını göstərməlidir***. **Üçüncü hissə** - ***"ümumi iqtisadi" nəzəriyyə – gələcək cəmiyyəti təsvir edir ki, həmin bu cəmiyyətdə istehsal hər bir insan üçün həyata keçirilir və burada ehtiyac və zorakılıq mövcud deyil***. **F.Perunun** iqtisadi aləmi təsərrüfat həyatının təməlini təşkil edən prinsip qismində çıxış edən qeyri-bərabərliyə əsaslanır. **Alim hesab edir ki**, müasir kapitalizm cəmiyyətinin sosial-iqtisadi sistemində bərabərliyin bərqərar edilməsinə təkan verən heç bir daxili niyyət və meyillər mövcud deyil. Qeyri-bərabərlik istehsalın və kapitalın həcminə yaranan fərqlərdən, partnyorların müxtəlif dərəcədə məlumatlı olmasından, habelə təsərrüfatın müxtəlif sahələrinə mənsubiyyətindən irəli gəlir.

Qeyri-bərabərliyin əsas nəticəsi – üstünlük təşkil edən və tabe olan iqtisadi vahidlərin mövcudluğudur. Onlar arasında münasibətlər sadə əmtəə istehsalı ilə müqayisədə bir qədər fərqli qurulur. Münasibətlər şəbəkəsinə məcburiyyət spesifik "iqtisadi nemət" kimi daxil edilir ki, bunun sayəsində onun sahibi iqtisadi

müstəsna hüquqlara malik olur. Üstünlük təşkil edən vahidlər birtərəfli qaydada təklif edilən sövdələşmələr, yaxud əməkdaşlıq şərtlərinə başqalarını razılaşmağa məcbur edir.

Təsərrüfatçı vahidlərin qeyri-bərabərliyi nəticəsində iqtisadi mühitin deformasiyası (formanın dəyişikliyi) baş verir. Peru tərəfindən təsvir edilmiş daha maraqlı deformasiya növlərindən biri – aparıcı sahə ("artım qütbü") ətrafında mühitin polyarizasiyasıdır (müəyyən bir səthdə yerləşmə qabiliyyəti, yaxud müxtəlif maddələrin toplanması). Polyarizasiya mühitinə daxil olan müəssisələr onun qütblərinə qarşı qeyri-bərabər hüquqlu münasibətlər təyin edir, onun aludəçilik, yaxud lən-gidici təsirini öz üzərində hiss edirlər.

"Mühərrik–sahələr" (tez böyüyən və genişlənən sahələr, məsələn, kimya, maşınqayırma, neft emalı sahələri, eləcə də ən yeni sahələr – elektronika, nüvə energetikası) üstünlük təşkil edən vahidlər kimi olduqca güclü "aludəçilik effekti"nə malikdir və bunun sayəsində bütöv milli iqtisadiyyatın strukturunun şəklini dəyişir (modifikasiya edir), habelə iqtisadi ekspansiyanın miqyaslarını və templərini yüksəldir.

"Aludəçilik effekti" bütün iqtisadi vahidlərin qarşılıqlı asılılığına əsaslanır. "Aludə edən" vahid "aludə olunmuş" vahidə ölçülər effekti (onun istehsal etdiyi məhsullarına daha yüksək tələb irəli sürməklə və bunun sayəsində onun istehsal artımını stimullaşdırmaqla), "məhsuldarlıq effekti" (öz əmtəələrinə qiymətləri azaltmaqla) və "yeniliklərin tətbiqi effekti" vasitəsilə təsir göstərmək iqtidarındadır.

Kateqoriyaların məntiqi genişləndirilməsində və inkişaf etdirilməsində növbəti addımı F.Peru makrovahid və makroqərarlar nəzəriyyəsi vasitəsilə edir. Əgər "üstünlük effekti" – iqtisadi fəaliyyət ümumi nəzəriyyənin əsas çıxış nöqtəsidirsə, onda makroqərarlar – onun daha mühüm və əhəmiyyətli mərkəzi hissəsidir.

Üstünlük təşkil edən vahid ətrafında iqtisadi mühitin deformasiyası həmin mühitə daxil olan iqtisadi vahid-

lərin arasında mövcud olan münasibətlərin forması və məzmununun dəyişməsi deməkdir. Əgər təkmil rəqabət modellərinə hər bir firma müstəqil bir şəkildə fəaliyyət göstərərək onun istehsal etdiyi məhsul bazarında qiymətin və öz xərclərinin yalnız bir səviyyəsini rəhbər tutursa, polyarlaşma mühitinə düşərək isə həmin firma qərarların qəbul edilməsi zamanı polyusdan – üstünlük təşkil edən vahiddə əsasən birbaşa, yaxud dolayı məcbur edilməni mütləq şəkildə nəzərə almalıdır. Bu həmin mühitdə tarazlığın bütün şərtlərini (yəni, xərclərin, buraxılışın və qiymətlərin səviyyəsi arasındakı nisbətləri) dəyişir. Onun parametrləri ümummilli (yaxud ümumdünya) iqtisadi mühitin digər yerlərində mövcud olan parametrlərdən kənara çıxır. **Polyarizasiyalı mühitdə iqtisadi vahidlər özlərini artıq qarşılıqlı əlaqədə olan partnyorlar kimi deyil, vahid, sistem şəklində təşkil edilmiş bütöv bir məkanın üzvləri kimi aparır. Bu cür birləşməni F.Peru makrovahid adlandırır.**

Qərarları qəbul edərək, ali iqtisadi vahid, digər vahidlərdən fərqli olaraq, məlum olan parametrlərin daha böyük miqdarını əldə rəhbər tutur. Ona, bir qayda olaraq, öz kiçik partnyor-rəqiblərinin planları artıq qərarların qəbul edilməsi mərhələsində məlum olur. Kifayət qədər məcbur etmə qabiliyyətinə malik olmaqla, ali vahid artıq planların işlənib hazırlanması mərhələsində onlara belə bir formada təsir etmək iqtidarındadır ki, bütöv qruplaşmaya ən böyük əlverişliliyi və qənaətçilliyi təmin edilmiş olsun.

Bu cür qruplaşma sistem cəhətdən təşkil edilmiş olur və makrovahidə çevrilir. Partnyorların hərəkətlərinin məcmu səmərəliliyi yüksəlir. Əlverişlilik və qənaətcillik dərəcəsinin yüksəlməsini, hətta sözügedən məcmuənin sistemə çevrilməsindən əvvəl və sonra rəqabət mübarizəsinə sərf edilən xərclərin müqayisəsi yolu ilə də hesablamaq mümkündür.

Bununla yanaşı, F.Peru yalnız ayrı-ayrı firmalar arasında üstünlük təşkil etmə münasibətlərini üzə çıxartmır, həmçinin onları ayrı-ayrı dövlətlərə (məsələn, Amerika Birləşmiş Ştatları

və iqtisadi cəhətdən asılı olan ölkələr), milli iqtisadiyyatın müxtəlif sahələrinə, həmçinin sosial qruplara da yayır.

Fransa iqtisadçısı belə bir tezis irəli sürüb ki, makro-vahidin daxilində rəqabətin təbiəti və məzmunu dəyişir. Aq-ressiv, qeyri-mütəşəkkil vahiddən o, "kollektiv" bir vahid olur, "mübarizə - yarış" formasına çevrilir; rəqabətin təbiətinin dəyiş-məsi resursların bölüşdürülməsinin bütöv mexanizminə, yəni sahə daxilində və sahələr arasında kapitalların dövriyyəsinə təsir göstərir. Onun əsasında artıq yalnız hər bir müəssisə üçün maksimal fərdi gəlirin təmin edilməsi meyilləri deyil, həm də bütövlükdə makrovahid üçün maksimal gəliri təmin etmək səyləri dayanır. Bu isə o deməkdir ki, ayrı-ayrı müəssisələrdə gəlir norması onların şəxsi kapitalının miqdarı ilə tənzimlənmir.

Rəqabətə məxsus təbiətin dəyişməsi, həmçinin qiymət-lərdə də özünü göstərir. Makrovahid çərçivəsində qiymətlər artıq tələb və təklif funksiyası deyil, müəssisənin xərcləri ilə tənzimlənmir, məhz istehsalı təşkil edən və tələbə təsir göstə-rən ali idarəetmə formasının funksiyasına çevrilməyə başlayır.

Üstünlük təşkil edən makrovahid, belə demək müm-kündürsə, başqalarından fərqli olan və orijinal bir "artım (inkişaf) qütbü"nü təsvir edir. O, bir-birini tamamlayan fəaliyyət növlərini vahid bir məkana birləşdirməklə **"aqlome-rasiya effekti"ni** əmələ gətirir. **"Artım qütbləri" dedikdə, biz həm formanı, həm sahəni, həm də güclü "aludəçilik effekti"nə malik olan sahələr kompleksini başa düşürük**. Onlar regionda, yaxud ölkədə "inkişaf zonaları"nı, "inkişaf oxları"nı təşkil edir**.** F.Peru hesab edir ki, dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətinin əsas və ən mühüm vəzifəsi məhz bu cür "artım qütbləri"nin yaradılmasından və onların əmələ gətirdiyi effektlərin yayılma mühitinin şüurlu şəkildə idarə edilməsindən ibarətdir.

"Üstünlük təşkil edən iqtisadiyyat" konsepsiyasına və artımın müxtəlif tərkibli olması məfhumuna əsaslanaraq, kapi-talizm şəraitində planlaşdırma təcrübəsinə dair F.Peru aşağı-

dakı nəticələrə gəlir: birincisi, balanslaşdırılmış artımın həyata keçirilməsi mümkün deyil, artım siyasəti – həmişə qeyri-bərabər artımın siyasətidir və burada heç bir fərq yoxdur ki, adı çəkilən bu siyasətə şüurlu formada, yaxud kortəbii olaraq və qeyri-mütəşəkkil surətdə nail olunur; ikincisi, struktur siyasət kimi həyata keçirilən artım siyasəti mövcud olan strukturlara uyğunlaşmasına deyil, arzu edilən istiqamətdə strukturların fəal şəkildə dəyişdirilməsinə istiqamətləndirilib; üçüncüsü, bir halda ki, artım qeyri-bərabərdir, struktur siyasəti, keynsçilərin tövsiyələrində olduğu kimi qlobal deyil, mütləq şəkildə məhz seçki siyasətidir.

"Üstünlük təşkil edən iqtisadiyyatın" təkamülünün bütün məntiqi dövləti "qərarların qəbul edilməsi üzrə mərkəz" olmağa təhrik edir. Dövlət müəssisələri onlara məxsus muxtariyyatdan məhrum etmir, lakin onu məhdudlaşdırır. Dövlət antitsikl siyasətin həyata keçirilməsindən başqa, uzunmüddətli inkişaf proqramlarının maksimal (tez) templərlə tərtib edilməsi məsələlərini də həll etməyə çalişır. Yalnız bu cür uzaqgörən siyasət " ahəngdar artım"ı təmin etmək iqtidarındadır. F.Peru ahəngdar (harmonizasiya edilmiş) artım siyasətinin üç prinsipə riayət etməsini qeyd edir. Bu prinsiplər aşağıdakılardan ibarətdir:

- birincisi, real ümumi məhsulun maksimizasiyası və onun tərəddüdlərinin minimizasiyası;

- ikincisi, iqtisadiyyatın sferaları arasında mövcud olan disproporsiyaların (nisbətsizliyin) azaldılması;

- üçüncüsü, tarazlığın ardıcıl vəziyyətlərinin humanistləşdirilməsi, artım templərinin mövcud olan işçi qüvvəsinə, güclərə, investisiyalara, əmanətlərə uyğun olması "mahiyyət etibarı ilə canlı insanlara və real qruplara məxsus olan planların uyğun olmasıdır".

"Ümumi iqtisadi" nəzəriyyə "ahəngdar artım" konsepsiyasının gələcək inkişafını təsvir edir. Ümumi iqtisadiyyatda insanlar maksimal qənaətcillik, faydalılıq və əlverişlilik tələblə-

rinə yalnız artım templərini və istehsal strukturlarını deyil, həm də müxtəlif növlü hüquqi institutlarda, "oyun qaydaları"nda, sosial rejimlərdə ifadə edilmiş təsərrüfatın və cəmiyyətin təşkilinin əsas prinsiplərini də tabe edir.

Kapitalist təsərrüfatı üçün bu, hər şeydən əvvəl, gəlirin təbiətinin dəyişməsi, onun funksional gəlirə (yəni faydalı fəaliyyətdən əldə olunan gəlirə) çevrilməsi deməkdir. F.Peru hesab edir ki, bu cür çevrilmə artıq müasir cəmiyyətdə başlayır, "ahəngdar artım" iqtisadiyyatı daxilində sürətlənir və yalnız "ümumi iqtisadiyyat" çərçivəsində tamamlanır ki, burada mənfəət mülkiyyətdən əldə olunan gəlir deyil, müəssisə rəhbərinə xas olan təşkilatçılıq qabiliyyətinə, eləcə də onun yaradıcı və qurucu təşəbbüsü müqabilində məhz mükafata çevriləcəkdir.

Mənfəətin təbiətinin dəyişməsi eyni zamanda sahibkarlıq fəaliyyətinin psixologiyasının dəyişməsini də nəzərdə tutur. Bundan sonra istehsalın təşkilatçısı təkcə tamahkar deyil, həm də nəcib və alicənab niyyətlərə də əsaslanacaq. "Ümumi iqtisadiyyat" şəraitində dövlət özünün arbitraj orqanı kimi rolunu gücləndirəcək və fərdi təşəbbüsü stimullaşdıran ümumi maraqlara riayət edilməsinə nəzarət edəcək. Cəmiyyət təsərrüfatın belə bir formasının yaradılmasına maraqlı olacaq ki, burada ayrı-ayrı şəxslərin, yaxud sosial qrupların deyil, ilk növbədə, hər bir insanın, istisna olmadan cəmiyyətin bütün üzvlərinin maraqları nəzərə alınacaqdır.

Yekunda qeyd etmək lazımdır ki, daha çox F.Perunun sayəsində institusional-sosioloji cərəyan ötən əsrin 50-60-cı illərində fransız iqtisad təfəkküründə aparıcı istiqamətə çevrildi. F.Perunun ideyaları indikativ planlaşdırma prinsiplərinin işlənib-hazırlanması zamanı istifadə edilmişdir.

5.4. H.Mürdal: institusionalizmin və İsveç məktəbinin sintezi

Karl Hunnar Mürdal (6 dekabr 1898 - 17 may 1987) İsvec iqtisadçısı sosioloq və siyasətçi.

İnstitusionalizm yönümlü iqtisadçılar arasında İsveç məktəbinin nümayəndəsini, "pul nəzəriyyəsi və iqtisadi tərəddüdlər nəzəriyyəsi üzrə yenilikçi, elmi işlərə, habelə iqtisadi, sosial və institusional hadisələrin qarşılıqlı asılılığının dərin təhlilinə görə" iqtisadiyyat üzrə 1974-cü il Nobel mükafatının laureatını Hunnar Mürdalı xüsusi olaraq qeyd etmək lazımdır.

O, ardıcıl olaraq universitet professoru, hökumət müşaviri, Amerika Birləşmiş Ştatlarında zəncilərin ictimai vəziyyətinin öyrənilməsi üzrə tədqiqat qrupunun rəhbəri, nazir, bank direktoru, plan komissiyasının sədri və beynəlxalq təşkilatın işçisi olmuşdur. Bir çox digər Nobel mükafatçılarından fərqli olaraq, Mürdal özünü "institusional iqtisadçılara" aid edirdi. O, böyük beynəlxalq nüfuza malik idi, özü də yalnız siyasi xadim kimi deyil, həm də iqtisadi və sosial siyasət problemlərini bir-biri ilə sıx əlaqələndirməyə nail olmuş bir iqtisadçı alim kimi.

Onun əsas elmi işləri arasında aşağıdakıları qeyd edə bilərik: **"Pul tarazlığı"** (1931-ci il), **"Amerika dilemması: zənci problemi və müasir demokratiya"** (1944-cü il), **"Dünya iqtisadiyyatı"** (1956-cı il**), "Asiya dramı:Xalqların yoxsulluğunun tədqiq olunması"** (1968-ci il).

Hunnar Mürdal ictimai elmlərin idrakın ümumi sistemindəki yerini müəyyən etməyə çalışırdı. O, siyasi məqsədlər qeyd edilmədən rifah problemlərinə sırf iqtisadi yanaşmanı tənqid edirdi. Alimin qənaətinə görə, iqtisadçılar siyasi məslək və

əqidələrini açıq şəkildə bəyan etməkdən, eləcə də onları həyata keçirdikləri tədqiqatların əsas elementinə çevrilməkdən çəkinməməlidirlər, çünki iqtisadçıları, bir qayda olaraq, yalnız elmi maraq deyil, həm də cəmiyyətin təkmilləşdirməsinə və mükəmməlləşdirməsinə olan təşəbbüslər də ilhamlandırır. Böyük iqtisadçılar siyasət sahəsində hər zaman öz məsləhət və tövsiyələrini təklif edirdilər **(Maltus, Rikardo, Marks, Keyns). İsveç iqtisadçısının amerikan institusionistlərinin elmi işləri ilə tanışlığı onu daha da inandırdı ki, iqtisad elmində ictimai dəyərlər problemi böyük əhəmiyyətə malikdir**.

Müəllif olduğu erkən elmi işlərində Mürdal daha sonra makroiqtisadiyyatın **Stokholm məktəbi** kimi məşhurluq qazanmış **cərəyanın təməlini yaratmışdır**. O, Böyük depressiyanın öhdəsindən gəlmək üçün fiskal siyasətin fəallaşdırılmasını təklif edirdi. Mürdal böhran və tənəzzül zamanı yaranmış kəsirin tənəzzüldən sonrakı dövr ərzində əmələ gələn yüksəliş və inkişaf vaxtlarında yaranan büdcə artıqlığı ilə bağlanılmasını irəli sürürdü. Özünün fəallığına görə Mürdalın fəaliyyətinə əhəmiyyətli dərəcədə borclu olan Stokholm məktəbi, faktiki olaraq, makroiqtisadi siyasət modelinin işlənib hazırlanmasında birinciliyi əldə etmişdir. Qeyd etmək lazımdır ki, bu birincilik **C.M.Keynsin "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi"** (1936-cı il) kitabının işıq üzü görməsindən də əvvəl qazanılmışdır.

Müharibədən sonrakı dövr ərzində Hunnar Mürdal müasir dünyanın inkişafının əsas tendensiyaları ilə bağlı olan problemlərin tədqiq edilməsi ilə məşğul olur. Hökumət komissiyasının sədri olaraq, alim dünya bazarlarında tarazlığın pozulmasının təhlükəli olduğunu xüsusilə qeyd edirdi. Mürdal İsveç hökumətinə planlaşdırma sistemini tətbiq etməyi məsləhət görmüşdür. O, "proqram" və "görücülük" kimi kateqoriyaları ayıraraq onları qeyd edirdi. "Proqram" dedikdə Mürdal nəzərdə tutulan, yaxud ehtimal edilən fəaliyyət planını "qörücülük" dedikdə isə - gələcək hadisələrdən əvvəlcədən xəbərdar olma-

sını düşünürdü. Vaxtı ilə o, planlı iqtisadiyyatın daha böyük dayanıqlığına malik olacağını əvvəlcədən bildirmişdir və Şərq bloku ölkələri ilə həyata keçirilən ticarətin genişləndirilməsinin leyhinə çıxış edirdi.

Planlaşdırma məsələlərindən əlavə, Mürdal inteqrasiya problemlərinə də böyük diqqət yetirirdi. "Dünya iqtisadiyyatı: Problemlər və perspektivlər" kitabında İsveç iqtisadçısı **"biz hara gedirik?"** sualına cavab axtarır. Bu məqsədlə o, beynəlxalq iqtisadi münasibətlərin inkişafının əsas tendensiyalarını tədqiq edir və onların dəyişdirilməsinin imkanlarını aydınlaşdırır. Mürdal qeyd edir ki, müstəmləkə sisteminin iflası və dağılması ilə əlaqədar müasir iqtisadiyyatda ciddi dəyişikliklər baş vermişdir. Alim yazırdı: "1913-cü ilin dünyası Perikl zamanındakı Afina şəhərinə bənzəyir və bir çox cəhətdən nümunəvi sivilizasiyanı təcəssüm etdirirdi, bu haqda danışdıqda isə biz yalnız bir faktı unutmalıyıq – o, bəşəriyyətin böyük əksəriyyətini öz nemətlərinə yaxun buraxmırdı". Dünyada baş verən münaqişələrin aradan qaldırılnasını Mürdal milli və beynəlxalq miqyaslarda iqtisadi inteqrasiyanın yollarında axtarır.

H.Mürdalın tərifinə uyğun olaraq, "iqtisadi inteqrasiya" – bu, Qərb tərəfindən bəyan edilmiş imkanların bərabərliyi kimi köhnə bir idealın həyata keçirilməsidir. Onun fikrincə, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə milli inteqrasiyanın yüksək dərəcəsinə nail olunmuşdur.Bu dövlətin iqtisadi həyata müdaxiləsi nəticəsində baş vermişdir. Lakin ümümdünya iqtisadi inteqrasiya mövcud deyil. Bundan başqa, müəllif qeyd edir ki, inkişaf etmiş ölkələrdə milli inteqrasiya "beynəlxalq dezinteqrasiyanın" güclənməsinə gətirib çıxartmışdır ki, onun da əsas ifadəsi sənaye cəhətdən inkişaf etmiş ölkələrlə zəif inkişaf etmiş ölkələr arasında iqtisadi qeyri-bərabərliyin artmasındadır.

Mürdalın qənaətinə görə, beynəlxalq iqtisadi inteqrasiyanın baş verməsi onun zəruriliyi dərk olunsa və əgər "beynəlxalq həmrəyliyin bazisi" yaradılsa mümkün olacaq. Müəllif

hesab edir ki, beynəlxalq iqtisadi münasibətlər siyasət vasitəsi ilə tənzimlənə bilər və tənzlimlənmələdir də. Şuürlu və anlayışlı tənzimlənmə olmadan dünya iqtisadiyyatının qeyri-mütəşəkkil və kortəbii inkişafı dezinteqrasiyanın gələcək dərinləşdirilməsinə qaçılmaz surətdə səbəb olacaq və hətta dünya miqyaslı münaqişənin baş verməsinə gətirib çıxara bilər.

Mürdalın beynəlxalq iqtisadi inteqrasiyanın konsepsiyası kumulyativ səbəbiyyət əlaqəsinin təhlili üzərində qurulur. Onun əsasında "sosial sistemdə bütün faktorların belə bir qarşılıqlı asılılığın mövcud olması dayanır ki, bu zaman hər hansı bir faktorda dəyişikliyin baş verməsi digər faktorlarda da dəyişikliklərə gətirib çıxaracaq… Qarşılıqlı təsir prosesləri sayəsində… bütün sistem ilkin dəyişikliyə istiqamətlənən hərəkəti üçün impuls alır, lakin həmin bu hərəkət ilkin dəyişiklikdən əhəmiyyətli dərəcədə daha uzağa təsadüf edir".Müvafiq qüvvələrin sistemi hərəkətsizlik vəziyyətinə qaçılmaz olaraq qaytardığını ehtimal edən tarazlıq nəzəriyyəsinin əksinə olaraq, kumulyativ inkişafın prinsipi belə prosesləri ön plana irəli çəkir ki, onlar bir dəfə başlanmaqla sonrakı inkişaf üçün lazımi şəraitlər yaradır.

Həmin prinsipi Mürdal tərəfindən Asiyanın zəif inkişaf etmiş ölkələrin probleminin tədqiq edilməsi zamanı istifadə olunmuşdur. Bu elmi işin nəticələri Mürdalın böyük şöhrət qazanmış **"Asiya dramı: Xalqların yoxsulluğunun tədqiq olunması" kitabında ifadə edilmişdir.** Burada həmin region ölkələrinin geridə qalması, həyat səviyyəsinin aşağı olması, kifayət qədər tərəqqinin olmaması səbəblərinin sosioloji konsepsiyası irəli sürülmüşdür.

Bu konsepsiyaya uyğun olaraq, sözügedən ölkələrin bütün bəlaları, mahiyyət etibarı ilə, orada hökmranlıq edən köhnəlmiş institutların və əqidələrin mövcud olması ilə şərtləndirilib, onlar sosial, iqtisadi və mənəvi həyatın bütöv sisteminə nüfuz etmişdilər. Mürdal təsərrüfatın modernləşdirilməsi prosesində xalqların ictimai həyatında "avtomatik dəyişik-

liklər” prinsipini bəyan edən çoxsaylı “iqtisadi artım” nəzəriyyələrini tənqid edir. “Asiya dramı” kitabı müəllifinin nəzərnöqtəsinə görə Cənubi Asiya əhalisinin bütün təbəqələri üçün elementar əmək intizamının, səliqəliyin və dəqiqliyin riayət olunmasına dair məsuliyyət hissinin olmaması səciyyəvidir. Mövhumat hələ də kifayət qədər güclüdür, yeniliklərə lazımi reaksiya göstərilmir və uyğunlaşması olduqca aşağı səviyyədədir. Eksperiment aparmaq, şöhrətpərəstlik, təşəbbüskarlıq və işgüzarlıq meyilləri inkişaf etməyib. Əhalinin psixologiyasında hakimiyyət qarşısında itaətkarlıq üstünlük təşkil edir, kollektiv şəkildə fəaliyyət göstərməsinə əhalinin qabiliyyəti aşağıdır. Bütün bunlar texniki-iqtisadi yeniləşməni və təkmilləşməni iflic vəziyyətinə salır, onun səmərəliliyini azaldır və beləliklə də, qabaqcıl və geridə qalmış ölkələrin səviyyələri arasında mövcud olan uyğunsuzluğun daha da böyüməsinə gətirib çıxardır.

Myurdal hesab edir ki, uğurlu texniki və iqtisadi inkişaf üçün geridə qalmış sosial və siyasi institutlarda köklü dəyişikliklərin baş verməsi həlledici əhəmiyyətə malikdir. Yalnız texniki-iqtisadi modernizasiyasının həyata keçirilməsi ilə parallel olaraq xalqın psixologiyasında hökmranlıq edən köhnəlmiş əqidələrin aradan qaldırılması istiqamətində tədbirlərin aparılması vasitəsilə tərəqqiyə və inkişafa nail olmaq mümkündür. O, sübut etməyə çalışırdı ki, əhalinin artımına, becərilməsi üçün yararlı torpaq sahələrinin bölüşdürülməsinə, eləcə də təhsil və səhiyyə sferasında nəzarətin tətbiq edilməsi sahəsində yalnız dərin islahatların həyata keçirilməsi Cənub-Şərqi Asiya ölkələrinin sürətli iqtisadi inkişafını və regionun kəskin sosial problemlərinin həll olunmasını şərtləndirə bilər.

Bu prosesdə iştirak etmək nöqteyi-nəzərdən siyasi institutların rolunu qiymətləndirərək, müəllif belə bir nəticəyə gəlir ki, bu region ölkələrinin “həlim hökumətləri” onun tərəfindən “yoxsulluğun kumulyativ qüvvələri” adlandırdığı qüvvələrin öhdəsindən gəlmək üçün həddindən artıq zəifdirlər.

Beləliklə, geniş faktiki material əsasında Mürdal yeni, özü söylədiyi kimi, inkişafın "sınaq nəzəriyyəsinin" prinsiplərini ifadə etməyə və hərtərəfli tərəqqiyə keçmək yolu ilə geriliyin aradan qaldırılmasını təmin edən faktorların nisbətini müəyyənləşdirməyə çalışır. Mürdal tərəfindən əldə olunmuş nəticələr və dəyərləndirmələr onu "gümrah pessimist" adlandırmağa əsas verib. Burada, onun ideyalarında XIX əsrin ənənəvi liberalizm və sosial nəzəriyyədə alimin müasir inkişafın olduqca pessimist dəyərləndirmələri ilə müqayisə olunması nəzərdə tutulur. Həmçinin, bütöv sosioloji-institusional istiqamət üçün səciyyəvi olan iqtisadiyyat üzərində şüurlu "sosial nəzarət" ideyası yalnız milli deyil, həm də planetar, ölkələrarası səviyyəyə də köçürüldü.

Nəticə

Müstəqil cərəyan kimi institusionalizm Amerika Birləşmiş Ştatlarında XX əsrin əvvəllərində yaranmışdır. Dövlət tərəfindən iqtisadiyyat üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı ideyanı irəli sürənlərdən və nəzəri planda keynsçiliyin sonradan yayılması üçün müəyyən platformanı hazırlayanlardan ən birinciləri institusionistlər olmuşdur.

İnstitusionalizmin ən mühüm və əhəmiyyətli təyinedici əlaməti bazarın neoklassik konsepsiyasına qarşı olan tənqidi münasibətdən ibarətdir. İnstitusionistlər neoklassik məktəbi bir neçə məsələlərə görə tənqid edirlər. Birincisi, iqtisadi mexanizmin fəaliyyət göstərməsində sosioloji, siyasi, sosial-psixoloji faktorların rolunu nəzərə almayan başlanğıc metodologiyasının məhdudluğuna görə. İkincisi, real iqtisadiyyatın ən mühüm struktur və institusional xüsusiyyətlərə əhəmiyyət verilmədiyinə görə. Üçüncüsü, neoklassik nəzəriyyənin ideoloji baxımından qabaqcadan yanlış qənaətə (fikrə) əsaslandığına görə. İnstitusionistlər abstrakt fərdin (individuumun) davranış tərzini əsas kimi götürən neoklassik məktəbi təmsil

edən iqtisadçıların metodoloji individualizmə, eləcə də bazar strukturunun atomistikliyi haqqında ilkin mühakiməsinə və iqtisadi tənzimlənmənin butövlukdə əhatə edən təkmil rəqabət mexanizminə qarşı çıxırdılar. Bununla əlaqədar olaraq, onlar verilmiş məhdudiyyətlər zamanı rasional iqtisadi subyekt tərəfindən maksimallaşdırılan determinist (bütün hadisələrin qanunauyğunluğu və səbəbiyyət əlaqəsindən asılı olduğu haqqında nəzəriyyə) məqsədli funksiya haqda ideyanı tənqid edirdilər.

İnstituonistlər ictimai ziddiyyətlərə əhəmiyyətli dərəcədə fikir verirdilər. İqtisadçı-sosioloqları kimi, institusionistləri də iqtisadi hakimiyyət problemləri müxtəlif aspektlərdə cəlb edirdi: mənbələr, formalar, miqyaslar, həyata keçirmə üsulları, nəticələr, məhdudiyyət metodları; həm mikrosəviyyədə, həm də ümumilikdə iqtisadi sistem daxilində hakimiyyət, iqtisadi və siyasi hakimiyyətin bağlılığı. İqtisadi tədqiqatlar orbitinə (diqqət mərkəzinə) iqtisadiyyatın inkişafına dövlət siyasətinin təsir göstərməsi ilə əlaqədar olan məsələlər, iqtisadi sferada baş verən maraqlar münaqişələri düşmüşdür.

T.Veblenin əsas elmi işlərində industrial (sənaye) konsepsiyaların köklərinə rahat bir şəkildə baxılır; ancaq XX əsrin 50-60-cı illərində bu konsepsiyalar əvvəlki tənqidi səslənməni itirmiş oldular; bir çox institusionalistlərdə bu, böyük biznesin nəzəri reabilitasiyasında özünü büruzə vermişdir, çünki məhz elmi-texniki tərəqqinin baş verməsini onunla əlaqələndirirdilər.

Müasir institusionalizmin lideri amerika iqtisadçısı C.K.Helbeyt hesab olunur. Helbreytin konsepsiyasında ən əsas və başlıcası – planlaşdırıcı sistemin və onun əsas bəndinin, yəni "yetkin korporasiyanın" təhlilidir**.** Onun fikrinə görə, məhz bu sistem müasir Qərb cəmiyyətinin simasını və onun inkişafının yeni tendensiyalarını müəyyən edir.

Helbreytə görə, iri korporasiyanın əsasını "qabaqcıl texnika ilə kapitalın böyük həcmdə və kütləvi istifadə edilməsinin birləşdirilməsi" təşkil edir. O, korporasiyaların inki-

şafında iki tendensiyanı qeyd edir: birinci mərhələni alim "sahibkarlıq korporasiyasının" hökmranlığı ilə əlaqələndirir ki, həmin bu korporasiya "özünün yaranma vaxtına, miqyasına və əməliyyatların sadəliyinə görə onun kapitalına nəzarət edən ayrıca şəxsə təkbaşına hakimiyyətliliyə sahib olmağa hələ də imkan verir…".

İnstitusional-sosioloji cərəyanın fransalı tərəfdarları arasında Fransua Perrunun (1903-1987) xüsusi yeri vardır.

F.Perrunun iqtisadi aləmi təsərrüfat həyatının təməlini təşkil edən prinsip qismində çıxış edən qeyri-bərabərliyə əsaslanır. Alim hesab edir ki, müasir kapitalizm cəmiyyətinin sosial-iqtisadi sistemində bərabərliyin bərqərar edilməsinə tə-kan verən heç bir daxili niyyət və meyillər mövcud deyil. Qeyri-bərabərlik istehsalın və kapitalın həcminə yaranan fərq-lərdən, partnyorların müxtəlif dərəcədə məlumatlı olmasından, habelə təsərrüfatın müxtəlif sahələrinə mənsubiyyətindən irəli gəlir.

"Üstünlük təşkil edən iqtisadiyyat" konsepsiyasına və artımın müxtəlif tərkibli olması məfhumuna əsaslanaraq, kapi-talizm şəraitində planlaşdırma təcrübəsinə dair F.Perru aşa-ğıdakı nəticələrə gəlir: birincisi, balanslaşdırılmış artımın hə-yata keçirilməsi mümkün deyil, artım siyasəti – həmişə qeyri-bərabər artımın siyasətidir və burada heç bir fərq yoxdur ki, adı çəkilən bu siyasətə şüurlu formada yaxud kortəbii olaraq və qeyri-mütəşəkkil surətdə nail olunur; ikincisi, struktur siyasət kimi həyata keçirilən artım siyasəti mövcud olan strukturlara uyğunlaşmasına deyil, arzu edilən istiqamətdə strukturların fəal şəkildə dəyişdirilməsinə istiqamətləndirilib; üçüncüsü, bir halda ki, artım qeyri-bərabərdir, struktur siyasəti, keynsçilərin tövsiyələrində olduğu kimi qlobal deyil, mütləq şəkildə məhz seçki siyasətidir**.**

F.Perru ahəngdar artım siyasətinin üç pinsipə raiyət etməsini qeyd edir. Bu prinsiplər aşağıdakılardan ibarətdir: birincisi, real ümumi məhsulun maksimizasiyası və onun tərəddüdlərinin minimizasiyası; ikincisi, iqtisadiyyatın sferaları arasında mövcud olan disproporsiyaların (nisbətsizliyin) azaldılması; üçüncüsü tarazlığın ardıcıl vəziyyətlərinin humanistləşdirilməsi, artım templərinin mövcud olan işçi qüvvəsinə, güclərə, investisiyalara, əmanətlərə uyğun olması "mahiyyət etibarilə canlı insanlara və real qruplara məxsus olan planların uyğun olmasıdır".

İnstitusionalizm yönümlü iqtisadçılar arasında İsveç məktəbinin nümayəndəsini, "pul nəzəriyyəsi və iqtisadi tərəddüdlər nəzəriyyəsi üzrə yenilikçini, elmi işlərə, habelə iqtisadi, sosial və institusional hadisələrin qarşılıqlı asılılığının dərin təhlilinə görə" iqtisadiyyat üzrə 1974-cü il Nobel mükafatının laureatını Hunnar Mürdalı xüsusi olaraq qeyd etmək lazımdır.

Hunnar Mürdal ictimai elmlərin idrakın ümumi sistemindəki yerini müəyyən etməyə çalışırdı. O, siyasi məqsədlər qeyd edilməyən rifah problemlərinə sırf iqtisadi yanaşmanı tənqid edirdi. Alimin qənaətinə görə, iqtisadçılar siyasi məslək və əqidələrini açıq şəkildə bəyan etməkdən, eləcə də onları həyata keçirdikləri tədqiqatların əsas elementinə çevrilməkdən çəkinməməlidirlər, çünki iqtisadçıları, bir qayda olaraq, yalnız elmi maraq deyil, həm də cəmiyyətin təkmilləşdirməsinə və mükəmməlləşdirməsinə olan təşəbbüslər də ilhamlandırır. Böyük iqtisadçılar siyasət sahəsində hər zaman öz məsləhət və tövsiyələrini təklif edirdilər (Maltus, Rikardo, Marks, Keyns). İsveç iqtisadçısının amerikan institusionistlərinin elmi işləri ilə tanışlığı onu daha da inandırdı ki, iqtisad elmində ictimai dəyərlər problemi böyük əhəmiyyətə malikdir. Planlaşdırma məsələlərindən əlavə, Mürdal inteqrasiya problemlərinə də böyük diqqət yetirirdi.

H.Mürdalın tərifinə uyğun olaraq, "iqtisadi inteqrasiya" – Qərb tərəfindən bəyan edilmiş imkanların bərabərliyi kimi

köhnə bir idealın həyata keçirilməsidir. Onun fikrincə, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə milli inteqrasiyanın yüksək dərəcəsinə nail olunmuşdur. Bu, dövlətin iqtisadi həyata müdaxiləsi nəticəsində baş vermişdir. Lakin ümümdünya iqtisadi inteqrasiya mövcud deyil. Bundan əlavə, müəllif qeyd edir ki, inkişaf etmiş ölkələrdə milli inteqrasiya "beynəlxalq dezinteqrasiyanın" güclənməsinə gətirib çıxartmışdır, onun da əsas ifadəsi sənaye cəhətdən inkişaf etmiş ölkələrlə zəif inkişaf etmiş ölkələr arasında iqtisadi qeyri-bərabərliyin artmasındadır.

Mürdalın beynəlxalq iqtisadi inteqrasiyanın konsepsiyası kumulyativ səbəbiyyət əlaqəsinin təhlili üzərində qurulur. Onun əsasında "sosial sistemdə bütün faktorların belə bir qarşılıqlı asılılığın mövcud olması dayanır ki, bu zaman hər hansı bir faktorda dəyişikliyin baş verməsi digər faktorlarda da dəyişikliklərə gətirib çıxaracaq…

Mürdal hesab edir ki, uğurlu texniki və iqtisadi inkişaf üçün geridə qalmış sosial və siyasi institutlarda köklü dəyişikliklərin baş verməsi həlledici əhəmiyyətə malikdir. Yalnız texniki-iqtisadi modernizasiyanın həyata keçirilməsi ilə parallel olaraq xalqın psixologiyasında hökmranlıq edən köhnəlmiş əqidələrin aradan qaldırılması istiqamətində tədbirlərin aparılması vasitəsilə tərəqqiyə və inkişafa nail olmaq mümkündür.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1. Müharibədən sonrakı institusionalizmin fərqləndirici xüsusiyyətlərini və bazarın neoklassik konsepsiyasında onun əlamətini göstərin.
2. İnstitusionalizmin metodoloji əsasının üç prinsipini qeyd edin.
3. İnstitusionalistlər nəyə diqqət yetirirdilər?
4. C.K.Helbreyt tərəfindən İkinci Dünya müharibəsi zamanı ABŞ iqtisadiyyatının tənzimlənməsi təcrübəsini nəzəri cəhətdən ümumiləşdirin.

5. İqtisadiyyatın iki sistemə bölünməsinin əsas meyarları qismində nələr çıxış edirdi?

6. C.K.Helbreytin mülahizələrinə görə texnostrukturun başlıca müsbət hədəfi nədən ibarətdir?

7. Kapitalizmin yeni sənaye cəmiyyətinə transformasiya prosesinin əsaslandırılması zamanı C.K.Helbreytə məxsus bazarın qeyri-mütəşəkkil qüvvəsinin sənaye planlaşdırılması ilə əvəz olunması ideyası nədir?

8. Hansı səbəbə görə C.K.Helbreyt dövlət tərəfindən müdaxilələrin həyata keçirilməsini amerikan kapitalizminin əsas problemlərinin həll edilməsində zərurət hesab edir?

9. C.K.Helbreyt tərəfindən təklif olunan islahatların bir neçə mərhələsini sadalayın.

10. Bazar iqtisadiyyatının planlı şəkildə tənzimlənməsi ideyası harada və nə zaman meydana gəlmişdir?

11. Peru tərəfindən təsvir edilmiş iqtisadi məkanın deformasiya nəticələri nədən ibarətdir?

12. Dominantlıq təşkil edən vahid ətrafında iqtisadi məkanın transformasiyası zamanı fəzaya daxil olan iqtisadi vahidlər arasında mövcud olan münasibətlərin forma və məzmununun dəyişilməsi nə deməkdir?

13. Fransa iqtisadçısının tezisinin mahiyyəti nədən ibarətdir?

14. Dominantlıq təşkil edən makrovahid nəyi ifadə edir?

15. "Dominantlıq təşkil edən iqtisadiyyat" konsepsiyasına söykənərək, artımın müxtəlif tərkiblilik konsepsiyasına əsaslanaraq F.Perunun əldə etdiyi nəticələr nədən ibarətdir?

16. Peru tərəfindən ahəngdar (harmonizasiyalı) artım siyasətində riayət edilməsi qeyd edilən, üç prinsipi sadalayın.

17. Böyük tənəzzülün aradan qaldırılması üçün Mürdal nələri təklif edirdi?

18. Makroiqtisadi siyasət modelinin işlənib hazırlanmasının əsas prioriteti nədən ibarətdir?

19. Mürdala görə planlaşdırılma sisteminin mahiyyəti necədir və alim “proqram” və “bəsirət” kimi kateqoriyaların mənasını necə başa düşür?

20. Planlaşdırılma məsələlərindən əlavə Mürdal nəyə böyük diqqət ayırır?

21. Mürdala görə beynəlxalq iqtisadi inteqrasiya konsepsiyası nəyə əsaslanır?

Ədəbiyyat siyahısı:

1. Leontyev V. İqtisadi esse: Nəzəriyyələr, tədqiqatlar, faktlar və siyasət: İngilis dilindən tərcümə, Moskva, 1990, s. 128.
2. Osadçaya İ.M. Konservatizm reformizmə qarşı: burjua siyasi iqtisadında iki tendensiya. Moskva, 1984, s. 34.
3. Hicks J.R. Mr. Keynes and the “Classics” a Suggested Interpretation / / Econometrica. 1937. Vol. 5. P. 147-159; hansen A.H. A Guide to Keynes. N.Y., 1953.
4. Samuelson P. İqtisadiyyat. Moskva, 1964, s. 56, 396.
5. Xudokormov A.Q. İqtisadi təlimlər tarixi.M: İNFRA-M., 2004, s. 733.
6. Meybullayev M.X. İqtisadi təlimlər tarixi. Dərslik, 2005. s. 513-516.
7. Əlləzov Q.S. İqtisad elminin nəzəri-metodoloji əsaslarının tarixi inkişafı . (monoqrafiya). Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2009, s. 313- 314.
8. Keynes and the Modern World, Cambridge, 1983, p. 37.
9. Bartenev S.A. İqtisadi təlimlər tarixi. Mockva, 2005, s. 303-305.
10. Xudokormov A.Q. Dərslik. M.: İNFRA-M., 2004, s. 733.

VI FƏSİL. MONETARİZM

6.1. Monetarist nəzəriyyə retrospektivdə
6.2. Milton Fridmen: tərcümeyi-haldan məlumatlar
6.3. Permanent gəlir nəzəriyyəsi
6.4. Nominal gəlir nəzəriyyəsi
6.5. Tsikllər, inflyasiya və işsizlik
6.6. Monetarizmin iqtisadi siyasəti

Monetarizm ötən əsrin 70-ci illərində geniş yayılmış müasir iqtisadi konservatizmin nüfuzlu cərəyanlarından birini təmsil edir.

Bu dövr ərzində neokonservatorlar bütün əsas iqtisadi problemlər üzrə (uzunmüddətli artım və kapital yıgımı, məşğulluq, inflyasiya, pullar, dövlət büdcəsi və sair) keynsçiliyin tənqid edilməsini genişləndirmişlər. Tənqidin bu dalğası üzərində az-çox neokonservatizmin **iki nəzəri məktəbi** seçilirdi – **monetarizm** və **təklif iqtisadiyyatı**.

Monetarizm, şübhəsiz ki, aparıcı rola malik idi. Monetaristlər üçün keynsçilik doktrinasının tənqidi yenidən baxılması üçün əsas çıxış nöqtəsi kimi inflyasiya problemi olmuşdur ki, bu da, öz növbəsində, pulun klassik kəmiyyət (kardinalist) nəzəriyyəsinin ideyalarının reanimasiyasına (yenidən dirçəlməsinə və canlanmasına) gətirib çıxartmışdır. XX əsrin 30-cu illərində bu nəzəriyyənin tənqid olunması C.M.Keynsə neoklassik nəzəriyyə binasının bütövlükdə dağıdılması üçün zəruri idi. Qırx il keçəndən sonra əks vəziyyət yaranmışdır: yenilənmiş kəmiyyət nəzəriyyəsini onun tərəfdarları Keynsə qarşı hücumların təşkil edilməsi üçün əməliyyat meydanı qismində istifadə edirdilər.

Pulun klasssik kəmiyyət nəzəriyyəsi ideyalarının yenidən dirçəlməsi və canlanması xüsusilə Çikaqo məktəbinin nəzəri sistemində aşkar bir şəkildə özünü büruzə vermişdir.

“Pul əhəmiyyətə malikdir” şüarı monetarizmin simvoluna, Milton Fridmen isə - onun mənəvi atasına çevrildi (1976-cı ildə Nobel mükafatı laureatı). Monerarizmin digər nüfuzlu şəxslərinə A.Melseri, K.Brunneri, D.Leydleri, M.Parkini aid etmək olar, bu alimlər M.Fridmenin baxış və nəzərlərini inkişaf və interpretasiya (izah və şərh) ediblər.

Özünün erkən işlərində M.Fridmen Çikaqo məktəbinin “şıfahi ənənələri”nə istinad edərək nəzərdə tutur ki, guya keynsçi baxışlarının hökmranlığına baxmayaraq, ötən əsrin 30-40-cı illərində Çikaqo universitetində mübadilə tənliyinin ($MV = PQ$) interpretasiyasına əsaslanan monetarist nöqteyi-nəzərlər sistemi artıq mövcud olmuşdur. Baxmayaraq ki, sonralar M.Fridmenin özü də ona məxsus baxışların dərin varisliyi haqqında yaratmış olduğu “əfsanədən” imtina etmişdir, İsrail iqtisadçısı D.Patinkin isə faktlara söykənərək bu əfsanəni ümumiyyətlə təkzib etmişdir, “Çikaqo məktəbi” termini monetarizmlə birgə səslənməyə başlamışdır.

Özünün inkişaf etməsində M.Fridmenin monetar doktrinası bir sıra mərhələlərdən keçmişdir:

1) 1950-ci illər – permanent gəlir nəzəriyyəsinin (fasiləsiz, arası kəsilmədən davam edən) işlənib hazırlanması;

2) 1960-cı illər – təsərrüfatn tsiklinin monetar nəzəriyyəsinin yaradılması;

3) 1970-ci illər – nominal gəlirin monetar konsepsiyasının ön plana çıxarılması və əsas iqtisadi parametrlərə pulların təsir göstərməsinin izah edilməsi (“ötürücü mexanizm”).

Monetarizmin əsas konseptual müddəalarının formalaşdırılması keynsçilik təhlilinin tənqidi yenidən dəyərləndirilməsi prosesi ilə eyni zamanda baş verirdi. Tənqid xətti kifayət qədər aydın, dürüst və dəqiq bir şəkildə təsvir olunur: “tələbin tənzimlənməsi” tədbirləri vasitəsilə M.Fridmen dövlət tərəfindən iqtisadiyyata müdaxilələrin həyata keçirilməsi proqramına qarşı çıxış edir (çünki belə bir proqram rəqabət vasitəsilə təbii korrektə (təshih) edilməni pozmuş olur); o, həmçinin məcmu

tələbin fəallaşdırılması vasitəsi kimi büdcə kəsiri suiyasətindən istifadə edilməsinin də tərəfdarı deyil. Bununla birgə (və M.Fridmen bunu qeyd edirdi) keynsçilik və monetarizm arasında mövcud olan ziddiyyətlər heç də hər zaman faciəli və kəskin deyil .

6.1. Monetarist nəzəriyyə retrospektivdə

Monetarist nəzəriyyəsinin səciyyəvi mahiyyəti nədən ibarətdir? İki səbəbə görə bu suala cavab vermək bir o qədər də asan məsələ deyil. Birincisi**,** monetarizm özünü hər şeydən əvvəl ümumiqtisadi nəzəriyyə kimi deyil, pul tədavülünün nəzəriyyəsi və siyasəti kimi təblig edir; o, həmçinin sosial-iqtisadi liberalizmin ideoloji doktrinası kimi də kifayət qədər geniş bir şəkildə məlumdur. Sonuncu, hətta iqtisadi fikrin məşhur amerikalı tarixçisi B.Seliqmenə müəllif olduğu kitabda Milton Fridmen haqqında fəsli **"Nəzəriyyə ideologiya kimi"** adlandırmağa əsas vermişdir. İkincisi**,** monetaristlər o nadir hallarda ki, öz nəzəriyyələrini təsərrüfat sisteminin bir modeli kimi təqdim etməyə çalışırlar, onlar opponentləri kimi, tarixi "ümumiliyə" dair eyni dərəcədə qeyri-adekvat iddia və tələblərlə çıxış edirlər. Həmin bu ambisiyalar, bizim qənaətimizə görə, müasir monetarizmin elmi məğzinə və mahiyyətinə ziddir və onun ümumi nəzəriyyənin dərk olunmasını çətinləşdirir (doğrudur, istər marksizm, keynsçilik, institusionalizm, yaxud hər hansı başqa birmənalı, lakin hədsiz dərəcədə ambisiyalı (təkəbbürlü) nəzəriyyələrin də dərk edilməsini mürəkkəbləşdirir).

Bir halda ki, müasir monetarizm keynsçiliyə qarşı birbaşa reaksiya olaraq əmələ gəlib, monetaristlərin gözünə keynsçiliyin necə görünməsi məsələsindən başlamaq daha məqsədəuyğun olardı. Bu zaman biz ilk növbədə adı çəkilən cərəyanın, şübhəsiz lideri hesab olunan Milton Fridmenin 1989-cu ildə ensiklopedik nəşrində dərc olunmuş **"Pulun kəmiyyət nəzəriyyəsi**" adlı məqaləsindən istifadə edəcəyik.

Fridmenin mülahizələrinə görə, Keynsin nəzəriyyəsi üç bir-biri ilə bağlı "fərziyyələr" üzərində qurulur.

Birinci bundan ibarətdir ki, natamam məşğulluq şəraitində üstünlük təşkil edən pula olan tələb ("likvidliyin üstün tutması funksiyası") son dərəcə qeyri-sabitdir, çünki pulun tədavül sürəti və gəlirlərə pul ehtiyatının nisbəti nominal gəlirlərdə və pul kütləsində baş verən müstəqil dəyişikliklərə passiv şəkildə uyğunlaşır**.** Başqa sözlə ifadə etsək, Keynsin mülahizələrinə görə belə çıxır ki, pul-kredit sistemi və onunla birgə bütöv bazar mexanizmi son dərəcə qeyri-dayanıqlıdır və xarici təkanlara qarşı müqavimət göstərmək iqtidarında deyil, onlara yalnız uyğunlaşa bilər.

İkinci keynsçiliyin fərziyyəsini Fridmen aşağıdakı iddiada görür: işsizlik bazarın qüsurları (qiymətlərin və əmək-haqlarının qeyri-çevikliyi, keçid pozuntuları) ilə törədilmir, o iqtisadi sistemin dərindən kök salmış xarakteristikasıdır. Bu səbəbdən iqtisadiyyatda uzunmüddətli tarazlıq – bu, natamam məşğulluq zamanı tarazlıqdır.

Üçüncü fərziyyə: qiymətlərin və əməkhaqqının qeyri-çevikliyini qısamüddətli tərəddüdlər çərçivəsində "natamam məşğulluq zamanı tarazlıq vəziyyətinə səmərəli reaksiyanı" ifadə edən "institusional fakt" qismində nəzərdən keçirilməlidir (rəqabət, yaxud tsiklik dalğalar sistemində baş verən pozuntuların keçici nəticəsi kimi deyil). Şübhəsizdir ki, qeyri-çevik qiymətlərin və əmək haqqları sisteminin tarazlığının pozulması zamanı onun bərpasının tənzimləyicisi qismində xidmət edə bilməz – istehsalın və məşğulluğun həcmlərinin tərəddüdləri tənzimləyici rolunu oynamağa başlayır.

İndi isə nəyə görə Fridmenin bütün bu keynsçiliyin hakim fərziyyələrini yanlış hesab etdiyinə nəzər salaq. O, iki sıra dəlillər irəli sürür: metodoloji və empirik**.**

Birinci (metodoloji) belə qənaətə gəlinir ki, Keyns öz nəzəriyyəsində sərvətin deyil, gəlirin istifadə edilməsindən irəli gəlir. "Keyns pul ehtiyatına və pula olan tələb funksiyasının

sabitliyinə deyil, investisiya xərclərinə və istehlak funksiyasının sabitliyinə vurğu edir". Və daha da aşkar və qəti surətdə: "Keynsin səhvi istehlak funksiyasının qurulması zamanı sərvətin oynadığı rola əhəmiyyət verməməsindən ibarət olmuşdur".

İkinci (empirik) dəlil və arqumentlər sırası aşağıdakı kimi təsvir olunur: "Sürətli iqtisadi artıma nail olunmasında tam məşğulluğun keynsçi siyasətinə sadiq olan hökumətlərin 50-ci və 60-cı illər ərzində əldə etdikləri müvəffəqiyyət, yüksək iqtisadi sabitlik dərəcəsi, eləcə də qiymətlərin və faiz dərəcələrinin nisbətən sabit olması ilkin keynsçi postulatlara (sübutsuz olaraq əsas götürülən müddəa, fərziyyələrə) inamı, müəyyən müddətə də olsa, kəskin surətdə gücləndirdi. Qeyd edək ki, həmin postulatlara uyğun olaraq, pulların nominal miqdarında baş verən dəyişikliklər ciddi əhəmiyyətə malik deyil. Ötən əsrin 70-ci illəri sözügedən postulatlara həlledici zərbə endirilmişdir və kəmiyyət nəzəriyyəsinə inamın dirçəlməsinə gətirib çıxartmışdır. Pul kütləsinin sürətli artımı təkcə inflyasiyanın sürətləndirilməsi ilə deyil, həmçinin işsizliyin orta səviyyələrinin azaldılması ilə deyil, yüksəlməsi ilə, habelə faiz dərəcələrinin aşağı düşməsi ilə deyil, artması ilə müşayiət olunmuşdur".

Burada Fridmen iqtisad elmində kifayət qədər geniş yayılmış, demək olar ki, standart inkar etmə üsulundan istifadə edir: əgər, 1970-ci illərdən başlayaraq, real inkişaf keynsçilik nəzəriyyəsi ilə ziddiyyət təşkil etməyə başlayıbsa, bu onu sübut edir ki, sonuncu (keynsçi nəzəriyyə) ilkin olaraq yanlış olmuşdur. Bu cür yanaşna predmetin oyrənilməsində zaman və məkanda sabitliklə fərqlənən fundamental təbiət elmlərinə xas olan meyarların iqtisadi nəzəriyyəyə dair mexaniki şəkildə tətbiq edilməsi deməkdir.

Keynsçi nəzəriyyənin nə dərəcədə real olduğunu yoxlamaq məqsədilə fərqli yanaşmaya ehtiyac duyulur. Nəzəri "skelet" (gövdə) əsasında ona uyğun olan əzələ toxumasını və

damarları bərpa etmək, daha sonra isə əldə olunmuş nəticəni keynsçiliyin işlənib hazırlanması və yayılması dövründə real fəaliyyət göstərən təsərrüfat sistemi ilə müqayisə etmək lazımdır. Bu antropoloq tərəfindən həll edilməli olan məsələni xatırladır. Sanki antropoloq çoxdan ölmüş insanın kəllə sümüyünə əsasən onun üzünü bərpa etməyə çalışır və daha sonra əldə edilmiş nəticəni həmin insanın sağ ikən çəkilmiş portretilə müqayisə etmək istəyir.

İndi isə Fridmenin qeyd etdiyi keynsçi nəzəriyyənin üç "fərziyyəsinə" müraciət edək.

Birincisi, pula olan tələbin qeyri-sabitliyi və onun sərvətdən deyil, minimal gəlirdən asılı olması. Həmin bu tezis tələb edir ki, əhalinin pul gəlirləri qeyri-dayanıqlı olsun, orta statistik fərdin (individuumun) "sərvəti" isə onun cari gəliri ilə müqayisədə əhəmiyyətli kəmiyyət təşkil etməsin.

İkincisi, uzunmüddətli bazar tarazlığının xüsusi xarakterini qabaqcadan müəyyən etmiş və dərin kök salmış natamam məşğulluq yalnız, bir tərəfdən, investisiya imkanlarının xroniki məhdudluğu, digər tərəfdən isə əhalinin əldə etdiyi gəlirlərin bir hissəsini toxunulmaz saxlamaqla toplamağa meyil etməsi zamanı yarana bilər.

Üçüncüsü, qiymətlər və əməkhaqqı sisteminin qısamüddətli planda "sərtliyi"ni, firmaların və həmkarlar ittifaqlarının inhisarçılığın, eləcə də dövlət tənzimlənməsinin təzahürü kimi dəyərləndirmək olar.

İndi isə 1930-cu illərdə iqtisadçılara yaxşı tanış olan Qərbin inkişaf etmiş ölkələrinin təsərrüfatının "portretini" təsəvvür edək. Texniki tərəqqi, xammal bazası, əhali sakinliyi hərəkətinin (народонаселения) göstəriciləri sferalarında staqnasiya (tənəzzül) hökm sürür. Məhsullara və resurslara inhisarların və inhisarçı qiymətlərin üstünlük təşkil etməsi. "Hamının hamıya qarşı" proteksionizmi və ticarət müharibəsi. İstehsal güclərinin kütləvi yarımçıq yüklənməsi, gəlirlərin və tədiyyə qabiliyyətli tələbin son dərəcə qeyri-dayanıqlı olması, bank-

ların qeyri-etibarlılığı, əhali və biznesmenlər arasında açıq-aşkar "likvidliyə üstünlük verilməsi".

Sadaladığımız bu bir neçə məqamlar kifayət edir ki, biz aşağıdakı suala cavab verə bilək: 1930-cu illərin təsərrüfat sisteminin modelini mümkün qədər daha dəqiqliklə hazırlamağa imkan verə biləcək nəzəriyyə hansıdır – artan bazarın özünütənzimlənmə xüsusiyyətlərinə söykənən neoklassik nəzəriyyə, yaxud spesifik depressiv (tənəzzül səciyyəvi) bazar tarazlığının ekzogen determinantlarının rolunu qeyd edən keynsçi nəzəriyyə?

Nəzəriyydə ən başlıca amillərdən Milton Fridmen onun (nəzəriyyənin) uzunmüddətli proqnostik (proqnoz qoyma üsulları, proqnoz vermə imkanları) funksiyasını hesab edir və bu meyarla əlaqədar olaraq onun postulatlarının düzgünlüyünü qiymətləndirməyə təklif edir. Amma keynsçi nəzəriyyə proqnoz məsələlərini həll etmək məqsədini qarşısına qoymurdu, onun məqsədi təsərrüfat sisteminin xroniki depressiya (tənəzzül) vəziyyətindən çıxarılmasına dair həyata keçirilə biləcək tədbirlərin işlənib hazırlanmasından ibarət olmuşdur. "Uzaq perspektivdə biz hamımız öləcəyik", - deyə bu cür tənqidə Keyns cavab verirdi. Ötən əsrin 30-cu və 40-cı illərində, nə zaman kapitalizmin taleyi barədə məsələlər həll olunurdu, monetarizm Milton Fridmen kimi istedadlı nümayəndələrinin olmadığına görə deyil, onun (monetarizmin) yararlı olmadığına və hətta kifayət qədər təhlükəli olduğuna görə adı çəkilən bu cərəyan heç bir nüfuza malik deyildi.

Əsas və başlıca məsələ adekvat aydınlaşdırılmadan hələ çox-çox uzaqdı: 1930-cu illərin qeyri-dayanıqlı tənəzzül-tarazlı təsərrüfat sistemi 1960-cı illərin dayanıqlı dinamik-tarazlı sistemə necə transformasiyaya uğramışdır (yaxud transformasiya edilmişdir, bu isə eyni anlama gələn məsələlər deyil)? Yalnız bir şey aydındır ki, bu - bir-birindən keyfiyyət baxımından olduqca fərqli olan iki təsərrüfat sistemləridir və onlar müxtəlif "məqsədli funksiyalara" və tənzimlənmə

müxanizmlərə malikdir: birinci xüsusi (şəxsi)-inhisar gəlirinin maksimallaşdırılmasına istiqamətlənib, ikinci isə - "ümumi rifahın" (daha dəqiq desək - əhalinin böyük əksəriyyətinin rifahının) maksimumuna yönəlib.

Keynsçilik, bu transformasiyaya şübhəsiz töfhələr vermişdir və bununla əlaqədar hər şeydən əvvəl büdcə xərclərinin hesabına səmərəli tələbin qorunub saxlanılmasının lehinə olan arqumentasiya (sübut və dəlil gətirmə) xüsusilə qeyd edilməlidir. Ancaq bu dəyişikliklərin yalnız bir zəruri ilkin şərti olmuşdur. İkinci Dünya müharibəsinin olduqca dərin və köklü sarsıntıların baş verməsi, imperiyaların süqutu və soyuq müharibənin sərt təzyiqi, habelə 1950-ci illərin sonlarından genişlənməyə başlamış elmi-texniki inqilab tələb olunmuşdur ki, institusional struktur, təsərrüfat sisteminin bu "kristal barmaqlığı" köklü surətdə dəyişsin və qrafit almaza çevrilsin.

Təəssüf ediləcək fakt bundan ibarətdir ki, həm keynsçilər, həm də monetaristlər (hətta marksistlər belə) baş vermiş bu daxili dəyişikliyi nəzərdən qaçırıblar, çünki onu görmək istəmirdilər. Bundan əlavə, prinsip etibarı ilə onlar bunu edə bilməzdilər, çünki nəzəriyyələrdən hər biri özünün mövcud olmasının mahiyyətini bunda görürdü ki, ümumi adlandırıla bilsin, yəni ən azı, Yeni və Ən yeni tarixin bütün dövrlərini əhatə etsin.

Fridmen keynsçiliyin uduzduğunu bununla izah edir ki, XX əsrin 70-ci illərində staqflyasiya keynsçi siyasətin tutarsızlığını və əsassızlığını üzə çıxartmışdır. Bu bir çox cəhətdən doğru, lakin səthi bir izah idi. Həmin dövr ərzində təkcə keynsçi makroiqtisadi tənzimlənmənin deyil, həmçinin ötən əsrin 30-60-cı illər ərzində yaranmış bir çox digər sosial-iqtisadi institutların qeyri-səmərililiyi aşkar edilmişdir. Dayanıqsız tənəzzül-tarazlı təsərrüfatının dayanıqlı dinamik-tarazlı təsərrüfata transformasiya şəraitində zəruri olan bu institutların beləcə olması keçidin yekunlaşması ilə eyni vaxtda başa çatmışdır. Bundan əlavə, köhnə institusional cığır boyunca

hərəkətetmə staqflyasiya spiralının (buruğunun) yaranmasına səbəb olmuşdur, ancaq bu səbəb yeganə deyildi.

Bazar mexanizminin yenidən dərk olunmasına, yaranmış institutların mühüm və əhəmiyyətli hissəsinin nümayiş etdirilməsinin tələbinə, eləcə də prinsipial cəhətdən fərqli bir şəkildə həyata keçirilə biləcək makroiqtisadi siyasətin təkliflərinə malik olan müasir monetarizm keynsçilik üzərində məhz belə şəraitdə qələbə qazanmağa nail olmuşdur.

Əgər monetarizmin sosial fəlsəfəsi və praktik tövsiyələri kifayət gədər geniş yayılaraq bir çoxlarına məlumdursa, bu cərəyanın iqtisadi nəzəriyyəsi haqqında bunu söyləmək qətiyyən olmaz. Adətən hesab olunur ki, sanki bu, ənənəvi neoklassik nəzəriyyədir, baxmayaraq ki, əslində vəziyyət heç də belə deyil. Hətta pulun və dövlətin iqtisadiyyatda oynadıqları rolu barədə monetaristlərin baxışları haqqında kifayət qədər çoxlu və həvəslə bəhs edildiyi ciddi tədris vəsaitləri belə ümumiqtisadi nəzəriyyə ilə əlaqədar sadəcə olaraq bir neçə ümumi ifadələrlə kifayətlənməli olurlar.

Ənənəvi neoklassik nəzəriyyəsinin diqqət mərkəzində istehsal faktorları (əmək, kapital və torpaq), habelə gəlirlərin bölgüsü və yekunda tələbin formalaşdırılmasının izahının təməli kimi onların son həddi məhsuldarlığı dayanırdı. İstehlak funksiyası istehsal funksiyası ilə qarşılıqlı şəkildə sıx əlaqədə olmuşdur.

Müasir monetarizmin şərhində neoklassik nəzəriyyə tamamilə yeni bir hal almağa başlayır. Təhlilin mərkəzinə istehsal faktorları deyil, sərvət – bir tərəfdən, müxtəlif gəlirlərin (pul və qeyri-pul gəlirlərinin) mənbəyi kimi, digər tərəfdən isə - onun saxlanılması və təkrar istehsalı üzrə yaranan xərclərin səbəbi kimi.

Sərvətin beş əsas formasına Milton Fridmen pulları (M1 aqreqatı), istiqraz vərəqələrini, səhmləri, fiziki nemətləri, eləcə də insan kapitalını aid edir. Sərvətin bu formaların hər biri həm pul, həm də qeyri-pul formasında gəlir gətirmək iqtidarındadır.

Məsələn, pulun müddətsiz depozitlər üzrə faiz şəklində gəlir gətirmək xüsusiyyətindən başqa, həm də rahatlıq, etibarlılıq, təminat və bu kimi digər xüsusiyyətləri də vardır.

Bəs gəlir və sərvət arasında səbəbiyyət əlaqəsi nədən ibarətdir? Biz güman edirik ki, Fridmen bu suala birmənalı şəkildə cavab vermir: "Sərvət "gəlirin", yaxud istehlak nemətlərinin bütün mənbələrini ehtiva edir. Bu mənbələrdən biri insan varlığının özünün istehsal qabiliyyətidir. Bu nöqteyi-nəzərdən, uçot dərəcəsinin özü ehtiyat kimi çıxış edən sərvət və axın qismində çıxış edən gəlir arasında nisbəti ifadə edir. Bu cür ümumi yanaşma zamanı bizim ölçməyə adət etdiyimiz adi məna və əhəmiyyət gəlirə şamil oluna bilməz". **Beləliklə, bir tərəfdən, gəlir sərvətin funksiyasıdır, digər tərəfdən isə - sərvəti kapitallaşdırılmış gəlir kimi dəyərləndirmək lazımdır.**

Burada qeyd etmək yerinə düşərdi ki, görkəmli iqtisadçılar əsas və başlıca suallara birmənalı cavab verməyi xoşlamırlar, onların bu xüsusiyyəti tez-tez hallarda sənət həmkarlarını qıcıqlandırır. *Məşhur* Blauq gileylənir: "Ümumi nəzəriyyə" (Keynsin nəzəriyyəsi nəzərdə tutulur – müəllif) Rikardonun "Başlanğıc", ya da Marksın "Kapital" və yaxud Bem-Baverkin "Pozitiv nəzəriyyə" əsərləri kimi sadəcə olaraq daranmamış bir kitabdır ki, onun tərkibinə müasir iqtisadiyyatın fəaliyyət göstərməsinin bir, yaxud iki deyil, üç və ya dörd "modeli" daxildir". Çox güman ki, eyni sözləri Milton Fridmenə də aid etmək olar. Məsələ burasındadır ki, bu alimi ziddiyyətlərdə və tavtologiyada (eyni fikrin və ya sözlərin başqa-başqa şəkillərdə lüzumsuz yerə təkrar edilməsi, mübtədası ilə xəbəri eyni olan mühakimə) yaxalamaqdansa, onu dərk etməyə çalışmaq daha faydalı olardı. Xüsusən ona görə ki, digər görkəmli iqtisadçılarda olduğu kimi, bu alimin elmi əsərlərində də **"müasir iqtisadiyyatın fəaliyyət göstərməsinin modeli"** aydın və dürüst bir şəkildə özünü büruzə verir və sözügedən bu modeli Fridmen əsas və başlıca model hesab edir.

Beləliklə, modelin müəyyənləşdirici əsası qismində gəlirlər axınlarının mənbəyi kimi xidmət edən "ilkin mülkiyyətçilərin" (yəni əhalinin) sərvəti və firmaların sərvəti qismində çıxış edir**.**

Qeyd edək ki, modelin əsasında təsərrüfatın səmərəliliyinin dayanıqlığı haqqında və, xüsusən də, "nəzəriyyədə sabit və stasionar hesab edilən, yəni son dərəcə uzun müddət ərzində qorunub saxlanıla bilən resurslar istehlakının səviyyəsinə dair" bir sıra ehtimallar dayanır.

Bu model çərçivəsində hər bir mülkiyyətçinin həll etdiyi başlıca problem ona (mülkiyyətçiyə) məxsus sərvətin strukturunun optimallaşdırılmasıdır (mümkün qədər əlverişli və münasib vəziyyətə gətirilməsi) ki, bunun məqsədi əldə etdiyi gəlirlərin məcmu faydalılığının maksimallaşdırılmasından ibarətdir. Bununla, həmçinin sərvətin özünün də faydalılığı maksimallaşdırılır. "Sərvətin bir formasının əvəzinə digər bir formaya malik olmaq gəlirlərin axınında dəyişikliklərin baş verməsi anlamına gəlir, məhz bu fərqlər də sərvətin hər bir formasının ayrı-ayrılıqda "faydalılığın"ın mahiyyətini təşkil edir".

İndi isə biz müasir monetarizmin əsas və hakim tezisinə yaxınlaşırıq. Əgər pullar həm əhali üçün, həm də firma üçün – sərvətin gəlir gətirən bir formasıdırsa, onda pula olan tələb onların son hədd gəlirliliyin sərvətin digər formalarının son hədd gəlirliliyi ilə müqayisə edilməsində müəyyənləşdirilir.

Sərvətin strukturu isə inersiyalıdır və pullar burada dayanıqlı yer tuturlar. Nəticə etibarı ilə pula olan məcmu tələb dayanıqlı kəmiyyət olmalıdır, o, yalnız ümumi milli məhsulun və milli sərvətin uzunmüddətli dəyişiklik tempinə proporsional bir şəkildə dəyişə bilər.

Müasir monetarizmin bu nəticəsi həm ənənəvi neoklassik, həm də keynsçi yanaşmadan fərqlənir, baxmayaraq ki, onların üçü də "pulun kəmiyyət (kordinalist) nəzəriyyəsi"nin tərəfdarlarına mənsubdurlar. Məsələ burasındadır ki, ikincisi, (ənənəvi neoklassik yanaşma**)** pulları ilk növbədə

tədavül vasitəsi kimi dəyərləndirirdi, üçüncüsü (keynsçi yanaşma) isə "likvidliyə üstünlük verilməsini" pul ehtiyatının sığorta və möhtəkir funksiyaları ilə izah edirdi. Bu istiqamətdə onların hamısı "kassa qalıqları" konsepsiyasını işləyib hazırlayırdılar, lakin buna baxmayaraq, pulun gəlir gətirən sərvətin bərabərhüquqlu forması kimi dərk edilməsindən kifayət qədər uzaq olublar.

Burada söhbət pulun təkcə bərabər hüquqlu olmasından getmir. Sərvətin bir forması olaraq, pullar eyni zamanda qiymətlərin bütöv mexanizminin hakim alətidir və bu alətin vasitəsilə bütün bazar iqtisadiyyatı fəaliyyət göstərir. Əgər pullara olan tələb bu ana (hər bir anda) dayanıqlıdırsa, - bu ödənişqabiliyyətli tələbin və bütövlükdə bazar sisteminin dayanıqlığının əsas təminatıdır.

Bununla monetarizm keynsçiliyin **birinci əsas tezisini** – "bazar mexanizminin "anadangəlmə" qeyri-dayanıqlığı haqqında tezisi **təkzib edir".**

Keynsçiliyin digər əsas mərkəzi tezisi – resursların natamam məşğulluq səviyyəsində tarazlığın təyin edilməsinə dair bazar təsərrüfatının "anadangəlmə" meyilliyi haqqında olan tezisdir. **Monetarizm nöqteyi-nəzərdən, istənilən hər hansı resurslar sərvətin forması kimi qarşılıqlı surətdə əvəz olunandır və əgər onlardan bir qismi müvəqqəti olaraq artıqlıq təşkil edirsə, bu zaman onlar daha kiçik gəlir gətirməyə başlayacaqlar; əhali və firmalar öz sərvətinin strukturunu dəyişməyə çalışacaqlar və tarazlıq bərpa ediləcəkdir. Millətin sərvəti isə ümumilikdə artıqlıq təşkil edə bilməz.**

Ancaq əgər natamam məşğulluq zamanı permanent (daimi, fasiləsiz, arası kəsilmədən davam edən) tarazlıq kimi vəziyyətin prinsip etibarı ilə mövcud olması mümkün deyil, onda həmin bu vəziyyətə qiymətlərin və əməkhaqlarının sərt təsbit edilməsi şəklində reaksiya haqqında keynsçiliyin əldə etdiyi nəticə də mənasını itirmiş olacaq; məsələ burasındadır

ki, nəzəriyyədə həm qiymətlərin, həm də əməkhaqqlarının çevikliyinə əsaslanmaq lazımdır.

Bununla əlaqədar, monetarizmin bütün nəzəriyyəsini ifadə etməyə ehtiyac yoxdur – biz sadəcə olaraq onun bəzi ilkin müddəaları ilə kifayətlənəcəyik. Bizim qənaətimizə görə, yuxarıda keynsçi nəzəriyyə ilə bağlı qoyduğumuz bir sualı ifadə etmək üçün onlar kifayət edəcəkdir: **müasir monetarizm hansı təsərrüfat sistemini modelləşdirir?**

Çox güman ki, söhbət belə bir miodeldən gedir ki, o, ən azı üç əsas şərtə cavab verir.

Birincisi, bir halda ki, monetarizm istər pulu, istiqraz vərəqini, səhmi, fiziki nemətləri, istərsə də insan kapitalı kimi ilkin təsərrüfat subyektlərinə məxsus sərvətin strukturunun optimallaşdırılması istiqamətində həyata keçirilən fəaliyyəti ön plana çəkir, zəruridir ki, qeyd edilmiş subyektlərdən hamısı, yaxud onların böyük əksəriyyəti sərvətin müxtəlif formaları arasında azad və sərbəst seçim imkanına malik olsunlar. Əgər subyekt yalnız kiçik insan kapitalına malikdirsə və həmin bu kapitaldan əldə edilən gəlir tamamilə cari istehlaka sərf edilirsə, onda bu subyektin belə bir seçimi yoxdur. Sərvət formaları arasında sərbəst seçim imkanı olmadığı yerdə isə Milton Fridmen də özünün nəzəriyyəçi hüququnu itirir.

İkincisi, monetarist nəzəriyyə elə bir ümumi şərtləri nəzərdə tutur ki, bu zaman milli sərvət dayanıqlı məcmu gəlir gətirmək iqtidarındadır. Bu, xüsusən, gəlirli investisiya yatırımına, insan kapitalının məhsuldarlığının qorunub-saxlanılmasına, təbii resursların əlçatan olmasına – bir sözlə, təsərrüfat sisteminin səmərəli fəaliyyətinin "xarici" şərtlərinin olmasına geniş imkanlarını özündə ehtiva edir. Məhz bu şərtlərin mövcud olmasına Keyns olduqca şübhə ilə yanaşırdı.

Ən nəhayət, qiymətlərin və əməkhaqlarının çevikliyi barədə monetaristlərin postulatı əmtəə, resurslar və ümumiyyətlə sərvətə daxil edilən bütün nemətlər bazarlarında azad

rəqabətin üstünlük təşkil etməsini və hökmranlığını nəzərdə tutur.

İndi isə real iqtisadi tarixdə belə bir təsərrüfat sistemini tapmağa cəhd edək ki, həmin bu sistem yuxarıda sadalanan bütün tələblərə cavab versin.

Nə qədər gözlənilməz səslənsə də, dəyərləndirilən nəzəriyyə əhalinin əksər kütləsi sərvətin xırda mülkiyyətçisi olduğu, rəqabətin azad, təbii resurslara çatmaq və onları əldə etmək imkanı isə kifayət qədər geniş olduğu zamanlarda Qərbi Avropada və Amerika Birləşmiş Ştatlarında mövcud olmuş erkən kapitalizmin şərtlərini kifayət qədər yaxşı modelləşdirir. Daha sonra əmlak differensiasiyası (təbəqələşməsi) və əldə olunan gəlirlərdə fərqlər kəskin surətdə dərinləşib və **Smit-Rikardo-Marks** klassik sxemləri ilə olduqca yaxşı təsvir olunan bir sistem ərsəyə gəlmişdir**.** XIX əsrin sonlarına XX əsrin əvvəllərinə Qərbi Avropada və Amerika Birləşmiş Ştatlarında sosial-iqtisadi antaqonizmlər (barışmaz ziddiyyətlər) əhəmiyyətli dərəcədə aradan qaldırıldı, amma əmlak diferensiasiyası olduğu kimi qalmışdır; bu şəraitdə daha adekvat neoklassik modellər olmuşdur, təsərrüfatçı subyektlərin davranışının izah edilməsi üçün istifadə olunan müasir monetarizmin postulatları isə (keynsçiliyin postulatları da olduğu kimi) yalnız olduqca məhdud çərçivədə tətbiq edilə bilərdi (əgər onlar o vaxtlarda mövcud olsaydı).

Buna baxmayaraq, tam dəqiq və aşkar surətdə demək olar ki, müasir monetarizmə məxsus postulatlarından heç biri 1930-cu illərdə yaranmış real təsərrüfat sisteminin (yuxarıda təsvir edilmiş) xüsusiyyətlərinə cavab vermir. Bəs bu faktı (monetaristlər üçün son dərəcə xoşagəlməz kimi görünən) Milton Fridmen necə izah edir? Nə qədər paradoksal olsa da, monetarizmin tənqidi pafosu (coşğunluq, ruh yüksəkliyi, vəcd, həyəcan, təmtəraq) və sonuncunun praktiki tövsiyələri məhz onun üzərində əsaslanır.

Arqumentasiya (əsaslandırılma) təqribən belə görülür: əgər real sistemin zahiri görünüşü monetarist modelinin parametrlərinə uyğun gəlmirsə, bu o deməkdir ki, qeyd edilmiş zahiri görünüş dövlət tərəfindən həyata keçirilən səriştəsiz iqtisadi siyasət vasitəsilə eybəcər hala salınıb.

XX əsrin 30-cu illərində mərkəzi banklar pul restriksiyası siyasətini, yəni ümumi milli gəlirə nisbətən pul kütləsinin "sıxılması"nı həyata keçirirdilər və bunun nəticəsi ödəniş qabiliyyətli tələbin, qiymətlərin və xroniki tənəzzülün azaldılması olmuşdur.

1950-1960-cı illərdə isə əksinə, hökumətlər və mərkəzi banklar keynsçi tövsiyələri əsasında fəaliyyət göstərərək pulun hədsiz dərəcədə böyük təklifini yaratmış oldular. Permanent inflyasiya konyunkturanı süni surətdə "tələsdirirdi", istehlakın hipertrofiyasına (həddən artıq böyüməsinə) səbəb olmuşdur, rəqabəti və təsərrüfatın səmərəliliyini pozmuşdur. Nəticədə, 1970-ci illərdə staqflyasiya baş vermişdir.

Müharibədən əvvəlki və sonrakı təcrübənin belə bir interpretasiyası ilə müasir monetarizm özünün əsas və mərkəzi nəticəsini möhkəmlətmişdir: əgər pullara bazar iqtisadiyyatının baza şərtləri ilə müəyyən edilən tələb sabit kəmiyyətdirsə, onda pulların təklifi indiyə qədər siyasi psixologiyadan və digər bazardan kənar səbəblərdən asılı olmuşdur. Əgər, pulun təklifi ciddi elmi qaydaya tabe deyilsə, iqtisadiyyatda pulun gah kəsiri, gah da artıqlığı mövcud olacaqdır; bu isə o deməkdir ki, dövlətin və mərkəzi bankların günahı ucbatından gah xroniki depressiyanın, gah da staqflyasiyanın təhlükəsi yaranmaqda davam edəcəkdir.

Bütün bunlardan qurtulmaq və bazara təbii olaraq fəaliyyət göstərməyə imkan vermək məqsədilə pul təklifinin illik artımı pulun özünə olan ortaillik uzunmüddətli tələbin artımına uyğun gəlməlidir**. Başqa sözlə ifadə etsək, M1 pul aqreqatının yol verilən artım tempi bu ildə real ümumi daxili məhsulun uzunmüddətli ortaillik artım tempinə uyğun**

gəlməli, habelə konyunkturanın tsiklik tərəddüdlərindən asılı olmamalıdır.

Sonuuncu nəticə ümumilikdə özünün təsir qüvvəsini 1970-ci illərdə, xüsusilə də 1980-ci illərdə sübuta yetirmişdir. Amma iqtisad elmi ümumilikdə hələ də belə bir vəziyyətdədir ki, o, hər şeyi əhatə etmək iqtidarında deyil və düzgün nəticələr bir çox hallarda sübut olunmamış mühakimələr əsasında əldə olunur (bu isə, qeyd edək ki, düzgün əsaslar üzərində yanlış nəticələri əldə etmək kimi bir o qədər də təhlükəli deyil).

Monetaristlərlə birgə ehtimal etmək olar ki, guya 1930-cu illərdə aparıcı mərkəzi banklar əlbir olaraq səriştəsiz olmağa razılaşıblar ki, bu da tənəzzül proseslərini daha da şiddətləndirmişdir. Lakin inanmaq çətindir ki, belə səriştəsizlik xroniki ola bilərmiş və bunun nəticəsində investisiya imkanlarının məhdudluğunun, inhisarçılığın, gəlirlərin aşağı səviyyədə olmasının və onların qeyri-dayanıqlığının, habelə o dövrə aid təsərrüfatın digər fundamental xüsusiyyətlərinin əmələ gəlməsi mümkündür.

Eyni ilə ehtimal etmək olar ki, pul ekspansiyasının müharibədən sonrakı onilliklər ərzində həyata keçirilən keynsçi siyasət monetaristlər tərəfindən qeyd edilmiş mənfi prosesləri stimullaşdırırdı. Ancaq kim sübut etməyə qadirdir ki, belə bir siyasət olmasaydı 1950-1960-cı illərdə baş vermiş bu misli görünməmiş iqtisadi artım ümumiyyətlə mümkün ola bilərdi?

Bu artım kapitalizmin sistem transformasiyasının təməli və nəticəsi olmuşdur ki, bu prosesin yekununda sonuncu (kapitalizm) ötən əsrin 60-cı illərinin sonlarına artıq prinsipial cəhətdən tam fərqli zahiri görünüş almışdır.

Birincisi, yüksək məşğulluq və gəlirin yüksək artımı, eləcə də həmin gəlirlər daxilində əməyin xüsusi çəkisinin artımı nəticəsində milli sərvətin yenidən bölgüsi baş vermişdir. Onun əsas hissəsi (daşınmaz əmlak, uzunmüddətli istifadə üçün nəzərdə tutulmuş məhsullar, qiymətli kağızlar, banklara qoyulan əmanətlər, xüsusən də - insan kapitalı şəklində)

“orta sinfi” təşkil edən əhalinin əksər hissəsinin mülkiyyətində cəmləşmişdir. “Üçdə ikinin iqtisadiyyatı” kimi səciyyəvi ad almış sistem formalaşmışdır. Həmin sistem daxilində “ilkin mülkiyyətçilərin” böyük əksəriyyəti ümumiyyətlə malik olduqları sərvətin strukturunun optimallaşdırılması, o cümlədən onun pul komponentlərinin müəyyən olunması zamanı azad seçimin real imkanını əldə etmişdir.

İkincisi**,** bu dövrdə (keynsçilərin bütün bədbin proqnozlarına baxmayaraq) başlanmış və genişlənməkdə olan elmi-texniki inqilab demoqrafik partlayışla və yekun tələbin genişlənməsi ilə qarşılıqlı əlaqədə olmaqla səmərəli investisiya qoyuluşların həyata keçirilməsi üçün praktiki cəhətdən qeyri-məhdud imkanlar yaratmışdır. Bununla da bazar sisteminin fəaliyyət göstərməsi üçün ən ağır ekzogen məhdudiyyət aradan qaldırılmışdır.

Üçüncüsü, sanki Simurq quşu kimi (əfsanəvi quş – Feniks, daim təzələnmək simvolu kimi işlənir) azad rəqabət yenidən canlanmağa başladı. Bu ona görə baş vermişdir ki, infrasistemlərin inkişafı xırda və orta istehsalı səmərəli etmişdir, təmərküzləşmə prosesinə əks olan bir prosesə dair tendensiyaların əmələ gəlməsinə səbəb olmuşdur. Adı çəkilən bu tendensiya müharibədən sonrakı dövrdə baş vermiş elmi-texniki tərəqqinin “səpələnmiş” xarakteri, habelə bir çox bazarlarda iri müəssisələri dərhal rəqabətə qoşmuş onların (müəssisələrin) diversifikasiyası ilə daha da güclənmişdir. Əhalinin gəlirlərinin artımı tələbin artmaqda olan diversifikasiyanın və bazarların inkişafının qarşılıqlı tendensiyasını törətmiş oldu. Açıq milli bazarların qarşılıqlı nəzarət və beynəlxalq inteqrasiyanın həvəsləndirilməsinin ardıcıl, habelə uzlaşdırılmış və əlaqələndirilmiş siyasəti kumulyativ (toplanma) effektə malik idi.

Azad bazar rəqabətinin bərpa olunması məhsullara və resurslara olan qiymətlərə zəruri çevikliyi, qiymət mexanizminə isə - iqtisadi tarazlığın avtomatik tənzimləyici rolunu qaytarmış oldu**.**

Xüsusi bacarıq tələb olunmur ki, biz aşağıdakı suala cavab verə bilək: yuxarıda qısaca olaraq təsvir etdiyimiz təsərrüfat sistemi hansı nəzəri modelə daha sıx bir şəkildə uyğun gəlir? Əlbəttə ki, söhbət monetarist modelindən gedir.

Ancaq burada kiçik bir təfərrüat mövcuddur ki, onu keynsçi qaliblərin təntənəsini korlayan qatran acısı adlandırmaq olardı. Dinamik-tarazlı sistem əsasən monetarizmin nüfuz əldə etdiyi və siyasi iqtisadiyyata təsir göstərməyə başladığı vaxtdan təqribən on il əvvəl mahiyyət etibarı ilə dinamik-tarazlı sistem kimi təşəkkül tapmışdır. Paradoks bundan ibarətdir ki, heç də monetarist deyil, məhz keynsçi siyasət sözügedən bu sistemin əmələ gəlməsinə səbəb olmuşdur.

Artıq XX əsrin 70-ci illərindən başlayaraq yeni sistem intensiv dövlət himayəsi və tənzimlənməsi çərçivəsində özünü çox "darısqal" bir şəraitdə hiss etməyə başladı. Əhalinin əksər hissəsinin əldə etdiyi yüksək və dayanıqlı gəlirləri səmərəli tələbin büdcə hesabına doldurulmasını artıq gərəksiz etmişdir və həyata keçirilən sosial yönümlü proqramlara tələbi kəskin surətdə azaltmışdır. Dövlətin güclü dəstəyi ilə yaradılmış infrasistemlər və restruktur sənaye daha sonra bazar əsasında müstəqil bir şəkildə fəaliyyət göstərmək iqtidarında oldu. Beləliklə, yüksək vergilərin tətbiq edilməsinə, qiymətlərin və xarici ticarətin sərt tənzimlənməsinə, eləcə də bir "nöqtəyə" yönəldilmiş dövlət investisiyalarının həyata keçirilməsinə zərurət öz mənasını itirmiş oldu. Əksinə, dövlət tərəfindən bu və ya digər "fəallıqların" göstərilməsi artıq formalaşmış bazarın özünütənzimlənmə sisteminin səmərəli fəaliyyətinə maneçilik törətməyə başlayırdı.

Məhz bu cür vəziyyət 1970-ci illərin əvvəllərində yaranmışdır, hələ də dövlət tərəfindən sərt bir şəkildə tənzimlənən bazar sistemi enerji və bir sıra digər struktur böhranların baş verməsinə çevik formada uyğunlaşa bilmədi və bunun nəticəsində xroniki staqflyasiya vəziyyətinə düşmüşdür.

Bu cür tam olaraq hazırlanmış zəmində 1970-ci illərdən başlayaraq yeni monetarizmin kiçik, lakin olduqca fəal bir qrup nəzəriyyəçiləri tərəfindən ilkin olaraq uğursuz əkdikləri toxumlar cücərməyə başladı. Onların tənzimlənmədən uzaqlaşmaq resepturası ötən əsrin 70-ci illərinin axırlarından 80-ci illərin əvvəllərindən bütün dünyada hamının yaxşı tanıdığı **"neokonservativ"** cərəyanlarının iqtisadi proqramlarında həyata keçirilmişdir. Bu proqramlardan ilk növbədə Böyük Britaniyada tətbiq edilmiş "**tetçerizm"** və Amerika Birləşmiş Ştatlarında istifadə olunmuş "**reyqanomika"** qeyd edilməlidir.

6.2. Milton Fridmen: tərcümeyi-haldan məlumatlar

Amerika iqtisadçısı M.Fridmen 1912-ci ildə Bruklində Nyu-Yorkun yoxsul məhəlləsində Rumıniyadan mühacir olan yahudi emiqrantların ailəsində anadan olmuşdur.

Hələ məktəb illərində Fridmenin riyaziyyata olan böyük həvəsi və istedadı hiss olunurdu. 1928-ci ildə o, Rutcer kollecinə (Rutger College) daxil olmuşdur ki, özünü sığorta aktuarisi peşəsinə hazırlaşdırsın. Kolleci bitirdikdən sonra Fridmen iki ixtisas üzrə bakalavr dərəcəsini almışdır – iqtisadiyyat və riyaziyyat. Onda iqtisadi nəzəriyyəyə marağı kollecin müəllimləri A.F.Berns – Amerika Birləşmiş Ştatlarının Federal ehtiyatlar sisteminin gələcək direktoru, eləcə də daha sonra Sent-Luis şəhərində federal ehtiyatlar bankının kommersiya direktoru olmuş H.Cons oyatmış oldular. H.Consun tövsiyələrinə görə M.Fridmenə Çikaqo universitetinin iqtisadiyyat fakültəsi adından təqaüd təklif olunmuşdur. Eyni zamanda ona Broun universiteti (Brown-University) adından tətbiqi riyaziyyat üzrə də təqaüd təklif edilirdi. Ciddi tərəddüdlərdən sonra Fridmen Çikaqoya üstünlük verdi və bu

vaxtdan başlayaraq iqtisadi nəzəriyyə sahəsindəki məşğələlərə özünü bütövlükdə həsr etmişdir.

O illər ərzində Çikaqoda F.H.Nayt, C.Vinner, H.Şults və H.Saymons dərs deyirdilər, onlar Fridmenin iqtisadçı kimi formalaşmasına böyük təsir göstərmiş oldular və onun elmi maraq sferasını əhəmiyyətli dərəcədə müəyyənləşdiriblər.

Çikaqo univesritetində Fridmen RouzDirektorla tanışlığı baş verdi. Xanım Rouz 1938-ci ildə onun həyat yoldaşı olmuş və 50 il ərzində Fridmenin peşəkar məşğələlərində onun daimi köməkçisi və bir neçə elmi işlərin həmmüəllifi olmuşdur.

1933-cü ildə magistr dərəcəsini alaraq, Fridmen bir il ərzində Kolumbiya universitetində təcrübə keçmişdir. Burada o, H.Hottelingin və U.K.Mitçellin təsiri alında riyazi iqtisadiyyata, eləcə də institusional və empirik yanaşmalara müraciət etmişdir. Onlar sırf iqtisadi nəzəriyəyə xüsusi diqqət yönəltdiyi "Çikaqo" ənənəsindən əhəmiyyətli dərəcədə fərqlənirdi.

1937-ci ildə Fridmen Nyu-Yorkda yerləşən Milli iqtisadi tədqiqatlar bürosuna işə daxil oluşdur. Burada o, gələcək Nobel mükafatı laureatı S.Kuznetsin rəhbərliyi altında gəlirin strukturunun tədqiqatı üzərində çalışırdı. Bu elmi əmək fəaliyyətinin nəticələri "Müstəqil peşə fəaliyyətindən gəlirlər" adlı onların birgə elmi işində öz əksini tapmışdır ki, adı çəkilən bu iş sonralar Fridmənin dissertasiyası üçün əsas götürülmüşdür və ona görə 1946-cı ildə o, Kolumbiya universitetində iqtisadiyyat üzrə doktor dərəcəsinə layiq görülmüşdür.

İkinci Dünya müharibəsi zamanı M.Fridmen Maliyyə nazirliyində iqtisadçı qismində işləyirdi və müharibə dövründə vergi siyasətinin əsasının yaradılmasında iştirak edirdi. Müharibədən sonra isə o, ilk olaraq Minnesot universitetində dərs deyirdi, daha sonra isə 1946-cı ildə Çikaqoya qayıdaraq artıq 1977-ci ildə özünün rəsmi olaraq istefaya getməsinə qədər doğma universitetini tərk etməmişdi.

1950-ci illərdə Amerika Birləşmiş Ştatları hökumətinin konsultantı (öz ixtisasına aid məsləhətlər verən mütəxəssis)

kimi M.Fridmen müharibənin dağıtdığı Qərbi Avropa iqtisadiyyatının bərpasını nəzərdə tutan Marşall planının həyata keçirilməsində iştirak edirdi. O, Bretton-Vuds sisteminin yenidən nəzərdən keçirilməsinin və üzən valyuta məzənnələrinin tətbiq edilməsinin fəal tərəfdaşı kimi ilk çıxış edənlərdən biri olmuşdur.

1960-cı illərdə M.Fridmen Milli iqtisadi tədqiqatlar bürosu üçün ticarət dövrlərində pulun rolunu tədqiq edən qrupa rəbərlik edirdi. Demək olar ki, təqribən 25 il ərzində həyata keçirilmiş intensiv əmək fəaliyyəti pul tədavülünün tarixi və nəzəriyyəsi üzrə bir sıra fundamental elmi işlərdə təcəssüm etmişdir: "Birləşmiş Ştatların monetar tarixi, 1867-1960-cı illər" (1963-cü il), (A.Monetary History of the United States, 1867-1960"), bu elmi əsər Fridmen tərəfindən iqtisadi tarix sahəsində mütəxəssis olan Anna C.Şvartsla birgə həmmüəllifliyi ilə ərsəyə gəlmişdir. Adı çəlkilən bu elmi işin davamı olaraq "Amerika Birləşmiş Ştatlarının monetar statistikası" (1970-ci il) ("Monetari Statistics of the United States") elmi əsəri və, ən nəhayət, "Amerika Birləşmiş Ştatlarında və Birləşmiş Krallıqda pul kütləsinin trendləri: Onların gəlirə, qiymətlərə və faiz dərəcələrinə olan münasibəti, 1867-1975" (1982-ci il) ("Monetary Trends in the United States and United Kingdom: Their Relation to Income, Prices, and Interest Rates, 1867-1975") elmi işi olmuşdur.

1960-cı illərdə M.Fridmen fəal şəkildə ictimai arenada irəli çıxır. 1964-cü ildə o, ultrokonservativ qubernator B.Holduorterin, 1968-ci ildə - R.Niksonun və 1980-ci ildə - R.Reyqanın iqtisadiyyat üzrə müşaviri olmuşdur. 1981-ci ildə Fridmen müstəqil ekspertlərdən ibarət olan İqtisadi siyasət üzrə prezident şurasının üzvü olur.Alim İsrail, Çili və bir sıra digər ölkələrdə liberalist iqtisadi islahatların işlənib hazırlanmasında iştirak edirdi.

1967-1970-ci illərdə M.Fridmen Amerika İqtisadi Assosiasiyasının prezidenti kimi şərəfli vəzifəni tutmuşdur.

“Monetar siyasətin rolu” (“The Role of Monetary Policy”) (1968-ci il) məruzəsi həmin bu vəzifəyə gələrkən Fridmen tərəfindən səsləndirilib və onun ən məşhur elmi işlərindən birinə çevrilmişdir. 1969-cu ildə M.Fridmen “Pulların optimal miqdarı və digər oçerklər) (“The Optimum Quantity of Money and Other Essays”) adlı məcmuəni dərc etdirmişdir ki, burada Fridmen tərəfindən təqribən iki onillik ərzində yazılmış pul nəzəriyyəsinə dair ən vacib və mühüm elmi işləri yer almışdır.

M.Fridmen tərəfindən monetarist doktrinasının əsaslarının işlənib hazırlanması keynsçilik düşərgəsinə daxil olan nümayəndələrlə fəal polemikanın getməsi ilə müşayiət olunurdu. “Pul tədavülü sürətinin nisbi sabitliyi və Amerika Birləşmiş Ştalarında investisiya multiplikatoru, (1897-1958-ci illər) (1963-cü il) (“The Relative Stability of Money Velosity and the Investment Multiplier in the United States, 1897-1958”) adlı M.Fridmenin və D.Meyselmenin müəllifi olduqları səs salmış elmi məqalənin peyda olması 1960-1970-ci illərdə monetar-fiskal siyasət məsələlərinə dair mübahisələrin başlamasına səbəb olmuşdur.

1976-cı ilin oktyabr ayında Fridmen iqtisadiyyat üzrə “İstehlakın təhlili, pul tədavülünün tarixi, eləcə də monetar nəzəriyyənin işlənib hazırlanması sayəsində əldə olunmuş nailiyyətlərə, eləcə də sabitləşdirmə siyasətinin mürəkkəbliyinin nümayiş etdirilməsinə görə” Alfred Nobelin Mükafatına layiq görülmüşdür.

Liberalizmin və F. fon Hayekin ideyalarının tərəfdarı olan M.Fridmen 1970-ci illərdə “Mon-Pelerin” adlı cəmiyyətin prezidenti olmuşdur, adı çəkilən bu cəmiyyət azad bazar prinsiplərinin yayılmasını özünə məqsəd etmişdir.

M.Frdmenə geniş ictimaiyyət arasında dünya şöhrəti və populyarlığın qazanmasına onun “Kapitalizm və azadlıq” (1962-ci il) (“Capitalism and Freedom”) adlı kitabın yarımmilyon tirajla işıq üzü görməsi olmuşdur ki, həmin bu kitabı alim həyat yoldaı R.D.Fridmenlə birgə yazmışdır.

M.Fridmenin liberal ideyaları R.D.Fridmenlə birgə ərsəyə gətirilmiş "Seçim azadlığı" ("Free to Choose", 1980) və "Status-kvo tiraniyası" ("Tyranny of the Status Quo", 1884). "Seçim azadlığı" adı isə M.Fridmen tərəfindən televiziya vasitəsilə sosial və iqtisadi məsələlərə dair aparılan söhbətlərin məşhur başlığına çevrildi. Bu alimin ideyaları onun 1966-cı ildən 1984-cü ilə qədər "Həftə xəbərləri" ("Newsweek") jurnalının "İqtisadçı sütunu"nda mütəmadi dərc etdiyi məqalələr sayəsində geniş populyarlıq qazanmışdır.

Fridmen 30-dan artıq kitabın, 350-dən çox məqalələrin müəllifidir.

Çikaqo universitetindən gedəndən sonra M.Fridmen San-Fransiskoya köçmüşdür. Nobel mükafatından əlavə, o, 1951-ci ildə Amerika İqtisadi Assosiasiyasının Con Beyts Klark medalı ilə təltif edilmiş, bir çox Amerika və xarici universitetlərin və kolleclərin fəxri elmi dərəcələrinə layiq görülmüşdür.

6.3. Permanent gəlir nəzəriyyəsi

XX əsrin 40-50-ci illərin Amerika iqtisadi ədəbiyyatı üçün istehlak davranışı və istehlak funksiyasının problemlərinə dair elmi diskussiyalar səciyyəvi xarakter daşıyır, çünki onlar bazarın fəaliyyət göstərməsinin dərk edilməsi üçün mərkəzi əhəmiyyətə malik olmuşdur. Məlumdur ki**, C.M.Keyns** istehlak və gəlirin qarşılıqlı bağlılığını əsaslı surətdə tədqiq edərək, müəllif olduğu, **"Ümumi nəzəriyyə"də "istehlak funksiyası məfhumunu qısaca və dürüst şəkildə ifadə etmişdir**. Baxmayaraq ki, alim az sevindirici nəticələrə gəlmişdir – gəlirlərin artması ilə əmanətlərin payı yüksəlir, istehlak payı isə azalmağa başlayır (bu isə səmərəli tələbin defisiti (kəsir) təhlükəsini yaradır), onun tərəfdarları hesab edirdilər ki, yaşanmış Böyük depressiyadan sonra başqa cürə heç ola da bilməz. Bununla yanaşı, müharibədən sonrakı dövr ərzində

təcrübə bir sıra sualların əmələ gəlməsinə səbəb olmuşdur ki, onlara da C.M.Keynsin gəlir nəzəriyyəsi çərçivəsində cavab tapılmırdı. Məsələn, cari gəlirdən əlavə hansı faktorlar tək-tək istehlakçının davranış tərzini müəyyən edir, həyata keçirilən təhlildə hansı gəliri əsas və hakim etmək lazımdır – cari, yaxud da permanent, nisbi yaxud mütləq; istehlakın dəyişməsi gəlirin dəyişməsinə nisbətən proporsional (mütənasib) hesab olunurmu və sair?

Elmi fərziyyənin əhəmiyyətinin qiymətləndirilməsinə dair metodoloji yanaşma dəyişib. M.Fridmenin yanaşması qeyri-adi görünürdü və heç də hamı tərəfindən anlaşılmayıb. Özünün bütün elmi işlərində Fridmen pozitimizmin (təcrübəyə əsaslanma, faktlara əsaslanma, reallıq) iki postulatına əməl edirdi: sübut edilmiş və inandırılmış. Permanent gəlir nəzəriyyəsi üçün bu aşağıdakılarda ifadə olunurdu: "birincisi, gəlirin dəyişməsinə görə istehlak davranışı xarakteristikasında baş vermiş dəyişikliyin kəmiyyət miqdarı ilə ölçülməsi, ikincisi, konsepsiyanın və empirik məlumatların uyğunlaşmasında".

C.M.Keynsin gəlir nəzəriyyəsinin empirik tədqiqatları həyata keçirilmişdir, onların nəticələri praktiki cəhətdən bütün pozisiyalar üzrə "Ümumi nəzəriyyə" müəllifinin gəldiyi nəticələrlə ziddiyyət təşkil edirdi. Fridmen bir sıra tədqiqatların əhəmiyyətini qeyd edir, belə ki, 1942-ci ildə S.Kuznets Amerika Birləşmiş Ştatları üçün 1869-1929-cu illəri əhatə edən dövr üçün müvəqqəti sıralarının məlumatlarına əsasən belə nəticəyə gəlib ki, gəlirin əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, istehlaka olan orta meyil azalmırdı, sabit olaraq qalmaqda davam edirdi. Gəlirdə əmanətlərin payı həmin bu dövr ərzində sabit olmuşdur. 1955-ci ildə digər tədqiqatçı R.Holdsmit eyni nəticəyə artıq büdcə məlumatları əsasında gəlmişdir.

Bundan əlavə, Fridmen istehlakçı davranışı konsepsiyasını da göstərir: Bred və Roza Fridmenın nisbi gəlir nəzəriyyəsini (istehlak mütləq gəlirdən deyil, onun bölgüsündən

və istehlakçınn sosial sıralanmasındakı yerindən asılıdır), eləcə də ona bənzər Dyüzenberinin konsepsiyasını, bu alim əvvəlki gəlir faktorlarının cari istehlaka olan təsirini və "rəqabət, yaxud təqlid etmə effektini" təhlil daxil etmişdir. Modilyani sonuncu konsepsiyanı geniş empirik tədqiqatları ilə təsdiqləmişdir; Tobin, Haberler və Piqu istehlakı yalnız gəlirin funksiyası kimi deyil, həm də kapitalın yıgım funksiyası kimi nəzərdən keçirirdilər.

1957-ci ildə M.Frimenin "İstehlak funkiyasının nəzəriyyəsi" adlı elmi işdə tamamlanmış şəkildə permanent gəlir konsepsiyası meydana çıxmışdır. Adı çəkilən bu konsepsiyanın əsası onun "Müstəqil peşəkar fəaliyyətdən gəlir" dissertasiyasında qoyulmuşdur.

Tədqiqatçılar hesab etdikləri kimi, özünün nəzəri ilkin şərtlərinə və empirik material üzərində asan yoxlanılan alqoritminə görə M.Fridmenin permanent qəlir nəzəriyyəsi bütün digər konsepsiyaları üstəlyir.

M.Fridmen üçün permanent qəlir nəzəriyyəsi monetar siyasətin işlənib hazırlanması və tsikllərin təhlili zamanı istinad nöqtəsi olmuşdur.

M.Fridmen bundan irəli gəlir ki, ölçülən gəlir **(Y)** və ölçülən istehlak **(C)** permanent və müvəqqəti komponentlərən ibarətdir:

$$Y = Y_p + Y_t\,;$$
$$C = C_p + C_t.$$

M.Fridmen permanent gəliri **(Y_p)** belə yanaşma kimi müəyyən edir ki, istehlakçı onu kifayət qədər uzun müddət ərzində əldə etməyə ümid edir. Onun qiyməti fərdin (individuumun) istehlak üfüqündən, yıgılmış kapitalın miqdarından, eləcə də yaşayış yerindən, yaşından, təhsilindən, irqindən və milliyyətindən asılıdır.

Müvəqqəti, yaxud təsadüfi (transitory) gəlir **(Y_t)** "bütün "digər" faktorların təsir göstərdiyini əks etdirir ki, hansıları ki, insan təsadüfi faktorlara aid edir, ancaq digər nöqteyi-nəzərdən

həmin bu faktorlar bəzi qüvvələrin, məsələn, işgüzar fəallığın tsiklik dəyişiklikləri kimi qüvvələrin fəaliyyət göstəməsinin nəticəsi də ola bilər". Müvəqqəti gəlir mənbəyi olduqca müxtəlif ola bilər: gözlənilməz mirasdan qumar uduşuna qədər. Bununla yanaşı M.Fridmen *müvəqqəti gəlirin əldə edilməsində gözlənilməz elementi* xüsusi olaraq qeyd edir: *məhz gəlirin bu tipi istehlakçının üzunmüddətlli davranış tərzinə ciddi təsir göstərə bilməz.*

Permanent gəlir nəzəriyyəsinin əsas və mərkəzi müddəalarından birini belə iddia təşkil edir ki, gəlirin müvəqqəti komponenti istehlaka təsir göstərmir. M.Fridmen hesab edir ki, əldə edilmiş bütün müvəqqəti gəlir əmanətlərin toplanmasına yönəlir, uzunmüddətli istehlakın səviyyəsi isə permanent gəlirlə müəyyən olunur**.**

Bir halda ki, istehlak uzunmüddətli perspektivdə gözlənilən gəlir səiyyəsinə əsaslanır, ona, həmçinin uzunmüddətli faiz dərəcəsinin səviyyəsi, kapital yigımının miqdarı, eləcə də istehlakçının zövqü kimi faktorlar təsir göstərir.

M.Fridmen permanent istehlakın miqdarını aşağıdakı üsulla ifadə etmişdir:

$$\mathbf{C_p = k\ (i,\ w,\ u)\ Y_p,}$$

Burada:

C_p – permanent istehlak;

i – uzunmüddətli faiz dərəcəsinin səviyyəsi;

w - kapital yıgımının miqdarı;

u – istehlakçının zövqləri və üstün tutmaları;

Y_p – permanent gəlirin səviyyəsi;

k – korrelyasiya əmsalı.

Belə ifadədə M.Fridmenin istehlak funksiyası iqtisadi təfəkkür (fikir) tarixinə daxil olmuş və gələcək təhlillərin həyata keçirilməsi üçün metodoloji əsas qismində xidmət göstərmişdir. Fərqsizlik əyrilərin və büdcə xəttinin instrumentarisini (alətlər komplektini) istehlakın təhlil olunması üçün istifadə etməklə M.Fridmen belə bir qənaətə gəlir ki, **istehlakın üç**

modeli mövcuddur: özünün gələcək istehlakının yenidən qiymətləndirilməsi, onun azaldılmış qiyməti və özünün gələcək istehlakına nisbətən neytrallığı. İstehlakın hər bir modelinə fərqsizlik əyrilərinin və büdcə xətlərinin özünün ahəngliyi uyğun gəlir. Belə ki, əgər istehlakçı özünün gələcək istehlakını hədsiz dərəcədə yüksək qiymətləndirirsə, onda onun hal-hazırkı istehlakı daha kiçik olacaq (yəni, o, cari istehlakda hər hansı bir paydan imtina edərək onu gələcək istehlaka əlavə etmək niyyətindədir).

Ümumilikdə, M.Fridmen hesab edir ki, insanlar gələcəklə bağlı neytraldır, yəni istehlaka olan meylləri ildən-ilə dəyişməz olaraq qalmaqda davam edir. Əgər istehlakçı istehlakını müəyyən dəyişməz bir səviyyədə saxlamağa can atırsa, onda istehlak təkcə permanent gəlirin funksiyası deyil, həm də faiz dərəcəsinin funksiyası olmağa başlayır:

$$C = f\,(Y_p, i).$$

Permanent yanaşmanın özünü isə M.Fridmen kapitalın (həm insan, həm də digər növ kapitalın) faiz dərəcəsinə vurma hasilinə bərabər kimi müəyyən edir:

$$Y_p = W \times i.$$

Sonuncu iddianı M.Fridmen İ.Fişerdən götürür: gəlir insan və fiziki kapitalın nəticəsidir. Bu nəticənin digər metodoloji əsası qismində Leon Valrasın baxışları çıxış edir. Onun nöqteyi-nəzərinə görə əmanətlər "gəlirin istehlak üzərindəki artıqlığı və əsaslı əmtəələrin qiymətdən düşməsini ödəmək məqsədilə xidmət göstərən kəmiyyət arasında müsbət sərhəd" qismində çıxış edir". Bu o deməkdir ki**,** permanent gə lir nəzəriyyəsində əmanətlər təkcə müvəqqəti gəlirindən deyil, həm də permanent gəlirin istehlak olunmamış hissəsindən ibarətdir.

M.Frdmenin əmanətlərə olan münasibəti maraq kəsb edir. Alim hesab edir ki, əmanətlərin toplanılması üçün səbəblər yalnız qeyri-müəyyənlik vəziyyətində mövcud deyil. Belə ki, tam müəyyənlik şəraitində əmanətlər iki funksiyanı

yerinə yetirir: birincisi, *onlar istehlakı daha müntəzəm etməklə gəlir axınını bərabərləşdirir;* ikincisi, *faiz gəlir şəklində mənfəət gətirir.*

İqtisadi qeyri-müəyyənlik vəziyyətində əmanətlər ehtiyat yaradır. M.Fridmen hesab edir ki, "toxunmaqla hiss olunan aktivlərə", yəni fiziki kapitala vəsaitlərin qoyuluşu insan kapitalına edilən vəsait qoyuluşları ilə müqayisədə, sonuncudan gəlirin əldə olunmasının vaxt (zaman) baxımından uzaq olduğuna görə, daha etibarlıdır.

Beləliklə, ümumi görünüşdə permanent gəlirin modeli aşağıdakı kimi ifadə olunur:

$$Y = Y_p + Y_t;$$

$$C = C_p + C_t;$$

$$C_p = k\,(i, w, u)\,Y_p.$$

Belə formada bu nəzəriyyəni praktiki olaraq heç bir dəyişiklik aparmadan empirik material üzərində olduqca asan bir şəkildə yoxlamaq mümkündür. M.Fridmen dəfələrlə qeyd edirdi ki, onun əsas və başlıca vəzifəsi məhz bundan ibarətdir.

Daha sonra M.Fridmen öz nəzəriyyəsinin empirik sübutunu təqdim edir. Ən mühüm olan isə bundan ibarətdir ki, istehlakın bu əlaqəsini cari gəlirlə deyil, permanent gəlirin kəmiyyəti ilə bağlı olduğunu burada təsdiq etmək lazımdır, beləliklə də, istehlaka və əmanətlərə olan meyillərin sabit kəmiyyətinin kifayət qədər uzun müddət ərzində saxlanılması da öz təsdiqini tapmalıdır.

Bu məqsədlə Fridmen yarım əsrə bərabr olan dövrə (1905-1951) aid olan Amerika Birləşmiş Ştatları üçün gəlirlər haqqında məlumatlardan istifadə edir. Permanent istehlak və permanent gəlir arasında mövcud olan əlaqəni dəyərləndirmək üçün alim aşağıdakı nisbətdən istifadə edir:

$$\mathbf{k = C_p / Y_p},$$

Burada, **k – korrelyasiya əmsalıdır.**

Bu göstərici nə qədər yüksək olsa, bir o qədər də bizi maraqlandıran əlaqə sıx olacaqdır. Korrelyasiya əmsalına təsir

göstərən faktorları, yəni faiz normasını, kapitalın permanent gəlirə olan nisbətini, istehlakçıların üstün tutmalarını, M.Fridmen sabit, yaxud bir-birini kompensasiya edən kəmiyyətlər qismində qəbul edir. Korrelyasiya əmsalını qiymətləndirmək məqsədilə permanent gəlirin və istehlakın nəzəri və real (statistik) qiymətlər arasında bağlılıq müəyyən edilməlidir. Permanent gəlir üçün M.Fridmen cari və əvvəlki dövrlərə aid olan gəlirlərdən ölçülmüş orta gəlirin düsturunu çıxartmışdır:

$$Y(T) = \beta \int_{-\infty}^{T} e^{(\alpha - \beta)(t - T)} \times Y(t)\, dt,$$

Burada,

α - gəlirin əsrlik artımı;

β – cari gəlirin əvvəlki gəlirdən kənarlaşma əmsalı;

T – gəlirin müəyyən edilmə vaxtı;

t - əvvəlki dövr;

1 / β – orta hesabla 2-3 ilə bərabər olan istehlak üfüqü.

1905-ci ildən etibarən 1951-ci ilə qədər əhatə etdiyi dövr üçün, müharibə illəri istisna olmaq şərti ilə, M.Fridmen **β = 0,4** və **α = 0,02** olduğu halda **0,88-ə** bərabər olan korrelyasiya əmsalını əldə etmişdir**.** Beləliklə, *təqribən əlli il ərzində permanent istehlakın permanent gəlirin səviyyəsi ilə kifayət qədər sıx əlaqə və bağlılığı müşahidə olunurdu.*

Ancaq əmsal müxtəlif peşə qrupları üçün fərqli qiymətlərə malikdir. Belə ki, *təyin edilmiş əməkhaqqı alanlar üçün*– ***k* = 0,9 – 0,95,** *sahibkarlar üçün isə* - ***k* = 0,75 - 0,8,** bu da, öz növbəsində, onların gələcək gəlirlərində qeyri-müəyyənlik faktorun təsiri haqqında və müvafiq olaraq, gəlirin müvəqqəti komponentinin təsir göstərməsini ifadə edir.

Əldə olunmuş qiymətlərə əsaslanaraq, M.Fridmen istehlakçı davranışının xüsusiyyətləri barədə aşağıdakı nəticələrə gəlir: birincisi, *permanent istehlak və permanent gəlir arasında mövcud olan əlaqənin yarıməsrlik dövr ərzində sabit qalması korrelyasiya əmsalına təsir göstərən faktorların*

qiymətlərinin dəyişməzliyini və sabitliyini göstərir; ikincisi, *əmanətlər gəlirdən artan funksiya deyil, sabit funksiyadır.* **B**eləliklə, investisiya imkanlarının məhdudluğu barədə bədbinliyi əsassız hesab etmək olar. M.Fridmen əmanətlər payının mümkün ola biləcək artımını gəlirin artımından deyil, gələcək gəlirlərin qiymətləndirilməsində mövcud olan qeyri-müəyyənliklərdən asılı olan hal kimi şərh edir, yəni söhbət müvəqqəti gəlirin əldə olunmasındakı qeyri-müəyyənliyikdən gedir. Bütün bunlardan M.Fridmen kapitalist təsərrüfatının dayanıqlığı barədə nəticə hasil edir, alimin fikrinə görə, adı çəkilən təsərrüfat səmərəli özünü tənzimlənməyə dair kifayət qədər böyük potensial imkanlara malikdir.

Cəmiyyətin sosial strukturuna dair M.Fridmenin əldə etdiyi nəticələr son dərəcə qəti və aydındır. **Alim hesab edir ki, *"kasıblar yoxsullaşır, varlılar isə dövlətlənir"*** ifadəsi doğru deyil, çünki aşağı gəlirlərə malik olan sinif – aşağı cari gəlirlərə deyil, aşağı müvəqqəti gəlirlərə malik olan sinifdir**. Fridmen deyir ki**, ***yüksək müvəqqəti gəlir təkcə müvəffəqiyyət, yaxud bəxti gətirmə ilə deyil, həm də böyük risklə, eləcə də sahibkarlıq istedadı və "pulları əldə etmək bacarığı"ndan da çox asılıdır.***

6.4. Nominal gəlir nəzəriyyəsi

İqtisadiyyatda təsərrüfat fəallığının səviyyəsini əks etdirən ÜMM (ümumi milli məhsulun**) miqdarı yekunda pul kütləsi həcminin dinamikasının ardınca müəyyən müvəqqəti laq** (fərq) **ilə hərəkət edir**. **Bu müddəa monetarizmin mühüm və əhəmiyyətli nəticəsi hesab olunur.**

Həmin iddia pulun kəmiyyət nəzəriyysinin metodologiyasına tam uyğundur. Adı çəkilən bu metodologiya*"pul – qiymətlər", yaxud "pul – gəlir" səbəbiyyət əlaqəsinin mövcud olduğunu sübut edir*. Pulun kəmiyyət nəzəriyyəsi çərçivəsində bir neçə yanaşma mövcud idi ki, sözügedən bağlılığın necə

“işlədiyini”, hansı mexanizmlər vasitəsilə pul kütləsinin səviyyəsinin qiymətlər və gəlir səviyyəsinə necə təsir etdiyini göstərmək mümkün olsun. Monetarizm ideyalarına daha da yaxını və məşhuru İrvin Fişerin transaksiya variantı olmuşdur ki, bu da öz növbəsində Fridmen tərəfindən pulun kəmiyyət nəzəriyyəsinin özünə aid variantının – nominal gəlir nəzəriyyəsinin işlənib hazırlanması üçün çıxış nöqtəsi olmuşdur.

İ.Fişer sözügedən bağlılığın mövcudluğunu aşağıda qeyd edilmiş özünün mübadilə tənliyi vasitəsilə izah edirdi:

$$\mathbf{MV = PQ,}$$

Burada:

M – pul kütləsi;

V – tədavül sürəti;

P – qiymətlərin səviyyəsi;

Q - əmtəələrın miqdarı.

Buradan belə bir nəticə hasil olur ki, tələb olunan pulun miqdarı o qədər olmalıdır ki, əmtəə mübadiləsi əməliyyatlarının bütöv həcmi həyata keçirilə bilsin.

Pul kütləsinin ***M*** qiymətlərin səviyyəsinə ***P*-yə** olan təsirinin sübut edilməsinin əsasında İ.Fişer üçün tədavül sürəti ***V***-nin, eləcə də güclərin (istehsal obyektlərin) maksimal yüklənməsinin (resursların maksimal istifadə edilməsi) ***Q***- sabitliyi haqqda fərziyyə olmuşdur.

O, hesab edirdi ki, *pulların tədavül sürətinə texniki-iqtisadi və institusional faktorlar təsir göstərir. Adı çəkilən həmin faktorlar uzunmüddətli dövr ərzində olduqca asta dəyişilən vərdişlər və ənənələrlə bağlıdır.*

Beləliklə, ***P*** qiymətlər səviyyəsinin dəyişikliyi ***M*** pul kütləsi həcminin uzunmüddətli dövrdə dəyişikliyinə birbaşa proporsional olacaqdır. Amma qısamüddətli dövr ərzində bu qanunuyğunluqlar təsir göstərməyəcək, çünki konyunkturanın kəskin tərəddüdləri ucbatından pul tədavülünün sürətini sabit kəmiyyət qismində nəzərdən keçirmək artıq mümkünsüz olacaqdır.

Beləliklə, *pul kütləsinin qiymətlərə olan təsiri nəticə etibarı ilə aşağıdakı əsas məsələnin həll edilməsinə çevrilir*: ***V*** tədavül sürətinin uzunmüddətli dövr ərzində sabit olduğunun sübut olunmasında.

Bu səbəbdən pullun kəmiyyət nəzəriyyəsi qarşısında M.Fridmen yeni vəzifə qoyur – hər şeydən əvvəl pula olan tələbin təbiətini və onu müəyyən edən faktorları tədqiq etmək, çünki məhz istehlakçılar və istehsalçılar tərəfindən pul kütləsinə olan tələb tədavüldə olan real pul kütləsinin həcmini və onun tədavül sürətini müəyyənləşdirir.

Bundan irəli gələrək, M.Fridmen həyata keçirdiyi təhlil çərçivəsində pul kütləsinin tədavül sürətinin təbiətini tədqiq edir və pul kütləsinin qiymətlər səviyyəsinə, habelə nominal gəlirə olan təsir mexanizminin nədən ibarət olduğu sualına cavab verir. *Onun apardığı təhlilin metodoloji baza qismində permanent gəlir nəzəriyyəsi və onun əsasında hasil edilən nəticələr çıxış edir.* M.Fridmen pulun kəmiyyət nəzəriyyəsinin özünə aid variantının işlənib hazırlanması prosesində pula olan tələbin təhlilindən başlayaraq (burada o, İ.Fişerin metodologiyasında və bu alimin əldə etdiyi nəticələrə əsaslanır) nominal gəlirin tamamlanmış modelinə qədər özünə məxsus təkamül yolu keçmişdir. Qeyd edək ki, pula olan tələbin təhlili M.Fridmenin aşağıdakı erkən elmi işlərində öz əksini tapmışdır: "Pulun kəmiyyət nəzəriyyəsi: Yeni dəyərləndirmə" (1956-cı il), "Pula olan tələb: Bəzi nəzəri və empirik nəticələr" (1956-cı il). Nominal gəlir nəzəriyyəsinin tamamlanmış modeli çərçivəsində isə alim "ötürücü mexanizmin" işini nümayiş etdirərək , bunları **"**Monetar təhlil üçün nəzəri çərçivələr" (1968-ci il) və "Nominal gəlirin monetarist nəzəriyyəsi" (1971-ci il) işində göstərmişdir.

Pula olan tələbi M.Fridmen digər nemətlərə olan tələbin analogiyası üzrə aşağıdakı faktorlardan asılı olan tələb kimi dəyərləndirir: məcmu kapitalın həcmi, kapital qoyuluşunun hər bir növünün gəlirliliyi, istehlakçıların zövqləri və secimləri.

Pulu tədavül və ödəniş vasitəsi hesab edən İ.Fişerdən fərqli olaraq, M.Fridmen C.M.Keynsin tərəfinə keçir və pulu əsaslı aktiv qismində nəzərdən keçirir. Kapital isə müxtəlif formalar qəbul edə bilər (məsələn, səhmlərə edilən qoyuluşlar, istiqraz vərəqələri, insan kapitalı və sair).

M.Fridmen buna əsaslanır ki, müəyyən miqdarda nağd pula ("nağd balansa") malik olan istehlakçı "aktivlər portfeli" deyilən bir prosesi formalaşdırır, yəni öz vəsaitlərini müxtəlif aktivlərə investisiya edir. Yalnız iki aktivdən – *nağd pullardan və istiqraz vərəqələrindən* (daha çox likvidliyə malik olan aktivlər kimi) *ibarət olan portfeli təhlil edən* C.M.Keynsdən *fərqli olaraq*, M.Fridmen *bura həmçini səhmləri, fiziki və insan kapitalını da daxil edir.*

Beləliklə, real pul qalıqlarına olan tələb bu aktivlərin hər birinin real gəlirliliyindən asılı olacaqdır, yəni:

$$\mathbf{M / P = f (rb, re (1 / P) x (d P / d t), w, Y / P, u),} \qquad (1)$$

Burada**:**

M – pul kütləsinin həcmi;

P – qiymətlərin səviyyəsi;

r_b - istiqrazlardan əldə olunan gəlir (return on bonds);

r_e – səhmlərdən əldə olunan gəlir (return on equities);

(1 / P) x (d P / d t) – inflyasiya səviyyəsi;

w – insan kapitalına qoyulan investisiyalar;

Y / P – pullardan əldə edilən gəlir, burada Y – gəlir səviyyəsidir;

u – zövqlər və secimlər.

Fridmen belə bir nəticəni əldə edir ki, pula olan tələb və həmin tələbi müəyyən edən dəyişənlər arasında funksional bağlılıq və əlaqə "son dərəcə sabitdir". İlk baxışdan göründüyü kimi, bu müddəa bir o qədər də açıq-aşkar deyil, çünki iqtisadi nəzəriyyədə keynsçi ideologiyasının hökmarlıq etdiyi vaxtlardan hesab edilirdi ki, pul kütləsinə olan tələb gözlənilməz və ani (qəflətən) şəkildə dəyişir, həmçinin onu müəyyən edən

faktorları qısaca və dürüst bir formada ifadə etmək mümkün deyil.

Pula olan tələbin idarə edilməsini M.Fridmen nominal (pul) gəlirin səviyyəsini ***Y*** müəyyən etmək üçün tənliyə çevirir, **yəni:**

$$Y = V\,(r_b, r_e\,(1 / P) \times (d\,P / d\,t), w, Y / P, u) \times M \qquad (2)$$

Burada**:**

Y – minimal gəlir səviyyəsi;

V – tədavül sürəti.

Bir halda ki, M.Fridmen pula olan tələbi müəyyən edən faktorların permanent gəlir və sabitliyin (yaxud kiçik dəyişikliyin) hipotezinə (fərziyyəsinə) əsaslanır, onda nominal gəlirin ***Y*** pul kütləsinə ***M*-ə** olan nisbəti zamanı, qeyd edək ki, həmin bu nisbət sabitdir, pulun tədavül sürəti ***V***-də, həmçinin sabit olacaqdır.

Uzunmüddətli dövr ərzində ***V*** pul tədavülü sürətinin azalmaya doğru tendensiyanın (yaxud onun sabitliyinin) mövcud olmasını M.Fridmen həmçinin 1870-1954-cü illəri əhatə edən dövr ərzində Amerika Birləşmiş Ştatları üçün permanent gəlir və real pul kütləsi dinamikasının korrelyasiyası əsasında sübut edir. Korrelyasiya əmsalı **0,99** təşkil edir, yəni əhalinin hər nəfərinə düşən real gəlirin **1%-ə** olan artma halının hər nəfərinə düşən pul qalıqları artımının **1,8** faizi təsadüf edir.

Bununla bərabər, əgər pulların tədavül sürəti uzunmüddətli dövrdə nisbətən dəyişməz olaraq qalırsa, onda, tənlik (2)-dən göründüyü kimi, "nominal gəlirdə baş verən dəyişikliklər pul kütləsinin həcmində baş verən dəyişiklikləri güzgüdə olduğu kimi əks etdirirlər". Lakin Fridmenin özünün yazdığı kimi, bu tənlik nominl gəlirdə baş verən dəyişikliklərin real istehsal və qiymətlər səviyyəsində necə əks olunduğu barədə heç bir şey göstərmir. İzah olmadığı üçün M.Fridmenin nominal gəlir nəzəriyyəsi "qara qutu" adlandırılmışdır ki, burada "girişdə" pul kütləsinin həcmi, "çıxışda" isə - qiymətlərin, yaxud nominal gəlirin səviyyəsi vardır. Ancaq o, pul kütləsi

həcminin dəyişikliyini qiymətlərin və gəlirin səviyyəsinə necə təsir göstərəcəyini izah etmir.

Həmin boşluğu Fridmen 1960-1970-ci illərdə müəllif olduğu elmi işlərdə doldurarak nominal gəlir nəzəriyyəsinin aşağıdakı variantını təklif edir:

$$\mathbf{M^D = P\, f\,(y, w, R^*_m, R^*_b, R^*_e, u)} \quad (1)$$

$$\mathbf{M^S = h\,(R, Y...)} \quad (2)$$

$$\mathbf{M^D = M^S} \quad (3)$$

$$\mathbf{r = k_0 + y^*.} \quad (4)$$

Birinci tənlik (1) – bu, pula olan tələb funksiyasıdır M^D, o, qiymət P səviyyəsinin və müxtəlif aktivlər çeşidindən gözlənilən məcmu gəlirliyinin qiymətinə vurma hasili şəklində təqdim olunur.

İkinci tənlik (2) – bu, M^S pulun təklifidir, o, ***R*** faiz dərəcəsi çeşidinin və ***Y***məcmu nominal gəlirin səviyyəsinin (cari qiymətlərlə ÜMM) funksiyasıdır. Nöqtələrlə iqtisadi qeyri-müəyyənliyin səviyyəsi, siyasi səciyyəvi dəyişikliklər, yəni ifadə olunması çətin olan amillər qeyd edilib.

Tənlik (3) – pul bazarında tarazlığın şərtidir (pulun tələb və təklifin bərabərliyi).

Tənlik (4) – faiz normasının tənliyidir. Bu tənlik İ.Fişerin nominal və real faiz dərəcəsi haqqında fikirlərin və C.M.Keynsin cari bazar faiz dərəcəsinin daha çox uzunmüddətli dövr üçün gözlənilən faiz dərəcəsinin səviyyəsi ilə müəyyən olunduğu ilə bağlı mülahizələrin sintezidir. Belə ki**,** **r** – bazarın faiz dərəcəsi**, k0** – gözlənilən real faiz dərəcəsi və real gəlir artımınnın gözlənilən (permanent) tempi arasındakı fərqdir; **y*** - ***Y***nominal gəlir artımının "sabit", yaxud gözlənilən tempidir.

Fridmenin modelində *pul bazarında tarazlığı pozan əsas impuls qismində əvvəlcədən qözlənilməz pul kütləsinin təklifinin artımı çıxış edir. Bunun nəticəsində təsərrüfat agentləri öz aktivlər portfellərinin strukturunu yenidən dəyərləndirirlər. Onlar bir aktivlərə olan tələbi artırır, digərlərinə isə*

olan tələbi azaldırlar, bu isə, öz növbəsində, aktivlərin bir qisminə olan qiymətlərin artımına, digər aktivlərin isə ucuzlaşmasına gətirib çıxarır .

Bu proses ssuda kapitalına olan tələbi stimullaşdırır və bunun nəticəsində faiz dərəcəsi artmağa başlayır. Lakin vaxt keçdikcə o, yenə də tarazlıq səviyyəsinə qayıdır. M.Fridmen faiz dərəcəsində baş verən dəyişikliklərə bir o qədər də önəmli rol ayırmır.

Dəyişikliklərin əsas effekti, ilk növbədə, qiymətlər sahəsində və belə bir şərtlər çərçivəsində özünü büruzə verir ki, burada istehsal, təsərrüfatda mövcud olan resursları maksimal dərəcədə istifadə edir.

M.Fridmen yazır: "Qiymətlər fiziki həcmlərdən fərqli olaraq, daha sürətlə uyğunlaşır, özü də bu proses o qədər tez baş verir ki, qiymətlərdəki təshih (korrektirovka) edilmələri ani hesab etmək olar".

Beləliklə, pul kütləsindən minimal gəlir səviyyəsinə impulsların ötürülməsi qiymətlər səviyyəsində baş verən dəyişikliklərin ifadə edilməsi vasitəsilə reallaşdırılır. İstehlakçılar tədavüldə olan pul kütləsinin və qiymətlərin dəyişmiş səviyyəsinə özlərinin "nağd balans"ının dəyişiklikləri vasitəsilə uyğunlaşır ki, onların permanent istehlakı ciddi dəyişikliklərə uğramasın. Bu nəticə permanent gəlirin və istehlakın fərziyyəsinə əsaslanır.

Baxmayaraq ki, M.Fridmen özünün də modelinə faiz norması tənliyini tətbiq edir, alim bu normanın dəyişikliklərini müvəqqəti hesab edir, çünki faiz dərəcəsi özünün ilkin tarazlıq vəziyyətinə tezliklə qayıdır. O, hesab edir ki, faiz normasının dəyişikliyi pul kütləsinin dinamikasına təsir etmir və bu səbəbdən həyata keçirilən məhz pul siyasəti uzunmüddətli dövr ərzində dövlət tərəfindən reallaşdırılan tənzimlənmənin digər formaları ilə müqayisədə şərtsiz nüfuza malikdir.

6.5. Tsikllər, inflyasiya və işsizlik

Monetarizm bazar iqtisadiyyatını özünün təməlinə görə dayanıqlı bir sistem qismində nəzərdən keçirir ki, burada böhran vəziyyətlərin mövcudluğu ekzogen faktorların qözlənilməz təsiri ilə izah edilir (mərkəzi bankların həyata keçirdiyi savadsız və səriştəsiz siyasət, pul emissiyasının artması və sair).

Tsikllər nəzəriyyəsinin monetar versiyasının işlənib hazırlanması böyük tarixə malikdir və R.Houtri, K.Viksel, F.fon Hayek və İ.Fişer kimi XIX əsrin sonlarının **XX** əsrin əvvəllərinin görkəmli iqtisadçıların adı ilə bağlıdır.

Tsikllərin problemlərinə həsr olunmuş M.Fridmenin əsas elmi əsərləri 1958-ci və 1963-cü illərdə nəşr edilmişdir. Həmin işlərdə M.Fridmen aşağıdakı kimi ifadə etdiyi suala cavab verir**:** işgüzar tsiklin(dövr) pul nəzəriyyəsi mövcud-durmu yaxud pullar ikinci dərəcəli rola malikdir? Başqa sözlə desək, pul kütləsi həcmində baş verən dəyişikliklər təsərrüfat tsiklinin yaranmasının səbəbi qismində çıxış edirmi, yaxud əksinə, digər faktorlar tsiklik hərəkətdə pulların dinamikasını əvvəlcədən müəyyən edir?

1929-1933-cü illərdə baş vermiş Böyük depressiyadan əvvəl tsikli pul fenomeni kimi, yaxud, İ.Fişerin olduqca dəqiq qeyd etdiyi kimi, "dolların rəqsi" qismində dəyərləndirilirdi**.** M.Fridmenin qənaətinə görə, bu 1920-ci illərdə Amerika Birləşmiş Ştatlarında mövcud olmuş iqtisadi sabitliklə əlaqədar idi ki, sözügedən həmin bu, sabitlik Federal ehtiyatlar sistemi tərəfindən həyata keçirilən səmərəli siyasət sayəsində əmələ gəlmişdir.

Bir halda ki, pullara olan tələb dayanıqlıdır və təsərrüfat konyunkturasında baş verən dəyişikliklərə cavab olaraq kəskin tərəddüdlərə meyilli deyil, iqtisadiyyatda mövcud olan tarazlığın pozulmasında əsas mənbələr qismində dövlət tərəfindən

həyata keçirilən antitsiklik siyasətin nəticəsində baş verən kəskin və gözlənilməz dəyişikliklər qeyd edilməlidir.

Empirik məlumatların təhlili əsasında M.Fridmen "tsiklik fenomenin" kəşf edilməsinə nail olur. Bu kəşf ondan ibarətdir ki, pul kütləsi həcmində baş verən dəyişikliklər təsərrüfat konyunkturasının analoji dəyişiklikləri orta hesabla **12-18** ay qabaqlayır. Bu onu göstərir ki, pul kütləsinin artım templərinin maksimal göstəriciləri zaman baxımından əsas tsiklik yüksəlişdən qabaqdadır, minimal göstəricilər isə - tsiklik tənəzzüldən.

Bundan irəli gələrək, M.Fridmen və A.Şvarts "Pullar və işgüzar tsikllər" (1958-ci il) birgə elmi işində tsikl çərçivəsində pullara "liderlik" funksiyasını təqdim edirlər.

"Birləşmiş Ştatların monetar tarixi, 1867-1960" (1963-cü il) adlı digər fundamental elmi işi M.Fridmen və A.Şvarts Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatında böhran hallarının, xüsusən də 1929-1933-cü illəri əhatə edən Böyük depressiyanın səbəblərinin tədqiq edilməsinə həsr etmişlər. Onun davamlı xarakterinə görə bütün məsuliyyəti onlar Federal ehtiyatlar sisteminin həyata keçirdiyi qeyri-səmərəli siyasətin üzərinə qoyurdular.

Tsikllik tərəddüdlərdə pulların hakim rola malik olduğuna əsaslanaraq, müəlliflər Böyük depressiyanın səbəblərinin və gedişatının aşağıdakı izahını verirlər.

Müəlliflərin qənaətinə görə, Federal ehtiyatlar sisteminin əsas və başlıca uğursuzluğu pul kütləsi həcmlərinin azalmasına (1932-ci ildə - 17 faiz, 1933-cü ildə isə 12 faiz) qarşı müqavimət göstərmək iqtidarında olmaması idi, bu da öz növbəsində istehsal həcminin azalmasına gətirib çıxartmışdır. Federal ehtiyatlar sistemi 1931-ci ildə uçot dərəcəsini 1,5 faizdən 3,5 faizə qədər, 1936-1937-ci illərdə isə məcburi ehtiyat saxlama normasını kommersiya bankları üçün iki dəfə artırmışdır. Qeyd edilmiş hərəkətlər pul kütləsi həcminin

azalması şəklində təxirsiz effektin əmələ gəlməsinə səbəb olmuşdur (24-34 faizə).

Bundan əlavə, bank müflisləşmələri prosesində Federal ehtiyatlar sisteminin bir o qədər də yüksək olmayan peşəkarlığı özünü büruzə vermişdir. Mahiyyət etibarı ilə o, Amerika Birləşmiş Ştatlarının ən iri banklardan birinin müflis olmasına yol vermişdir ki, həmin bankın hesabında depozitlər şəklində 200 milyon dollara yaxın vəsait olmuşdur. Bankın idarə heyətinin sədri Federal ehtiyatlar sisteminin Klirinq evinə üç maliyyə qrupları ilə birləşmək üçün zəruri olan 30 milyon dollar həcmində borcun ayrılması məqsədilə müraciət etmişdir, ona qəti şəkildə imtina ilə cavab vermişdilər. Böyük depressiya dövründə bankların tənəzzülə uğramasının və kommersiya banklardan qiymətli kağızları almağa, yaxud heç olmasa onların likvidliyinin qorunub saxlanılması məqsədilə lombard kreditləri ayırmaqdan imtina edən Federal ehtiyatlar sisteminin laqeyd davranışının tarixi Amerika Birləşmiş Ştatlarının bankirlər cəmiyyəti üçün yaxşıca dərs olmuşdur. Gələcəkdə onlar hökumətə, yaxud Federal ehtiyatlar sisteminə iri ssudaların (borcların) verilməməsinə, eləcə də yüksək etibarlı səhmlərin ("mavi fişkalar") və Amerika Birləşmiş Ştatları Xəzinədarlığının qısamüddətli möhtəkir istiqraz vərəqələrinin lehinə özlərinin aktiv portfelərinin yenidən nəzərdən keçirilməsinə dair qərar qəbul etmişlər.

M.Fridmen belə bir nəticəyə gəlir ki, qüsursuz, düzgün və mükəmməl həyata keçirilən pul siyasəti sayəsində uzunmüddətli depressiyanın, yaxud iqisadiyyatda hədsiz dərəcədə fəallığın qarşısını almaq mümkündür. Bir halda ki, təsərrüfat tsiklı obyektiv olaraq mövcuddur, Federal ehtiyatlar sistemi şəklində olan "pul avtoritetləri" pul siyasətinin həyata keçirilməsi zamanı onun inkişafını qabaqcadan görməlidirlər. İqtisadiyyatın tsiklik inkişafına pulların "maneçilik törətməməsi" məqsədilə onlar tsikllərə uyğunlaşmamalıdır, belə ki, bu proses müvəqqəti laqlar (aralıqları) ilə baş verir və bu zaman nəinki

gözlənilən nəticələr əldə olunmur, əksinə, bir çox hallarda hətta əks effekt də yaranmış olur. Bu səbəbdən də M.Fridmen "Tsiklə uyğunlaşma" siyasətindən imtina etmək təklifini irəli sürür. Bu təklifin həyata keçməsi tsikllərlə tam olaraq mübarizə aparmağa kömək etməsə də, ən azından, pul siyasəti uzunmüddətli depressiyanın, səbəbi olmayacaqdır.

Qərb iqtisadiyyatının müharibədən sonrakı dövrü üçün az qala fasiləsiz inflyasiya ilə tsiklik tərəddüdlərin dirinləşdirilməsi səciyyəvidir. İnflyasiya prosesinin səbəbləri və gedişinin öyrənilməsi M.Fridmenin diqqət mərkəzində idi. Hesab olunur ki, M.Fridmen inflyasiya probleminin tədqiq olunmasında iki mərhələ keçmişdir: birinci mərhələdə (1960-cı illərin axırlarına qədər) inflyasiyanın yaranma mexanizmi ikincə mərhələdə isə (1970-ci illərin əvvəllərində) – inflyasiya və işsizliyin bağlılığı problemi öyrənilirdi.

1960-cı illərin axırlarına qədər inflyasiya nəzəriyyəsi qismən tarazlıq nəzəriyyəsinin yalnız elementi hesab olunurdu. İnflyasiyanın səbəbi tədavüldə olan pul kütləsi həcminin gözlənilməz "sıçrayışları" hesab olunurdu. M.Fridmen özünün "Pul nəzəriyyəsində əksinqilab" elmi işində inflyasiyanı , "istehsalın artım tempini pul kütləsinin artım tempi üzərində yuksəlməsi mənasında xalis pul fenomeni" adlandırmışdır".

Monetarizmdə, inflyasiya probleminin işlənib hazırlanması illəri ərzində aksiomalara çevrilmiş nəticələr formalaşmışdır. İnflyasiyanın əmələ gəlməsinin yeganə səbəbini monetarizm real ümumi milli məhsulun artım tempi ilə müqayisədə nominal pul kütləsinin daha sürətli artım tempində görür.

Pul kütləsi həcminin dəyişikliyi real göstəricilərin (istehsalın artım templərinin, məşğulluq səviyyəsinin və sair) dinamikasına təsir göstərmək qabiliyyətindədir, amma burada söhbət yalnız qısamüddətli göstəricilərdən gedir. Bu effekt təqribən 6-8 ay davam edir, bundan sonra isə həmin göstəricilərin qiymətləri özünün ilkin tarazlıq səviyyəsinə qayıdır.

İnflyasiya mexanizmdə monetaristlər əsas və başlıca rolu təsərrüfat agentlərinin gözləntilərinə ayırırlar ki, bu da öz növbəsində əvvəlki inflyasiya təcrübsinin nəzərə alınması ilə formalaşdırılır.

Ötən əsrin 70-ci illərin əvvəlində gündəliyə staqflyasiya problemi çıxmışdır və bunun nəticəsi olaraq, - bu vəziyyətdən çıxış yollarının müəyyən edilməsi üçün müvafiq reseptlərin axtarışı zəruridir. Bu məsələ ilə bağlı monetaristlər və onların staqflyasiyanın yaranmasında əsas günahkar hesab etdikləri keynsçilər arasında aparılan diskussiyalar böyüyərək, inflyasiya və işsizliyin qarşılıqlı surətdə bir-birinə təsir göstərməsi və əlaqəsi məsələsinə dair nəzəri mübahisəyə, yaxud **"**Fillips əyrisi**"** ətrafında mübahisəyə çevrilmişdir.

Yada salaq ki, 1958-ci ildə ingilis iqtisadçısı A.Fillips **İngiltərə sənayesinə dair, demək olar ki, yüzillik bir dövrü (1861-1957-ci illər) əhatə edən vaxt ərzində toplanmış məlumatlar əsasında nominal əməkhaqqı dərəcələrinin və məşğulluq səviyyəsinin dəyişməsi arasında statistik korrelyasiyanın (müqayisə edilən anlayışların bir-birilə münasibətinin, bir-birindən asılılığın) mövcud olduğunu təyin etmişdir. O, yazırdı ki, nominal əməkhaqqının yüksək dərəcələri və işsizliyin aşağı səviyyəsi arasında, eləcə də nominal əməkhaqqının aşağı dərəcələri və işsizliyin yüksək səviyyəsi arasında açıq-aşkar əlaqə müşahidə edilir**.

Bu asılılıq "**Fillips əyrisi**" şəklində qrafik formada ifadə olunmuşdur.

Keynsçilər "Fillips əyrisi" çərçivəsində özlərinin inflyasiya nəzəriyyəsinə ciddi və əhəmiyyətli əlavəni görərək, onun instrumentarisindən yararlanmağa qərar vermişdilər. Nominal əməkhaqqı dərəcəsini qiymətin artım göstəriciləri ilə əvəz edərək, onlar eyni zamanda məşğulluğun və istehsalın yüksək səviyyəsinin "dozalara (hissələrə) bölünmüş" inflyasiya vasi-

təsilə nail olunmasına istiqamətləndirilmiş iqtisadi siyasətin əsaslandırılması üçün rahat alət əldə etmiş oldular.

Keynsçilər hesab edirdilər ki, qeyd edilmiş məqsədlər arasında "səmərəli kompromis" mövcuddur, hökumətə isə müvafiq iqtisadi siyasət üçün inflyasiya və işsizliyin uyğunlaşdırılmasını seçərək, **"**Filips əyrisi**"** boyunca hərəkət etmək kifayətdir. Bu cür "Sürətli reaksiya vermə"nin siyasəti ona gətirib çıxartmışdır ki, inflyasiya artımı praktiki olaraq nəzarətsiz qalmışdır.

M.Fridmen müəllif olduğu və daha sonra olduqca məşhurlaşmış bir neçə elmi işi dərc etdirərək keynsçilərlə polemikaya (mübahisəyə) girişir.

"Filips əyrisi" təhlilinin əsas müddəalarını o, **"**Monetar siyasətin rolu**"** (1968-ci il) adlı özünün elmi işində ifadə edir ki, bundan sonra "Fridmen-Felps şaquli əyrisi" adı əmələ gəlmişdir. *Hər iki müəllif bir-birindən asılı olmayaraq eyni nəticəyə gəlmişdilər: uzunmüddətli dövr ərzində məşğulluq səviyyəsi və inflyasiya ilə hər hansı bir əlaqə mövcud deyil.* "Monetarist iqtisadiyyat" (1991-ci il) məcmuəsində yer almış M.Fridmenin müəllif olduğu **"**Monetar nəzəriyyədə əksinqilab", "İşsizlik inflyasiyaya qarşı? – Fillips əyrisinin qiymətləndirilməsi", eləcə də "Pulun təklifi və qiymərlədə və istehsalda dəyişiklik" adlı məqalələr məhz bu problematikaya həsr olunmuşdur. 1976-cı ildə M.Fridmenin Nobel mühazirəsinin mövzusu "İnflyasiya və işsizlik" olmuşdur.

M.Fridmen hesab edirdi ki, A.Fillips "nominal əməkhaqqında gözlənilən dəyişiklikləri real əməkhaqqının dəyişikliklərinə bərabərləşdirməklə" açıq-aşkar yalançı bir müqəddiməyə əsaslanırdı. Fillipsin bu yanlış fikri keynsçi nöqteyinəzərlərin sisteminə təbii bir şəkildə yazılırdı. Qeyd edək ki, adı çəkilən bu sistem (1) nominal kəmiyyətlərə, (2) qiymətlərin dəyişməzliyinə və (3) məşğulluq, gəlirlər səviyyəsi, inflyasiya problemlərinin qısamüddətli aspektinə əsaslanır.

Fridmenin gənaətinə görə, nominal əməkhaqqı əvəzinə inflyasiya göstəricisindən istifadə etmək daha dəqiq və düzgün olardı. Onda biz əməkhaqqı və işsizliyin deyil, inflyasiya və işsizliyin bağlılığını əldə edirik ki, buna da hələ 1926-cı ildə **İrvin Fişer** diqqət yetirmişdir.

Uzunmüddətli dövrdə işsizliyin səviyyəsi və inflyasiya arasında birbaşa asılılıq mövcud deyil,- M.Fridmen *məhz bu cür hesab edir*. Səbəb bundan ibarətdir ki, zaman keçdikcə təsərrüfat agentləri öz gəlirlərini nominal deyil, real vahidlərlə qiymətləndirirlər. Onları əldə olunmuş pul nişanların miqdarı deyil, əməkhaqqının alıcılıq qabiliyyəti maraqlandırır.

Beləliklə, inflyasiyanın gələcək tempi əmək müqavilələrin və işgüzar kontraktların bağlanılması zamanı nəzərə alınır. Bu səbəbdən qiymət səviyyəsinin proqnozlaşdırılması böyük rol oynayır. Fridmen sayağı yanaşma "buraxılmış səhvlər üzərində öyrənmə" prinsipinə əsaslanır, bu zaman təsərrüfat agentləri gələcək inflyasiya nəzərə alınmadan özlərinin qəbul etdikləri əvvəlki yanlış qərarlarından bir növ ibrət dərsi alırlar. Əgər inflyasiyanı qabaqcadan düzgün görmək imkanı əldə edilsə, bu zaman onun qeyri-sabitləşmə təsiri praktiki cəhətdən sıfıra endirmək tam mümkün olacaqdır.

Bu müddəanın sübut edilməsi üçün o, **"**işsizliyin təbii səviyyəsi**"** məfhumunu tətbiq edir. Bir halda ki, bazar sistemi resursların maksimal dərəcədə tam istifadə olunmasını təmin edir, işsizlik yalnız könüllü xarakter daşıya bilər və insanların əmək və istirahət arasında azad və sərbəst seçimin nəticəsi ola bilər. Bu müddəa səmərəli tələbin çatışmazlığı şəraitindən təbii olaraq irəli gələn keynsçiliyin **"**məcburi işsizlik**"** anlayışına ziddir.

"İşsizliyin "təbii**"** səviyyəsi əmtəə və əmək bazarlarının, o cümlədən onların qeyri-mükəmməlliyi, vakansiyalar haqqında informasiyanın toplanılması üzrə xərcləri, mobilliyin xərcləri də daxil olmaqla real səviyyəsinə uyğunudur". Həmin səviyyə əmək bazarında maneələrin aradan qaldırılması

vasitəsilə azaldıla, yaxud əlavə "müqavimətin" tətbiq edilməsi yolu ilə artırıla bilər.

Belə ki, Fridmenə görə, Amerika Birləşmiş Ştatlarında əmək münasibətləri sahəsində qüvvədə olan qanunlar (məsələn, zəmanətli minimal əməkhaqqı dərəcələrinin təyin edilməsi, yaxud işsizliyə görə müavinətlərin ödənilməsi), eləcə də "həmkarlar ittifaqların gücü" işsizliyin əks halda ola biləcəyi səviyyəsi ilə müqayisədə onun təbii səviyyəsinin artırılmasına gətirib çıxardır.

Beləliklə, iqtisadi agentlərin inflyasiya gözləntiləri nəzərə alınan "Filips əyrisinin" monetar izahını şəkil 1-də göstərilmiş qrafik vasitəsilə əyani şəkildə təsvir etmək olar, burada U_nY şaquli əyri xətt Fillipsin uzunmüddətli tarazlıq əyrisini ifadə edir.

Bu əyri xətt $U_n$nöqtəsindən keçir ki, həmin nöqtə işsizliyin təbii səviyyəsini (natural unemployment) təsvir edir; ***FE*** və ***F`Y*** əyriləri – qısamüddətli Fillips əyriləridir və onlar iqtisadi subyektlərin müxtəlif inflyasiya gözləntilərinə uyğundur.

Ehtimal edək ki, istehsal və məşğulluq səviyyəsi kimi başa düşülən iqtisadiyyatın ilkin vəziyyəti **E** nöqtəsindədir ki, həmin bu nöqtə işsizlik səviyyəsini səciyyələndirən U_nvə inflyasiya gözləntilərini əks etdirən $A(A = (1/P)(dP/dt))$ əyri xəttin kəsişməsi nəticəsində əmələ gəlir.

Fərz edək ki, hökumət işsizliyi U_a səviyyəsinə qədər azaltmaq qərarına gəlib. O, məcmu tələbin stimullaşdırmasının inflyasiya siyasətini həyata keçirir ki, bu da tədavüldə olan pul kütləsinin artırılması ilə əlaqədardır. M.Fridmenə görə, ilkin effekt nominal əməkhaqqı və istehsal edilən məhsula tələbin artımı olacaqdır. Qeyd edək ki, adı çəkilən tələbi muzdlu işçilər və sahibkarlar kecmiş (yəni, daha aşağı) inflyasiya gözləntilərini nəzərə alaraq real əməkhaqqının artımı və əmtəələrə olan real tələbin yüksəldilməsi kimi qəbul edəcəklər. Nəticədə təsərrüfat agentlər əmək təklifini artırır və istehsalı genişləndirirlər, bu isə iqtisadiyyatı ***F*** vəziyyətinə köçürür.



Şəkil 1.

Ancaq zaman keçdikcə iqtisadi agentlər dərk etməyə başlayırlar ki, onların inflyasiya gözləntiləri azaldı və əmək-haqqının real artımı baş verməyib.

İnflyasiyanın yeni səviyyəsini nəzərə alaraq, onlar əməkhaqqına olan tələblərini yüksəltməyə başlayırlar. M.Fridmenin qənaətinə görə, qısamüddətli aspektdə U_aişsizlik səviyyəsini qoruyub saxlamaq və qabaqlayıcı, "akselerasiya" inflyasiyasının hesabına fəhlələrin get-gedə daha çox artmaqda olan tələblərini ödəmək mümkün olacaqdır.

Lakin uzun müddət ərzində işlərin bu cür gedişi davam edə bilməz. Uzunmüddətli perspektivdə həm sahibkarlar, həm də muzdla çalışan fəhlələr qəbul etdikləri qərarlarda inflyasiyanın yeni səviyyəsini nəzərə almağa başlayırlar. Bunun nəticəsində iqtisadiyyat yenidən işsizliyin "təbii" səviyyəsi vəziyyətinə qayıtmış olacaqdır, lakin artıq bu, yalnız inflya-

siyanın daha yüksək səviyyədə olduğu zaman (*Y* nöqtəsi) baş verəcekdir.

Fillips əyrisinin monetarist təhlilindən belə bir nəticə irəli gəlir ki, iqtisadi artımın stimullaşdırılması və məşğulluğun "təbii" səviyyədən yuxarı olan bir səviyyədə süni şəkildə qorunub saxlanılması yekunda inflyasiya üzərində nəzarətin itirilməsinə gətirib çıxarır. Belə bir hal, məsələn, 1964-cü ildə Böyük Britaniyada baş vermişdir və o zaman inflyasiya qısa müddət ərzində **3,9** faizdən **16** faizə qədər yüksəlmişdir.

Buna görə, monetaristlərin hesab etdiyi kimi, tələbin stimullaşdırmasının inflyasiya siyasətindən imtina etmək lazımdır, ön plana isə iqtisadi siyasət üçün yeganə əlçatmaz olan məqsədi – inflyasiya ilə mübarizəni irəli çəkmək lazımdır.

Fridmen belə bir ideyanı irəli sürür ki, dövlət tərəfindən büdcə siyasəti vasitəsilə müdaxilələrin həyata keçirilməsi "qiymət mexanizminin iqtisadi prosesləri idarə etmək qabiliyyətinin azalmasına, nisbi qiymətlərin təhrif edilməsinə və işsizliyin daha yüksək səviyyəsinə gətirib çıxarır".

İqtisadi sistemin sabitləşdirilməsinin şərtini M.Fridmen *dayanıqlı və əsaslandırılmış inflyasiya gözləntilərin formalaşdırılmasında görür. Bu zaman işsizlik səviyyəsi inflyasiya səviyyəsindən asılı olmayacaq, çünki "ümumilikdə inflyasiya deyil, yalnız gözlənilməz inflyasiya əhəmiyyətlidir; inflyasiya və işsizlik arasında dayanıqlı kompromiss mövcud deyil"*. Fridmen Latın Amerika ölkələrini misal olaraq çəkir, həmin ölkələrdə yüksək inflyasiya zamanı işsizlik sabit səviyyədə qorunub saxlanılır.

İnflyasiya gözləntilərinin düzgün formalaşdırılması üçün hökumət əhali ilə əməkdaşlığa getməlidir, *"onu nə etmək istədiyi barədə daima məlumatlandırmalıdır və bununla, onu aldatmağa cəhd etmək əvəzinə, düzgün qərarların qəbul edilməsinin əsaslarını yaratmaq lazımdır"*.

6.6. Monetarizmin iqtisadi siyasəti

Keynsçi və monetarist məktəbləri arasında aparılan mübahisələr cəmlənmiş halda onların dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin məqsədlərinə və metodlarına olan nöqteyi-nəzərlərdə ifadə olunmuşdur.

İqtisadi siyasətin əsasını keynsçilər cari vəziyyətin necə inkişaf edə biləcəyini əvvəlcədən müəyyənləşdirməkdə görürlər ki, müxtəlif məqsədlər (məşğulluq, artım, xarici balans və sair) arasında manevr etmək daha rahat olsun. Monetaristlər isə əksinə, əsas pislikləri hökumət tərəfindən həyata keçirilən diskresion (öz mülahizəsinə görə hərəkət edən, yəni istədiyi kimi həyata keçirilən) siyasətdə görürlər.

Keynsçi iqtisadi siyasətin məqsədi məşğulluğun yüksək səviyyəsinə nail olunmaqdan və istehsalın maksimal artım templərinin təmin edilməkdən ibarətdir. Monetaristlər üçün əsas olan – qiymət sabitliyinin, pul vahidinin dayanıqlığının təmin edilməsidir. ”Real” sektorun göstəricilərinin vəziyyəti onların modellərində struktur faktorları tərəfindən müəyyən edilir və iqtisadi siyasət vasitələri ilə dəyişdirilə bilməz. Bu səbəbdən onlar “fəallaşmaya” və konyunkturanın tsiklik tərəddüdlərini aradan qaldırmaq meyillərinə qarşı çıxış edirlər.

Bununla yanaşı, əgər *keynsçilərdə* makro-tənzimlənmənin mühüm obyekti faiz dərəcəsi hesab olunursa (ehtimal edilir ki, o, investisiyaların həcminə və dinamikasına təsir göstərir), *monetaristlərdə* isə bu rolda pul kütləsinin həcmi çıxış edir.

M.Fridmen hələ 1948-ci il tarixli **“**Monetarizm və iqtisadi sabitlik üçün fiskal çərçivə” müəllif olduğu elmi işində pul kütləsi həcminin avtomatik üsulla tənzimlənməsi ideyasını irəli sürmüşdür və Federal ehtiyatlar sisteminin iradi qərarlarına qarşı çıxış edirdi. Burada alim dövlətin funksiyalarını qısaca və dürüst bir formada ifadə edir: tam müəyyənlik vəziyyətinin təmin edilməsi məqsədilə sabit siyasi, hüquqi və

iqtisadi şəraitlərin yaradılması. Həmin bu məqsədlərə nail olunması vasitələrindən "siyasi azadlıq, ilkin iqtisadi şərtlərin bərabərliyi və rəqabətli nizam" qeyd edilə bilər.

Daha sonra M.Fridmen pul kütləsi həcminə dövlət büdcəsi tərəfindən təsir göstərmək vasitəsilə monetar və büdcə siyasətini uyğunlaşdırmağı və birləşdirməyi, eləcə də dəyişməz bir səviyyədə xərclərin ümumi cəmi, transfert ödəmələr, habelə vergi qoyuluşu dərəcələri kimi büdcə elementlərini dəyişməz səviyyədə saxlamağı nəzərdə tuturdu.

Tsiklik tənəzzüllər zamanı büdcə kəsiri əmələ gələcək, yüksəliş vaxtlarında isə - müsbət saldo. Bununla bərabər pul kütləsinin həcmi büdcənin vəziyyətinin ardınca avtomatik olaraq hərəkət edəcək: kəsir pulun miqdarının azaldılmsını, müsbət saldo isə - onların artımını bildirəcək.

Lakin daha sonra *M.Fridmen pul kütləsi həcminin avtomatik tənzimlənmə üsulunu sadələşdirərək* onu "pul qaydası" *adlandırılan bir anlayışa çevirdi:* uzunmüddətli perspektivdə real ümumi milli məhsulun artım tempi ilə üst-üstə düşən pul miqdarının ildən ilə dayanıqlı artımı**.** Alim bu göstəricini ildə 3-5 faiz səviyyəsində müəyyən edir.

Fridmenə görə, qiymətlərin sabit və daimi səviyyəsinin təmin edilməsi üçün pul kütləsi həcminin artım tempi, həmçinin gəlir üzrə pula olan tələb elastikliyindən də asılıdır. Bu göstəricinin Fridmen 2-yə bərabər olduğunu müəyyən edir, yəni "real gəlir artımının 1% faizi pulun real miqdarının 2% faiz artımına və "nağd pullar / gəlir" nisbətinin 1% faiz artımına uyğundur.

Bununla bərabər, M.Fridmen özünün "pul qaydası"na sərt bir şəkildə riayət olunmasını təkidlə tələb edir: aydan-aya iqtisadi konyunkturada baş verən tərəddüdlər nəzərə alınmadan pul kütləsinin həcmi ildən ilə tətbiq edilmiş normativ üzrə dəyişilməlidir.

Uzun müddət ərzində Federal ehtiyatlar sistemi "pul qaydası"nın tətbiq edilməsi ilə əlaqədar monetaristlərin töv-

siyələrinə məhəl qoymurdu. Yalnız artmaqda davam edən inflyasiya, valyuta məzənnələrinin qeyri-sabit olması, eləcə də faiz dərəcələrinin dayanmadan yüksəlməsi ötən əsrin 70-ci illərində Federal ehtiyatlar sistemini öz mövqelərini yenidən nəzərdən keçirməyə məcbur etmişdir. Belə ki, 1974-cü ildə Qərbi Almaniyanın Bundesbankı 12 ay müddətinə bank ehtiyatların və nağd pulların artım oriyentirlərinin tətbiq olunması barədə məlumat yaymışdır. Həmin ildə İşveçrə pul kütləsi həcminin (**M1** aqreqatının) mümkün ola bilən artım göstəricisini tətbiq etmişdir. 1975-ci ildə Amerika Birləşmiş Ştatlarının Konqresi Federal ehtiyatlar sisteminə bir vəzifə olaraq tapşırmışdır ki, kütləvi-informasiya vasitələrində maliyyə bazarlarda mövcud olan vəziyyətin əsas makroiqtisadi göstəricilərini dərc etdirsin**: M1, M2** və **M3** aqreqatlarını; əsas faiz dərəcələrini, habelə 3-6 aylıq və 10 illik dövlət istiqraz vərəqələri (bonlar) üzrə gəlirliliyi.

Amerika Birləşmiş Ştatlarının ardınca Böyük Britaniya, Fransa və digər Avropa ölkələri də bunu həyata keçirməyə başladılar.

Avropa İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olan ölkələr üçün aşağıdakı parametrlər qəbul edilmişdir: pul kütləsi həcminin artımı (ildə 5-8 faizdən çox olmamaq şərtilə), valyuta məzənnəsinin dəyişilməsi (ildə 5-6 faizdən çox olmamaq şərtilə).

Dövlət tərəfindən həyata keçiriləcək iqtisadi siyasətinin müəyyənləşdirilməsi zamanı digər mühüm müddəa pul kütləsi dəyişikliyi və istehsalda baş verən dönüş yaxud irəliləyiş arasında uzunmüddətli və qözlənilməz laqların mövcudluğunun etiraf edilməsi olmuşdur.

M.Fridmen onunla birgə həmçinin A.Şvarts tərəfindən də həyata keçirilmiş statistik hesablamalara istinad edir ki, sözügedən həmin bu hesablamalara uyğun olaraq, pul kütləsinin artım (yaxud ləngimə) templərinin dönüş nöqtələri təsərrüfat tsiklinin dönüş nöqtələrini əhəmiyyətli dərəcədə qabaq-

layır – yüksəlişin baş verdiyi halda orta hesabla 16 ay müddətinə, tsiklik tənəzzüllərin baş verdiyi halda isə - 12 ay müddətinə. Federal ehtiyatlar sisteminin diskresion siyasəti təkcə müsbət nəticələrə gətirib çıxartmır o həm də ciddi zərər də yetirə bilər, çünki onun effekti tədbirlərin görülməsindən bir neçə ay keçdikdən sonra tamamilə başqa bir şəraitdə özünü büruzə verəcəkdir.

Hesab olunur ki, monetarizmin populyarlığı Qərbin siyasi təfəkküründə liberal-konservativ ideologiyasının yayılması ilə şərtləndirilmişdir.

Fridmenin özü isə müxtəlif ölkələrdə monetarist siyasətinin nəticələrini təhlil edərkən həmin siyasətin "müalicəvi" xüsusiyyətləri ilə əlaqədar yarana biləcək qarşısıalınmaz nikbinlikdən kifayət qədər uzaq olmuşdur. Alim yazırdı ki, monetar vasitələr o qədər həssasdır ki, onlardan olduqca ehtiyatla istifadə etmək lazımdır. Axı **"pul kütləsi, qiymətlər və istehsal arasında mövcud olan qarşılıqlı bağlılıq və əlaqələr haqqında bizim biliklərimiz o dərəcədə məhduddur ki, onlardan təcrübədə istifadə olunması xeyir vermək əvəzinə, daha çox zərər gətirə bilər"**.

Nəticə

Monetarizm ötən əsrin 70-ci illərində geniş yayılmış müasir iqtisadi konservatizmin nüfuzlu cərəyanlarından birini təmsil edir.

Monetarizm, şübhəsiz ki, aparıcı rola malik idi. Monetaristlər üçün keynsçilik doktrinasının tənqidi yenidən baxılması üçün əsas çıxış nöqtəsi kimi inflyasiya problemi olmuşdur ki, bu da, öz növbəsində, pulun klassik kəmiyyət (kordinalist) nəzəriyyəsinin ideyalarının reanimasiyasına (yenidən dirçəlməsinə və canlanmasına) gətirib çıxartmışdır. XX əsrin 30-cu illərində bu nəzəriyyənin tənqid olunması C.M.Keynsə neo-

klassik nəzəriyyə binasının bütövlükdə dağıdılması üçün zəruri idi.

Ənənəvi neoklassik nəzəriyyəsinin diqqət mərkəzində istehsal faktorları (əmək, kapital və torpaq), habelə gəlirlərin bölgüsü və yekunda tələbin formalaşdırılmasının izahının təməli kimi onların son həddi məhsuldarlığı dayanırdı. İstehlak funksiyası istehsal funksiyası ilə qarşılıqlı şəkildə sıx əlaqədə olmuşdur.

Beləliklə, "müasir iqtisadiyyatın fəaliyyət göstərməsinin modelinin" müəyyənləşdirici əsası qismində gəlirlər axınlarının mənbəyi kimi xidmət edən "ilkin mülkiyyətçilərin" (yəni əhalinin) sərvəti və firmaların sərvəti çıxış edir .

Monetarizm nöqteyi-nəzərdən, istənilən hər hansı resurslar sərvətin forması kimi qarşılıqlı surətdə əvəz olunandır və əgər onlardan bir qismi müvəqqəti olaraq artıqlıq təşkil edirsə, bu zaman onlar daha kiçik gəlir gətirməyə başlayacaqlar; əhali və firmalar öz sərvətinin strukturunu dəyişməyə çalışacaqlar və tarazlıq bərpa ediləcəkdir. Millətin sərvəti isə ümumilikdə artıqlıq təşkil edə bilməz..

Qiymətlərin və əməkhaqlarının çevikliyi barədə monetaristlərin postulatı əmtəə, resurslar və ümumiyyətlə sərvətə daxil edilən bütün nemətlər bazarlarında azad rəqabətin üstünlük təşkil etməsini və hökmranlığını nəzərdə tutur.

Müasir monetarizm özünün əsas və mərkəzi nəticəsini möhkəmlətmişdir: əgər pullara bazar iqtisadiyyatının baza şərtləri ilə müəyyən edilən tələb sabit kəmiyyətdirsə, onda pulların təklifi indiyə qədər siyasi psixologiyadan və digər bazardan kənar səbəblərdən asılı olmuşdur. Əgər, pulun təklifi ciddi elmi qaydaya tabe deyilsə, iqtisadiyyatda pulun gah kəsiri, gah da artıqlığı mövcud olacaqdır; bu isə o deməkdir ki, dövlətin və mərkəzi bankların günahı ucbatından gah xroniki depressiyanın, gah da staqflyasiyanın təhlükəsi yaranmaqda davam edəcəkdir. Bütün bunlardan qurtulmaq və bazara təbii olaraq fəaliyyət göstərməyə imkan vermək məqsədilə pul təklifinin

illik artımı pulun özünə olan ortaillik uzunmüddətli tələbin artımına uyğun gəlməlidir. Başqa sözlə ifadə etsək, M1 pul aq-reqatının yol verilən artım tempi bu ildə real ümumi daxili məhsulun uzunmüddətli ortaillik artım tempinə uyğun gəlməli, habelə konyunkturanın tsiklik tərəddüdlərindən asılı olmamalıdır.

M.Fridmen üçün permanent qəlir nəzəriyyəsi monetar siyasətin işlənib hazırlanması və tsikllərin təhlili zamanı istinad nöqtəsi olmuşdur

M.Fridmen permanent gəliri (Yp) belə yanaşma kimi müəyyən edir ki, istehlakçı onu kifayət qədər uzun müddət ərzində əldə etməyə ümid edir. Onun qiyməti fərdin (individuumun) istehlak üfüqündən, yığılmış kapitalın miqdarından, eləcə də yaşayış yerindən, yaşından, təhsilindən, irqindən və milliyətindən asılıdır .

Bir halda ki, istehlak uzunmüddətli perspektivdə gözlənilən gəlir səiyyəsinə əsaslanır, ona həmçinin uzunmüddətli faiz dərəcəsinin səviyyəsi, kapital yigımının miqdarı, eləcə də istehlakçının zövqü kimi faktorlar təsir göstərir.

M.Frdmenin əmanətlərə olan münasibəti maraq kəsb edir. Alim hesab edir ki, əmanətlərin toplanılması üçün səbəblər yalnız qeyri-müəyyənlik vəziyyətində mövcud deyil. Belə ki, tam müəyyənlik şəraitində əmanətlər iki funksiyanı yerinə yetirir: birincisi, onlar istehlakı daha müntəzəm etməklə gəlir axınını bərabərləşdirir; ikincisi, faiz gəlir şəklində mənfəət gətirir.

İqtisadiyyatda təsərrüfat fəallığının səviyyəsini əks etdirən ÜMM (ümumi milli məhsulun) miqdarı yekunda pul kütləsi həcminin dinamikasının ardınca müəyyən müvəqqəti laq (fərq) ilə hərəkət edir. Bu müddəa monetarizmin mühüm və əhəmiyyətli nəticəsi hesab olunur.

Həmin iddia pulun kəmiyyət nəzəriyyəsinin metodologiyasına tam uyğundur. Adı çəkilən bu metodologiya “pul – qiymətlər”, yaxud “pul – gəlir” səbəbiyyət əlaqəsinin mövcud

olduğunu sübut edir. Pulun kəmiyyət nəzəriyyəsi çərçivəsində bir neçə yanaşma mövcud idi ki, sözügedən bağlılığın necə "işlədiyini", hansı mexanizmlər vasitəsilə pul kütləsinin səviyyəsinin qiymətlər və gəlir səviyyəsinə necə təsir etdiyini göstərmək mümkün olsun. Monetarizm ideyalarına daha da yaxını və məşhuru İrvin Fişerin transaksiya variantı olmuşdur ki, bu da öz növbəsində Fridmen tərəfindən pulun kəmiyyət nəzəriyyəsinin özünə aid variantının – nominal gəlir nəzəriyyəsinin işlənib hazırlanması üçün çıxış nöqtəsi olmuşdur.

Buradan belə bir nəticə hasil olur ki, tələb olunan pulun miqdarı o qədər olmalıdır ki, əmtəə mübadiləsi əməliyyatların bütöv həcmi həyata keçirilə bilsin.

Pul kütləsinin *M* qiymətlərin səviyyəsinə *P*-yə olan təsirinin sübut edilməsinin əsasında İ.Fişer üçün tədavül sürəti *V*-nin, eləcə də güclərin (istehsal obyektlərin) maksimal yüklənməsinin (resursların maksimal istifdə edilməsi) *Q*- sabitliyi haqqında fərziyyə olmuşdur.

O hesab edirdi ki, pulların tədavül sürətinə texniki-iqtisadi və institusional faktorlar təsir göstərir. Adı çəkilən həmin faktorlar uzunmüddətli dövr ərzində olduqca asta dəyişilən vərdişlər və ənənələrlə bağlıdır.

Beləliklə, *P* qiymətlər səviyyəsinin dəyişikliyi *M* pul kütləsi həcminin uzunmüddətli dövrdə dəyişikliyinə birbaşa proporsional olacaqdır. Amma qısamüddətli dövr ərzində bu qanunuyğunluqlar təsir göstərməyəcək, çünki konyunkturanın kəskin tərəddüdləri ucbatından pul tədavülünün sürətini sabit kəmiyyət qismində nəzərdən keçirmək artıq mümkünsüz olacaqdır.

Beləliklə, pul kütləsinin qiymətlərə olan təsiri nəticə etibarilə aşağıdakı əsas məsələnin həll edilməsinə çevrilir: *V* tədavül sürətinin uzunmüddətli dövr ərzində sabit olduğunun sübut olunmasında.

Bir halda ki, pullara olan tələb dayanıqlıdır və təsərrüfat konyunkturasında baş verən dəyişikliklərə cavab olaraq kəskin

tərəddüdlərə meyilli deyil, iqtisadiyyatda mövcud olan tarazlığın pozulmasında əsas mənbələr qismində dövlət tərəfindən həyata keçirilən antitsiklik siyasətin nəticəsində baş verən kəskin və gözlənilməz dəyişikliklər qeyd edilməlidir.

M.Fridmen belə bir nəticəyə gəlir ki, qüsursuz, düzgün və mükəmməl həyata keçirilən pul siyasəti sayəsində uzunmüddətli depressiyanın, yaxud iqisadiyyatda hədsiz dərəcədə fəallığın qarşısını almaq mümkündür.

Monetarizmdə, inflyasiya probleminin işlənib hazırlanması illəri ərzində aksiomalara çevrilmiş nəticələr formalaşmışdır. İnflyasiyanın əmələ gəlməsinin yeganə səbəbini monetarizm real ümumi milli məhsulun artım tempi ilə müqayisədə nominal pul kütləsinin daha sürətli artım tempində görür.

1958-ci ildə ingilis iqtisadçısı A.Fillips İngiltərə sənayesinə dair, demək olar ki, yüzillik bir dövrü (1861-1957-ci illər) əhatə edən vaxt ərzində toplanmış məlumatlar əsasında nominal əməkhaqqı dərəcələrinin və məşğulluq səviyyəsinin dəyişməsi arasında statistik korrelyasiyanın (müqayisə edilən anlayışların bir-birilə münasibətinin, bir-birindən asılılığın) mövcud olduğunu təyin etmişdir. O yazırdı ki, nominal əməkhaqqının yüksək dərəcələri və işsizliyin aşağı səviyyəsi arasında, eləcə də nominal əməkhaqqının aşağı dərəcələri və işsizliyin yüksək səviyyəsi arasında açıq-aşkar əlaqə müşahidə edilir.

Bu asılılıq **"Fillips əyrisi"** şəklində qrafik formada ifadə olunmuşdur.

Keynsçi iqtisadi siyasətin məqsədi məşğulluğun yüksək səviyyəsinə nail olunmaqdan və istehsalın maksimal artım templərini təmin etməkdən ibarətdir. Monetaristlər üçün əsas olan – qiymət sabitliyinin, pul vahidinin dayanıqlığının təmin edilməsidir. "Real" sektorun göstəricilərinin vəziyyəti onların modellərində struktur faktorları tərəfindən müəyyən edilir və iqtisadi siyasət vasitələri ilə dəyişdirilə bilməz. Bu səbəbdən

onlar “fəallaşmaya” və konyunkturanın tsiklik tərəddüdlərini aradan qaldırmaq meyillərinə qarşı çıxış edirlər.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1.Monetarist nəzəriyyəsinin spesifik mahiyyəti nədədir?

2. Fridmenin mülahizələrinə görə Keyns nəzəriyyəsi nəyə əsaslanır?

3. Hansı nəzəriyyə ötən əsrin 30-cu illərinin təsərrüfat sistemini daha dəqiq modelləşdirirdi – artan bazarın özünütənzimlənmə xüsusiyyətinə söykənən neoklassik nəzəriyyə, yaxud spesifik depressiv tarazlıq bazarının ekzogen determinantlarının roluna xüsusi əhəmiyyət verən keynsçi nəzəriyyə?

4. Ötən əsrin 30-cu illərinin qeyri-dayanıqlı depressiv-tarazlıq sistemi 60-cı illərin sonununda dayanıqlı dinamik-tarazlı sisteminə necə transformasiya olunmuşdur?

5. Fridmen keynsçiliyin məğlubiyyətə uğramasını necə izah edir?

6. Gəlir və sərvət arasında səbəbiyyət əlaqəsi necədir?

7. Müasir monetarizmin hakim mövqedə olan tezisi nədən ibarətdir?

8. Müasir monetarizm hansı təsərrüfat sistemini modelləşdirir?

9. Müasir monetarizmin müharibədən əvvəlki və müharibədən sonrakı dövrü əhatə edən təcrübəsinin ən mühüm nəticəsini xarakterizə edin.

10. Müharibədən sorakı onilliklər ərzində monetaristlər nəyi göstərirdilər?

11. Hansı nəzəri modelə təsərrüfat sistemi daha yaxın şəkildə müvafiq gəlir?

12. Dövlət tərəfindən sərt bir formada tənzimlənən bazar sistemi nədən xroniki durğunluq vəziyyətinə düşdü?

13. Fridmenin biblioqrafiyasına aid olan məlumatlarını göstərin.

14. Cari gəlirdən başqa, hansı amillər istehlakçının davranışını müəyyən edər?

15.Təhlildə hansı gəliri – cari və ya permanent, nisbi, yaxud mütləq yanaşmanı - əsas və hakim mövqedə olduğunu qəbul etmək lazımdır və istehlakın dəyişikliyini gəlirin dəyişilməsinə proporsional hesab etmək olarmı?

16. Ölçülən gəlir və ölçülən istehlakın tətbiqi zamanı Fridmen nəyə əsaslanır?

17. Fərqsizlik əyrilərinin və büdcə xəttinin instrumentarisindən (işlənən alətlər komplektindən) istifadə etməklə Fridmenin nəticə və rəylərini sadalayın.

18. Fridmenin əmanətlərə olan münasibəti necədir?

19. Fridmen öz nəzəriyyəsinin empirik sübutunu necə təqdim edir?

20. Monetarizmin əsas nəticəsini göstərin.

21. Fridmenə görə pul kütləsinin tədavül sürətinin təhlili üçün metodoloji baza qismində nə çıxış edir?

22. Fridmenin modelində pul bazarında tarazlığı pozan əsas və başlıca impuls nədir?

23. Təsərrüfat tsiklinin yaranma səbəbi qismində pul kütləsi həcminin dəyişikliyi göstərilə bilərmi, yaxud əksinə, digər amillər, pulun tsiklik hərəkətdə dinamikasını qabaqcadan müəyyən edirmi?

24. Empirik məlumatların təhlili əsasında Fridmenin "məşhur tsiklik fenomenin" in kəşfi nədən ibarətdir?

25. Monetaristlər inflyasiya mexanizmində əsas rolu nəyə ayırırlar.

26. Fridmenə görə "işsizliyin təbii səviyyəsi" məfhumunun şərhini verin.

27. Keynsçi iqtisadi siyasətin hədəfi nədir?

Ədəbiyyat siyahısı:

1. Seliqmen B. Müasir iqtisadi fikrin əsas cərəyanları. M., 1968, s. 455.
2. Friedman M. Quantity Theory of Money: The New Palgrave / / Money / Ed. by J. Eatwell e.a. L., 1989, p. 20.
3. Fridmen M. Pulların kəmiyyət nəzəriyyəsi. M., 1996, s. 20-21.
4. Blauq M. İqtisadi təfəkkür retrospektivdə, s. 622.
5. Fridmen M. Qeyd edilmiş əsaslər, s. 20.
6. Friedman M.A. Theory of the Consumption Function. N.J., 1957, p. 226. (daha sonra – Theory).
7. Fisher J. The Power of Money. N.Y., 1911, p. 81-82.
8. Walras L. Ellements of Pure Economics. 4th ed. L., 1954, p. 247.
9. Friedman M. Price Theory. N.J., 1968, p. 60.
10. Friedman M. The Quantity Theory of Money: a Restatement / / Studies in the Qauntity Theory of Money. Chikago, 1956 (daha sonra – Theory of Money); Idem. The Demand for Money: Some Theoretical and Empirical Results / / Journal of Poliyical Economy. 1959. Vol. 67, p. 327-51; Idem. A Theoretical Framework for Monetary Analysis. N.Y., 1971; Idem. Monetary Theory of Nominal Income. N.Y., 1971.
11. Friedman M., Schwartz A. AMonetary History of the USA, 1867-1960. N.Y., 1963 p. 229-230.
12. Friedman M. The Counter-Revolution in Monetary Theory / / Monetarist Economics / Ed.by M.Friedman. N.Y., 1991, p. 16 (daha sonralar – Economics).
13. Usoskin V.M. Milton Fridmenin “Pul dünyası”. Moskva, 1889.
14. Fridman M. Economics, p. 283.
15. Friedman M. The Role of Monetary Policy / / American Economic Rewiev. 1968. Vol. 58, p. 8.

VII FƏSİL. TƏKLİF İQTİSADİYYATI NƏZƏRİYYƏSİ

7.1. İşsizlik və inflyasiya nəzəriyyələri
7.2. İqtisadi artım konsepsiyasının xüsusiyyətləri
7.3. Vergi islahatının layihələri. Laffer effekti

Təklif nəzəriyyəsi (supply-side economics) ötən əsrin 70-ci illərində əsasən Amerika Birləşmiş Ştatları iqtisadçılarının səyləri nəticəsində formalaşdırılmışdır. Bu nəzəriyyənin tərəfdarları özlərini **seplaysayderlər** adlandırırdı və neoklassik cərəyanı, **neoklassik iqtisadi nəzəriyyəni təmsil edirdilər**. ***Təklif nəzəriyyəsinin fikir mənbələrindən neoavstriya məktəbin nümayəndələrinin, ilk növbədə*** **isə F.fon Hayekin nöqteyi-nəzərlərini, istehsal faktorların son həddsəmərəliliyi nəzəriyyəsinin və müasir monetarizm elementlərini qeyd etmək olar.** Təklif nəzəriyyəsində, həmçinin çoxsaylı ekonometrik işlənmələr üçün də yer tapılmışdır.

Özünün mahiyyətinə görə təklif nəzəriyyəsi kifayət qədər amorf bir törəməni təşkil edir. Burada xüsusi, qısaca və dürüst bir şəkildə ifadə olunmuş metodoloji və fikir platformaları predmetin dürüst və dəqiq xarakteristikası, qəbul edilmiş liderlər mövcud deyil. Təklif nəzəriyyəsi tərəfdarlarının özləri onun konsepsiyaları ilə kifayətlənməli olurlar ki, həmin bu konsepsiyaların müəllifləri istehsal faktorların təklifinin dövlət tərəfindən uzunmüddətli tənzimlənməsinə tərəfdar çıxır, vergilərin azaldılmasını və məhdudlaşdırıcı pul siyasətinin həyata keçirilməsini zəruri hesab edir, **Laffer effektinə** şərik olurlar.

Monetarizmin harada bitəcəyini və təklif nəzəriyyəsinin haradan başlanacağını müəyyən etmək heç də hər zaman mümkün olmur. Onu əmələ gətirən konsepsiyaların böyük əksəriyyətində monetarist komponentlər bu və ya digər dərəcədə mövcud olur. Qeyd edək ki, bir sıra problemli məsələlər üzrə(inflyasiya prosesinin sabitləşdirilməsiondə pul siyasətinin

rolu, büdcə kəsirinin maliyyələşdirilməsi və sair) təklif nəzəriyyəsinin nümayəndələrinə monetarist mövqeləri ilə əhəmiyyətli dərəcədə fərqlənən və ayrılan mövqeləri əmələ gətirnək müvəffəq olmuşdur.

Təklif nəzəriyyəsi ilə keynsçilik arasında ayrılıqlar daha aydın və dəqiq görünür. Məcmu tələbin keynsçi təhlilini nəzərə alan və oradan bir xeyli fikirləri özləri üçün aşkar edən monetaristlərldən fərqli olaraq, təklif nəzəriyyəsinin yaradıcıları müasir iqtisadiyyat və siyasət problemlərinin geniş spektri üzrə möhkəm antikeynsçi xəttini həyata keçirirlər.

XX əsrin 70-ci və 80-ci illər seplaysayderlərin həm dünya iqtisadi təfəkkürün inkişafına, həm də bir səra aparıcı Qərb ölkələrinin iqtisadi siyasətlərinin formalaşmasının prinsiplərinə təsir dairəsinin artması ilə yadda qalmışdır. Xüsusən, Amerika Birləşmiş Ştatlarında onların tövsiyələri "iqtisadi siyasət sahəsində R.Reyqan administrasiyası tərəfindən həyata keçirilən eksperimentin özəyi" olmuşdur".

Təklif nəzəriyyəsinin kifayət qədər yüksək nüfuza malik olmasının əsas və başlıca səbəbi bundan ibarətdir ki, onun tərəfdarları təsərrüfat təcrübəsinin qoyduğu suallara tamamilə inandırıcı və əsaslı cavab vermək, Qərb ölkələrinin iqtisadiyyatı üçün ötən əsrin 70-ci illərinə xarakterik olan bir çox problemlərin həlli istiqamətində konstruktiv variantları işləyib hazırlamaq iqtidarında olmuşlar. *Burada söhbət inflyasiya üzərində nəzarətin itirilməsi, onun artan işsizliklə dolaşıq bir formada qarışması, iqtisadi artımın uzunmüddətli ləngiməsindən gedir ki, bütün bu sadaladığımız amillər bəzi inkişaf etmiş ölkələr üçün o zaman kifayət qədər səciyyəvi olmuşdur.*

Məhz həmin vaxtlarda da keynsçilik prinsiplərinə əsaslanan iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sisteminə xas olan böhranın aşkar əlamətləri, xüsusən də elmi-texniki tərəqqinin texnoloji mərhələsinin əldə etdiyi nailiyyətlərin səmərəli şəkildə mənisməməsinə yardım etməkdə onun (dəvlət tərəfindən iqtisadiyyatın tənzimlənmə sisteminin) acizliyi üzə

çıxmışdır. Neokonservatorlar *baş vermiş bu halların təkcə ümumilikdə realistik izahını vermədilər, onlar həm də iqtisadi siyasətin yenidən təşkil edilməsi ilə bağlı təklifləri əsaslandırdılar və müasir iqtisadiyyatın bütöv təsərrüfat mexanizminin ciddi transformasiyaya uğramasının zəruriliyi haqqında sualı kəskin surətdə qoymuşdular.*

Praktiki cəhətdən təklif nəzəriyyəsinin bütün bölmələri eyni konseptual sxem əsasında qurulur. İlk əvvəl iqtisadi problemlərin (idarə olunmayan inflyasiyanın, yüksək səviyyəli işsizliyin, təkrar istehsalın aşağı dinamikasının və sair problemlərin) yaranma mexanizmləri nəzərdən keçirilir, həm də qeyd etmək lazımdır ki, aparıcı qüvvələr qismində bazar proseslərinin formasını dəyişən (deformasiya edən) və istehsal faktorlarından istifadə olunmasının səmərəliliyini aşağı salan (yanlış iqtisadi siyasəti həyata keçirən dövlət, fəaliyyəti səmərəli və məntiqə uyğun hüdudlardan kənara çıxan həmkarlar ittifaqları və sair) qüvvələr çıxış edir.

Bu cür mexanizmlərin təhlili sübutlu və inandırıcı şəkildə aparılır və bu proses çərçivəsində olduqca geniş ekonometrik tədqiqatların nəticələri də cəlb edilir. Bundan sonra qeyd edilmiş mexanizmlər sanki əks-tərəfə çevrilir və iqtisadiyyatın bazar potensialını daha dolğun və bütöv bir şəkildə səfərbər etmək, istehsalın səmərəliliyini yüksəltmək, kəskin xalq təsərrüfatı problemlərinin qənaətbəxş həllinə nail olmaq məqsədilə, məsələn, dövlət tənzimlənmə sistemini, necə yenidən qurmaq lazım olduğunu izah edir.

Bu yanaşmanın kökləri neoklassik iqtisadi nəzəriyyənin adət-ənənələrinə gedib çıxır. Kortəbii şəkildə (spontan) törəyən "bazar nizamı"nın ideallaşdırılması və dövlət funksiyaların onun fasizləsiz işinin şərtlərini təmin edilməsinə yönəldilməsi nəzərdə tutulur. İqtisadiyyata dövlət tərəfindən müdaxilələrin həyata keçirilməsinin digər formaları (keynsçi antitsiklik tənzimlənmə, gəlirlərin büdcə vasitəsilə yenidən bölüşdürülməsi, inflyasiyanın iqtisadi, yaxud inzibati üsulların tətbiq edil-

məsi yolu ilə yatırılması və sair) zərərli, bazar mexanizmini pozan və təsərrüfat çətinliklərini yaradan kimi tanınır.

Bu səbəbdən, məsələn, "yanlış" keynsçi siyasətində həmin çətinliklərin ilkin səbəblərini görən neokonservatizmin məşhur nəzəriyyəçisi M.Feldstaynın mövqelərində iqtisadi nəzəriyyədən və təcrübədən "keynsçi şeytanları" qovmağa çağıran F.fon Hayekə məxsus xəttin, mahiyyət etibarilə, sadəcə davamını görmək mümkündür.

7.1. İşsizlik və inflyasiya nəzəriyyələri

Təklif nəzəriyyəsinin tərəfdarları işsizliyin səbəblərinin monetarist izahını, o cümlədən onun "təbii" norma konsepsiyası daxil olmaqla, ümumilikdə qəbul edirlər. Monetaristlərin ardınca onlar işsizliyi xalis bazar hadisəsi qismində görürdülər, işsizliyin makroiqtisadi üsullar vasitəsilə aşağı salınmasına istiqamətləndirilmiş dövlətin istənilən hər hansı hərəkətlərini isə sahibkarlığın azadlığına əsassız və məqsədəuyğun olmayan qəsd kimi dəyərləndirirlər.

Onların mövqelərinin xüsusiyyəti və orijinallığı bundan ibarətdir ki, işsizliyin artmasında əsas və başlıca faktor dövlətin sosial təminat sistemi hesab olunur. Birincisi, məhz adı çəkilən bu sistemin özündə məşğul olmayanların iş yerlərinin axtarılmasına dair meyillərin zəifləməsinin səbəbini və deməli, azad əmək bazarının deformasiyasını, habelə işsizliyin "təbii" normasının yüksəldilməsini görürlər. İkincisi, sosial proqramlarla dövlət büdcəsi xərclərinin baş verən artımı əlaqələndirilir ki, bu da, öz növbəsində, vergi qoyuluşunun kifayət qədər yüksək dərəcələrinin tətbiq olunmasını tələb edir. Vergilər ödənildikdən sonra real gəlirin səviyyəsi əməyin azad bazar üçün xarakterik olan göstəricisindən kənara çıxır, bu da məşğulluğun və əməkhaqqının cəlbediciliyini azaldır. Əvəzedilmə effekti yaranır ki, bu zaman öz real gəlirləri ilə qane

olmayan insanların get-gedə daha böyük miqdarı işsizlərin sırasına könüllü surətdə keçməyə başlayır. Resursların bölüşdürülməsi qeyri-optimal və qeyri-səmərəli olmağa başlayır, xüsusən də əməyin təklifi süni olaraq azaldılır. Belə çıxır ki, yüksək vergilər işsizliyə görə verilən müavinətlərin və sosial təminatın digər formalarının mənfi effektini iki dəfəyə qədər yüksəldir.

Bundan əlavə, sosial məqsədlərə sərf edilən dövlət xərcləri pul gəlirlərin sərf olunan və əmanət şəklində toplanılan hissələr arasında mövcud olan nisbəti dəyişmiş olur. Cari istehlakın payı artır, çünki öz rifahını və xoş güzəranını uzunmüddətli perspektivdə dəyərləndirən işlə təmin edilmiş insanlar təqaüdə çıxacaqları dövrdə hökumətin maliyə və digər formada reallaşdırıla biləcək köməyinə ümid edirlər. Nəticədə məcmu gəlirdə əmanətlər payının azalması baş verir, kredit resurslarının və toplama mənbələrinin həcmi azalır ki, bu da iqtisadi artımın ləngiməsinə səbəb olmaqla yanaşı həm də məşğulluğa mənfi təsir göstərir.

XX əsrin 70-ci illərin Qərb iqtisadiyyatını təhlil edərkən*, seplaysayderlər işsizlik probleminin həll edilməsi ssenarisini təklif edirdilər*. Bir halda ki, inkişaf etmiş ölkələrin əksəriyyətində işsizlik başlıca olaraq keynsçi tənzimlənməsinin məhsulu qismində çıxış edir ("təbii" normadan aşağı olan səviyyədə), bu cür tənzimlənmənin dayandırılması onun (işsizliyin) "təbii" səviyyəyə qədər müvəqqəti artımına gətirib çıxara bilər. Təklif nəzəriyyəsinin yaradıcıları vəd edirdilər ki, daha sonra sosial siyasətin, eləcə də vergi islahatının radikal yenidən qurulmasının təsiri nəticəsində əmək bazarı mexanizmi tam gücü ilə işləməyə başlayacaqdır. İşsizlik də tarazlı səviyyəsinə qədər azalacaqdır.

Göründüyü kimi, təklif nəzəriyyəsinin ideyaları neokonservatorların təklif etdiyi işsizlik mexanizminin izahının ümumi axınına orqanik və ayrılmaz surətdə qarışır. Qeyd edək ki, əgər monetaristlər tərəfindən keynsçi siyasətinin məşğul-

luğa mənfi təsirinin ekonometrik sübutları təqdim olunursa, təklif nəzəriyyəsinin dəlil və əsasları ilə bağlı vəziyyət tamamilə fərqlidir. Dövlət tərəfindən həyata keçirilən sosial proqramların həqiqətən də iş yerlərinin qorunub saxlanılması və boş həyat tərzi sürməsi arasında məşğul olanların seçiminə mənfi təsir göstərməsi ilə bağlı onun (təklif nəzəriyyəsinin) tərəfdarları hələ də etibarlı ekonometrik sübut və dəlillərə malik deyillər.

Təklif nəzəriyyəsinin nümayəndələri əsasən inflyasiyanın monetarist versiyasını dəstəkləyirlər. Onların bu hadisənin dərk edilməsinin xüsusiyyətləri gözlənilməz inflyasiyanın müxtəlif faktorların əhəmiyyətinin və onun (inflyasiyanın) aradan qaldırılmasında pul siyasətinə məxsus rolun nə dərəcədə əhəmiyyətli olmasının dəyərləndirilməsində ifadə edilir.

Monetaristlərdən fərqli olaraq, təklif nəzəriyyəsinin yaradıcıları gözlənilməz inflyasiyanın əsas səbəblərini yüksək vergi dərəcələrində, eləcə də istehsal xərclərinin gözlənilməz tərəddüdlərin yaranmasına səbəb olan dövlətin fəaliyyətində (müxtəlif maliyyə sanksiyaları, ətraf mühitin qorunması məqsədilə kapital qoyuluşlarının həyata keçirilməsinə dair tələblər və sair) görürlər. Qiymətlərin əvvəlcədən müəyyənləşdirilməsi mümkün olmayan artımında onlar həmin mənfi effektlərin sahibkarlar tərəfindən kompensasiya etmək üsulunu görürlər.

Büdcə kəsiri məsələsinə dair onların fikir ayrılıqları və ziddiyyətləri də əhəmiyyətlidir.

Burada monetaristlər yarımçıq və qeyri-müəyyən mövqe tuturlar. Bir tərəfdən, neoklassik ənənələri davam etdirərək, onlar ümumilikdə defisitə (kəsirə) qarşı çıxış edirlər və burada gözlənilməz inflyasiya faktorunu görürlər. Digər tərəfdən isə, bu qaydadan, həmçinin istisna da edilir: monetaristlər hesab edirlər ki, defisit (kəsir) o halda iqtisadiyyat üçün ciddi təhlükə törətmir, nə zaman onun miqyası və maliyyələşmə üsulları

M.Fridmenin pul təklifinin artım tempinin sabitləşməsinə dair göstərişinə zidd deyil. Başqa sözlə desək, - defisit (kəsir), əlbəttə ki, bəladır və onun ümumiyyətlə mövcud olmaması daha yaxşıdır. Lakin bir halda ki, o, var, bu bəlanı rifaha çevirmək üçün isə defisitin (kəsirin) ödənilməsini antiinflyasiyaya doğru istiqamətə və meyillərə malik olan uzunmüddətli pul tənzimlənməsinin bir vasitəsinə (alətinə) çevirmək gərəkdir.

Monetarizmin nəzəriyyəçiləri inanırlar ki, dövlətə məxsus qiymətli kağızlarla mərkəzi bank tərəfindən həyata keçirilən əməliyyatları (həmin bu əməliyyatlar uçot dərəcəsi və mütləq ehtiyatların norması ilə birgə pul kütləsinin real dinamikasını əhəmiyyətli dərəcədə müəyyənləşdirir) düzgün (monetarist qanun və qaydalarına görə düzgün olan) pul siyasətin axarına yönəltmək mümkündür. Onlar əmindilər – dövlət büdcə siyasətini pul siyasətinə tabe etmək iqtidarındadır və bunu etməyə borcludur; defisitin (kəsirin) maliyyələşdirilməsi ilə bağlı qərarlar pul tənzimlənməsinin monetarist reqlamentinə daim ehtiyatla yanaşılması şərti ilə qəbul edilməli və adı çəkilən bu reqlamentin pozulmaması üçün böyük diqqət ayrılmalıdır.

Təklif nəzəriyyəsinin nümayəndələri defisiti (kəsiri) **tamamilə rədd edirlər. Onların qənaətinə görə**, monetaristlər dövlətin pul tədavülünə nəzarət etmək və onu idarə etmək qabiliyyətini şişirdirlər, çünki təcrübədə pul siyasəti bir çox hallarda kreditlərin, istehsalın və məşğulluğun keynsçi tənzimlənməsinin silahı kimi xidmət göstərir və M.Fridmenin tələb etdiyi kimi pul aqreqatlarının sabitləşdirilməsini nəzərdə tutmur. Onların büdcəni sadəcə olaraq pul siyasətinin bir alətinə çevirməklə bağlı arzuları xüsusən şübhə doğurandır. Təklif nəzəriyyəsinin tərəfdarları dövlətə gözlənilməz inflyasiyanın büdcə kanalını tamamilə bağlamağı, defisitdən (kəsirdən) yan keçməklə pul təklifini digər yollar vasitəsilə dəyişməyi məsləhət görürlər.Onlar müstəqil, pul siyasətindən

ümumiyyətlə asılı olmayan büdcə siyasətinə tərəfdar çıxırlar ki, bu da kifayət qədər tam izah olunan məqamdır. Çünki təklif nəzəriyyəsinin dayaqlarından biri – iqtisadiyyatın vergi stimullaşdırılmasının səmərəli olduğuna dair əminlikdən ibarətdir.

Təklif nəzəriyyəsi yaradıcılarının pul siyasətini həyata keçirən dövlət orqanlarına qarşı olan inamsızlıq, gözlənilməz inflyasiyaya yol vermədən monetarist pul strategiyası çərçivəsində həmin orqanların defisiti (kəsiri) maliyyələşdirmək qabiliyyətinə dair skeptisizm (obyektiv varlığın, yaxud hadisələrin insan tərəfindən dərk edilə bilməsinin inkar olunması) onu göstərir ki, büdcə problemləri üzrə onlar, monetaristlərdən fərqli olaraq, daha realist mövqelərdən çıxış edirlər. Əlavə edək ki, bu müddəa üzrə də onların nöqeyi-nəzərləri F.Fridmenin təsəvvürləri ilə müqayisədə F.fon Hayekin təsəvvürləri ilə daha yaxşı uyğunlaşır. Məhz müasir neoavstriya məktəbinin lideri uzun illər ərzində həm büdcə tarazlığının təyin edilməsini, həm də pul tədavülü sahəsində dövlətin malik olduğu səlahiyyətlərin sərt şəkildə məhdudlaşdırılmasını tələb edirdi.

7.2. İqtisadi artım konsepsiyasının xüsusiyyətləri

Əgər işsizlik və inflyasiya konsepsiyalarında təklif nəzəriyyəsinin nümayəndələri monetarist versiyalarını sadəcə olaraq tamamlayırsa, iqtisadi artım problemlərinin onlar tərəfindən həyata keçirilmiş təhlili heç şübhəsiz olduqca orijinal xarakter daşıyır. Burada təklif nəzəriyyəsi prioritetə malikdir (üstünlük təşkil edir), çünki monetarizm iqtisadi dinamikasına dair məsələlərin işlənib hazırlanması ilə bağlı öz layihələrinə malik deyil.

Neokonservatizmin *digər elementləri kimi, iqtisadi artım konsepsiyası da tənqidi istiqamətə malik olması ilə seçilir və iqtisadiyyatın inkişafına maneçilik törədən faktorların tədqiq edilməsi üzərinə cəmləşir.* **Neokonservatorlar üçün ənənəvi olan** “müqayisə edilmə” üsulundan istifadə

olunur: deyək ki, keynsçi tənzimlənmənin, yaxud dövlət tərəfindən həyata keçirilən sosial siyasətin nüfuzdan salınması şəxsi versiyanın lehinə xidmət edən həlledici arqument (dəlil, sübut, əsas) kimi dəyərləndirilir ki, adı çəkilən həmin bu versiyaya müasir cəmiyyətin sərəncamında olan yeganə alternativin keyfiyyətləri və xüsusiyyətləri verilir.

Konsepsiyada mərkəzi yer əmanətlər probleminə məxsusdur. Məhz onların çatışmamasında iqtisadi artımın ləngiməsinin əsas və başlıca səbəbi bilavasitə müəyyən edilir. Aydındır ki, əmanətlərə dair belə yanaşma keynsianlıq prinsiplərinə tamamilə ziddir.

Əmanətlərin qıtlığı isə, öz növbəsində, vergi sisteminin qeyri-mükəmməl olması ilə şərtləndirilir. Xüsusən gəlirə tətbiq edilən yüksək vergi dərəcələri bazar proseslərini təhrif edir, kapitalın sərf edilməsinin ən son həddə səmərəliliyin iqtisadiyyat üçün olduqca təhlükəli olan azalmasına səbəb olur ki, bu da əmanətlərin toplanılmasına, investisiyalara və iqtisadi artım templərinə mənfi təsir göstərir. Amerikalı iqtisadçı-konservator P.Bourmen yazır ki, dövlət tərəfindən həyata keçirilən vergi siyasəti "investisiyalar hesabına istehlakın artmasına kömək etməklə vergi sisteminin kapitalın toplanıəlmasına qarşı aşkar ifadə olunan əks təsiri daha da güclü edir".

Vergi qoyuluşundan sonra qalan real gəlirlər azalanda, şəxsi əmanətlərin azalma mexanizmi fəaliyyət göstərməyə başlayır (həmin mexanizm daha sonra təsvir olunur) və bunun nəticəsində toplanmanın maliyyə əsası pozulur. **Seplaysayderlər iddia edirlər ki**, eyni istiqamətdə dövlət tərəfindən həyata keçirilən sosial siyasət də təsir göstərmiş olur. Məsələ burasındadır ki, sözügedən bu siyasət əmanətlər hesabına cari istehlakın təkcə artımını stimullaşdırmır, o, həmçinin əmək təklifinin azalmasına, işsizliyin artmasına, əmək gəlirlər həcminin aşağı düşməsinə və beləliklə də, həm də əmanətlərin azalmasına səbəb olur.

İnflyasiya da iqtisadi inkişafa böyük ziyan vurur – nominal faiz dərəcələrin yüksəlməsini süni surətdə törədir, sahibkarların kredit mənbələrinə çıxışını məhdudlaşdırır. Bir halda ki, inflyasiya gəlirə yüksək vergi qoyuluşu ilə qarışmış olur, səhmdarları kapital qoyuluşdan imtina etməyə vadar edən dividentlərin aşağı düşməsi ehtimalı yaranmağa başlayır. Əlavə inflyasiya vergisi də təzyiq göstərir – korporasiyalar tərəfindən ödənilən vergilərin məbləği inflyasiya tempinə vurulmuş adi vergiyə bərabər olur**.** Nəhayət, seplaysayderlər inandırıcı və əsaslı şəkildə sübut etmişdilər ki, qiymətlərin sabit davam edən artım tempinin yüksəlməsi şəraitində əsas kapitalın həyat davamiyyəti də yüksəlir, mənəvi cəhətdən köhnəlmiş avadanlığın payı artır ki, bütün bunlar elmi-texniki tərəqqinin əldə etdiyi nailiyyətlərin mənimsənilməsini və tətbiq olunmasını gecikdirir, eləcə də iqtisadi artımı ləngidir.

Təklif nəzəriyyəsini işləyib hazırlayanların xidməti həm də bundan ibarətdir ki, onlar büdcə kəsirinin genişlənmiş təktaristehsala olan mənfi təsir mexanizmini dərk edə bildilər. Aydın olmuşdur ki, nə zaman defisit (kəsir) dövlətin borc iltizamları ilə ödənilir, maliyyə bazarlarında mənfi hadisələr yaranmağa başlayır. Dövlət, inflyasiyanın sürətlənməsinin qarşısını almağa cəhd etməklə, onlarda (borc iltizamları üzərində) özünün qiymətli kağızların əsas kütləsini yerləşdirir və bu səbəbdən xüsusi (şəxsi) firmaların qorxulu və hədələyici rəqibinə çevrilir. Borc iltizamları üzrə faiz dərəcəsi ilə manipulyasiya etməklə, dövlət kreditinin həcmini və onun ödənilməsi müddətini təyin etməklə, xüsusi sektordan əks halda istehsala yatırılan kapital qoyuluşlarına çevrilə biləcək kredit resurslarını almış olur. Həmin bu resurslar dövlət istehlakı sektoruna, əsas etibarilə qeyri-istehsal sferasına istiqamətləndirilir ki, bu da mahiyyət baxımından xüsusi biznesin kapital bazarlarından sıxışdırıb çıxarılmasına bərabərdir. Bundan əlavə, büdcə kəsirləri pula olan xüsusi (şəxsi) tələbatın artımına, banklarda və digər kredit təsisatlarında faiz dərə-

cələrinin yüksəldilməsinə səbəb olur. Yekunda xüsusi (şəxsi) istehsal toplanmasının həm maliyyə, həm də maddi bazası daralır, kredit bahalaşır, investisiyaların səviyyəsi aşağı düşür. M.Feldstayn qeyd edirdi: "Federal defisitləri (kəsirləri) Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatını xarakterizə etməklə, xüsusi əmanətlər şəklində mövcud olan resurslara yatırılan xüsusi investisiyalarla birbaşa rəqabət aparır".

Bu hadisənin nəzəri və ekonometrik təhlili amerikalı iqtisadçı R.Barrounun tədqiqindən edilməsindən başlamışdır, bu alim həmin hadisəni kredit resurslarına olan xüsusi (şəxsi) tələbatın dövlət tələbatı ilə sıxışdırıb çıxarılma effekti (crowd-out effect) adlandırmışdır. O, hesab edirdi ki, defisitin (kəsirin) təkrar istehsal dinamikasına edilən bu mənfi təsiri aradan qaldırmaq məqsədilə büdcə tarazlığını təyin etmək, habelə dövlət tərəfindən maliyyə bazarlarının boşaldılmasını istisna etmək lazımdır. Belə olan halda kəsirin (defisitin) ləğv edilməsi büdcə siyasətinin "neytrallaşdırılması"na bərabər olacaqdır ki, həmin siyasət, həmçinin pul siyasəti kimi, gözlənilən inflyasiya şəraitində bazar sisteminin azad və sərbəst şəkildə fəaliyyət göstərməsinin təminatı qismində çıxış edəcəkdir.

Bu təsəvvürlərə əsaslanaraq, ***saplaysayderlər hökumətlərə təklif edirlər ki, əmanətlərin toplanılması ilə bağlı mövcud olan keynsçi qorxusuna son qoyulsun, həmin əmanətlərin vergi islahatının həyata keçirilməsi vasitəsilə artımına, dövlətin sosial xərclərinin azaldılmasına, büdcə kəsirlərinin aradan qaldırılmasına imkan yaradılsın. Eyni zamanda sürətləndirilmiş amortizasiya siyasətinin köməyi ilə istehsalın stimullaşdırılmasına da müəyyən dərəcədə əhəmiyyət verilir.***

Bu cür tədbirlərin həyata keçirilməsi bazar proseslərinin deformasiyasının (formanın (şəklin) dəyişməsinin) qarşısının alınması istiqamətində istifadə olunan vasitə, iqtisadi artımın sürətləndirilməsi problemin həllində açar kimi dəyərləndirilir.

7.3. Vergi islahatının layihələri. Laffer effekti

İşsizlik konsepsiyaların, inflyasiyanın və iqtisadi dinamika konsepsiyalarının nəticələri böyük bir nəzəri fundament təşkil edir ki, onun üzərində keynsian doktrinasına və keynsian siyasətinə qarşı alnernativ qismində irəli sürülən iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi islahatının neokonservativ layihəsi qurulur.

Təklif nəzəriyyəsinin tərəfdarları, eyni ilə monetaristlər kimi, dövlətdən iqtisadiyyatın bazar potensialının səfərbər olunmasına, eləcə də azad sahibkarlıq sisteminin qorunub saxlanılmasına istiqamətləndirilmiş fəaliyyətin həyata keçirilməsini tələb edirlər. Ancaq neokonservatizmin hər iki cərəyanının nümayəndələri bu cür dəstəyin formalarını fərqli-fərqli başa düşürlər. **Xüsusən, təklif nəzəriyyəsinin yaradıcıları monetaristlərə xas olan uzunmüddətli pul tənzimlənməsinin mütləqləşdirilməsini rədd edirlər. *M.Feldstayn qeyd edir ki,*** pul siyasəti, hətta M.Fridmenin reqlamentinə tam uyğun bir şəkildə qurulduğu təqdirdə, özü-özlüyündə qeyri-mükəmməl və qeyri-təkmil vergi siyasəti tərəfindən pozulan bazar mexanizminin azad bir formada fəaliyyət göstərməsinə təminat vermir.

Belə tənzimlənmənin mövcudluğu, əbəttə ki, zəruridir, lakin onun arzuedilən nəticələrə səbəb olması ancaq yeni vergi siyasətinin həyata keçirilməsi ilə birləşdirilməsində mümkün olacaqdır. Təklif nəzəriyyəsinin prinsipial nəticələrini cəmləşdirərək, amerikalı iqtisadçı T.Rot göstərir ki, "qeyri-inflyasiyalı iqtisadi artımın hərəkətverici qüvvəsi təklif nəzəriyyəsinə uyğun olan, eləcə də pul kütləsinin artım templərinin azaldılması ilə möhkəmləndirilmiş vergi stimullarıdır".

Əsasən xərclərdə qənaət olunması hesabına dövlət büdcəsinin həcmlərini (və onun milli gəlirdəki payını) əhəmiyyətli dərəcədə azaltmaq tələblərində həm monetaristlər, həm də

təklif nəzəriyyəsinin tərəfdarları vahid bir mövqedən çıxış edirlər.

Neokonservatizmin konsepsiyalarında dövlət xərcləri ümumilikdə passıv rol oynayır, heç bir tənzimləyici vəzifəyə malik deyil. Onların azaldılmasında sadəcə olaraq dövlətə iqtisadi proseslərə əsassız bir şəkildə müdaxilə etmək imkanlarını verən maliyyə resurslarını onun əlindən almaq kimi məqsədə doğru aparan bir yol görürlər. Əgər monetaristlər təqribən eyni tərzdə vergilərə də yanaşırlarsa (onlar üçün ən əsası – pul siyasətidir), təklif nəzəriyyəsinin tərəfdarları isə, əksinə, vergi siyasətini dövlət tənzimlənməsini ən mühüm və əhəmiyyətli alət kimi dəyərləndirirlər.

Həyata keçirilən vergi qoyuluşu sisteminin radikal islahatının əsas istiqaməti ən son hədd vergi dərəcələrinin əhəmiyyətli azaldılması hesab olunur ki, bu da iqtisadçı-konservatorların niyyətinə görə bazar sisteminin imkanlarını daha dolğun və tam şəkildə üzə çıxarmalıdır. Belə nöqteyi-nəzər keynsiançıların "dəqiq köklənmə" siyasəti ilə tam ziddiyyət təşkil edir ki, onun ("dəqiq köklənmə"nin) formalarından biri – vergi dərəcələrin manipulyasiyası vasitəsilə məcmu tələbatın idarə olunmasıdır.

Təklif nəzəriyyəsinin vergi bölümündə nəzərdə tutulur ki, vergi dərəcələrinin aşağı salınması diferensiasiya (dərəcələrə ayrılmış, təbəqələrə ayrılmış) **şəklində, onun ən son hədd səmərəliliyinə proporsional surətdə olmalıdır.** Məsələn, daha çox vergilərin belə növləri azaldılmalıdır ki, onlar kapitalın toplanılmasının və məşğulluğun artımı nöqteyi-nəzərdən maksimal ən son hədd faydalılığı verə bilər. İlk növbədə bu, kapital qoyuluşlarına tətbiq edilən vergilərə aiddir. Bu zaman əvvəllər daşınmaz əmlaka, eləcə də istehsal prosesi ilə heç bir əlaqəsi olmayan məqsədlərə sərf edilən maliyyə resurslarını istehsal sferasına doğru istiqamətləndirmək imkanı yaranır.

Yüksək gəlirlərə malik olan şəxslərə vergi qoyuluşunun islahatlaşmasına da əhəmiyyətli rol ayrılır. Burada əsas səbəb ondan ibarətdir ki, adı çəkilən islahatların həyata keçirilməsi olduqca güclü effekt verə bilər, çünki kasıb və yoxsul insanlarla müqayisədə daha zəngin və varlı adamlar əmanətlərin toplanılmasına olan böyük meyillərə malik olması ilə fərqlənirlər.

Vergi dərəcələrinin aşağı salınmasında neokonservatorlar müasir iqtisadiyyata xas olan bir çox problemlərin həll edilməsinə doğru aparan hamar və sürətli bir yolun olduğunu görürlər.

Vergi stimulları ilə kapital qoyuluşların gəlirliyinin artırılması, onun səviyyəsinin azad bazar sisteminə xas olan səviyyəyə qədər yaxınlaşdırılması ilə əlaqələndirilir ki, bütün bunların nəticəsində toplanmanın norma və kütləsinin artması baş verəcəkdir. "Korporasiyaların əmanətlərini təşviq edən vergi siyasəti məcmu investisiyaların artımına gətirib çıxaracaqdır". Bu, yeni iş yerlərinin yaranmasına kömək edəcəkdir. Həm də nəzərə almaq lazımdır ki, bu proses çərçivəsində məşğulluğun artması qeyri-inflyasiya yolu ilə həyata keçiriləcək, bu isə olduqca önəmli məqamdır. İşsizliyin azalmasına məşğulluğun xeyrinə işçilər tərəfindən üstünlüklərin verilməsi istiqamətində dəyişikliklərin mövcudluğu (çünki vergi qoyuluşundan sonra real gəlirlər artacaq) və, müvafiq olaraq, əmək təklifinin artırılması səbəb olmalıdır.

Vergi islahatı xüsusi (şəxsi) əmanətlərin və kredit resurslarının artmasına gətirib çıxaracaq və bununla yanaşı iqtisadi artımın maliyyə təməli genişlənəcək, gəlirlərin cari istehlaka doğru iqtisadiyyat üçün olduqca zərərli olan əyrilik aradan qaldırılacaq. Doğrudir, bu effekt yalnız bu şərtin yerinə yetirilməsi çərçivəsində mümkün olacaqdır ki, vergi strukturunda baş verən dəyişikliklər monetarist nəzəriyyəçilərin tövsiyələrinə cavab verən məhdudlaşdırıcı pul siyasəti ilə müşayiət olunacaqdır. Yalnız bu halda inflyasiya gözləntilərinin zəifləməsinə ümid etmək olar, perspektivdə (gələ-

cəkdə) isə - istehlakçıların psixologiyasında belə bir deflyasiya motivlərin (səbəblərin) əmələ gəlməsinə arxalanmaq olar ki, onlar gəlirlərin artımının daha çox istehlakına deyil, əmanət olaraq toplanılmasına sövq edir.

Təklif nəzəriyyəsinin yaradıcıları ümid edirlər ki, şəxsi əmanətlərin həcmi o dərəcədə artacaq, onun miqdarı həm xüsusi (şəxsi) investisiyaların həyata keçirilməsinə, həm də konservativ iqtisadi siyasətə keçid zamanı əmələ gəlməsi istisna edilməyən müvəqqəti büdcə kəsirinin maliyyələşdirilməsinə də kifayət edəcəkdir. Göründüyü kimi, şəxsi əmanətlər pul vəsaitlərinin xüsusiyyətini təşkil edən bir ehtiyat rezervuarı qismində dəyərləndirilir ki, onun vasitəsilə dövlətin əlavə borc iltizamlarını emissiyaya əl atmadan yerləşdirmək mümkündür.

Vergi dərəcələrinin uzunmüddətli azalmasının nəticəsi büdcə kəsirin artımı deyil, əksinə, onun azalması olacaqdır ki, bu da inflyasiya prosesinin sabitləşdirilməsində yardım edəcəkdir. Bu xülasə dünya iqtisad elminə Laffer effekti kimi tanışdır. Onun qrafik təsviri şəkil 1-də təqdim olunur (burada $\boldsymbol{X}$ – faizlə göstərilmiş vergi dərəcələrinin səviyyəsi, $\boldsymbol{X_a}$ – onların optimal (ən münasib və əlverişli) ölçüsü, $\boldsymbol{Y}$ – vergi qoyuluşu nəticəsində dövlət gəlirlərinin ortaillik həcmi, $\boldsymbol{Y_a}$– onun maksimal miqdarı).

Ehtimal edək ki, real mövcud olan vergi dərəcələri $\boldsymbol{X_b}$-yə bərabərdir, dövlət bedcəsinə daxil olan vergi məbləğləri isə - $\boldsymbol{Y_b}$**-yə** (Laffer əyrisinin **B** nöqtəsi). Amerikalı iqtisadçı A.Lafferin konsepsiyasına uyğun olaraq, vergi dərəcələrinin aşağı salınması dövlət gəlirləri həcminin yalnız qısamüddətli azaldılmasına səbəb olacaqdır. Bu tədbirin həyata keçirilməsi uzunmüddətli perspektivdə isə əmanətlərin, investisiyaların, istehsalın, məşğulluğun və beləliklə də, vergi qoyuluşuna cəlb ediləcək məcmu gəlirlərin artımını təmin etmiş olacaqdır. Həmin proses (*B* nöqtəsindən başlayaraq *A* nöqtəsinə doğru hərəkət) yalnız vergi qoyuluşunun proqressiv sisteminin tətbiq

edilməsi və əsas etibarilə korporasiyaların yüksək gəlirlərinə və mənfəətinə tətbiq olunan dərəcələrin azaldılmasını nəzərdə tutan islahatların həyata keçirilməsi zamanı mümkündür. Yekun nəticədə dövlətin gəlirləri yüksələcək, defisit (kəsir) azalacaq, sıxışdırıb çıxartma effekti daha da zəif olacaq, inflyasiyanın ləngiməsi və iqtisadi artımın sürətləndirilməsi baş verəcəkdir.

Aydındır ki, həyata keçirilən vergi siyasətinin optimal olmasının əsas meyarı vergi qoyuluşunun tətbiqi nəticəsində dövlət gəlirlərinin maksimumu hesab olunur.



Şəkil 1. **Laffer əyrisi**

Əgər biz tarixə müraciət etsək görərik ki, ***Laffer effekti gəlirə və əməkhaqqına tətbiq edilən vergi dərəcələrindən əldə olunan və büdcəyə istiqamətləndirilən vergi daxilolmalarının asılılığını təsbit edən iki funksiyanın riyazi tədqiqi zamanı aşkar olunmuşdur.*** Həmin tədqiqat göstərmişdir ki, vergi dərəcələrinin müəyyən (optimal) səviyyəsi mövcuddur və bu zaman dövlət gəlirlərini əks etdirən funksiya özünün maksimumuna çatır, həmçinin sonuncunun (dövlət gəlirləri funksiyasının) bu səviyyənin optimal qiymətdən yuxarı, yaxud aşağı olduğu zaman azalması müşahidə olunur. Yalnız bundan sonra Laffer effektinin ekonometrik texnikanın (mütəlif ölkələr üçün, müxtəlif dövrlər üçün və sair) köməyi ilə müfəssəl öyrənilməsinə başlanıldı və onun şifahi təsviri yaradıldı.

Tamamilə aydındır ki, Laffer effekti təklif nəzəriyyəsində son dərəcə əhəmiyyətli yer tutur. Məhz onun üzərindən həmin nəzəriyyənin mərkəzində yerləşən vergi tənzimlənməsi konsepsiyası ilə inflyasiya və iqtisadi artım konsepsiyaların təməlində dayanan dövlət bedcəsinin tarazlıq prinsipi arasında mahiyyət baxımından yeganə olan bağlılıq xətti keçir. Amerikalı iqtisadçı S.Russo xüsusi olaraq qeyd edir ki, "Vergi dərəcələrinin azaldılmasının dövlət gəlirlərinin yüksəldilməsinə gətirib çıxarması haqqında fikir təklif nəzəriyyəsində həlledici rola malikdir".

Gördüyümüz kimi, təklif nəzəriyyəsi vergi qoyuluşu problemlərinin bir çox orijinal işlənmələrini təqdim etmişdir. Amma eyni sözləri pul siyasəti haqqında demək olmaz. Həmin siyasətin qiymətləndirilməsində təklif nəzəriyyəsinin nümayəndələri ümumilikdə monetarizm ideyaları ilə həmrəy olurlar.

Neokonsevratizmin hər iki cərəyanının səciyyəvi xüsusiyyətlərindən uzaqlaşsaq, onda iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sisteminə dair mövqelərin bütövlüyünü üzə çıxartmaq mümkün olacaqdır. **Hər iki cərəyanın** nümayəndələrinin belə bir fikirləri üst-üstə düşür ki, **sözügedən sistem uzunmüddətli xarakterə malik olmalı və məcmu tələbin**

antitsiklik idarə olunmasına deyil, əmtəələrin, kapitalların və istehsal faktorlarının təklifinin stimullaşdırılmasına istiqamətləndirilməlidir. Belə ki, dayanıqlı iqtisadi artımın təmin edilməsi məqsədilə əmanətlər təklifinin və kredit resurslarının vergi islahatı vasitəsilə tənzimlənməsinin həyata keçirilməsi tövsiyə olunur. İnflyasiyanın qarşısının alınması istiqamətində yerinə yetirilən tədbirlərin ən mühüm və əhəmiyyətli olanı monetarist pul siyasəti hesab edilir. Həmin siyasət pul təklifinin artım tempinin sabitləşdirilməsinə yönəldilir. İşsizlik probleminin həll olunması dövlət tərəfindən bazar mexanizminin fəaliyyətinin azadlığının və sərbəstliyinin bərpa edilməsi üzrə həyata keçirilən müxtəlif tədbirlərlə əlaqələndirilir ki, həmin tədbirlər də, öz növbəsində, əməyin təklifinə müsbət təsir göstərməlidir.

Bir halda ki, tələb faktoru nəzəriyyənin hüdudlarından faktiki olaraq kənara çıxarıldı, iqtissdiyyatın antitsiklik tənzimlənməsinə həmişəlik son qoyulmasına dair seplaysayderlərin təkidli çağırışları dünya iqtisadi elmində heç də birmənalı reaksiyanın yaranmasına səbəb olmamışdır. Xüsusən, antikonservatizm zəmnində müxtəlif nəzəri məktəblərin konsolidasiyasına (qısamüddətli təəhhüdün uzunmüddətli təəhhüdə çevrilməsi prosesi) doğru tendensiya hiss edilməyə başlandı. Çoxsaylı daxili fikir ayrılıqların və ziddiyyətlərin mövcud olmasına baxmayaraq, onlar ümumi xətt üzrə fəaliyyət göstərir və qeyd edirlər ki, neokonservatorlar doqmatizmdən, reallıq hissinin itməsindən, eləcə də böhranların yaranması nəticəsində ibrət dərslərinə laqeyd və etinasız münasibət bəsləməkdən əziyyət çəkirlər. Onlar tərəfindən tərtib edilmiş dövlət tənzimlənməsi sahəsində həyata keçiriləcək islahatların layihəsini xarakterizə etməklə, müasir keynsçiliyin görkəmli nəzəriyyəçisi C.Tobin qeyd edir ki, "onların ssenarilərini sənaye dövrünə aid və hamıya yaxşı tanış olan faktlarla "barışdırmaq" çətindir". Eyni nöqteyinəzərə əsaslanaraq həm də C.K.Helbreyt çıxış edir**.** Təklif nəzəriyyəsi tərəfdarlarının genişmiqyaslı siyası ambisiyalarına

dair ciddi narahatlıqlarını ifadə edərək (həmin tərəfdarlardan biri – amerikalı konservator **C.Vannisk**i – yazırdı ki, bu nəzəriyyənin məqsədi "təklifin belə modellərinin işlənib hazırlanmasından ibarətdir ki, onlar bir-iki nəsil üçün həyata keçirilə biləcək real siyasətin əsası qismində xidmət edəcəkdir"), o (C.K.Helbreyt), hesab edirdi ki, neokonservatizmin bir nəticə olaraq gəldiyi fikir və mülahizələr üzərində özünün strategiyasını formalaşdıran dövlət "mümkün ola biləcək ən pis iqtisadi siyasəti" həyata keçirmiş olur.

Lakin məlumdur ki, bütün bunlar və bir çox digər xəbərdarlıqlar neokonservatizmin gəldiyi fikir və mülahizələrinə qarşı siyasətçilər tərəfindən ehtiyatla yanaşılmasına nail olsalar belə, həmin cərəyanın xeyrinə seçim etməkdə onlara maneçilik törətməkdə aciz qaldılar. Ötən əsrin 80-ci illərində təklif nəzəriyyəsinin bir sıra prinsipləri Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın və digər inkişaf etmiş ölkələrin hökumətləri tərəfindən həyata keçirilən iqtisadi siyasətinin təməlinə salınmışdır. Beləliklə, XX əsrin 80-ci illərin iqtisadiyyatı və siyasəti bu nəzəriyyənin təcrübə baxımından əhəmiyyətinin dəyərləndirilməsi üçün bizə kifayət qədər əsaslar verir.

Aydın olmuşdur ki, praktiki cəhətdən həmin nəzəriyyənin tərkibinə daxil olan konsepsiyalar qətiyyən eyni əhəmiyyətə, dəyərə və keyfiyyətə malik deyil. Bir tərəfdən, burada ifratçılıq, eləcə də real iqtisadi siyasət üçün bir o qədər də yararlı, münasib və əlverişli olmayan təkliflər mövcuddur – dövlətin sosial təminat sisteminin demontajı (sökülməsi), antitsiklik tənzimlənmədən imtina və bu kimi bir çox digər təkliflər ki, bütün bunlara heç bir konservativ hökumət cavab verməyərək heç öz münasibətini də bildirməmişdir. Əlavə edək ki, həqiqi siyasiləşməyə məruz qalmış neokonservatorlar tərəfindən irəli sürülən tövsiyələr arasında, məsələn, "reyqanomika" vaxtlarında, belə təkliflər də üzə çıxmışdır ki, onların təcrübə də həyata keçirilməsi gözlənilən dən də aşağı effektlə nəticələnmişdir. Belə ki, 1980-ci illərdə Amerika Birləşmiş

Ştatları iqtisadiyyatının inkişaf etdirilməsi göstərmişdir ki, Laffer effektinə, vergi siyasətinin konservativ yönümlü və kifayət qədər səmərəli olmasına, təsirli antiinflyasiya tənzimlənməsinə və neokonservatizmin siyasi arsenalından (ehtiyatından) bir çox digər tədbirlərin dəhəyata keçirilməsinə baxmayaraq, federal büdcə kəsirinin problemini həll etmək yenə də mümkün olmamışdır. Eyni zamanda, çoxlu və neokonservatorlar tərəfindən nəzərə alınmamış tənzimlənmə ehtiyatları aşkar olundu ki, onların səfərbər ediləsi Briləşmiş Ştatların hökumətinə inflyasiya tempini azaltmaq, iqtisadi artımı sürətləndirmək və ona yeni keyfiyyət vermək imkanını yaratdı. Təklif nəzəriyyəsi nümayəndələri tərəfindən gətirilən dəlillərin əksinə olaraq, Amerika hökuməti bütün bunları xroniki federal defisit (kəsir) şəraitindən etməyə nail olmuşdur.

Digər tərəfdən, inkişaf etmiş ölkələrin təcrübəsi təsdiq etdi ki, təklif nəzəriyyəsində elə realistik məqamlar mövcuddur. Söhbət yeni nəticələrdən, müasir iqtisadiyyatn şəraitinə uyğun olaraq məlum olan müddəaların dəqiqləşdirilməsi, yaxud inkar edilməsi haqqında gedir.

Neokonservatorların əsas və başlıca xidməti bundan ibarətdir ki, onlar dünya iqtisadi təfəkkürünün cərəyanlarını təmsil edən nümayəndələrdən fərqli olaraq ötən əsrin 70-ci illərinin iqtisadiyyatna xas olan daha mürəkkəb və dolaşıq "xəstəliklərin" diaqnostikasını daha dəqiq və dürüst şəkildə işləyib hazırlaya bilmişlər. Bunun üçün işsizlik, inflyasiya, iqtisadi artım, pul tədavülü, dövlət maliyyələri və sair problemlərin daha məzmunlu və dolğun tədqiqatların aparılmasına ehtiyac yaranmışdır. Məhz konservatorlar həmin ölkələrdə müharibədən sonrakı dövr ərzində yaranmış iqtisadiyyatın dövlət tərəfindən tənzimlənmə sisteminin yenidən qurulması zərurətinin olduğunu sübut etmişdilər. Onlar hiss etmişdilər ki, bu cür yenidənqurmanın sürətli yolu bazarın yaradıcı və qurucu potensialının mümkün ola biləcək hər cür səfərbər edilməsindən, onun imkanlarının maksimum dərəcədə istifadə olun-

masından keçir. İnflyasiya gözləntilərinə, istehsal toplanmasının vergi stimullaşdırılmasına, eləcə də pul və büdcə siyasətinin funksiyalarının dürüst bir şəkildə müəyyən edilməsinə dair həyata keçirilmiş konkret işlənmələr və layihələr də olduqca yüksək dəyərləndirilməlidir.

Neokonservatorların bəzi tövsiyələrinin praktiki əhəmiyyəti faktiki olaraq öz təsdiqini tapmışdır. Belə ki, **"reyqanomika"** illəri ərzində prezident administrasiyasının həyata keçirdiyi konservativ vergi siyasəti Amerika Birləşmiş Ştatları iqtisadiyyatının struktur cəhətdən yenidən qurulmasına və artım templərinə olduqca güclü və əhəmiyyətli stimullaşdırıcı təsir göstərmişdir. Federal ehtiyatlar sistemi tərəfindən həyata keçirilmiş monetarist təcrübə və sınaq isə inflyasiya gözləntilərinə və qiymətlərin hərəkətinə şübhəsiz olaraq təsir etmişdir.

Nəticə

Təklif nəzəriyyəsi (supply-side economics) ötən əsrin 70-ci illərində əsasən Amerika Birləşmiş Ştatları iqtisadçılarının səyləri nəticəsində formalaşdırılmışdır.

Özünün mahiyyətinə görə təklif nəzəriyyəsi kifayət qədər amorf bir törəməni təşkil edir. Burada xüsusi, qısaca və dürüst bir şəkildə ifadə olunmuş metodoloji və fikir platformalar, predmetin dürüst və dəqiq xarakteristikası, qəbul edilmiş liderlər mövcud deyil.

Təklif nəzəriyyəsinin kifayət qədər yüksək nüfuza malik olmasının əsas və başlıca səbəbi bundan ibarətdir ki, onun tərəfdarları təsərrüfat təcrübəsinin qoyduğu suallara tamamilə inandırıcı və əsaslı cavab vermək, Qərb ölkələrinin iqtisadiyyatı üçün ötən əsrin 70-ci illərinə xarakterik olan bir çox problemlərin həlli istiqamətində konstruktiv variantları işləyib hazırlamaq iqtidarında olmuşlar.

Təklif nəzəriyyəsinin tərəfdarları işsizlik səbəblərinin monetarist izahını, o cümlədən onun "təbii" norma kon-

sepsiyası daxil olmaqla, ümumilikdə qəbul edirlər. Monetaristlərin ardınca onlar işsizliyi xalis bazar hadisəsi qismində görürdülər, işsizliyin makroiqtisadi üsullar vasitəsilə aşağı salınmasına istiqamətləndirilmiş dövlətin istənilən hər hansı hərəkətlərini isə sahibkarlığın azadlığına əsassız və məqsədəuyğun olmayan qəsd kimi dəyərləndirirlər.

Təklif nəzəriyyəsini işləyib hazırlayanların xidməti həm də bundan ibarətdir ki, onlar büdcə kəsirinin genişlənmiş təkraristehsala olan mənfi təsir mexanizmini dərk edə bildilər. Aydın olmuşdur ki, nə zaman defisit (kəsir) dövlətin borc iltizamları ilə ödənilir, maliyyə bazarlarında mənfi hadisələr yaranmağa başlayır. Dövlət, inflyasiyanın sürətlənməsinin qarşısını almağa cəhd etməklə, onlarda (borc iltizamları üzərində) özünün qiymətli kağızların əsas kütləsini yerləşdirir və bu səbəbdən xüsusi (şəxsi) firmaların qorxulu və hədələyici rəqibinə çevrilir.

Təklif nəzəriyyəsinin tərəfdarları, eyni ilə monetaristlər kimi, dövlətdən iqtisadiyyatın bazar potensialının səfərbər olunmasına, eləcə də azad sahibkarlıq sisteminin qorunub saxlanılmasına istiqamətləndirilmiş fəaliyyətin həyata keçirilməsini tələb edirlər.

Təklif nəzəriyyəsinin yaradıcıları ümid edirlər ki, şəxsi əmanətlərin həcmi o dərəcədə artacaq ki, onun miqdarı həm xüsusi (şəxsi) investisiyaların həyata keçirilməsinə, həm də konservativ iqtisadi siyasətə keçid zamanı əmələ gəlməsi istisna edilməyən müvəqqəti büdcə kəsirinin maliyyələşdirilməsinə də kifayət edəcəkdir. Göründüyü kimi, şəxsi əmanətlər pul vəsaitlərinin xüsusiyyət təşkil edən bir ehtiyat rezervuarı qismində dəyərləndirilir ki, onun vasitəsilə dövlətin əlavə borc iltizamlarını emissiyaya əl atmadan yerləşdirmək mümkündür.

Laffer effekti təklif nəzəriyyəsində son dərəcə əhəmiyyətli yer tutur. Məhz onun üzərindən həmin nəzəriyyənin mərkəzində yerləşən vergi tənzimlənməsi konsepsiyası ilə

inflyasiya və iqtisadi artım konsepsiyaların təməlində dayanan dövlət büdcəsinin tarazlıq prinsipi arasında mahiyyət baxımından yeganə olan bağlılıq xətti keçir. Amerikalı iqtisadçı S.Russo xüsusi olaraq qeyd edir ki, "Vergi dərəcələrin azaldılması dövlət gəlirlərinin yüksəldilməsinə gətirib çıxarması haqqında fikir təklif nəzəriyyəsində həlledici rola malikdir".

Gördüyümüz kimi, təklif nəzəriyyəsi vergi qoyuluşu problemlərinin bir çox orijinal işlənmələrini təqdim etmişdir. Amma eyni sözləri pul siyasəti haqqında demək olmaz. Həmin siyasətin qiymətləndirilməsində təklif nəzəriyyəsinin nümayəndələri ümumilikdə monetarizm ideyaları ilə həmrəy olurlar.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1. Təklif nəzəriyyəsi nə zaman formalaşmışdı?
2. Təklif nəzəriyyəsi özünün mahiyyətinə görə nələri ifadə edir?
3. Təklif nəzəriyyəsinin yüksək nüfuza malik olmasının əsas və başlıca səbəbi nədən ibarətdir?
4. Təklif nəzəriyyəsi tərəfdarları baxımından işsizliyin artamının başlıca amili nədən ibarətdir?
5. İşsizliyin probleminin həll edilməsi məqsədilə ötən əsrin 70-ci illərinin Qərb iqtisadiyyatını təhlil edən seplaysayderlər nələri təklif edirdi?
6. Təklif nəzəriyyəsinin yaradıcıları tərəfindən gözlənilməyən inflyasiyanın əsas və başlıca səbəblərini göstərin?
7. Büdcə kəsiri haqqında məsələni təklif nəzəriyyəsinin tərəfdarları necə dəyərləndirirlər?
8. İqtisadi artım konsepsiyasının xüsusiyyətlərini xarakterizə edin.
9. Təklif nəzəriyyəsini işləyib hazırlamış müəlliflərin əsas xidməti nədən ibarətdir?
10. Hansı səbəbdən təklif nəzəriyyəsinin tərəfdarları, monetaristlər də olduğu kimi, dövlətdən iqtisadiyyatın bazar

potensialının səfərbər olunmasına, azad sahibkarlıq sisteminin qorunub saxlanılmasına və dəstəklənməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsini tələb edirdilər?

11. Vergiqoyma sisteminin radikal islahatlaşmanın əsas istiqaməti nədən ibarətdir?

12. Təklif nəzəriyyəsinin tərəfdarları vergi stimulları ilə nəyi əlaqələndirirlər?

13. Təklif nəzəriyyəsinin yaradıcıları vergi islahatları zamanı nəyə ümid edirdilər?

14. Laffer əyrisinin qrafik təfsirini (interpretasiyasını) xarakterizə edin.

15. Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi siyasətinin əsasında təklif nəzəriyyəsinin hansı prinsipləri yer almışdır?

Ədəbiyyat siyahısı:

1. Goode S. Reaganomics: Reagan`s Economic Program. N.Y., 1982, p. 74-75.
2. Nomination of Martin S. Feldstein. Washington, 1982, p. 46.
3. Hayek F. Unemployment and Monetary Policy. San Francisco, 1979, p. 39.
4. Auerbach A. The Taxation of Capital Income. Cambridge (Mass.), 1983, p. 116.
5. Barro R. Money, Expectations and the Business Cycle. N.Y., 1981, p. 264.
6. Feldstein M. Cepital Taxation. Cambridge (Mass.), 1983, p. 373.
7. Supply Side Tax Cuts, Monetary Restraints and Economic Growth Wash., 1983, p. 2.
8. Felstein M. Capital Taxation. P. 112.
9. Canto V., Joines D., Laffer A. Foundations of Supply-Side Economics. N.Y., 1983, p. 1-3.

10. Rousseas S. The Political Economy of Reaganomics. Armonk (N.Y.), 1982, p. 26.

11. Tobin J. Asset Accumulation and Economic Activity. Oxford. 1980, p. 76.

12. Rousseas S. The Political Economy of Reaganomics. Armonk (N.Y.), 1982, p. 26

VIII FƏSİL. SƏMƏRƏLİ GÖZLƏMƏLƏR MƏKTƏBİ (YENİ KLASSİK NƏZƏRİYYƏ)

8.1. Gözləmələr necə formalaşır?
8.2. Fillips əyrisinin interpretasiyası
8.3. Tsikllər nəzəriyyəsinə tarazlı yanaşma

Rasional gəzləmələr məktəbinin konsepsiyası, bu məktəbi, həmçinin bir çox hallarda yeni klassik nəzəriyyə adlandırırlar, müasir iqtisad elmində ən böyük nüfuza malik olan və daha çox ümidlər verən tədqiqat proqramlarından biri hesab olunur. **Yeni klassiklərin liderləri –** ***Robert Lukas, Tomas Sarcent, Neyl Uolles, Edvard Preskott, Robert Barrou, Bennet Makkalum – elmi cəmiyyət birliyinin elitasına möhkəm surətdə daxil olublar, "səmərəli gözləmələr inqilabı" isə bir çox hallarda özünün mahiyyətinə və əhəmiyyətinə görə keynsçilik inqilabı ilə bərabər tutulur, baxmayaraq ki, həmin bərabərləşdirmə onun yaradıcılarının dövlət tənzimlənməsinə dair olan münasibətinə görə əks işarə ilə qeydə alınır.***

Yeni konsepsiya geniş surətdə özünü dərhal təsdiq edə bilmədi və tanınmadı. Onun başlanğıc və ilkin tezisi (yaxud, sözün həqiqi mənasında, məhz səmərəli gözləntilər fərziyyəsinin özü) hələ 1961-ci ildə Karneqi-Mellon Univesitetindən olan alim ***Con Mut*** tərəfindən irəli sürülmüşdür**. Bu fərziyyənin mahiyyəti bundan ibarət olmuşdur ki, gələcəyin proqnozlaşdırılması üçün fərdi şəxslər və xüsusi** (şəxsi) **firmalar iqtisadiyyat haqqında əldə edilən bütün informasiyadan səmərəli şəkildə istifadə edir və buna görə gələcək hadisələrin qabaqcadan müəyyən edilməsində sistematik səhvlərə yol vermirlər; bu mənada onların gözləmələrini səmərəli hesab etmək olar.** O anda həmin fərziyyəyə xüsusi diqqət yönəldən az olmuşdur, çünki həmin fərziyyə özü-özlüyündə müəyyən nəzəri məzmununa və mahiyyətə malik deyil idi.

Yalnız on il keçəndən sonra ***Mutun*** ideyası makroiqtisadiyyatın aktual və önəmli problemlərin təhlil olunması üçün tələb edilmişdir. İlk dəfə sözügedən ideya ***R.Lukasın və E.Preskottun*** "Qeyri-müəyyənlik şəraitində investisiya qoyuluşu" (1971-ci il) həmmüəllif olduqları elmi işində tam ciddiyyətlə tətbiq olunmuşdur. **Daha sonra Lukasın** bir neçə elmi məqaləsi dərc edilmişdir, burada səmərəli gözləmələr nöqteyi-nəzərindən pulun neytrallığı (bitərəfliyi), işsizliyin təbii səviyyəsi və iqtisadiyyata dövlət tərəfindən həyata keçirilən müdaxilələrin səmərəliliyi kimi problemlər təhlil olunurdu**. Müəyyən bir müddət keçdikdən sonra bu alimə: *T.Sardcent və N.Uolles*** (onlar keynsçi modelinin səmərəli gözləmələr nöqteyi-nəzərdən necə göründüyünü nümayiş etdirdilər), ***B.Makkalum və R.Barrou*** (Mutun fərziyyəsi adı çəkilən bu alimləri ilk öncədən qeyri-tarazlığın təzahürləri hesab olunan işsizliyin, inflyasiyanın və tsikllərin təhlilində tarazlı yanaşmanın istifadə olunmasının məqsədəuyğunluğu barədə fikrə gəlməsində təkan rolunu oynadı), eləcə də ***R.Traunsend*** və müxtəlif istiqamətlərdə yeni konsepsiyanı işləyib və inkişaf etdirən bir sıra digər iqtisadçılar qoşuldular.

İş zamanı *Lukas* və onun tərəfdarları tənzimlənmənin keynsçi doktrinasının tamamilə qeyri-səmərəli olması barədə nəticəyə gəlmişdilər. İlk baxışdan burada yeni heç bir şey yox idi. Bu haqda M.Fridmen və onun çoxsaylı ardıcılları və tərəfdarları xeyli danışırdılar, səmərəli gözləmələr məktəbi isə qiymətlərin tamamilə çevikliyi, yaxud işsizliyin təbii səviyyəsi kimi monetarizm üçün xarakterik olan müddəalardan daim istifadə edirdi. Heç də təsadüfi deyil ki, ilk mərhələlərdə iqtisadçıların böyük əksəriyyəti yeni klassik nəzəriyyəni sadəcə olaraq monetarizm mövzusuna dair bir variasiya (bir qədər fərqli variant) kimi başa düşmüşdülər və onların qənaətinə görə sözügedən həmin variasiyanın əsas məqsədi keynsçiliyi tamamilə yox etməkdən ibarət idi.

Ancaq daha yaxından nəzərdən keçiriləndə aydın olmuşdur ki, yeni klassiklərin monetaristlərlə olan nəzəri və metodoloji fikir ayrılıqların və ziddiyyətlərin miqyası keynsçilərlə olan ixtilaflardan heç də az deyil. Məlum olduğu kimi, monetaristlər iqtisadiyyatda pul faktorunun rolunu hər vasitə ilə qeyd edirlər. "Pul əhəmiyyət kəsb edir" şəksiz və mübahisəsiz tezis bir çox hallarda onlar tərəfindən "yalnız pul əhəmiyyət kəsb edir" şüarına qədər hipertrofiyaya məruz qalır (həddindən artıq şişirdilir). **Yeni klassiklərin modellərində isə pul neytraldır və hətta, belə demək mümkündürsə, son dərəcə neytraldır. Əgər pulun kəmiyyət nəzəriyyəsinin banisi *D.Yum* pulun real sektora heç olmasa qısa müddət ərzində təsir göstəriyini etiraf edirdisə, rasional gözləmələr məktəbi isə bu mümkünlüyü də istisna edir.**

Lakin əgər keynsçi tənzimlənmə qeyri-səmərəlidirsə, pul isə mütləq şəkildə neytraldır, onda belə çıxır ki, dövlətin iqtisadiyyata təsir göstərməyin heç bir mexanizmi, yaxud vasitəsi yoxdur. Təqribən buna bənzər nəticəyə səmərəli gözləmələr məktəbi də hasil edir. **Yeni klassiklər deyirlər ki, hadisələrin müəyyən gedişi zamanı hökumət bəzi iqtisadi göstəricilərə birdəfəlik qısamüddətli təsir etmək iqtidarındadır, lakin bu hökumətin hansı yönümlü oriyentasiyada – keynsçi, yaxud monetarist – olduğundan asılı olmayaraq tsiklin təbii gedişatını dəyişmək onun gücünün xaricindədir. Fəal makroiqtisadi siyasətinin ən çox nəyə qadir olduğunu – iqtisadi həyata əlavə qarışıqlıq və çaxnaşma daxil etmək bahasına da olsa məqsədyönlü fəaliyyətin həyata keçirilməsinin imitasiyasından (təqlidindən) ibarətdir.**

Bu cür nəticə hətta *XX* əsrin *70-80-ci* illərində konservatizmin üstünlük təşkil etməsi fonunda belə kifayət qədər qeyri-adı səslənirdi. Həmin nəticə dövlət tənzimlənməsi mövzusunda o vaxta qədər yazılanların az qala hamısı ilə dissonans (ahəngsizlik, qarışıqlıq, uyğunsuzluq) təşkil edirdi. ***İqtisad elmi necə də qəribə bir yekun nəticəyə gəlmiş oldu!***, - onun

tarixçiləri və şərhçiləri məhz belə söyləyirdilər – "Biz merkantilistlərdən başlamışdıq, onlar hesab edirdilər ki, dövlət adətən iqtisadiyyata kömək edir. Daha sonra smitçilər söylədilər ki, dövlət iqtisadiyyata mane olur. Keynsçilər iddia edirdilər ki, dövlət yardımçıdır. Monetaristlər deyirdilər ki, dövlət iqtisadiyyata kömək edə bilər, ancaq tez-tez hallarda mane olur. İctimai seçim məktəbinin iqtisadçıları isə hesab edirdilər ki, dövlət bir qayda olaraq mane olur. İndi səmərəli gözləmələr nəzəriyyəçiləri (yaxud yeni klassiklər) öz sələflərini lağa qoyaraq bəyan edirlər ki, dövlətin müdaxiləsi əslində az bir şey dəyişmək iqtidarında olan fokusçunun (fokuslar göstərən estrada, sirk artisti) məharətinə bənzər sadəcə olaraq bir illüziyadır (xülya)".

Necə ola bilərdi ki, bu cür şoka salan xülasəyə malik olan nəzəriyyə iqtisadçıların elmi cəmiyyət birliyi tərəfindən nəinki dərhal ləğv olunmamışdır, hətta onlar tərəfindən tamamilə ciddiyyətlə və hörmətlə qarşılanmışdır? Həm də bunu nəzərə almaq lazımdır ki, adı çəkilən iqtisadçılar cəmiyyətinin əksər üzvləri özlərinin akademik karyeralarını dövlət tərəfindən həyata keçirilən tənzimlənmənin müxtəlif formalarının əsaslandırılmasına, yaxud tənqidinə həsr etmişlər. İrəli sürdüyümüz bu suala cavab vermək üçün ardıcıl olaraq konsepsiyanın əsas elementləri üzərində dayanmaq lazımdır və nəzərdən keçirmək zəruridir ki, **yeni klassiklər** iqtisadi subyektlərin gözləmələrinin formalaşma prosesini necə təsəvvür edirlər, onların keynsçiliyə və monetarizmə qarşı irəli sürülən nəzəri iddia və tələbləri nədən ibarətdir, eləcə də onların özlərinin müsbət proqramı nəyi ifadə edir.

8.1. Gözləmələr necə formalaşır?

İqtisadi təfəkkür tarixində təsərrüfat subyektinin gözləmələrinin formalaşma prosesinə iki bir-birinə zidd olan yanaşma izlənilir. Onlardan birincisi *XX* əsrdə baş vermiş

marjinalist inqilabının birbaşa nəticəsidir. Məlum olduğu kimi, marjinalistlər hər bir zaman və məkan üçün yararlı ola biləcək universal yüksək dərəcədə abstraktlı (mücərrədli) bir nəzəri sistemin yaradılmasını özlərinə ən ali məqsəd kimi qoymuşdular. Bu cür təkəbbürlü məqsədə nail olunmaq ücün həyata keçirilən təhlil zamanı külli miqdarda "əlavə və kənar faktorlardan", eləcə də "ikincidərəcəli təfərrüatlardan" uzaqlaşmanı nəzərdə tuturdu ki, təhlili aparan alim iqtisadiyyatda mövcud olan əsas xüsusiyyətləri qeyd edə və uzunmüddətli tendensiyaları təsbit edə bilsin. Bu yolu seçərkən tədqiqatçı nəzəriyyənin realistik olduğunu onun universallığı xatirinə qurban verməlidir və marjinalistlər şüurlu şəkildə buna getdilər, onların bu addımı təsərrüfat subyektlərin, davranış tərzinin nəzəri formada əks olunmasında aydın və açıq bir şəkildə özünü büruzə vermişdir.

Marjinalist nöqteyi-nəzər baxımından istər individuum (fərd), istərsə də firma qismində çıxış edən bazar iqtisadiyyatı subyektinin davranışını xarakterizə edən əsas meyar səmərəlilikdir və bu anlayışın mənası fəaliyyət və hərəkət tərzinin optimallığı (ən münasib və əlverişli olması) kimi başa düşülür. Faydalılığın maksimallaşdırılması meyillərində iqtisadi agentlər atacaqları hər bir addımın məsariflərini və mənfəətini ölçüb-biçir və davranış tərzinin ən yaxşı xəttini qururlar. **Bu müddəa marjinalizmin bütün fundamental nəzəriyyələrinin əsasını təşkil edir.** Ancaq tamamilə aydındır ki, optimal (ən münasib və əlverişli) strategiyanın seçimi gələcək məsariflərə, qiymətlərdə baş verə biləcək dəyişikliklərə, gələcək texnoloji yeniliklərə və bu kimi digər məsələlərə dair məlumatların olmadığı təqdirdə həyata keçirilə bilməz; həmçinin bu da aydındır ki, real həyatda təsərrüfat fəaliyyəti ilə məşğul olan vahid gələcək haqqında tam və dolğun məlumata malik ola bilməz. Buna baxmayaraq, səmərəlilik (optimallıq) postulatını (sübutsuz olaraq əsas götürülən müddəa, fərziyyə) qoruyub saxlamaq məqsədilə marjinalistlər, başqa bir çıxış

yolu tapmayaraq, təsərrüfat subyektinin gələcəyi mütləq şəkildə bilməsi ilə əlaqədar nəzəri ehtimalı qəbul etməli oldular.

Bu baxımdan *L.Valrasın* ümumi iqtisadi tarazlıq sistemi xüsusilə nümunəvi xarakterə malikdir. Burada qiymətlərin çeşidi tâtonnement prosesdə - əl ilə yoxlamaqla hərəkət etmə zamanı təyin olunur ki, belə olan halda adı çəkilən bu hərəkət tarazlıq vəziyyətindən kənarlaşmaya imkan verməyən və qiymətlərin ani təshih edilməsinə təminat verən hər hansı bir təsəvvür olunan auksionçu tərəfindən istiqamətləndirilir. **Məhz bu cəhət valras sxemini tarazlıq vəziyyətinin** "ani şəklinə" çevirir ki, burada zaman ölçüsü mövcud deyil. **Sözügedən vəziyyətdə gözləmələrin** maliyyələşdirilməsi problemi olduqca sadə bir formada həll olunur: həqiqi və gözlənilən kəmiyyətlər tərif üzrə üst-üstə düşür.

Bu ehtimalın açıq-aşkar qeyri-real olmasına reaksiya gözləmələr haqqında məsələlərə dair digər fərqli bir yanaşmanın formalaşdırılması şəklində baş vermişdir. *Ona uyğun olaraq, iqtisadi həyat risklərlə və qeyri-müəyyənliklərlə doludur. Əgər yarana biləcək riskləri heç olmasa təqribən qiymətləndirmək mümkündürsə, qeyri-müəyyənliyə isə, prinsip etibarı ilə, heç bir rasional kalkulyasiyanın (məhsulun maya və satış qiymətinin hesablanması) hesablanmasını tətbiq etmək mümkün deyil*. **Bu səbəbdən insanlar gələcəyi bilmir, onlar səhvə yol verə bilərlər və onların gözləmələri yalnız təsadüf nəticəsində doğru çıxır.**

Bu cür yanaşmaya müxtəlif cərəyanları təmsil edən bir çox iqtisadçıların elmi işlərində rast gəlinir. Məsələn, gözləmələrin **ex ante** (gələcəyə istiqamətlənən ilkin hesablamalara) və **ex post** (dəyərləndirilən dövrün bitməsindən sonra qiymətləndirməyə) bölünməsi H.Mürdalda qeyri-tarazlı sistemlərin tədqiq olunmasında çıxış nöqtəsinə çevrildi, iqtisadiyyatda məlumatın "səpələnmiş" formada olmasına dair şikayətlər isə *F.fon Hayek* tərəfindən dövlət tənizmlənməsinin tənqid edilmə-

sində daha çox çəkiyə malik olan arqumentə (dəlilə) çevrilmişdir. Lakin həyata keçirilən təhlilə qeyri-müəyyənlik faktorunun daxil edilməsini daha çox *C.M.Keynsin* adı ilə bağlayırlar.

Həqiqətən də, "Ümumi nəzəriyyə"də bu alim tərəfindən müəyyənliyin ənənəvi postulatını atmaq cəhdi edilmişdir. Keynsə görə, iqtisadi agentlər özlərini marjinalistlər tərəfindən təsəvvür olunan **"homo economicus"dan** tamamilə fərqli bir şəkildə göstərirlər. Gəcələyi qabaqcadan xəbər vermək iqtidarında olmadıqları üçün onlar həmişə bir o qədər də hesabladıqlarına uyğun olaraq deyil, necə ki, intuisiya, ehtiras, daxili səbəblərdən törəyən nikbinlik və sair bu kimi amillərin təsiri altında fəaliyyət göstərirlər, - biz sözlə, söhbət belə irrasional (ağılla, düşüncə ilə dərk edilməyən, ağla zidd) səbəblərdən gedir ki, onları **Keynsanimal spirits** ("həyatın başlanğıcı", "həyat qüvvələri", "heyvan duyğusu") kimi tərif etmişdir. "Ümumi nəzəriyyə"nin müəllifi özü bu məqamı neoklassiklərlə olan fikir ayrılıqlarının və ziddiyyətlərin əsas məqamı hesab edirdi. Nəşr edildikdən dərhal sonra onun kitabı müxtəlif interpretasiyaların (izahların, şərhlərin) obyektinə çevrildi, alim sələflərin mövqelərindən uzaqlaşmağın əsas səbəblərini aşağıdakı kimi xülasə etməyi zəruri bilmişdir: "...ortodoksal nəzəriyyə gələcəkdə baş verə biləcək hadisələrin belə bir formada məlumatlı olmasına əsaslanır ki, həmin biliklər, gerçəklikdə malik olduğumuzdan çox fərqlənir. Bu yanlış fikir və mühakimələr bentam kalkulyasiyası xətti üzərində hərəkət edir. Kalkulyasiya tətbiq edilə biləcək gələcək haqqında fərziyyə davranış prinsiplərinin yanlış interpretasiyasına (izahına, şərhinə) gətirib çıxardır ki, adı çəkilən həmin bu prinsipləri biz fəaliyyət göstərmək zərurətindən, habelə tam məlumatsızlığın, təsadüfün, ümid və qorxunun gizli faktorların lazımi qədər qiymətləndirilməməsi üzündən qəbul etməyə məcburuq".

Hər iki yanaşmanın idrakı məhdudluğu bir çoxları üçün hələ əvvəldən aşkar və bəlli olmuşdur. **Birincidə** *səmərəlilik*

mövcuddur, lakin qeyri-müəyyənlik yoxdur, **ikincidə** *isə qeyri-müəyyənlik var, ancaq səmərəlilik yox olur*. Bununla yanaşı, prinsipin hər ikisi məntiqi cəhətdən əlaqələndirilmiş və empirik nöqteyi-nəzərdən məzmunlu və dolğun nəzəriyyənin qurulması üçün eyni dərəcədə zəruridir. Qeyri-müəyyənliyin nəzərə alınmaması iqtisadi nəzəriyyəni yalnız və yalnız abstrakt və mücərrəd mühakimələrlə işi olan maskalanmış riyaziyyata çevirir, bir halda ki, isə səmərəlilik postulatından imtina insan fəaliyyətinin məntiqi haqqında söhbət düşdükdə tədqiqatçını bütün oriyentirlərdən məhrum etmiş olur. Əgər insanlar həqiqətən də ehtiras yaxud qorxu təsiri altında olurlarsa, bu halda onların davranışı bruon (bruon hərəkəti. molekulların zərbələnin təsiri nəticəsində çox kiçik cisimlərin mikroskopla görünən xaotik yerdəyişməsi. İngilis alimi Brounun şərəfinə adlannılmışdır (1773-1858) hərəkəti şəklində ifadə olunur ki, bu haqda da nəsə konret bir şey söyləmək mümkün deyil.

İqtiad elmində səmərəlilik və qeyri-müəyyənlik arasında kompromisin əldə edilməsi istiqamətində dəfələrlə cəhətlər olunmuşdur. Adətən alimlər səmərəlilik haqqında ehtimalların məhdudiyyəti və dəqiqləşdirilməsi yolu ilə gedirdilər və bu anlayışı optimallıq (ən münasib və əlverişli olması) məfhumu ilə "ayırmağa" səy göstərirdilər. Belə ki, üzə çıxarılmış *P.Samuelsonun* üstün tutmalar konsepsiyası buna əsaslanır ki, səmərəli seçim etmək əvəzinə insan sadəcə olaraq nə isə bir ardıcıl ziddiyyət təşkil etməyən bir seçim edir, *H.Saymonun* məhdud səmərəlilik ideyasına uyğun olaraq isə insanlar onları qane edə biləcək ilk məqbul və qənaətbəxş davranış variantını taparaq ona riayət edir və daha yaxşı ola biləcək həll variantının axtarışlarını dayandırırlar.

Nəticədə səmərəliliyin və qeyri-müəyyənliyin təsir sferalarının sırf mexaniki əsasda bölüşdürülməsindən başqa iqtisadçıların heç bir digər çıxış yolu qalmamışdır. "Neoklassik sintez"in formalaşdırılması ilə belə bir nəzər-nöqtəsi üstünlük təşkil etməyə başladı ki, ona uyğun olaraq səmərəlilik və

müəyyənlik makroiqtisadi sahədə mümkün olsa da belə, makronəzəriyyədə qəbuledilməzdir. Onun tərəfdarları "qiymət qoyuluşunun klassik prinsiplərinə" sadiq olduqları haqqında bəyan edirlər ki, həmin bu prinsiplərin həyata keçirilməsinin şərti informasiyanın səmərəliliyi və mükəmməlliyidir, lakin makrosəviyyəyə keçdikdə "pul illüziyası" haqqında sanki nə isə anlaşılan bir məfhum haqqında danışırlar. Həmçinin bunu da qeyd etmək lazımdır ki, "pul illüziyası" informasiyanın çatışmazlığı ilə şərtləndirilmiş qeyri-səmərəli davranışın nəticəsini təsvir edir.

Problemin bu cür həll edilməsinin əsassız və tutarsız olması **səmərəli gözləmələr məktəbində** *heç bir şübhə doğurmur*. **Onun nümayəndələri düşünürlər ki, iqtisad edlmnin bir hissəsində müəyyən bir fərziyyələri və ehtimalları qəbul etmək, onun digər hissəsində isə tamamilə əks olanları zənn etmək mümkün deyil. Axı mikrotəhlildən makrotəhlilə keçdikdə tədqiqat predmetinin özü deyil, yalnız baxış bucağı dəyişir. İnsanlar ya səmərəli, yaxud da qeyri-səmərəli ola bilər; bazar ya informasiyanın mükəmməlliyini təmin edir, yaxud təmin etmir; ancaq həm bunun, həm də fərqli olanın eyni zamanda doğru olmasını zənn etmək – cəfəngiyyatdır.**

Yaranmış vəziyyətə görə məsuliyyətin əhəmiyyətli hissəsini yeni klassiklər ***Keyns nəzəriyyəsinin*** meydana çıxması ilə yayılmış tədqiqat üsulunun üzərinə qoyurlar. Bundan əvvəl iqtisadçılar praktiki olaraq həmişə aqreqat kəmiyyətlərini yalnız və yalnız fərdi kəmiyyətlərin cəmi kimi dəyərləndirirdilər. Deyək ki, məcmu investisiyalar fərdi kapital qoyuluşların toplama əməliyyatı ilə müəyyən edilirdi. Amma daha sonra makrokateqoriyalar hazır bir şəkildə ümumilikdə xalq təsərrüfatının vəziyyətindən hasil olunurdu. Məsələn, həmin məcmu investisiyalar artıq fərdi investisiyaların cəmi kimi deyil, milli gəlir və məcmu istehlak, habelə məcmu yıgım ilə xalis ixrac arasındakı fərq kimi təqdim olunur. Belə bir yanaşma sayəsində xalq təsərrüfatı kəmiyyətləri arasında asılı-

lıqları üzə çıxartmaq iqtidarındadır, lakin makroiqtisadi hadisələrin əsasında dayanan mikroprosesləri təhlil etmək imkanını vermir. Nəticədə iqtisad elminin iki hissəsində eyni iqtisadiyyat haqqında olduqca bənzəri olmayan təsəvvürlər yaranmışdır.

Yeni klassiklər *bu cür qeyri-təbii və qeyri-normal vəziyyətin aradan qaldırılmasına doğru aparan yolu marjinalizmin mikroiqtisadi postulatlardan (sübutsuz olaraq əsas götürülən müddəa, fərziyyə) bütün nəzəri müddəaların keynsçilik dövründən əvvəl mövcud olmuş dediktiv şəkildə hasil olunmasının ənənəsinə qayıtmaqda görürlər.* ***Onu da qeyd edək ki, marjinalizmin adı çəkilən posulatlarından əsas və başlıca olanı davranışın səmərəli (optimal) xarakteridir.*** **Səmərəli gözləmələr məktəbinin mühüm və mərkəzi fikri məhz bundan ibarətdir və onun əsasında həmin məktəb insan davranışı modelini qurur, keynsçiliyin və monetarizmin tənqidini aparır və ən nəhayət, özünün şəxsi nəzəri alternativini təklif edir.**

H.Saymondan, yaxud ***P.Samuelsondan*** fərqli olaraq yeni klassiklər səmərəliliyin yeni formalarının icad olunmasını lüzumsuz və hətta zərərli olduğunu hesab edirlər. ***D.Mut*** yazırdı: "Bəzən iddia edirlər ki (və bütün iddia edənlərin arasında Saymon da var), iqtisad elmində səmərəliliyin ilkin şərti müşahidə olunan hadisələrə dair nəzəriyyələri qeyri-uyğun, yaxud onları izah etməkdə aciz edir, xüsusən də bu məqam zamanda dəyişən hadisələrə aiddir. Bizim fərziyyəmiz tam əks nəzər-nöqtəsinə əsaslanır: iqtisadiyyatın dinamik modelləri səmərəliliyi kifayət etməyəcək dərəcədə nəzərə alır". Başqa sözlə desək, əgər istənilən hər hansı problemlərin həlli zamanı individuum (fərd) optimuma (ən münasib və əlverişli vəziyyətə) nail olmağa meyil edirsə, onda ehtimal etmək məntiqli olardı ki, qeyri-müəyyənlik şəraitində o, eyni sxem üzrə hərəkət edəcəkdir. İnsanların, yaxud firmaların gözləmələri op-

timallıq (ən münasib və əlverişli olması) prinsipi əsasında qurulur.

Gözləmələrin formalaşdırılması prosesinə uyğun olaraq optimallıq prinsipinin tətbiq edilməsi konkret şəkildə nə demək olduğunu və bu ideyanın xüsusiyyətinin nədən ibarət olduğunu nəzərdən keçirək. Ehtimal edək ki, təbii fəlakətin baş verməsindən sonra buğda məhsulu son dərəcə azalıb və taxıla olan qiymətlər kəskin surətdə yüksəlib. Fermerin gözləntiləri necə formalaşacaq və həmin gözləntilər onun növbəti ildəki davranışına necə təsir göstərəcək?

Əgər erkən marjinalizmin məntiqinə əsaslansaq, onda fermer növbəti ildəki qiyməti dəqiq biləcəkdir. Valrassayağı auksionçu onu bütün zəruri olan məlumatlarla təchiz edəcək, fermer malik olduqları resurslaı səmərəli şəkildə bölüşdürəcək və bir qayda olaraq, öz gəlirini maksimallaşdırcaq. Əgər Keynsin ardınca ehtimal etsək ki, qeyri-müəyyənlik səmərəli fəaliyyət göztərməyə imkan vermir, onda fermerin davranışı informasiya siqnallarından birbaşa asılı vəziyyətdə olacaq ki, həmin bu siqnallara da fermer dərhal və yubanmadan reaksiya verməlidir, baxmayaraq ki, onlar iqtisadiyyatda mövcud olan tendensiyalar haqqında, hətta yanlış təsəvvürlər də yarada bilərlər. Adi məhsuldarlıq halında isə fermer yalnız əldə etdiyi təcrübəyə əsaslanaraq yetişdirdiyi məhsuluna görə hədsiz dərəcədə yüksək qiymət tələb edəcək və çətin bir vəziyyətə düşəcək. Nəhayət, əgər Saymonun məhdud səmərəlilik modelini qəbul etsək, fermer sadəcə olaraq münasib qiyməti təklif etmiş onun rastına çıxan birinci alıcıya öz məhsulunu satacaq və sövdələşməsi baş tutduğu təqdirdə maksimum səviyyədə gəlir əldə edə biləcəyi ticarət partnorunun axtarışlarından imtina edəcəkdir.

Yeni klassiklər yuxarıda qeyd etdiyimiz bütün sxemlərə tənqidi nöqteyi-nəzərdən yanaşlırlar. Onların qənaətinə görə, birinci nöqteyi-nəzər açıq-aşkar problemdən yan keçir, qalan ikisi isə - insanın səmərəliliyini lazımınca dəyərləndir-

mirlər. Əslində isə, qeyri-müəyyənliklə rastlaşarkən insanlar özlərini daha ehtiyatla və ağıllı aparırlar. İqtisadiyyat haqqında təhrif olunmuş təsəvvürlərin yaranmasına səbəb ola biləcək sonuncu informasiya siqnallarına kor-koranə tabe olmaq, yaxud ələ keçən ilk məqbul həll variantını qəbul etmək əvəzinə onlar öz təcrübələrinə və biliklərinə etibar edəcəklər. Əldə etdikləri məlumatlara istənilən hər hansı digər bir nemətə münasibət bəslədikləri kimi yanaşırlar, yəni onu ən münasib və əlverişli bir şəkildə istifadə etməyə çalışırlar. Beləliklə, gələn il bazara yollanmazdan əvvəl fermer məhsuldarlığın dinamikası, baş verə biləcək iqlim dəyişiklikləri, qiymətlərin artım tempi, habelə hökumət tərəfindən həyata keçirilən siyasət ilə bağlı bütün əldə edə biləyəci məlumatı toplayacaq, daha sonra isə özünün malik olduğu iqtisadi biliklərin köməyi ilə onu təhlil edəcək və yalnız bundan sonra taxıla olan qiymətlərlə bağlı qərar qəbul edəcəkdir.

Sözün əsl mənasında, səmərəli gözləmələr fərziyyəsi məhz bundan ibarətdir, onun nəzəri nəticələri yalnız klassiklər Fillips əyrisi ətrafında debatlara və müzakirələrə başladıqdan sonra üzə çıxmışdır.

8.2. Fillips əyrisinin interpretasiyası

1958-ci ildə inkiltərəli iqtisadçı A.Fillips 1891-ci ildən başlayaraq 1957-ci ilə qədər əhatə edən dövrə aid Böyük Britaniyanın iqtisadiyyatına dair statistik məlumatların əsasında belə bir nəticəyə gəlmişdir ki, əməkhaqqının artımı və işsizliyin ölçüləri arasında kifayət qədər sərt əks asılılıq mövcuddur. Digər ölkələrin materialları əsasında həyata keçirilmiş tədqiqatlar da buna oxşar nəticələr vermişdir ki, bu da aşkar olunmuş nisbətin universal xarakterə malik olması haqqında düşünməyə əsas verir. ***Bir müddət keçdikdən sonra Fillips əyrisi işsizlik və inflyasiya arasındakı asılılığa çevrilmişdir. İşsizlik nə qədər yüksək olsa, əməkhaqqı artımı***

bir o qədər kiçik, qiymətlərin artım tempi bir o qədər zəif olacaqdır; və əksinə, işsizlik nə qədər aşağı səviyyədə olsa, pulla ifadə olunan əməkhaqqının artımı bir o qədər böyük, qiymətlərin artım tempi bir o qədər yüksək olacaqdır.

Fillips tərəfindən təyin olunmuş asılılıq keynsçilik üçün əsl hədiyyə olmuşdur. Məsələ burasındadır ki, ötən əsrin *60-cı* illəri kapitalizm inkişafının bütün zonasında inflyasiya tendensiyalarının artması ilə əlamətdar olmuşdur. Bu özünün bütün diqqətini və gücünü məşğulluq səviyyəsinin artırılmasına istiqamətləndirmiş və mahiyyət etibarı ilə, qiymət sabitliyi problemini diqqətdən kənarda qoymuş keynsçi konsepsiyada daha ciddi boşluqlardan birini üzə çıxartmışdır. Fillips əyrisi keynsçilərə özlərinə məxsus inflyasiya konsepsiyasının qurulması üçün yaxşı analitik alət təqdim etmiş oldu.

Onlar təqribən aşağıdakı kimi düşünürdülər. İşsizliyin əsas və başlıca səbəbi əməkhaqqının qeyri-çevik olmasındadır. İnhisarçı olan həmkarlar ittifaqlarının əməkhaqqının azaldılmasına getməkdən imtina etmələri əməyə olan qiymətə tam məşğulluğun tarazlı səviyyəsinə qədər düşməyə imkan vermir. Həm də nəzərə almaq lazımdır ki, hökumət, keynsçilərin qənaətinə görə, həm inflyasiyanı, həm də məşğulluq səviyyəsini nəzarət altında saxlamağa imkan verir. Fillips əyrisini istifadə edərək, hökumət nə hədsiz dərəcədə böyük işsizliyə, nə də ki qiymətlərin hədsiz dərəcədə yüksək artım tempinə imkan vermir və onların arasında yol verilə bilən müəyyən bir vəziyyət yaradır.

Bu cür izah iqtisadiyyat üçün əsas təhlükəni inflyasiyada görən monetaristləri qane etmirdi. ***Fillips əyrisinin keynsçi interpretasiyasına (izahına) qarşı M.Fridmen*** işsizliyin təbii səviyyəsi ideyasını qoyur ki, işsizliyin qeyd etdiyimiz bu səviyyəsi pul faktorları ilə deyil, ilk növbədə texnologiyalar cəmiyyətində mövcud olan real faktorlarla müəyyən edilir. ***Fridmenin iddia etdiyinə görə,*** fəhlələr pul "illüziyasından" məhrumdular. Həmkarlar ittifaqları və

sahibkarlar əslində keynsçilərin hesab etdikləri nominal deyil, real əməkhaqqı barədə razılığa gəlirlər, yəni burada söhbət inflyasiyanı nəzərə alan əməkhaqqından gedir. Buna görə də qiymətlərin yüksəlməsi məşğulluğu artıra bilməz, onun nəticəsi yalnız fəhlələr tərəfindən əməkhaqqının gələcək artımı ilə bağlı tələblərin irəli sürülməsi ola bilər**. Deməli, Fillips əyrisi işsizliyin təbii səviyyəsi zamanı qiymətlərin artımını xarakterizə edən şaquli düz xəttə çevrilir.**

Lakin aydın deyil ki, nəyə görə işsizlərin sayı dəyişikliklərə maruz qalır, halbuki həmin göstərici sabit, təbii səviyyədə olmalıdır. Bu fenomenin izah edilməsi üçün monetaristlər gözləmələr kateqoriyasına müraciət etmişdilər.

M.Fridmen **adaptiv gözləmələr adlandırılan bir fərziyyəni irəli sürdü. Həmin fərziyyəyə uyğun olaraq, gözləntilər əvvəllər əldə olunmuş təcrübəyə əsaslanır, ancaq bununla bərabər iqtisadi fəaliyyət gedişi zamanı daim yoxlanılır və təshih olunur. Buna görə təsərrüfat fəaliyyəti ilə məşğul olan subyekt qısa zaman kəsiyində yanlışlığa yol verə bilər, ancaq uzunmüddətli perspektivdə onun ehtimalları dəqiq, hərəkətləri və fəaliyyəti isə sabitdir.**

Bu konsepsiya işsizliyin təbii səviyyəsi ilə məşğulluq həcminin qeyri-sabit olması faktı arasında mövcud olan ziddiyyətləri və fikir ayrılıqların aradan qaldırırdı. Həqiqətən də, müdiriyyətlə müqavilə münasibətlərinə daxil olan zaman fəhlələr, gələcək inflyasiyanın real ölçüsündən xəbərsiz olaraq, onun gözlənilən miqyaslarına istiqamətlənir. **Gözləmələr** "bu gün və dünən olanlar sabah da baş verəcək" prinsipi üzrə formalaşır. Lakin hadisələrin adət halını almış gedişi bir çox hallarda pozulur və proqnozlar heç də həmişə özünü doğrultmur. Bir halda ki, qiymətlərin artım templərini və hökumət tərəfindən həyata keçirilən siyasəti əksər hallarda əvvəlcədən müəyyən etmək olmur, real əməkhaqqının artması ilə əlaqədar yanlış bir təsəvvür yaranır ki, bu da, öz növbəsində, işsizliyin miqyasının təbii səviyyədən aşağı düşməsinə gətirib çıxardır. Belə-

liklə, uzunmüddətli perspektivdə, nə zaman gözlənilən və həqiqi kəmiyyətlər üst-üstə düşür (gec, yaxud tez fəhlələr dərk etməyə başlayırlar ki, real əməkhaqqı deyil, onların aldıqları yalnız pul əməkhaqqısı yüksəlib), Fillips əyrisi şaquli düz xətlə ifadə olunur; lakin qısa zaman kəsiyində o mövcuddur və dövlət tərəfindən iqtisadiyyatın sabitləşdirilməsi məqsədilə istifadə oluna bilər. Qiymətlərin artımı ilə məşğulluq arasındakı nisbətə dair uzunmüddətli mülahizələrin aparılmasından sonra iqtisadçılar aşağıdakılar barədə razılığa gəlməyə müvəffəq oldular: ***1)*** *qısamüddətli Fillips əyrisi ya əməkhaqqının və "pul illüziyasının" qeyri-çevik olması, yaxud dəyişən reallığa gözləntilərin ləng uyğunlaşması səbəbilə mövcuddur****; 2)*** *o, qeyri-tarazlığın bir fenomenini ifadə edir ki, həmin fenomen iqtisadiyyatın tam məşğulluq vəziyyətinə, yaxud işsizliyin təbii səviyyəsinə doğru aparan yolda rast gələ bilər;* ***3)*** *qısa zaman kəsiklərində dövlət inflyasiya templəri və işsizlik səviyyəsi üzərində nəzarətin həyata keçirilməsi məqsədilə Fillips tərəfindən aşkar edilmiş asılılıqla manipulyasiya edə bilər.*

Ancaq dövlət tərəfindən həyata keçirilən tənzimlənməyə dair təmkinli nikbinlik *1970-1980-ci* illərdə baş vermiş hadisələr nəticəsində tez bir surətdə tam çaşqınlıqla əvəz olundu. Məsələ burasındadır ki*, XX əsrin 70-80-ci* illər ərzində qiymətlərin artım tempinin yüksəlməsi məşğulluq səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunurdu, hökumət isə nə isə dəyişməkdə aciz idi. Məhz bu anda aparılan müzakirələrə səmərəli gözləmələr məktəbi də qoşuldu.

Yeni klassiklərin ilk əvvəl başladıqları iş bundan ibarət olmuşdur ki, onlar keynsçilər və monetaristlər tərəfindən istifadə olunan gözləmələrin formalaşma sxemlərini tənqid atəşinə tutdular. Səmərəli gözləmələr məktəbi iddia edirdi ki, adı çəkilən hər iki cərəyanın nümayəndələri tərəfindən təqdim olunan sxemlər optimallıq postulatına ziddir və özünü şüurlu apar-maq kimi həqiqətən də insana xas olan cəhəti və qabiliyyətini

lazımi qədər qiymətləndirmirlər. Sözügedən narazılıq, əlbəttə ki, ***"pul illüziyası"*** konsepsiyasına daha çox aiddir (insanlar o dərəcədə ağılsız deyillər ki, nominal kəmiyyətləri real kəmiyyətlər əvəzinə qəbul etməklə hər dəfə eyni səhvlərə yol versinlər), lakin həmin iddia, eyni zamanda, adaptiv gözləmələr fərziyyəsinə da aiddir. Fridmenin modeli üzərində proqnozları qurmağa yalnız qiymət sabitliyi şəraitində yol verilir. Bu zaman həqiqətən də ***"bu gün və dünən olanlar sabah da baş verəcək",*** amma inflyasiya nəzarət altından çıxdıqdan dərhal sonra adaptiv gözləmələr qeyri-səmərəli davranış formasına çevrilir. Kəskin qiymət sıçrayışları şəraitində yaşamağı adət etmiş insanlar gözləntiləri yalnız əvvəlki təcrübə bazasında deyil, həm də özlərinin iqtisadi bilikləri və dövlət tərəfindən gələcəkdə həyata keçirilə biləcək siyasətinə dair özlərinin təsəvvürləri əsasında formalaşdırırlar. Bəzi hallarda "geriyə çevrilmiş gözləmələr" adlandırılan adaptiv gözləmələrdən fərqli olaraq, səmərəli gözləmələr "irəli yönəlmiş gözləmələr"dir.

İşsizliyin və inflyasiyanın nisbətinə dair səmərəli gözləmələr fərziyyəsinin təbii olaraq tətbiq olunması yeni klassikləri Fillips əyrisinin həm *keynsçi,* həm də ***monetarist*** interpretasiyasının əsassızlığı və tutarsızlığı barədə nəticənin hasil olunmasına doğru aparır.

Onlar düşünürlər ki, əgər gözləmələr səmərəlidirsə, onda əməkhaqqı və "pul illüziyası"nın qeyri-çevikliyi haqqında müddəalar (həmin müddəalar üzərində keynsçilərin Fillips əyrisi versiyası dayanır) öz-özünə qüvvədən düşərək mənasını itirir. Çünki işsizlik şəraitində əməkhaqqının azaldılmasını reallaşdırmaqdan imtina etmək, eləcə də nominal və real kəmiyyətlərini sistematik surətdə qarışdırmaq özünün zərərinə fəaliyyət göstərmək deməkdir ki, bu da yalnız optimallıq postulatına deyil, həm də, sadəcə olaraq, sağlam düşüncəyə ziddir. Beləliklə, tələb və təklifin avtomatik tarazlaşdırılmasına və bərabərləşdirilməsinə heç bir şey maneçilik törətmir. Dayanıqlı tarazlıq – iqtisadiyyatın normal vəziyyətidir.

Tarazlıq haqqında tezisi səmərəli gözləmələr məktəbi o dərəcədə sərt bir şəkildə ifadə edir ki, hətta Fillips əyrisinin izahında monetaristlərin keynsçilərlə getdikləri məhdud kompromis də onun (səmərəli gözləmələr məktəbinin) nümayəndələri üçün qeyri-məqbul olur. Fridmenə görə, işsizlik və inflyasiya arasında mövcud olan əlaqə və bağlılıqların istifadə olunması yalnız belə bir zaman kəsiyində mümkündür ki, həmin vaxt aralıqlarında iqtisadi agent öz mülahizələrin yanlış olduğunu dərk etməyə başlayır. "Geriyə çevrilmiş" adaptiv gözləmələri "irəliyə yönəlmiş" səmərəli gözləmələrlə dəyişməyə dəyər, bunu o halda etmək lazım gələcək ki, nə zaman təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektin hələ qərarın qəbul edilməzdən əvvəl hökumət tərəfindən həyata keçiriləcək tədbirlərdən məlumatlı və onlara hazır olduğu aydınlaşacaq. Həmçinin iqtisadiyyatda süni canlanma dövründə və tənəzzül vaxtlarında pul kütləsinin genişlənməsi zamanı sərt pul-kedit siyasətini gözləmək üçün heç də Nobel laureatı olmaq gərəkli deyil; bu haqda hər bir sakinə onun gündəlik təcrübəsi deyir. Aydındır ki, ayrı-ayrı insanlar vaxtaşırı yanlışlıqlara yol verirlər, ancaq sistematik səhvlərə orta hesabla onlar yol vermirlər. Beləliklə, həm də işsizlik orta hesabla götürüldükdə təbii səviyyə ilə üst-üstə düşür, Fillips əyrisi isə ilkin olaraq şaquli düz xətlə təsvir olunur.

Dövlət işsizlik və inflyasiya nisbətini keynsçilərin iddia etdiyi kimi, nəinki uzunmüddətli perspektivdə, hətta monetaristlərin güman etdikləri kimi qısa zaman kəsiyində belə nəzarətdə saxlamaq gücünə malik deyil. Buradan yeni klassik nəzəriyyənin əsas nəticəsini hasil edirik: "Gözləmələrin necə formalaşmasının düzgün anlaşılması belə bir nəticənin əldə olunmasına gətirib çıxardır ki, qısamüddətli sabitləşdirici siyasət qeyri-qənaətbəxş və əsassızdır".

Bu tezisi əldə etmək yolunda səmərəli gözləmələr məktəbi üçün ən vacib və əhəmiyyətli addım iqtisadiyyaın real və pul sektorlarının qarşılıqlı şəkildə bir-birinə təsir göstərməsi

haqqında keynsçilərdən əvvəl mövcud olmuş təsəvvürlərin bərpa edilməsi olmuşdur. Həmin bərpa prosesini **məcmu tələb (*AD*)** və **məcmu təklifin (*AS*)** aşağıdakı dörd diaqramlar vasitəsilə əyani şəkildə təsvir etmək mümkündür.

Keynsçilikdən əvvəlki zamanlarda iqtisadçıların böyük əksəriyyəti pulun neytrallığına əsaslanırdı. Məcmu **tələbin AD_1-dən AD_2-yə** öz yerinin dəyişməsi sadəcə olaraq qiymətlərin miqyasında dəyişikliklərin baş verməsinə **aparırdı (şəkil 1)**. *Keynsin hamı tərəfindən tanınan böyük töhfələrindən biri pul və real sektorların qarşılıqlı təsir göstərməsi şəraitində təhlili olmuşdur. Keynsin modellərində* **məcmu tələbin AD_1-dən AD_2-yə** öz *yerinin dəyişməsi artıq təkcə qiymətlərin səviyyəsini deyil, həm də istehsalın miqyasını da dəyişmiş olur* **(Şəkil 2).** Monetarist konsepsiyada məcmu təklif də həmçinin məcmu tələbin dəyişikliyinə cavab verir. Amma bu reaksiya müvəqqəti xarakter daşıyır və uzunmüddətli perspektivdə iqtisadiyyat AS_2 düz xətti ilə səciyyələndirilən istehsalın normal vəziyyətinə gəlib çıxır. Nəhayət, yeni klassiklərdə adaptiv gözləmələrin səmərəli gözləmələrlə əvəz olunması ilə məcmu tələbin AD_1-dən AD_2-yə öz yerinin dəyişməsi və məcmu təklifin **AS_1-dən AS_2-yə** öz yerinin dəyişməsi eyni məqamda baş verir. **Nəticədə yeni klassik nəzəriyyədə** istehsalın real həcmi (şəkil 4), keynsçilərdən əvvəl mövcud olmuş klassiklərin nəzəriyyələrində olduğu kimi (şəkil 1), dəyişməz olaraq qalır. Belə vəziyyət təkmil rəqabətin, qiymətlərin mütləq çevikliyi və tarazlığının yalnız və yalnız klassik ehtimal edilmələr zamanı mümkündür ki, sadaladığımız bu şərtlər keynsçi inqilabının baş verməsi vaxtlarından ümidsiz halda köhnəlmiş hesab olunurdu.

Keynsçilikdən əvvəl mövcud olmuş iqtisadiyyatın mənzərəsinin bərpası tsikllər (dövrlər) nəzəriyyəsi sahəsində yeni klassiklər qarşısında kifayət qədər mürəkkəb bir vəzifəni qoymuş oldu. Çünki son zamanlara qədər iqtisadçıların böyük əksəriyyəti bu fikirdə bir-biri ilə həmrəylik göstərirdilər ki,

tsikllər (dövrlər) məcmu təklifin keynsçi şərtlərinin olması zamanı məcmu tələbin tərəddüdləri nəticəsində əmələ gəlirlər. Hal-hazırda isə tarazlığın nail olunmasına heç bir maneə olmadığı bir halda istehsal həcminin və məşğulluğun tsiklik (dövri) tərəddüdlərinin baş verməsinin səbəbini izah etmək lazım idi.



Şəkil 1. **Keynsçilərdən əvvəlki klassiklər**



Şəkil 2. **Keynsçilər**



Şəkil 3. **Monetaristlər**



Şəkil 3. **Yeni klassiklər**

8.3. Tsikllər nəzəriyyəsinə tarazlı yanaşma

Tsiklik (dövri) **tərəddüdlərin mənbəyi haqqında suala yeni klassiklərin *iki cavab variantı vardır*, hər iki variantın azad rəqabətin olmaması və qiymətlərin qeyri-çevikliyi haqqında keynsçi gümanlarına ehtiyacı yoxdur.** Sözügedən variantlardan ***birincisi*** **qeyri-təkmil informasiya nəzəriyyəsi adlandırılmış, *ikincisi isə* real biznes-tsikllərin nəzəriyyəsi kimi məşhurdur**.

R.Lukas *tərəfindən qısaca və dürüst şəkildə ifadə olunmuş qeyri-təkmil informasiya nəzəriyyəsi aşağıdakılardan ibarətdir.* Hər bir ayrı-ayrı əmtəələrin bazarı sanki bir adaya bənzəyir. Bu adanın sakini kimi əmtəə istehsalçısı digər adalarda (yaxud bazarlarda) baş verənlər haqqında tam və dolğun məlumata malik deyil. Bu səbəbdən, əmtəələrə olan qiy-

mətlərin artımı müşayiət olunanda o, dəqiq bilmir ki, bu proses nə ilə əlaqədardır – real tələbin yüksəldilməsi, yaxud tədavüldə olan pulun miqdarının artımı ilə. Lukasa görə, səmərəli gözləmələr konsepsiyasına uyğun olaraq fəaliyyət göstərən individuum (fərd), yaxud firma lokal bazarda qiymətlərin yüksəlməsini *qismən qiymətlərin ümumi artımın nəticəsi, qismən isə əmtəələrin nisbi qiymətinin dəyişikliyinin nəticəsi kimi* dəyərləndirirlər. Deməli, hətta əgər əmtəələrə olan qiymətin yüksəlməsi bütövlükdə qiymətlərin ümumi artımı ilə şərtləndirilibsə, onda səmərəli düşüncə tərzinə malik olan əmtəə istehsalçısı istənilən halda güman edir ki, onun buraxdığı əmtəəyə olan nisbi qiymət də müəyyən bir miqdarda artıb. Nəticədə o, istehsalı genişləndirir, ona digər "ada sakinləri" də qoşulur, iqtisadiyyatda yüksəlişin baş verməsi ehtimalı yaranır.

Ötən əsrin 70-ci illərində Lukasın fikri ilk növbədə ona görə böyük marağa səbəb olmuşdur ki, həmin ideya klassik tarazlı yanaşmaya xəyanət etmədən pul sferasında baş verən dəyişikliklərin real sektora olan təsir etmə faktının izahını verirdi. Lakin kifayət qədər tez bir surətdə həmin konsepsiyanın ziddiyyətli olduğu üzə çıxmışdır. Sual meydana çıxırdı: dövlət tərəfindən həyata keçirilən tənzimlənmənin tənqid olunması zamanı belə bir ehtimalı qəbul etmək nə dərəcədə məntiqli olardı ki, fermer, yaxud fəhlə hökumətin yeridəcəyi siyasəti əvvəlcədən müəyyən edə bilər, lakin özünün tsikllər (dövrlər) nəzəriyyəsinin qurulması zamanı hesab etməli ki, əmtəə istehsalçısı qiymətlərin ümumi yüksəlişini konkret əmtəələrə olan tələbin artmasından fərqləndirmək iqtidarında deyil*? D.Saks və F.Lauren qeyd edirlər:* "Qeyri-təkmil informasiya nəzəriyyəsinin əsasında dayanan təkliflərin daha diqqətlə həyata keçirilən təhlildən sonra o, özünün bir çox tərəfdarlarını itirdi. İqtisadi agentlərin qiymətlərin ümumi səviyyəsindən xəbərsiz olduqları və beləliklə, nisbi qiymətlərdə və onların ümumi səviyyəsində baş verən dəyişiklikləri fərqlən-

dirə bilməmələri barədə nəzəriyyənin əsas və mərkəzi fərziyyəsi, çox güman ki, əsassızdır. Həyat dəyərinin və istehsalçıların qiymətlərinin ümumiqtisadi indeksləri hər ay dərc edilir və geniş reklamla müşayiət olunur. İnanmaq çətindir ki, sözügedən bu göztəricilərdən xəbərsiz qalmaq, yaxud buraxılış və məşğulluq səviyyələrinin əhəmiyyətli dəyişiklikləri məlumatların əldə edilməsi kimi kiçik bir boşluqlarla izah etmək mümkündür. Bundan əlavə, fərdlər və firmalar adətən əmtəə və xidmətləri ay ərzində əldə edirlər. Beləliklə, hələ qiymətlərin indeksi elan edilməzdən əvvəl iqtisadi agentlər qiymətlərin ümumi hərəkəti barədə xəbərdar olurlar".

Qeyri-təkmil informasiya nəzəriyyəsinin məntiqi qüsurları ön plana digər izahı – real biznes-tsikl kommsepsiyasını irəli sürdü. Həmin konsepsiyaya uyğun olaraq, tsiklik tərəddüdlərin mənbəyi iqtisadiyyatın real sektorunda yerləşir. Bu texniki tərəqqi, təşkili yeniliklər, dövlət xərclərinin artımı və bu kimi digər məsələlər ola bilər.

Aydındır ki, burada nə isə yeni bir şey olduqca azdır: bu cür faktorların (amillərin) əhəmiyyəti hamı tərəfindən, o cümlədən də keynsçilər tərəfindən də etiraf edilir. Amma yeni klassiklər iqtisadiyyatda ilkin impulsu yayan ötürücü mexanizmi prinsipial cəhətdən fərqli bir şəkildə təsəvvür edirlər. Əgər keynsçilər üçün bu məcmu tələbdirsə, onda yeni klassik nəzəriyyədə onun rolunu asudə vaxtının və əməyin zamanarası əvəz edilməsi oynayır.

Səmərəli şəkildə fəaliyyət göstərən təsərrüfat subyekt bu gün nə qədər işləyəcəyi və dincələcəyi, eləcə də sabah nə qədər işləyəcəyi və dincələcəyi barədə qərar qəbul edir. Onun qərarı aşağıdakılardan asılıdır: ***birincisi***, əməkhaqqının bugünkü **(w_1)** və sabahkı **(w_2)** dərəcəsindən və ***ikincisi,*** faizdən (r), çünki bu gün qazanılmış pullar sabah **($1 + r$) w_1-ə** çevrilir. Bugünkü iş daha üstun onda hesab olur ki, burada faiz daha yüksək, eləcə də sabahkı əməkhaqqı ilə müqaysədə bugünkü əməkhaqqının dərəcəsi daha artıqdır**: ($1 + r$) w_1 / w_2.**

İndi isə fərz edək ki, müharibənin başlanması ilə dövlət satınalmalarının həcmi kəskin surətdə artdı**. Keynsçi məntiqə uyğun olaraq**, dövlət tərəfindən həyata keçirilən satınalınmalar məcmu tələbi genişləndirəcək; buna cavab olaraq istehsal həcmi artacaq və beləliklə, məşğulluq səviyyəsi yüksələcəkdir. Amma yeni klassiklərin məntiqinə görə, dövlət satınalmalarının artması faizi elə yüksəldəcək ki, bunun nəticəsində hazırkı iş fəaliyyəti daha cəlbedici olacaq; məşğulluq səviyyəsi artacaq və deməli, istehsal həcmi də artacaq.

Real biznes-tsikllar nəzəriyyəsi inandırıcı görünür və səmərəli gözləmələr məktəbinin ümumi mülahizələr gedişinə uyğundur. Lakin skeptiklərdə onun real olmasına dair kifayət qədər suallar yığılıb. Xüsusən, həqiqətənmi, məcburi işsizlik kimi hadisə mövcud deyil; həqiqətənmi qiymətlər çevikdir; doğrudanmı real sektor tədavüldə olan pul kütləsinin dəyişikliklərinə qarşı qeyri-həssasdır və nəhayət, tsiklik tərəddüdlərin əsas səbəbi olan – texnologiyalardakı dəyişikliklər nə dərəcədə adekvat əks olunub? Görünür ki, onlar həm müsbət, həm də mənfi olmalıdır, müsbət səbəblərdən sonra yüksəliş, mənfi səbəblərdən sonra isə tənəzzül baş verir. Əgər texniki reqress (tənəzzül, geriləmə) müşahidə olunmursa, onda baş verən tənəzzül izahsız qalır, nəzəriyyə isə - tamamlanmamış. Əgər istehsalatda müşahidə olunan geriləmə iqlim dəyişikliklərinin mənfi və arzuedilməz nəticələr, yaxud OPEK-ə daxil olan ölkələr tərəfindən həyata keçirilən siyasət nəticəsində baş vermiş neft böhranı kimi başa düşülürsə, onda bu cür hadisələr nə dərəcədə universaldır və onlar, məsələn, Böyük depressiyanı (tənəzzülü) hansı dərəcəyə qədər izah etmək qabiliyyətinə malikdir? Bir çox başqa suallar da mövcuddur ki, real biznes-tsikl nəzəriyyəçiləri onlara hələ cavab verməlidirlər.

Səmərəli gözləmələr məktəbi hələ çox gəncdir ki, elmdə onun tutduğu mövqeyə dair hər hansı hökm çıxartmaq mümkün olsun. Yeni klassik nəzəriyyənin bir çox konsepsiyaları hələ də işlənib hazırlanma mərhələsindədir. Buna baxmayaraq, çox az

bir sayda insan tapılar ki, həmin nəzəriyyənin ötən əsrin 70-ci illərində meydana gəlməsini son dövrün iqtisadi təfəkkürün tarixində ən parlaq hadisələrdən birinin olmasını inkar edə bilsin.

Yeni klassik nəzəriyyənin sürətlə yayılması, hər şeydən əvvəl, iki səbəblə izah olunmalıdır. Bir tərəfdən, XX əsrin 70-80-ci illərində kapitalizmin yaşanmış olduğu inflyasiya və staqflyasiya təcrübəsi iqtisadçılara sübut etdi ki, qiymətlərin artan qeyri-sabitliyi şəraitində iqtisadi agentlərin gözləmələri böyük və həlledici məna kəsb etməyə başlayır. Digər tərəfdən, "neoklassik sintezin" yaranma dövründən iqtisad elmində hökmranlıq etmiş əsas və başlıca konsepsiyaların daha diqqətli təhlili göstərdi ki, burada məntiqi cəhətdən ardıcıl və empirik nöqteyi-nəzərdən əsaslandırılmış vahid gözləmələr nəzəriyyəsi mövcud deyil. Mikronəzəriyyədə iqtisadçılar gözləmələrə dair eyni fərziyyələri (tam müəyyənlik və mütləq səmərəlilik), makrosəviyyəyə keçdikdə isə - tamamilə əks ehtimalları qəbul edirlər ("pul illüziyası", yaxud qeyri-müəyyənliklə şərtləndirilmiş qeyri-səmərəli davranışın formalarını ifadə edən adaptiv gözləmələr). Həm də nəzərə almaq lazımdır ki, söhbətin elmin ayrı-ayrı bölümlərindən, yaxud fərqli baxış bucaqlarından getməsi ilə əlaqədar istinad edilmələr vəziyyəti qətiyyən dəyişmir. **Tədqiqat predmeti eyni iqtisadiyyatdır və onun subyekti ya səmərəli, yaxud da qeyri-səmərəli ola bilər, ancaq eyni zamanda həm səmərəli, həm qeyri-səmərəli heç bir vəchlə ola bilməz.**

Ənənəvi mikroyanaşmanı onun üçün qeyri-ənənəvi olan makroproblemlərə yaymağa cəsarət etməklə, ***yeni klassiklər iqtisad elminin iki hissəsi arasında mövcud olan qeyri-təbii və anormal uyğunsuzluğu aradan qaldırmağa, nəhayət ki, imkan tapdılar.*** **Bu metodoloji məqsəd onların ən güclü əsas dəlili hesab olunur.**

Buna görə təəccüblü deyil ki, iqtisadçılar – səmərəli gözləmələr məktəbinin tənqid obyektləri – məntiqi inandırı-

cılıqda əks dəlillərdən ibarət əsaslandırmanı nadir hallarda qurmağa başlayırlar. Həm keynsçiliyin, həm də monetarizmin makronəzəriyyələri altında mikrotəməlin olmaması fikirlərinin üstündə axıra qədər durmamağa və məntiqsizliyə dair məzəmmətə qarşı onları gücsüz və aciz edir.

Bütün bunları dərk edərək, opponentlər mübahisələrin və polemikaların daha çox empirik gerçəkliyi zəminində aparılmasına üstünlük verirlər. Onların nöqteyi-nəzərinə görə, yeni klassiklərin zərif və incə mühakimələri gerçəkliyi və reallığı o dərəcədə ideallaşdırır (həqiqətdə olduğundan daha yaxşı təsvir edir, göstərir) ki, onlar daha çox "İqtisadi konsultantlar (öz ixtisasına aid məsləhətlər verən mütəxəssislər) şurası üçün deyil, bədii qalereya üçün daha çox münasibdir".

Ancaq yeni klassiklər bu cür hücumlara hazırdır və onlara verilə biləcək cavablara malikdirlər.Onların optimallıq postulatından (sübutsuz olaraq əsas götürülən müddəa, fərziyyə) bilavasitə hasil edilən səmərəli gözləmələr fərziyyəsi analitik planda "pul illüziyası" fikrini və adaptiv gözləmələr konsepsiyasını açıq-aşkar üstələyir, ancaq eyni zamanda, həqiqətə uyğun nöqteyi-nəzərdən də onlardan heç də geri qalmır. Real insanlar, əlbəttə ki, kompyuter deyil: lakin nəzəriyyə - nəzəriyyədir; burada abstraksiyaya (fikrən ayrılma, təcridedilmə, mücərrəd fikir) yol verilməsi mümkündür və beləliklə, gerçəkliyin müəyyən təhrif olunması da təbii hal kimi qəbul olunmalıdır. Lakun abstraksiya həm də "pul illüziyası" fikrində və adaptiv gözləmələr konsepsiyasında da mövcuddur, ancaq insanların əslində bu qədər ağılsız və düşüncəsiz olmaları bir o qədər də inandırıcı deyil. Empirik tədqiqatların həyata keçirilməsi yolu ilə sxemlərdən hansının həqiqətə daha yaxın olmasına qərar vermək mümkün deyil, çünki gözləmələrin formalaşması prosesi müşahidələrin bilavasitə aparılması üçün əlçatmazdır. Beləliklə, sözügedən konsepsiyanın taleyini onun hasil etdiyi nəticələrin və proqnozların nə dərəcədə dəqiq olmasına əsaslanaraq həll etmək lazımdır.

Belə bir əqidə mövcuddur ki, ona uyğun olaraq nəzəriyyənin dəyərləndirilməsinin əsas və başlıca meyarı ilkin vəziyyətlərin deyil, məhz hasil edilən yekun nəticələrin empirik əsaslandırılnasından ibarətdir. Bir halda ki, bu gün iqtisadçıların böyük əksəriyyəti həmin əqidəni bölüşərək onu qəbul edir, onda gətirilən dəlil və sübutları məqbul hesab etmək olardı. Buna baxmayaraq, yeni klassiklər, çox güman ki, özləri informasiyanın toplanılmasında və emal edilməsində insanlara xas olmayan hədsiz dərəcədə yüksək qabiliyyətləri istinad edərək müəyyən qədər nəzəri cəhətdən narahatlıq keçirirlər. Bu cür olmasaydı biz necə izah edə bilərdik ki, tsikllər nəzəriyyəsində **R.Lukas** özünün ilkin məntiqini açıq-aşkar pozur və təsərrüfat fəaliyyəti ilə məşğul olan subyektin qiymətlərin ümumi artımını lokal artımından fərqləndirə bilməməsinə əsaslanır? İstisna edilmir ki, gələcəkdə də səmərəli gözləmələr məktəbi özünün həddindən artıq sərt ehtimallarını və radikal nəticələrini yumşaltmaqda davam edəcək və beləliklə də, tədricən iqtisad elminin əsas axarına daxil ola biləcək.

Nəticə

Rasional gəzləmələr məktəbinin konsepsiyası, bu məktəbi, həmçinin bir çox hallarda yeni klassik nəzəriyyə adlandırılır, müasir iqtisad elmində ən böyük nüfuza malik olan və daha çox ümidlər verən tədqiqat proqramlarından biri hesab olunur.Yeni klassiklərin liderləri – Robert Lukas, Tomas Sarcent, Neyl Uolles, Edvard Preskott, Robert Barrou, Bennet Makkalum– elmi cəmiyyət birliyinin elitasına möhkəm surətdə daxil olublar, “səmərəli gözləmələr inqilabı” isə bir çox hallarda özünün mahiyyətinə və əhəmiyyətinə görə keynsçilik inqilabı ilə bərabər tutulur, baxmayaraq ki, həmin bərabərləşdirmə onun yaradıcılarının dövlət tənzimlənməsinə dair olan münasibətinə görə əks işarə ilə qeydə alınır.

İqtisadi təfəkkür tarixində təsərrüfat subyektinin gözləmələrinin formalaşma prosesinə iki bir-birinə zidd olan yanaşma izlənilir. Onlardan birincisi XX əsrdə baş vermiş marjinalist inqilabının birbaşa nəticəsidir. Məlum olduğu kimi, marjinalistlər hər bir zaman və məkan üçün yararlı ola biləcək universal yüksək dərəcədə abstraktlı (mücərrədli) bir nəzəri sistemin yaradılmasını özlərinə ən ali məqsəd kimi qoymuşdular. Bu cür təkəbbürlü məqsədə nail olunmaq üçün həyata keçirilən təhlil zamanı külli miqdarda "əlavə və kənar faktorlardan", eləcə də "ikincidərəcəli təfərrüatlardan" uzaqlaşmanı nəzərdə tuturdu ki, təhlili aparan alim iqtisadiyyatda mövcud olan əsas xüsusiyyətləri qeyd edə və uzunmüddətli tendensiyaları təsbit edə bilsin.

Bu baxımdan L.Valrasın ümumi iqtisadi tarazlıq sistemi xüsusilə nümunəvi xarakterə malikdir. Burada qiymətlərin çeşidi tatonnement prosesdə - əl ilə yoxlamaqla hərəkət etmə zamanı təyin olunur ki, belə olan halda adı çəkilən bu hərəkət tarazlıq vəziyyətindən kənarlaşmaya imkan verməyən və qiymətlərin ani təshih edilməsinə təminat verən hər hansı bir təsəvvür olunan auksionçu tərəfindən istiqamətləndirilir. Məhz bu cəhət Valras sxemini tarazlıq vəziyyətinin "ani şəklinə" çevirir ki, burada zaman ölçüsü mövcud deyil. Sözügedən vəziyyətdə gözləmələrin maliyyələşdirilməsi problemi olduqca sadə bir formada həll olunur: həqiqi və gözlənilən kəmiyyətlər tərif üzrə üst-üstə düşür.

Bu cür yanaşmaya müxtəlif cərəyanları təmsil edən bir çox iqtisadçıların elmi işlərində rast gəlinir. Məsələn, gözləmələrin *ex ante* (gələcəyə istiqamətlənən ilkin hesablamalara) və ex post (dəyərləndirilən dövrün bitməsindən sonra qiymətləndirməyə) bölünməsi H.Mürdalda qeyri-tarazlı sistemlərin tədqiq olunmasında çıxış nöqtəsinə, iqtisadiyyatda məlumatın "səpələnmiş" formada olmasına dair şikayətlər isə F.fon Hayek tərəfindən dövlət tənizmlənməsinin tənqid edilməsində daha çox çəkiyə malik olan arqumentə (dəlilə) çevrilmişdir.

Lakin həyata keçirilən təhlilə qeyri-müəyyənlik faktorunun daxil edilməsini daha çox C.M.Keynsin adı ilə bağlayırlar.

İqtiad elmində səmərəlilik və qeyri-müəyyənlik arasında kompromisin əldə edilməsi istiqamətində dəfələrlə cəhətlər olunmuşdur. Adətən alimlər səmərəlilik haqqında ehtimalların məhdudiyyəti və dəqiqləşdirilməsi yolu ilə gedirdilər və bu anlayışı optimallıq (ən münasib və əlverişli olması) məfhumu ilə "ayırmağa" səy göstərirdilər. Belə ki, üzə çıxarılmış P.Samuelsonun üstün tutmalar konsepsiyası buna əsaslanır ki, səmərəli seçim etmək əvəzinə insan sadəcə olaraq nə isə bir ardıcıl ziddiyyət təşkil etməyən bir seçim edir, H.Saymonun məhdud səmərəlilik ideyasına uyğun olaraq isə insanlar onları qane edə biləcək ilk məqbul və qənaətbəxş davranış variantını taparaq ona riayət edir və daha yaxşı ola biləcək həll variantının axtarışlarını dayandırırlar.

Sözün əsl mənasında, səmərəli gözləmələr fərziyyəsi məhz bundan ibarətdir, onun nəzəri nəticələri yalnız klassiklər Fillips əyrisi ətrafında debatlara və müzakirələrə başladıqdan sonra üzə çıxmışdır.

1958-ci ildə ingiltərəli iqtisadçı A.Fillips 1891-ci ildən başlayaraq 1957-ci ilə qədər olan dövrə aid Böyük Britaniyanın iqtisadiyyatına dair statistik məlumatların əsasında belə bir nəticəyə gəlmişdir ki, əməkhaqqının artımı və işsizliyin ölçüləri arasında kifayət qədər sərt əks asılılıq mövcuddur.

Bir müddət keçdikdən sonra Fillips əyrisi işsizlik və inflyasiya arasındakı asılılığa çevrilmişdir. İşsizlik nə qədər yüksək olsa, əməkhaqqı artımı bir o qədər kiçik, qiymətlərin artım tempi bir o qədər zəif olacaqdır; və əksinə, işsizlik nə qədər aşağı səviyyədə olsa, pulla ifadə olunan əməkhaqqının artımı bir o qədər böyük, qiymətlərin artım tempi bir o qədər yüksək olacaqdır.

Bu cür izah iqtisadiyyat üçün əsas təhlükəni inflyasiyada görən monetaristləri qane etmirdi. Fillips əyrisinin keynsçi interpretasiyasına (izahına) qarşı M.Fridmen işsizliyin

təbii səviyyəsi ideyasını qoyur ki, işsizliyin qeyd etdiyimiz bu səviyyəsi pul faktorları ilə deyil, ilk növbədə texnologiyalar cəmiyyətində mövcud olan real faktorlarla müəyyən edilir.

M.Fridmen adaptiv gözləmələr adlandırılan bir fərziyyəni irəli sürdü. Həmin fərziyyəyə uyğun olaraq, gözləntilər əvvəllər ələ olunmuş təcrübəyə əsaslanır, ancaq bununla bərabər iqtisadi fəaliyyət gedişi zamanı daim yoxlanılır və təshih olunur. Buna görə təsərrüfat fəaliyyəti ilə məşğul olan subyekt qısa zaman kəsiyində yanlışlığa yol verə bilər, ancaq uzunmüddətli perspektivdə onun ehtimalları dəqiq, hərəkətləri və fəaliyyəti isə sabitdir.

Ancaq dövlət tərəfindən həyata keçirilən tənzimlənməyə dair təmkinli nikbinlik 1970-1980-ci illərdə baş vermiş hadisələr nəticəsində tez bir surətdə tam çaşqınlıqla əvəz olundu. Məsələ burasındadır ki, XX əsrin 70-80-ci illər ərzində qiymətlərin artım tempinin yüksəlməsi məşğulluq səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunurdu, hökumət isə nə isə dəyişməkdə aciz idi. Məhz bu anda aparılan müzakirələrə səmərəli gözləmələr məktəbi də qoşuldu.

Tsiklik (dövri) tərəddüdlərin mənbəyi haqqında suala yeni klassiklərin iki cavab variantı vardır, hər iki variantın azad rəqabətin olmaması və qiymətlərin qeyri-çevikliyi haqqında keynsçi gümanlarına ehtiyacı yoxdur. Sözügedən variantlardan birincisi qeyri-təkmil informasiya nəzəriyyəsi adlandırılmış, ikincisi isə real biznes-tsikllərin nəzəriyyəsi kimi məşhurdur.

Yeni klassik nəzəriyyənin sürətlə yayılması, hər şeydən əvvəl, iki səbəblə izah olunmalıdır.Bir tərəfdən, XX əsrin 70-80-ci illərdə kapitalizmin yaşanmış olduğu inflyasiya və staqflyasiya təcrübəsi iqtisadçılara sübut etdi ki, qiymətlərin artan qeyri-sabitliyi şəraitində iqtisadi agentlərin gözləmələri böyük və həlledici məna kəsb etməyə başlayır.Digər tərəfdən, “neoklassik sintezin” yaranma dövründən iqtisad elmində hökmranlıq etmiş əsas və başlıca konsepsiyaların daha diqqətli təhlili göstərdi ki, burada məntiqi cəhətdən ardıcıl və empirik

nöqteyi-nəzərdən əsaslandırılmış vahid gözləmələr nəzəriyyəsi mövcud deyil.

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar:

1. Səmərəli gözləmələr məktəbinin konsepsiyasının mahiyyətini açın.
2. Dövlət tərəfindən iqtisadiyyata təsir vasitələrirı ilə bağlı səmərəli gözləmələr məktəbi hansı nəticəyə gəlir?
3. Təsərrüfat subyektinin gözləmələrinin formalaşması prosesinə dair iki əks yanaşmanı göstərin.
4. Səmərəlilik və qeyri-müəyyənlik arasında kompromis nədən ibarətdir?
5. Gözləmələrin formalaşması prosesinə dair optimallıq prinsipinin tətbiq edilməsi konkret olaraq nəyi ifadə edir və həmin ideyanın spesifik xüsusiyyəti nədən ibarətdir?
6. Fillips əyrisinin interpretasiyasının (təsfirin) xarakteristikasını verin
7. İşsizliyin əsas səbəbini göstərin.
8. İşsizliyin təbii səviyyəsinə dair Fridmenin ideyası nədən ibarətdir?
9. Nə üçün iqtisadçılar qiymətlərin və işsizliyin artım nisbəti ilə bağlı uzunmüddətli diskussiyadan sonra razılığa gəliblər?
10. İşsizlik və inflyasiya nisbətinin təhlilinə dair səmrəli gözləmələr fərziyyəsinin tətbiqi zamanı yeni klassiklər tərəfindən Fillips əyrisinin həm keynsçi, həm də monetarist interpretasiyasının (təfsirinin) tutarsızlığını əsaslandırın.
11. Səmərəli gözləmələr məktəbində iqtisadi tarazlığın normal bir vəziyyət olduğu haqqında tezisin mahiyyəti nədən ibarətdir?
12. Tsiklik tərəddüdlər mənbəyi haqqında suala cavabın iki variantını göstərin.

14. Real biznes-tsiklin konsepsiyasını xarakterizə edin və tsiklik tərəddüdlərin mənbəyinin nədən ibarət olduğunu göstərin.

15. İqtisadi liberalizm daxilində *laisser faire* prinsipini izah edin.

Ədəbiyyat siyahısı:

1. Willes M.H. Rational Expectations as a Counterrevolution / / The Crisis in Economic Theory / Ed. by D.Bell and I.Kristol. N.Y., 1981, p. 81-96.

2. Lukas R.E.Studies in Business Cycle Theory. Cambridge (Mass.), 1981, p. 1).

3. Klamer A. The New Classical macroeconomics: Conversation with the New Classical Economists and Thier Opponents. Brighton, 1984, p. 12.

4. Usoskin V.M. Milton Fridmenin "Pul dünyası". Moskva, 1989, s. 44.

5. Buchholz T.G. New Ideas from Dead Economists. N.Y., 1989, p. 266.

6. Avtonomov V., Aukusionek S. Əlacsız maliyyəçilər, yaud iqtisadi davranışın bəzi sirləri / / ME və MO. 1990. No 12, s. 18.

7. Neyt F. Riskin və qeyri-müəyyənliyin anlayışı / / Thesis. 1994. Buraılış 5, s. 12-28.

8.Weitraub E.R. Microfoundations: the Compatibility of Microeconomics and Macroeconomics. Cambridge, 1979, p.49-50.

9. Muth J. Rational Expectation and the Theory of Price Movements / / Econometrica. 1961. Vol. 29, No 3, p. 316.

10. Entov R. Fillips əyrisinin "böyüklüyü və süqutu". / / ME və MO. 1983. No 3, s. 64-82.

11. Saks V., Larren F. Makroiqtisadiyyat: Qlobal yanaşma. Moskva, 1996, s. 577-584.

12. Blauq M. İqtisadi təfəkkür retrospektivdə. Moskva, 1994, s. 637.

MÜNDƏRİCAT

GİRİŞ..... 3

I FƏSİL. NEOKEYNSÇİLİK..... 9
1.1. R.Harrodun iqtisadi artım nəzəriyyəsinin metodologiyası..... **12**
1.2. Harrodun modeli və dünya iqtisadi təfəkkürü..... **26**
1.3. E.Hansen.Tsiklin neokeynsçi nəzəriyyəsi..... **30**
1.4. Dövlətin antitsikl siyasəti..... **45**
Nəticə..... **49**
Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar..... **53**
Ədəbiyyat siyahısı..... **53**

II FƏSİL. NEOKLASSİK SİNTEZ..... 55
2.1. Fərqli yanaşmaların uyğunluğu..... **57**
2.2. Keynsin sadələşdirilmiş modeli..... **61**
2.3. Hiks-Hansen sxemi..... **66**
2.4. Keynsin nəzəriyyəsinin xüsusi hallar..... **72**
Nəticə..... **79**
Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar..... **81**
Ədəbiyyat siyahısı..... **81**

III FƏSİL. POSTKEYNSÇİLİK..... 83
3.1. Nəzəri yanaşmaların ümumi xarakteristikası..... **84**
3.2. "Ümumi nəzəriyyə"nin Kembric variantı (Böyük Britaniya)..... **88**
3.3. C.Robinsonun kapital yığımı nəzəriyyəsi və texniki tərəqqi..... **90**
3.4. P.Sraffanın dəyər və qiymət qoyuluşu nəzəriyyəsi..... **99**
3.5. İqtisadiyyatın qeyri-müəyyənliyi və qeyri-müntəzəmliyi keynsçi nəzəriyyənin "həqiqi əsası" kimi..... **106**
3.6. "Neoklassik sintezin" və makroiqtisadi siyasət probleminin yenilənməsi..... **112**
Nəticə..... **122**

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar..... **124**
Ədəbiyyat siyahısı..... **125**

IV FƏSİL. ALMAN NEOLİBERALİZMİ..... 126
4.1. Formalaşma mərhələləri və metodoloji əsaslar..... **127**
4.2. Dövlətin iqtisadi rolu: üçüncü yolun neoliberal konsepsiyaları..... **130**
4.3. İqtisadiyyatın dövlət tənzimlənməsində neoliberalizmin nəzəri və praktiki rolu..... **136**
Nəticə..... **150**
Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar..... **153**
Ədəbiyyat siyahısı..... **154**

V FƏSİL. İNSTİTUSİONAL-SOSİOLOJİ CƏRƏYAN..... 156
5.1. Müharibədən sonrakı institusializmin xüsusiyyətləri..... **157**
5.2. C.K.Helbreyt: "yetkin korporasiyanın" və "yeni sosializm" konsepsiyaları..... **161**
5.3. Fransada institusional sosioloji ənənə. F.Perru….. **166**
5.4. H.Mürdal: institusionalizmin və İsveç məktəbinin sintezi..... **173**
Nəticə..... **178**
Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar..... **182**
Ədəbiyyat siyahısı..... **184**

VI FƏSİL. MONETARİZM..... 185
6.1. Monetarist nəzəriyyə retrospektivdə..... **187**
6.2. Milton Fridmen: tərcümeyi-haldan məlumatlar..... **203**
6.3. Permanent gəlir nəzəriyyəsi **207**
6.4. Nominal gəlir nəzəriyyəsi..... **214**
6.5. Tsikllər, inflyasiya və işsizlik..... **221**
6.6. Monetarizmin iqtisadi siyasəti..... **231**
Nəticə..... **234**

Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar.... **239**
Ədəbiyyat siyahısı..... **241**

VII FƏSİL. TƏKLİF İQTİSADİYYATI NƏZƏRİYYƏSİ..... 242
7.1. İşsizlik və inflyasiya nəzəriyyələri..... **245**
7.2. İqtisadi artım konsepsiyasının xüsusiyyətləri..... **249**
7.3. Vergi islahatının layihələri. Laffer effekti..... **253**
Nəticə..... **262**
Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar..... **264**
Ədəbiyyat siyahısı..... **265**

VIII FƏSİL. SƏMƏRƏLİ GÖZLƏMƏLƏR MƏKTƏBİ (YENİ KLASSİK NƏZƏRİYYƏ)..... 267
8.1. Gözləmələr necə formalaşır?..... **270**
8.2. Fillips əyrisinin interpretasiyası..... **278**
8.3. Tsikllər nəzəriyyəsinə tarazlı yanaşma..... **287**
Nəticə..... **293**
Öz üzərində nəzarət və özünüyoxlama üçün suallar.... **297**
Ədəbiyyat siyahısı..... **298**

Nəşriyyatın müdiri ***Kamil Hüseynov***

Baş redaktor ***İsmət Səfərov***

Redaktor ***İsabə Hüseynova***

Korrektor ***Südabə Manafova***

Kompyuter operatoru ***Təranə Baxşəliyeva***

Dizayner ***Vüqar İbrahimov***

i.f.d., dos. Şəhla Akif qızı Hüseynova

İqtisadi fikrin inkişafının
müasir mərhələsi (İqtisadi fikir tarixi)

Dərs vəsaiti

Çapa imzalanıb 12. 03. 2018. Kağız formatı 60x84 1/16.
Həcmi 19 ç.v. Sifariş 18. Sayı 50.

« İqtisad Universiteti « Nəşriyyatı.
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6